*Ayətullah Seyid Əli Xamenei*

# VİLAYƏT NURU

Bəyanatlar, çıxışlar, müraciətlər... (iyun, 2014 – iyul, 2015)

## Fitr bayramı namazının xütbələri

### Ayətullah Xamenei: Rüsvayçılıq Amerikanın nəsibi olacaq

1 şəvval 1436

Tehranda İmam Xomeyni (r) müsəllası

Bismillahir-Rəhmanir-Rəhim ...

Bu səadətbəxş bayram münasibətilə siz qardaş və bacıları, əziz İran xalqı və bütün dünya müsəlmanlarını təbrik edirəm. Siz namazqılanları və özümü ilahi təqvaya çağırır, nəfsi gözləmək və günahdan uzaqlığa dəvət edirəm.

Bu il ramazan ayı sözün əsl mənasında mübarək bir ay idi. Allahın bərəkəti bu millətin üzərinə nazil oldu. Uzun və isti günlərin orucunda, bütün ölkə ərazisində geniş Quran məclislərində, minlərlə gənc, yaşlı, kişi və qadının qatılıb raz-niyaz etdiyi dua və təvəssül mərasimlərində (öz Rəbbi ilə ixlas və xüşu ilə söhbət

edirdilər), infaqlarda, xoşbəxtlikdən neçə illərdir davam edən geniş iftar süfrələrində, məscid və xiyabanlardakı süfrələrdə, sonda əzəmətli Qüds günü nümayişində onun nişanələri müşahidə olundu. Bunlar ilahi rəhmət nişanələridir. Oruc tutmuş xalq mübarək ramazan ayının 23-cü günü əhya mərasiminin səhəri, qədr gecəsini sübhədək oyaq qalıb, isti yay günü, oruc ağızla böyük nümayişdə iştirak etdi. İran xalqını tanımağın düzgün yolu budur. İran xalqı bu xalqdır. Bu İran xalqıdır ki, ramazan ayında ibadət mehrabında və imperializmlə mübarizə səhnəsində özünü göstərir. Xalqımızı başqalarının qərəzli dilindən tanımamalıyıq. Xalqımızı onun özündən, şüarlarından, hərəkətindən, bu böyük nişanələrdən tanımaq lazımdır. Budur İran xalqı. Düşmən mənfi fəza yaratmaqla İran xalqını başqa cür göstərmək istəyir, bəzi yanlış düşüncəlilər də təəssüf ki, onların dediyini təkrarlayır. Bu yanlış və səhvdir. İran xalqı həmin xalqdır ki, bu ramazan ayında özünü müxtəlif cəhətlərdən göstərdi. İnşallah, bu gün hər biriniz təsdiq vəsiqəsi alırsınız. Bu gün inşallah bayram münasibətilə Allahın lütf və mərhəmət mənbəsindən öz ibadətlərinin qəbul olması ilə bağlı vəsiqə alacaq. İnşallah bəziləriniz qəbul vəsiqəsi ilə yanaşı mükafata da çatacaq. Həm dərəcələri yüksələcək, həm mənəvi və ruhi baxımdan yüksələcəklər. İran xalqının şüarları göstərdi ki, istiqamətli olmaq nədir. Qüds günü İsrailə ölüm, Amerikaya ölüm şüarları ölkə fəzasını titrətdi. Bu təkcə Tehran və böyük şəhərlərdə baş vermədi. Bütün ölkə bu əzəmətli hərəkatın çətiri altında idi.

Pərvərdigara! İran xalqının əməllərini öz lütf və mərhəmətinlə qəbul et.

Pərvərdigara! Öz lütfünü, mərhəmətini, sonsuz yardımlarını bu xalqa çatdır.

Pərvərdigara! Əziz şəhidlərimizi, böyük İmamı, xalqa bu yolda kömək edən bütün insanları öz rəhmətindən bəhrələndir.

Bismillahir-Rəhmanir-Rəhim...

(İkinci xütbə)

Bütün namazqılan qardaş və bacıları salamlayıb təbrik edir, onları təqvaya çağırıram. İkinci xütbədə ilk sözümüz budur.

Regiondakı hadisələr bu ramazan ayında və ondan öncə acı hadisələr idi. Acı hadisələr idi və belə də qalır. Təəssüf ki, çirkin əllər bu mübarək ayı bir sıra məntəqə xalqları üçün zəhərə döndərdi. Yəmən, Bəhreyn, Fələstin, Suriyada insanlar və bir çox mömin müsəlmanlar düşmənin çirkin əməllərinə görə ağır günlər yaşadılar və ağır şəraitdə oruc tutdular. Bütün bu hadisələr bizim xalqımız üçün əhəmiyyətlidir.

Məsələlərdən biri də daxili məsələmiz olan nüvə müzakirələridir. Bu barədə bir neçə nöqtə qeyd etməliyəm. Əvvəla, bu uzun sürən müzakirələri aparanlara, möhtərəm prezidentə, xüsusi ilə doğrudan da zəhmət çəkmiş, təlaş göstərmiş müzakirə heyətinə təşəkkürümü bildirirəm. Hazırlanmış mətn qanuni mərhələlərdə təsdiqlənsə də, təsdiqlənməsə də onun savabı yerindədir. Bu sözü onlara yaxından da demişəm. Bu mətnin təsdiqi üçün qanuni mərhələlər nəzərdə tutulub. Bu mərhələlərdən keçməlidir və keçəcək, İnşallah. Gözləntimiz budur ki, məsullar ölkənin mənafelərinə diqqət yetirməklə milli mənafeni nəzərə alsınlar, xalqa təqdim etdiklərini Allah-Taalanın qarşısında da boyunlarına götürə bilsinlər.

İkinci nöqtə budur ki, bu mətn təsdiq olsa da, olmasa da, Allahın qüdrəti ilə həmin mətndən sui-istifadəyə yol verilməyəcək. Kimsəyə icazə verilməyəcək ki, İslam Cümhuriyyətinin əsaslarına zərbə vursun. Müdafiə qüdrəti, ölkənin təhlükəsizliyi Allahın lütfü ilə hifz olunacaq. Bilirsiniz ki, düşmən bu

nöqtə üzərində xüsusi təkidlə dayanıb. İslam Cümhuriyyəti öz müdafiə və təhlükəsizlik imkanlarının qorunmasında, düşmənin hədə-qorxuları şəraitində, onların həddi aşan istəklərinə təslim olmayacaq.

Növbəti nöqtə budur ki, bu mətn təsdiq olunsa da, olunmasa da, biz məntəqədəki dostlarımızı himayə edəcəyik. Məzlum Fələstin xalqı, məzlum Yəmən xalqı, Suriya xalqı və dövləti, İraq xalqı və dövləti, məzlum Bəhreyn xalqı, müqavimətin Livanda və Fələstində sadiq mücahidləri bizim tərəfimizdən daim himayə olunacaq.

Növbəti nöqtə budur ki, bu müzakirələr və hazırlanmış mətnlə istənilən bir halda hegemonçu Amerika dövlətinə qarşı siyasətlərimiz dəyişməyəcək. Dəfələrlə qeyd etdiyimiz kimi biz Amerika ilə dünya və regionun müxtəlif məsələlərini müzakirə etmirik. Bizim ikitərəfli müzakirələrimiz yoxdur. Nüvə məsələsi kimi istisna bir məsələdə bəzən müzakirə aparılır. Bundan qabaq da belə hallar olub. Mən əvvəllər öz söhbətlərimdə buna işarə etmişəm. Amerikanın regiondakı siyasətləri İslam Respublikasının siyasətlərindən 180 dərəcə fərqlənir. Amerika Livanın ən fədakar milli müdafiə qüvvəsi olan hizbullahı terrorda ittiham edir. Bundan böyük ədalətsizlik olmaz. Belə bir zamanda uşaq qatili olan sionist terrorçu rejimi himayə edir. Belə siyasətlərlə necə barışmaq olar? Bu mövzunu necə müzakirə etmək olar, hansı razılaşmaya gəlmək olar?! Başqa məsələlər də var, mən bu məsələləri başqa vaxta saxlayıram.

Növbəti nöqtə Amerikanın ötən neçə gündə meydan oxumasıdır. Müzakirələrdən keçən günlərdə Amerika məsulları, kişi və qadın dövlət rəsmiləri rəcəz oxuyub, rəcəz dilində danışıb. Onların bu işinə iradımız yoxdur. Onların daxili problemləri onları məcbur edir ki, rəcəz oxusunlar. Desinlər ki, biz İranı müzakirə stoluna oturtduq, biz İranı təslim etdik, biz İranın nüvə silahı əldə etməsinə mane olduq, biz İrandan filan imtiyazları aldıq və sairə. Həqiqət isə tamam başqadır. Deyirlər biz İranın nüvə silahı düzəltməsinə mane olduq. İranın nüvə silahı Amerika və başqaları ilə söhbətlərə aid deyil. Özləri də bilirlər. Arabir nüvə silahının haram olması fətvasının əhəmiyyətini də dilə gətirirlər. Biz Quran hökmü, İslam şəriəti əsasında nüvə silahının hazırlanması və saxlanılmasını, eləcə də bu silahdan istifadəni haram sayırıq və bu işi görmərik. Bunun onlara heç bir aidiyyatı yoxdur. Müzakirələrə də aid deyil. Onlar bilirlər ki, bu məsələ həqiqətdir. İran İslam Cümhuriyyətinə nüvə silahı yaratmaqda mane olan səbəbi hədə-qorxu yox, şəriət qadağası olduğunu bilirlər. Fətvanın əhəmiyyətini bilirlər. Yenə də deyirlər ki, biz imkan vermədik. Öz xalqlarına həqiqəti demirlər. Müxtəlif mövzularda danışır, nüvə sənayesinə mane olduqlarını, İranı təslim etdiklərini dilə gətirirlər. İranın təslim olmasını yuxuda görərlər. Amerikanın beş prezidenti inqilabın əvvəlindən bu günə qədər İslam Respublikasını təslim etmək arzusunda olub, ya ölüb, ya da tarixdə itib-batıb. Sizdə onlar kimi! Sizdə İran İslam Respublikasını təslim etmək arzunuza çatmayacaqsınız.

Amerika prezidentinin ötən günlərdəki söhbətində bir nöqtə vardı, o Amerikanın keçmiş səhvlərini etiraf edirdi. O etiraf etdi ki, 28 mordadda amerikalılar İranda səhvə yol verib. Etiraf etdi ki, Səddam Hüseynə yardım göstərmələri xəta olub. Bir neçə məqamı dilə gətirdi. Amma onlarla deyiləsi söz deyilmədi. İkinci pəhləvinin 25 illik zalım və qəddar hökumətindən danışmadı. İşkəncələrdən, qarətlərdən, qətillərdən, faciələrdən, İran xalqının izzətinin alçaldılmasından, İran xalqının mənafelərinin tapdanmasından danışmadı. Bütün bunlar Amerikanın vasitəsi ilə baş verib. Sionistlərin təcavüzlərindən, gəmidən atılan raketlə sərnişin təyyarəsinin vurulmasından və bir çox başqa şeylərdən danışmadı. Bir neçə səhvi yada saldı. Mən o cənaba bir nəsihət vermək istəyirəm: Siz uzun illər ötəndən sonra 28 mordaddakı hadisədə, 8 illik müharibədə səhvlərinizi etiraf edirsiniz. Sizə demək istəyirəm ki, indi də səhv edirsiniz. İndi də məntəqənin müxtəlif yerlərində, xüsusi ilə İslam Cümhuriyyətinə, İran xalqına münasibətdə səhvə düçar olmusunuz. Neçə illər sonra bir başqası gələcək, sizin səhvlərinizi yada salacaq. Necə ki siz

keçmişdəkilərin səhvini üzə vurursunuz. Siz də səhv edirsiniz, oyanın, səhvinizə son qoyun. Həqiqəti anlayın. Məntəqədə böyük xətalara yol verilir.

İran xalqına demək istədiyim nədir: İslam Cümhuriyyəti ilahi tövfiq, Allahın qüdrəti ilə iqtidarlıdır və günbəgün güclənməkdədir. 10-12 ildir ki, dünyanın 6 böyük dövləti, iqtisadi baxımdan dünyanın iqtidarlı dövləti sayılan dövlətlər İrana qarşı dayanıb, İranı nüvə texnologiyasından məhrum etmək istəyir. Bunu açıq deyirlər. Məqsədləri budur ki, nüvə texnologiyası son bolt-qaykasına qədər sökülsün. Bunu illərlə öncə də deyiblər. İndi də bu arzudadırlar. 10-12 il çəkişmələrin nəticəsi bu oldu ki, bu 6 dövlət neçə min sentrafuqanın İranda qalması ilə razılaşmağa məcbur oldu. Bu texnologiyanın ölkədə davam etdirilməsi ilə razılaşdılar. Məcbur oldular ki, bu sənaye sahəsində araşdırma və inkişafı qəbul etsinlər. Nüvə sənayesinin inkişafı davam edəcək. Onların neçə illər fəaliyyətlərinin sonu bu oldu ki, bu gün öz imzaları ilə bunu təsdiqlədilər. Bunu necə mənalandırmaq olar? Bu İran xalqının iqtidarından başqa nə ola bilər?! Bu bizim millətin, milli müqavimətin, əziz alimlərimizin məharət və fədakarlığının nəticəsidir. Allahın rəhməti olsun Şəhriyarlara, Rizainijadlara, Əhmədi Rövşənlərə, Əli Məhəmmədilərə! Allahın rəhməti olsun nüvə şəhidlərinə, onların ailələrinə, öz haqq sözü üzərində dayanıb onu həyata keçirən millətə.

Bir son nöqtəni də qeyd etmək istəyirəm. Bu cənab deyib ki, İran ordusunu məğlub edə bilər. Bizim qədim adamlarımız bu qəbil sözlər haqqında deyərdilər ki, tanımadan laf! (“laf dər qəribi” – tanımadığın adamın qarşısında boş-boş danışmaq) Mən bu barədə bir söz demək istəmirəm. Onlar bu sözləri eşidəcəklər. Əgər düzgün anlamaq istəsələr, öz təcrübələrindən düzgün yararlanmaq qərarları olsa, bilsinlər ki, biz müharibə istəmirik, savaşda birinci addımı atmırıq. Amma əgər müharibə baş versə, bu müharibədə rüsvayçılıq təcavüzkar və cinayətkar Amerikanın nəsibi olacaq.

Əssəlamu əleykum və rəhmətullahi və bərəkatuh

Iyul, 2015

## Şairlərlə görüşdə bəyanat

### Şeir dərin mənalarla birlikdə olduqda təsiri ikiqat artıq olur

İmam Həsən Müctəbanın (ə) milad gecəsi

İmam Xomeyni (r) Hüseyniyyəsində şairlər öz şeirlərini oxuduqdan sonra Cənab Rəhbər çıxış edib.

Bismillahir-Rəhmanir-Rəhim...

İmam Müctəba (ə), İmam Həsənin (ə) miladı; Peyğəmbəri-Xatəmin (s) dilində hüsni-mücəssəm. Bu adı həzrət o körpəyə qoydu. Bu çox əzəmətlidir. Mühümdür ki, Peyğəmbər (s) onu, bu mübarək körpəni Həsən (ə) adlandırdı. İnşallah, hamınız üçün mübarək olsun!

Sizin həssas qəlbləriniz, rəqiq ruhlarınız, hissləriniz üçün ramazan ayının bərəkətini yada salıram. bu böyük bərəkətdən istifadə etmək istəyən varsa, istifadə etməli olan və istifadə edən kəs zövq, ruh, qəlb, lətif hiss əhli olan sizlərsiniz. Onlar sizsiniz. Bu ayın dəqiqələrindən, anlarından, saatlarından, günlərindən və gecələrindən kim sizdən artıq bəhrələnə bilər?! Bu Allaha yaxınlaşma ayıdır. Qəlblərin riqqət ayıdır, Allahla ünsiyyət ayıdır, zikr və xüşu ayıdır. Belə pak, rəqiq, lətif qəlb və hisslərə malik olandan daha layiqlisi kimdir! Behiştə daxil olmaq üçün zikr, ünsiyyət, şövq dua üçün üstün vasitədir. Bu aya aiddir. İstər bu aya aid olan dualar, istərsə də bütün vaxtlarda oxunan dualar, o cümlədən Minacati-Şəbaniyyə, Səhifeyi-Səccadiyyə duaları istifadə üçün çox dəyərlidir. Vəsmə duai iza dəəvtuk, vəsmə nidai iza nadəytuk, vəəqbil əleyyə iza nacəytuk ... Siz bunu öz lətif qəlbinizlə daha artıq qəlb iştirakı ilə, diqqətlə bəyan edə bilərsiniz. Fəqəd hərəbtu ileykə və vəqəftu bəynə yədəyk ... Bu sözlər ən lətif qəlblərdən, ən fəsih dillərdən çıxıb. Bunları kim dərk etməli, faydalanmalıdır?! Pak və lətif qəlbli sizlərdən daha yaxşı kim dərk edə bilər?! Bu ayda duadan qəflətdə qalmayın. Minacati-Şəbaniyyə duasında: Həbli qəlbən yüdnihi minkə şəvquhu və lisanən yürfəu iləykə sidquhu və nəzərən yüqərribuhu minkə həqquh ... Bir qəlbin şövqü onu yüksəldir, rübubi zata doğru aparır. İnsan Allahdan bunu istəyir. Hansı qəlblər bu həssas və lətif qəlblərdən hazırlıqlıdır?! Həmd olsun Allaha ki, sizdə bu var.

Əbu Həmzeyi-Somali duasında: Bikə ərəftukə və əntə dələltəni əleykə və dəəvtəni ileykə vələv la əntə ləm ədri ma əntə ... Bu Həzrət Haqla lətif mənəvi rabitədir. Məhəbbət və izzət mənbəsi ilə rabitə. Bu çox dəyərlidir. Bu çox mühümdür. Bunlar həssas qəlbləri həqiqətən isidir, qoruyur, ümid verir, onlar üçün sığınacaq olur. Mərhum İxvanın bu şeiri kimin haqqında deməsi ilə işim yox. Mən bu şeiri Səhifeyi-Səccadiyyəyə xitabən oxuyuram. Mən bu şeiri Əbu Həmzeyi-Somaliyə xitabən oxuyuram: Ey ismətli və şövkətli gözəl anların sığınacağı, tənhalıq və xəlvətimin sığınacağı... Bu duadır. Bundan əl çəkməyin. Duadan uzaq olmayın. Dua çox dəyərlidir. Dua ümidsizliyə düçar olmuş qəlbləri, sarsılmış qəlbləri doğru yola yönəldir. Dua belədir. Bu gecələrdən istifadə edin. Dua oxumağa, duadan doğrudan da bəhrələnməyə ən layiq olan insanlar sizsiniz.

Əlbəttə ki, duanın təkcə sözlərini oxumaq dua oxumağın ən aşağı səviyyəsidir. İnsan duanı oxuyur, sözlərini düzgün anlamır. Amma duanın, onun mənalarının qəlbə hopması, insanın duada qərq olması çox dəyərlidir.

Şeir çox təsirli bir hadisədir. Şeir dərin mənalarla birlikdə olduqda təsiri ikiqat artıq olur. Heç bir söhbət, heç bir fəsahətli və gözəl söz, heç bir dərin mənalı ifadə şeirdəki təsirə malik deyil. Şeir belə bir hadisədir. Şeir stimul yaradır. İnsanı şövqə gətirir. Şeirdə yönəltmək təsiri var. Şeir bir növ yol göstərir. Dinləyən insan şeirdən yol öyrənir. Bu məsuliyyət yaradır. Əgər sizin ixitiyarınızda bir sərvət, imkan varsa, bundan böyük işlər üçün istifadə edə bilərsiniz. Əgər istifadə etməsəniz, məsuliyyətinizi yerinə yetirməmisiniz, xəta etmisiniz. Allah-Taala bu neməti sizə verib. Amma bütün nemətlər kimi bu nemətin də sorğusu olacaq. Allah əta etdiyi barədə soruşacaq. Sizdən soruşulacaq ki, bu neməti nəyə sərf etdiniz?

Şeir vasitəsi ilə dinləyicini həm doğru yola sövq etmək olar, həm də azdırmaq olar. Təəssüf ki, bu gün cilovunu qırmış bir ənənə, əxlaqi dəyərlərdən uzaq mədəniyyət, insanlığa sığmayan hadisələr yeni vasitələr, informasiya vasitələri ilə çox yayılır. Bəzən şeirdən insanları çaşdırmaq, azdırmaq məqsədi ilə istifadə olunur. Bu da bir gerçəklikdir. Şeirin belə iki təsiri var. Şair öz lətif hissləri ilə dərk edir, şövqə gəlir, qəmlənir, şadlanır. Şairin əlinə qələm alması onun qüssəsindən, hisslərindən, düşüncəsindən,

müşahidələrindən yaranan şövqdəndir. Bunu başqaları müşahidə edə bilmir. Bunun da iki cəhəti var. Həmin şövq insanı yaxşıya, bəzən də əks tərəfə sövq edə bilər. Əgər şeir cinsi istəklərin təsiri altında olarsa, azdırıcıdır. Təəssüf ki, bu gün ölkəmizdə bəzi qüvvələr şeiri bu istiqamətə çəkir. Gənclərimiz səfa-səmimiyyətli, lətif və gözəl mənəvi fəza, fədakarlıq və inqilab ruhiyyəsi adrınca bəzi qüvvələr tərəfindən başqa yola çəkilir. Bu ən çox məcazi fəzada, internetdə baş verir. Bütün bunlar öz yerində. Həm də şeir vasitəsi ilə gəncləri ifrat cinsi meyillərə sövq edirlər və bu çox pisdir. Bu xəbərdarlıqdır. Təəssüf ki, tariximizdə bunun nümunələri çoxdur. Şeirdə zülm-sitəmin sitayişi də var.

Bu gün mənfi istifadənin ziddini də görürük. Həmd olsun Allaha, görürük ki, əziz gənc şairlərimiz bu cərəyana qarşı dayanıblar. Əvvəllər də Yəmən haqqında cənab Səyyarın şeirini dinləmişik. Çox gözəldir. Bu gün oxunan şeirlər, dostların oxuduğu şeirlər çox gözəl idi. Bu düzgündür, doğru işdir. Bu məsuliyyət barədə Allah-Taala soruşacaq. Məkarimul-Əxlaq duasının cümlələrindən biri: Vəstəmilni bima təsəluni ğədən ənhu ... Bu barədə düşünmək lazımdır. Sabah bizdən nələrsə soruşulacaq. Duada deyilir ki, Pərvərdigara, bir gün məndən soruşacağın şeylərə bu gün əməl etmək üçün vasitə yarat. İndi sizin əlinizdə vasitə var. Bəzilərinin ürəyi dolu olsa da danışa bilmir. Həmd olsun Allaha, siz danışa bilirsiniz və bu təsirlidir. Sizin Bəhreyn, Yəmən, Livan, Qəzzə, Fələstin, Suriya haqqında oxuduğunuz hər şeir gözəldir. İslam ümmətinin məqsədləri üçün oxuduğunuz şeirlərin hər nöqtəsi dəyərlidir. Onlardan istifadə olunur. Əgər şeirlərimiz lazım olan cəhətə yönəlsə onların haqqında “innə minəşşiri lə hikmə” demək olar. Bu söz həmin şeir haqqında qüvvədə olar. Dorğudan da, belə şeir hikmətdir.

Dəfələrlə söhbətlərimizdə demişəm ki, haqla batilin savaşında bitərəflik mənasızdır. Şübhəli savaşlarla işimiz yox, bu ayrı mövzudur. Amma aşkar haqla batilin savaşında bitərəflik mənasızdır. Haqqın tərəfində dayanıb batilə qarşı olmaq lazımdır. Kimi hərb meydanında bu işi görür, kimi siyasətdə. Müxtəlif şəkillərdə bu işi görmək olar. Kimi də dillə, düşüncə ilə müqavimət göstərir. Şair haqla batilin savaşında bitərəf ola bilməz. Şair bitərəf olanda, sənətkar bitərəf olanda Allahın ona verdiyi neməti zəiflədir. Allah eləməmiş, öz sənəti ilə batilin tərəfində dayansa xəyanət etmişdir, cinayətə yol vermişdir. Burada söhbət məsuliyyətsizlik yox, cinayətdən gedir. Sizin xalqlarınız bu illərdə böyük zülmlər görüb. Bu zülmlərdən danışmağa dəyər. Bunu dünyaya yaymaq zəruridir.

1366-cı ildə Sərdəşt bombalandı. Bu zarafat deyil, bir şəhər kimyəvi hücuma məruz qaldı, minlərlə körpə, yaşlı, gənc, kişi, qadın qətliam edildi. O zaman dünya susdu. Bugünkü dünya bəzən bir pişik quyuya düşəndə onu informasiya vasitələrində, televizyada işıqlandırır. Bir pişik ya bir tülkü quyuya düşəndə müxtəlif təşkilatlar, qurumlar ayağa qalxır, onu quyudan sağ-salamat çıxarmaq istəyir. Ya bir su heyvanı sahilə düşüb can verəndə onu suya qaytarmağa çalışırlar. Bu zaman səs-küy qaldırırlar. Hansı ki bir şəhər kimyəvi hücuma məruz qalıb qətliam ediləndə dünya susur.

Mən dünya deyəndə xalqları, millətləri nəzərdə tutmuram. Millətlərin əlində bir imkan yoxdur. Nəzərdə tutduğum təbliğat vasitələrinə nəzarət edən dünya gücləridir. Buna dilimizdə Amerika, İngiltərə, qərb və sionizm qüvvələri deyirlər. Dünya təbliğat vasitələrinə bunlar hakimdir. İmkan vermirlər mənafelərindən kənar addım atılsın. Bu gün Yəməni vururlar. Gecə-gündüz ölkəni bombalayırlar. Heç bir səs çıxmır. Bir qədər öncə Qəzzəni, Livanı vururdular. Yenə hamı susurdu. Amma bir neçə qaçaqçı edama məhkum ediləndə dünyanın informasiya vasitələri işə düşür, hay-küy salır. Dünya budur. Bu dünya qarşısında nə etməliyik? Şərəfli bir insan belə cəbhələşmə, belə həyasızlıq, belə xəbislik qarşısında nə edir? Dini vəzifəni, iman vəzifəsini kənara qoysaq, insanlıq şərəfi, vicdan nə hökm verir? Bu gün çiyinlərdə belə ağır yük var.

Mən inqilabdan sonra ölkədə şeirin inkişafından çox məmnunam. Doğrudan da, gözəldir. 10 il bundan öncəki gənclərin oxuduğu şeirlərlə bu gün oxunan şeirlər arasında fərq var. Həqiqətən inkişaf müşahidə olunur. Amma ölkəmizdə şeirin yeri bundan çoxdur. Hazırkı vəziyyətdə çox-çox geniş imkanlar var. Bu məclisdə şeir oxumuş xanım məktəblidir. Əyalətdə bir qrup toplayıb gənclərimizə şeir oxuduğunu dedilər. Özü də belə gözəl, məzmunlu şeirlər. Bu çox gözəldir. Qeyd edim ki, bugünkü şeirimizin səviyyəsi müasir İranın səviyyəsinə çatmayıb. Bizdə uzaq olmayan keçmişdə bugünkündən səviyyəli şeir olub. İstər qəsidə, qəzəl, istər başqa üslublarda gözəl şeirlər yazılıb. Bunu yadda saxlamalıyıq ki, bugünkü səviyyəni yüksəldə bilək. Bunun üçün çalışmaq lazımdır.

Meydan çox genişdir, çalışmalıyıq ki, geniş imkanlardan faydalanaq. Əlbəttə ki, incəsənət sahəsinin öz məsuliyyətləri var. Başqa orqanlar da məsuliyyət daşıyır. Dövlət, respublikanın müxtəlif qüvvələri, radio-televiziya şirkəti kimi qurumların vəzifəsi var. Şeirə dəyər verilməlidir. Şeir çox böyük hadisədir, mühüm hadisədir. Bəziləri şeirin dərin mahiyyətini hələ ki dərk etməyib. Şeir lazımınca dəyərləndirilməyir. Şeirin ecazkar təsiri var. Bəzən bir beyt şeir və ya bir qəzəl, bir parça şeir bir-iki saatlıq söhbətdən təsirli olur. Bu çox mühümdür. Başqa sözlə, şeir dəyərli bir gövhərdir. Böyük əhəmiyyəti var. Onun qədrini bilmək lazımdır.

Ölkəmizdə görülən işlərdən həmd olsun Allaha bu məclisdə də müşahidə etdiklərimizdə, əvvəllər də görülən işlərdən çox razıyam. Gənc şairlərimizin hadisələrə reaksiyasi sürətlidir. Bu çox dəyərlidir. Bu çox gözəldir. Kimsə bunu mənfi iş kimi dəyərləndirməsin. Bu çox müsbət hadisədir. Biz tarix boyu, öz müasir dövrümüzdə belə sürətli reakasiyaları əks etdirən əsərlər görmüşük. Gənc qız İsrail təyyarəsini qaçıranda mərhum Əmiri Firuz Kuhi bir qəsidə yazdı. Dostlar Əmiri Firuz Kuhini tanıyırlar. O, gənc və inqilabçı idi. Yaşadığı hisslər əsasında gözəl, ali bir qəsidə yazmışdı. 40-cı illər idi. Vaxta, zamana uyğun yazmışdı. İndi beytlərinin çoxunu unutmuşam. O zamanlar özündən eşitmişdim, yaxşı xatırlayırdım. Hadisələrə dərhal reaksiya verilməsi hadisələrin işıqlandırılması çox yaxşıdır.

Ümid edirəm ki, inşallah inqilabi şeir günbəgün güclənəcək, bu şeirin səviyyəsi yüksələcək. Mən inqilabi şeir deyəndə inqilab dövrünün şeirini nəzərdə tutmuram. Bəziləri düşünür ki, müharibə şeiri təkcə müharibə haqqında ola bilər. Amma müharibə şeiri müharibəyə qarşıdır. İnqilab şeiri inqilabın məqsədlərinə xidmət edən şeirdir. İnqilab şeiri deyəndə inqilab dövrünün şeirləri nəzərdə tutulmur. Məqsədim bu deyil. Nəzərdə tutduğum şeir inqilabın ideallarının daşıyıcısı olan şeirdir. Ədalətə, insanlığa, dinə, vəhdətə, milli tərəqqiyə, ölkənin hərtərəfli inkişafına, sözün əsl mənasında insan tərbiyəsinə xidmət edən şeir. Bu inqilabi şeirdir, inqilabın məqsədləri istiqamətindədir.

Ümid edirəm ki, inşallah Allah hamınızı müvəffəq edəcək. Gəncləriniz inşallah uzun illər bu doğru yolda irəli gedəcək, məmləkəti, gələcək nəsilləri bəhrələndirəcək.

Vəssəlamu əleykum və rəhmətullahi və bərəkatuh

Iyul, 2015

## Universitet ustadları ilə görüşdə bəyanat

### Bizdən çox bilənlərə şagird olmağa hazırıq!

Hicri qəməri 1436-cı il, mübarək ramazan ayının 17-i

İmam Xomeyni (r) Hüseyniyyəsi

Bismillahir-Rəhmanir-Rəhim...

Əziz qardaşlar və bacılar, çox xoş gəlmisiniz. Mən qeyd etmişəm ki, bu məclisin, əziz və hörmətli ustadlarla görüşün təşkilində ilk məqsəd onların dəyərli məqamına ehtiram göstərilməsidir. Biz ölkədə ustad və müəllimlərə ehtiramın ənənəyə çevrilməsini istəyirik. Bu İslamda böyük təlim-tərbiyə mövzularındandır. Bu barədə qədim alimlər kitablar yazıb, hədislər nəql edib, Qurandan ayələr yada salınıb. Bəli, ilk növbədə məqsəd ehtiram bildirməkdir. İkinci, üçüncü məqsədlər də - ustad qardaş və bacıların sözlərini eşitmək, həm də nəzərdə tutduğum sözləri onlara çatdırmaq mühümdür.

Bugünkü məclis çox gözəl məclis idi. Təəssüf ki vaxt az oldu, çıxışı nəzərdə tutulan bəzi ustadlardan bəhrələnə bilmədik. Dostların qeyd etdiyi mövzular çox mühüm idi. Bəzi məsələlərlə hökmən məşğul olacağıq. Bu barədə göstəriş verəcəyəm.

Bir neçə nöqtə qeyd etmək istəyirəm. Birincisi budur ki, ustad təkcə müəllim demək deyil. Onun tərbiyəçi mənası da var. Bu məna hamıya aydındır. Bir şəxsdən nəsə öyrəniriksə, bir şəxs bizim üzümüzə hansısa elm qapısı açırsa, təbii şəkildə qəlbimizə və ruhumuza nüfuz edir. Bir növ təlim alanın üzərində təlimin bərəkəti ilə təsir yaranır. Bu böyük və müstəsna fürsətdir. Böyüklərdən, ata-anadan, ailədən söz eşitmək istəməyən gənclərə ustadın bir sözü, bir işarəsi dərin təsir göstərir. Ustad belədir. Təbii şəkildə təhsildə tərbiyə imkanları da var. Bu fürsətdən istifadə etmək lazımdır. Əgər ustad etiqadlı olsa, milli qeyrətə malik olsa, inqilabi şövqlü olsa, çalışqan ruhiyyədə olsa, təbii şəkildə bütün bunlar tələbəyə, təlim alana ötürüləcək. Əksi də qüvvədə qalır. Ustad insaflı, əxlaqlısa, insaflı və əxlaqlı tələbə tərbiyə etmək imkanı yüksək olacaq. Bunun da əksi öz gücündə qalır.

Bu gün məmləkətin ölkənin inkişafı üçün güclü qollara malik gənclərə ehtiyacı var. İmanlı, dini bəsirətli, yüksək təlaşlı, cəsarətli, özünə inanan, “mən bacararam” etiqadlı, gələcəyə ümidli, qarşıdakı üfüqləri aydın və işıqlı görən, gənclərə ehtiyac var. Qane olmaq deyəndə biganələrdən öyənməməyi nəzərdə tutmuruq. Bunu heç vaxt tövsiyə etməmişik və etmirik. Bizdən çox bilənlərə şagird olmağa hazırıq. Qane olmaq ruhiyyəsi budur ki, imperialist qüvvələrin əlində olan dünyada elmin ötürülməsində süi-istifadəyə yol verilməsin. Gənclərdə belə ruhiyyə olmalıdır. Ölkənin mövqeyini, harada olduğumuzu, haraya çatmaq istədiyimizi, yolu necə getməli olduğumuzu aydınlaşdıran bir ruhiyyə. Ustadların bugünkü çıxışlarında doğrudan da aydın nöqtələr var idi. Maneələr, təcavüzlər, zərbələr qarşısında qətiyyətli olmaq, milli istiqlala təcavüzə yol verməmək lazımdır. Biz belə ruhiyyəli gənclərə ehtiyaclıyıq. Belə ruhiyyəni ustadla təhsilə məşğul olan gənclərdə yarada bilərlər. Onlara belə bir ruhiyyə təlqin etməyə imkanları var. Ustad budur. Amma əxlaq dərsi ilə yox, öz yolu ilə. Tövsiyə etmirəm ki, elm tədris edən müəllimlər tələbələrə

əxlaq dərsi keçsin. Bu ayrıca bir işdir. Ustadlar, müəllimlər öz rəftarları, öz şəxsiyyətləri, əqidələrinin izharı ilə tələbəyə təsir göstərə bilər. Onlar bu yolla tələbəyə təlqin edib, onun xarakterinə təsir göstərə bilər. Biz dedik ki, ustad və müəllimlər informasiya müharibəsinin komandanlarıdır. Biz bunu nəzərdə tuturduq. Əgər gənc informasiya müharibəsinin zabitisə, ustad komandandır. Komandanlıq bu şəkildə reallaşır.

Hərb meydanı da belədir. Polk, bataliyon, taqım komandiri meydanın ortasında həssas nöqtədə olanda, özü savaşa qatılanda bunun əsgərlərə fövqəladə təsiri olur. Bu təkcə bizə aid deyil, hər yerdə belədir. Napoleon əynindəki libasla əsgərlərlə yanaşı yatırdı. O zaman müharibədə böyük qələbələr qazandı. Əsgərlər təkcə onun sözünə yox, həm də rəftarlarına da itaət edirdi. Bizim gənclər də 8 illik müharibədə belə olub. Ordu komandanları çox vaxt sıravi döyüşçülərdən öndə gedib. Onlar ön xəttə olub, hətta kəşfiiyyata gedib. Ordu komandanı kəşfiyyat əməliyyatında iştirak edib. Dünya orduları bunu mənasız, qeyri-məqbul sayır. Amma bizdə bu hadisə baş verdi. Elə buna görə müqəddəs müdafiədə böyük irəliləyişlər əldə olundu. İnformasiya müharibəsi də belədir. Ustad, müəllim mübarizə meydanının mərkəzində olmalıdır. İnformasiya müharibəsi dediyimiz mübarizə də müqəddəs müdafiə kimidir. Bu gün ölkəmizdə elmi heyət üzvlərinin sayı 70 min nəfər hüdudundadır. Bu bir iftixardır. Xatırlayıram ki, inqilabın əvvəllərində 60-cı illərin birinci yarısında bəlkə də elə ikinci yarasında da elmi heyət 5, 6 min nəfərdən artıq deyildi. Bu say 70 minə çatıb. Bu ölkəmiz, inqilabımız, universitetlərimiz üçün bir iftixardır.

Xoşbəxtlikdən bu böyük, əzəmətli qüvvənin əsas hissəsini mömin, etiqadlı, inqilabi, dini prinsiplərə bağlı insanlar təşkil edir. Bu çox mühümdür. Bu da bir hadisədir. Elmi heyətlərdə mömin və inqilabçı şəxslərin olmasının qədrini bilmək lazımdır. Mən əziz müdirlər, Təhsil Nazirliyinin məsulları, Səhiyyə Nazirliyinə xitabən deyirəm ki, bunun qədrini bilin. Hörmətli nazirlər, hörmətli nazirlik məsulları, mömin, dini dəyərlərə bağlı ustadların qədrini bilin. Onlar öz haqlı sözləri üzərində möhkəm dayanıblar, bizim də xəbərdar olduğumuz güclü təbliğat hücumlarından çəkinmir, geriyə addım atmırlar. Onların qədrini bilin. Əziz müdirlər, mömin müəllimlərin, ustadların universitetdə dəyərini bilin.

Ustadın əhəmiyyəti ilə bağlı ilk nöqtə bu idi. Mən əgər bacarsaydım, 70 min ustadın hər biri ilə görüşərdim. Hökmən bu işi görərdim. Hər biri ilə söhbət edər, hər birini dinləyərdim. Təəssüf ki, bu mümkün deyil, əlçatmaz işdir.

İkinci nöqtə elm məsələsidir. Xoşbəxtlikdən bu gün ölkədə elmi hərəkat yaranıb. Bu ölkədə təsdiqlənmiş bir cərəyandır və ona şübhə yoxdur. Son 10-15 ildə ustadlarımız, alimlərimiz, gənclərimiz bu sahədə çalışıblar. Onun təsirini ölkənin elmi inkişafında müşahidə edirik. Dünya elmi inkişaf baxımından 16-cı yerə qalxmışıq, bu çox mühümdür. Elmi səviyyəmiz keçmişdə çox aşağı idi. İndi 16-cı yerə qalxmışıq, və bu çox dəyərlidir.

Bu mövzuda bir neçə nöqtə əhəmiyyətlidir. Əvvəla, yüksək elmi məqama qalxmağımızın səbəbi fövqəladə sürət olub. Dünya miqyasında statistikaya əsasən ölkəmizdə elmi inkişaf sürəti dünyadakı orta sürətdən 13 qat artıq olub. Bunu dünyanın elmi mərkəzləri elan edib ki, biz də əvvəllər bunu qeyd etmişik. Bu gün həmin sürət bir qədər azalıb. Bəziləri deyir ki elmdə geri qalmışıq, bəziləri bunu inkar edir. Hər iki tərəf rəqəmlər göstərir. Bəli, zahirdə 15 ya 16-cı rütbədən enməmişik. Amma biz yüksəlməli idik. Sürət davam etməli idi. Həmin sürət bu gün azalıb. Nazirliklərin əziz məsulları, qardaşlarımız bu nöqtəyə diqqətli olsunlar. Əvvəlki sürət bu gün yoxdur. Bir iş görün ki, elmi inkişaf sürəti azalmasın. Hərbçilərin təbirincə, bu “hərəkət dövrü” əskilməsin. Bilirik ki, irəli getdikcə təbii olaraq sürət azalacaq. Geri olanda sürəti artırmaq imkanları böyük olur. İrəli getdikcə imkanlar azalır. Bunu bilirik. Amma zəruri və mütənasib sürət azalmamalıdır.

İkinci nöqtə budur ki, ölkənin elmi mühitini qeyri-zəruri məsələlərdən kənarda saxlayaq. Bunu səhv anlamayaq. Mən demirəm ki, universitetlərdə siyasət olmasın. Bəziləri xatırlayar ki, uzun illər qabaq elə ramazanla bağlı məclislərdə ustadların hüzurunda universitetdə siyasəti tələbələr arasından çıxarmaq istəyənlər barədə sərt danışmışdım. O zaman çoxları gileyləndi. Mən bu əqidədəyəm ki, universitet fəzası siyasi düşüncə, siyasi təhlil, siyasi bilik, siyasi ayıqlıq fəzasıdır. Mən buna qarşı deyiləm. Sözüm budur ki, siyasətbazlıq, lazım olmayan məsələlərin ortaya atılması olmasın. Zəruri olmayan məsələlər universiteti əsl işindən, elmi inkişafdan saxlayır.

Son illərdə baş vermiş bir səhv də var. Araşdırdıqda aydın oldu ki, məsələ heç də təqdim olunan şəkildə deyil. Bu bursiyyə məsələsi idi. Məsələ qəzetlərdə yazıldığı kimi yox, bir qədər adi idi. Bəziləri qanunun ziddinə olaraq imtiyaz əldə etmişdi. Bunun qanuni yolu var. Həmin imtiyazı ləğv edin. Səs-küy qaldırdılar, qalmaqal yaratdılar. Belə qalmaqallar, gənginliklər elmi mühit üçün zəhərdir. Problemləri sakitliklə aradan qaldırmaq lazımdır. Bu iş qanuna zidd idi, əxlaqa zidd idi, müdiriyyətə zidd idi. Amma bunu şişirdib gərginlik yaratdılar. O zaman daim əxlaqdan danışırdılar. Şairin təbirincə, tövbəyə çağıranlar nə üçün özləri tövbə etmirlər! Bu əxlaqi iş idi?! İmkan verməyin ki, elmi müdir haşiyə məsələlərin əsiri olsun.

Digər bir məsələ humanitar elmlər məsələsidir. Biz humanitar elmlərdə geriyik. Dostlar humanitar elmlər barədə söhbət etdilər. Humanitar elmlərin əhəmiyyətindən danışdılar. Onların göstərdiyi statistikalar mənim üçün maraqlı idi. Bildirdilər ki, humanitar elmlərin geriliyi sənayedə də özünü göstərir. Sənaye inkişafında 40-50 faiz texnologiyanın payına düşür, 50-60 faiz müdiriyyət, həmkarlıq kimi humanitar elmlərin payıdır. Doğru deyirlər. Bu çox mühümdür. Humanitar elmlərlə bağlı qardaşlar gözəl sözlər dedilər. Bu bizim də ürək sözümüzdür. Əlbəttə ki, bu barədə danışırıq da. Biz də bəzən bu barədə danışmışıq. Humanitar elmlər çox mühümdür. Bu sahədə dəyişikliklər zəruridir. Ehtiyac var ki, daxildən hərəkət, kənardan himayə olsun. Şükür ki, daxildən hərəkət var. Həm Mədəniyyət İnqilabi Ali Şurasında, həm universitetlərdə hərəkət var, dostlar bu barədə danışdı. Aydın olur ki, daxili bir hərəkat var. Alimlər, mütəfəkkirlər buna çalışır. Kənardan da himayə olmalıdır. Himayələrdən biri universitet və nazirliyin İslahat Şurasının qətnamələrinə tabe olmasıdır. İslahat qətnamələrindən biri barədə bu gün danışıldı. Deyilən sözlərin icrası lazımdır. Kitablar, layihələr nazirlik və İnqilab Mədəniyyəti Ali Şurasının dalanlarında ilişib qalmamalıdır. Bu söz düz sözdür. Nazirlik buna diqqət yetirsin. Cənab Doktor Fərhadi də buradadır. Mən bu məsələni nəzarətə götürəcəyəm. Bu çox böyük işdir. Bu gün ölkədə elmin cilovu bizim yaxşı qardaşlarımızın əlindədir. Onlar sözün həqiqi mənasında buna ürək yandırmalıdır.

Başqa bir nöqtə budur ki, araşdırma üçün büdcəyə diqqət yetirilsin. Araşdırma üçün büdcə mühüm məsələdir. Mən neçə illərdir ki müxtəlif məclislərdə, xüsusi görüşlərdə, icra aparatının məsulları ilə görüşdə bu mövzuda danışıram. Mənə verilən məlumatdan aydın olur ki, dediyimiz sözləri nəsihət kimi başa düşürlər. Necə ki bir nəfər minbərdən tövsiyə verir. Sözümüzə belə baxırlar. Amma belə deyil. Çalışmaq lazımdır. Hazırda ümumi büdcənin 4 faizi araşdırma işləri üçün nəzərdə tutulub. 1,5, 2 faiz də əlavə nəzərdə tutulur, bu barədə iş görülməlidir. Hazırda araşdırma büdcəsi yüzdə neçə faizdir. Bir məsələ də büdcədən düzgün istifadə, düzgün proqramlaşdırmadır. Bu büdcəni lazımi şəkildə istifadə etmək lazımdır.

Növbəti məsələ ümumi elmi plandır. Ümumi elmi plan dostların təlaşları, zəhmətləri sayəsində tamamlandı. Nəhayət, kamil bir sənəd hazırlandı. Bu ölkə üçün çox mühümdür. Sənət hazırlanandan sonra ölkədə tanınmış mütəxəssislər mənə verilən məlumata əsasən onu təsdiqləyiblər. Yəni bu sənədə münasibətdə İnqilabi Mədəniyyət Ali Şurasında ciddi bir irad bildirilməyib. Sənəd təsdiq olunub. Amma onu həyata keçirmək lazımdır. Təəssüf ki nəinki tələbələr, hətta universitet məsullarının ölkənin ümumi

elmi planı ilə düzgün tanışlığı yoxdur. Burada dedilər ki, bizim haqqında danışdığımız müqavimət iqtisadiyyatından xəbərsiz adamlar var. Bu bizim işimizdəki zəiflikdir. Əgər bir iş görmək istəyiriksə əvvəlcə onu məqbul bir vəziyyətə gətirməliyik. Bu məsələ elmi bir hərəkat şəkli almalıdır. Elmi inkişaf hərəkata çevrilməli, ciddi şəkildə icra olunmalıdır.

Digər mühüm nöqtə budur ki, dostlardan biri mövzunun prioritet olmasını istədi. Belə başa düşüldü ki, ümumiyyətlə prioritet yoxumuzdur. Bu çox düzgün və qətiyyətli sözdür. Dedilər ki, biz konkret bir neçə sahə üzrə inkişaf nəzərdə tutaq. Bu sahəyə sərmayə qoyulsun, insan potensialından istifadə edilsin. Bu çox düzgün sözdür. Mən bir zaman idman haqqında bu sözü demişdim. Demişdim ki, biz bir neçə idman növü üzrə dünyada birinci ya ikinci ola bilərik. Yaxşı olar ki, bu sahələrə diqqət yetirək. Amma bəzi idman növlərində birinci ya ikinci olmağa ümidimiz yoxdur. Mən dünya çempionatını nəzərdə tuturam. Bu işi gördük. Bu sahədə müəyyən addımlar atdıq və səmərəsini gördük. Bu biri sahə də eyni cürdür. Baxın görək hansı elm sahəsi hansı universitet, hansı məntəqədə prioritetlərə malikdir. Ölkədə elmi hərəkat bu mənadadır. Hansı universitetdə hansı ixtisasa diqqət yetirməliyik? Hansı ixtisasa sərmayə qoymalı, onu mütaliə etməliyik? Bu da sənəddə nəzərdə tutulası, həyata keçiriləsi məsələdir.

Sözümün sonunda deyəcəyim məsələ budur ki, əziz qardaşlar, əziz bacılar, məşğul olduqları işin dəyərini bilsinlər. Bundan dəyərli, bundan möhtərəm iş tapmaq olmaz. Sizin üzərinizə böyük bir iş düşüb. Böyük bir işdə çalışırsınız. Təhsil Nazirliyində faəliyyətlər günbəgün artırılmalıdır. Əgər bu işləri görmək istəyiriksə, belə etməliyik.

Mənim nəzərdə tutduğum məsələlərdən biri də təkmilləşmə təhsili dövründə tələbələrin sayının artırılmasıdır. Xoşbəxtlikdən son illərdə bu sahədə diqqətəlayiq yüksəliş olub. Bu çox fövqəladə məziyyətdir. Amma lazımdır ki, bu hadisənin nəticəsi ilə bağlı iş görək. Təkmilləşmə təhsili dövründə tələbələr araşdırma aparmaq nəsə yazmaq istəyir. Bundan ötrü bir nizama ehtiyac var. Məsələyə kompleks baxış olmalıdır. Ümumi istiqamətləndirmə aparılmalıdır ki, ölkə bundan faydalansın. Əgər bunu etməsək mənbələri puça çıxarmışıq. Həm ustad, həm tələbə, həm sərmayə, həm müdiriyyət, həm müxtəlif imkanlardan səmərəli faydalanmamışıq. Bu ümumi baxış, ümumi proqramlaşdırma, Təhsil Nazirliyi, əsas işə nizam verilməsi həyata keçməlidir, inşallah məmləkətin problemləri beləcə həllini tapmalıdır.

Siz ustadların gördüyü iş mühümdür. Ölkədə elm sahəsinə rəhbərlik edən qurumlar adətən nazirliklər, prezidentin elm və təhsil üzrə məsullarıdır. Bu mühüm işdir. Buna əhəmiyyət versinlər. Real bir dəyərləndirmə aparılsın. Bilək ki, hansı mühüm işləri görürük.

Bəzi dostlar öz çıxışında işarə etdi ki, bu xalqın düşmənləri onu layiq olduğu məqama çatmağa qoymurlar. Hiss edirlər ki, ölkədə belə bir hərəkat başlayıb. Sanksiyalar buna görədir. Mən də bu fikirdəyəm ki, sanksiyaların məqsədi təkcə nüvə proqramı deyil. Onlar nə insan haqlarını, nə də terrorizmi nəzərdə tutur. Soruşdular ki, filankəs nə üçün Əliəsğərin rövzəsinə ağlamır? Cavab verdilər ki o özü yüzlərlə Əliəsğərin başını kəsib. O, Əliəsğərə necə ağlasın?! Bunlar özləri terrorçüdür, insan haqlarının düşmənidirlər. İnsan haqlarına görə bir ölkəyə təzyiq göstərəcəklər?! Yox, məsələ bu deyil. Məsələ bundan üstün, geniş bir məsələdir. Bir millət, bir hərəkat, bir şəxsiyyət formalaşır. Dünya imperializmi, super güclərin mövqelərinə tam əks mövqedə bir qüvvə formalaşmaqdadır. İstəmirlər bu hadisə baş versin. Biz belə bir mövqedəyik. Hərəkət etməli, çalışmalıyıq. Sanksiyalar təbii ki problem yaradır. Amma sanksiyalar inkişafa mane ola bilməz. İmkanlardan faydalanmaq lazımdır. Siz ustadların bu sahədə rolu var. Elm və Təhsil Nazirliyi, müxtəlif nazirliklər mühüm rol oynayır. Bu rola əhəmiyyət

verilsin. Bu məqsəd izlənilsin. Allah-Taaladan kömək istəyək. İn tənsurullahə yənsurukum və yüsəbbit əqdaməkum ... Dostlar bu ayəni oxudular. Bu vəd Allahın dəyişməz vədidir.

Pərvərdigara! Bu günlər, bu gecələr, Əmirəlmömininin (ə) pak qanı bərəkəti xatirinə, uzun illər boyu bu ölkədə haqq yolda tökülən qanlar xatirinə şəhidlərin bu ölkədə böyük işləri, bu mücahidələr, bu müqəddəsliklər xatirinə, millətimizi günbəgün başıuca et, həqiqi xoşbəxtliyə yaxınlaşdır.

Pərvərdigara! Bu yolun mücahidlərini, fəallarını, o cümlədən möhtərəm ustadlar, tələbələr, elm yolunda qədəm götürənləri öz tövfiqindən bəhrələndir. Böyük İmamın pak ruhunu, şəhidlərin pak ruhunu ilkin İslam dövrünün şəhidləri ilə məhşur buyur.

Vəssəlamu əleykum və rəhmətullahi və bərəkatuh

## 7 tir şəhidlərinin ailələri ilə görüşdə bəyanat

### Amerika siyasətini, onun əlaltılarının siyasətlərini yaxşıya yozanlar xəyanət edirlər

Mübarək ramazan ayının 10-cu günü İmam Xomeyni (r) Hüseyniyyəsində Tehran ustanının şəhid ailələri ilə görüşdə bəyanat

Bismillahir-Rəhmanir-Rəhim...

Əziz qardaşlar və bacılar, xoş gəlmisiniz. Şəhidlərin xatirə rayihəsi ilə bu hüseyniyyəni, bizim iş yerimizi ətirləndirdiniz.

İslam İnqilabının bərəkətlərindən biri bu zamanda İslam maarifinin təkrar istehsalıdır. Bu maarifin böyük hissəsi kitablarda və zehnimizdə idi, İslam İnqilabı onu təcəssüm etdirdi, real ortaya qoydu. Bu maarifin çox mühüm hissələrindən biri şəhidlərə aid olan Maarif Mənzuməsidir. Tilavət olunan şərif ayədə bu barədə aydın buyurulur: “Allah yolunda öldürülənləri ölü sayma. Əslində onlar diridirlər, Rəbbi yanında ruziyə çatıblar; onlar Allahın öz mərhəmətindən verilən nemətə şaddırlar, arxalarınca gəlib hələ onlara çatmamış kəslər üçün heç bir qorxu olmayacağına və onların qəm-qüssə görməyəcəyinə sevinirlər.” (Ali-İmran, 169,170) Bu, İslam maarifində yer almışdır. Onun müsəlman cəmiyyətində şəhadəti oyadan, canlandıran rolu var. Şəhidlər hələ ki onlara qoşulmayanlara müjdə verirlər. Məsələn, mənə və sizə müjdə verirlər. Deyirlər ki, bu yolda nə qorxu var, nə qəm-qüssə.Orada yalnız şadlıq, sevinc var. Ora ruhiyyədir, ümiddir. Bu bir dərsdir. Həmin dərs İslam Cümhuriyyəti tarixində təkrarlandı. Şəhidlərimiz eşq və sevinclə meydana daxil oldular, təlaş göstərdilər, onların təlaşları sadiqanə idi. Bu təlaş ilahi mükafatla yanaşı oldu. Şəhadətə çatdılar, bu şəhadət heç şübhəsiz böyük bir nemət, böyük bir mükafatdır. Allah-Taala bu müxlis, pak bəndələrinə şəhadəti ruzi etdi. Şəhidlər meydana sevinclə daxil

oldular, Allahın razılığı ilə Onun görüşünə getdilər. Ölümdən sonra nə qəm-qüssə gördülər, nə də qorxu. Bunu cəmiyyətə ötürürlər, hələ ki onlara qoşulmayanlara müjdə verirlər. Uzun illər boyu bunu müşahidə etmişik. Harada şəhadət olubsa, bunun ardınca şəhid ailəsinin iftixarı var. Şəhidin ailəsi bir qürur duyub. Onun yaxınları mənəvi sevinc yaşayıb, xalqın ruhiyyəsi iki qat güclənib, cəmiyyətə böyük təsir olub. Bu hadisələr arasında bariz hadisələrdən biri 7 tir hadisəsidir.

7 tir kiçik hadisə deyildi. Cümhuriyyətin 72 layiqli şəxsiyyəti, rəhbərini zahirən birdəfəyə məhv etdilər. Onların arasında şəhid Behişti kimi şəxsiyyət vardı. Şəhid Behişti dövrün nadir hadisələrindən idi. Onun kimisini ardıcıl nəsillər arasında az tapmaq olur. Fəal nazirlər, məclis nümayəndələri, siyasətçilər, fəal inqilabçılar birdəfəyə xalqın əlindən alındı. Bu hadisənin təbii və adi təsiri nə idi? Qaydaya görə nəticə xalqın məğlubiyyəti, inqilabın məğlubiyyəti olmalı idi. Amma tam əksinə oldu. Tam əksinə olaraq, düşmənin gözləmədiyi təsir ortaya çıxdı. Xalq əl-ələ verdi, inqilab real bir yol tutdu, düzgün yol seçildi, düşmənlər ifşa oldu, rüsvayçılıq yaşadı.

Bu böyük cinayətin xalq arasında uzun illər çalışmış, gənclər arasında təbliğat işi aparmış, özünü azadlıq, dəyər tərəfdarı kimi göstərən icraçıları vardı, onlar ifşa oldular. Məlum oldu ki, bunlar heç bir əqidə və inqilabi düşüncəyə malik olmayan bir ovuc terrorçu imiş. Nəticə bu oldu ki, qısa bir müddətdən sonra onlar Səddam Hüseyn kimi birinə sığındılar. İraq xalqının da ziddinə iş gördülər. İran xalqının da ziddinə çalışdılar. Müharibə meydanına çıxdılar, öz xalqları ilə vuruşdular. Bundan böyük rüsvayçılıq ola bilməzdi. Pərdə arxasında iş görənlər də ifşa edildi. Bu hadisəni, cinayəti himayə edənlər vardı. Onlar da üzə çıxdı. Ölkə daxilində, xaricdə bu hadisəyə dəstək verənlər məlum oldu. Hamı bildi ki, ölkədə nə hadisə baş verib, İran xalqının düşmənləri kimlərdir. Bəziləri də susdu. Bir razılıq sükutu ilə dinmədilər, onlar da ifşa oldu.

Böyük İmam bu hadisədən bir dərs kimi bəhrələnərək əsl inqilabi xətti xalqın qarşısına qoydu. Həmin günlərdə inqilab yolundan büdrəməkdə idi. Onu Şərq və Qərbə doğru çəkirdilər. Hadisə ilə inqilab qurtuldu. Bu hadisənin bərəkəti oldu. Bəli, böyük şəxsiyyətləri itirdik. Amma görün faydası nə oldu. Müsəlman ümmət 1400 illik tarixdə hələ də Kərbəla şəhidlərinin qanına borcludur. Seyyidüş-şühədanı itirməkdən böyük baha?! Hüseynin (ə) köməkçilərindən əziz olan can?! Bu bahanı ödədilər, amma İslam yaşadı, Quran yaşadı, əsl İslam xətti cəmiyyətdə yaşadı. Bu faciə 7 tirdə, başqa hadisələrdə də təkrarlandı.

Hadisənin bəhrələrindən biri xalqın mənəvi sevinci, şövqü oldu. Bu hadisə inqilabın cəmiyyətə necə dərin nüfuz etdiyini göstərdi. Düşmənlər də reallıqla üzbəüz qaldı. Gördülər ki, belə bir hadisə başqa ölkələrdə hakimiyyəti sarsıdırsa, İran xalqının vəhdəti ilə başa çatdı. Başa düşdülər ki, bu inqilabla zor dilində danışmaq olmaz, bunun nəticəsi olmur. Bunu hiss etdilər.

Bu hadisənin mühüm təsirlərindən biri ifşaçılıq oldu. İnsan haqlarından danışan super güclər ifşa edildi. Bu hadisəni, dünyada başqa terror hadisələrini törədənlər Avropa və Amerikada azad fəaliyyətdədir. Ölkə başçıları ilə görüşürlər, onlara insan haqlarından danışırlar. Bütün bu insanlar ifşa oldu. Bundan böyük ifşaçılıq olmazdı. Aydın oldu ki, insan haqlarından, terrorizmlə mübarizədən danışanlar nə qədər riyakar, yalançıdırlar. Bu gün bunu hamı gözü qarşısında müşahidə edir.

Ölkəmizdə 17 min şəhid terror qurbanıdır. 17 min terror qurbanı! Bu kiçik rəqəmdir? Bu ciddi deyil? Bu terror hadisəsini törədənlər Qərb ölkələrində azad gəzir. Kimlər terror edilir? Tacir, əkinçi, alim, universitet müəllimi, gecə namazı qılan mömin, uşaqlar, qadınlar, beləcə 17 min insan terror edilir. Bu İslam İnqilabının tarixinə birdəfəlik yazılır. Hadisənin iki tərəfi var. Bunun biri terrorla mübarizə apardığını

iddia edənlərin maskasının yırtılmasıdır. Hadisə batil iddialar qarşısında bir güzgü oldu. Onların nə qədər yalançı, fırıldaqçı, xəbis olduğu üzə çıxdı. Aydın oldu ki, nə qədər rəzildirlər. Onlar amansız terrorçuları himayə edirdilər. Eyni zamanda terrora qarşı olduqlarını söyləyir, bu şüarla çıxış edirlər. Hadisənin bir tərəfi budur. İkinci bir tərəf budur ki, müqəddəs müharibədəki şəhidlərdən əlavə terrorda 17 min şəhid vermiş xalq daha da birləşib, inqilab yolunda düşmən qarşısında dayanıb. İnqilabın əzəməti bu şəhadətlərlə üzə çıxdı. Qurani-Kərimdə oxuyuruq: "Onlar Allahın öz mərhəmətindən bəxş etdiyi nemətə sevinər, arxalarınca gələn, hələ ki onlara çatmayanlara qorxu və qəm-qüssə olmayacağına şadlanarlar." (Ali-İmran, 170). Bu bir müjdədir. İran xalqına müjdə verilir. Müsəlmanlara müjdə verilir. Bu maarif, bu bilik kitablarda, zehnimizdə var idi. Övladlarımız, yoldaşlarımız, atalarımız həmin bilikləri həyata keçirdilər, təcəssüm etdirdilər. Gələcək nəsillərə həqiqət göstərildi.

Şəhidlər bu gün də millətin ruhiyyəsini, İran xalqının ruhiyyəsini gücləndirməkdədir. Bir neçə gün öncə Tehrana 270 şəhid daxil oldu. Gördünüz ki, necə bir hadisə yarandı. Necə bir şövq, həyacan yaşandı. Ümidsizliklər, biganəliklər, şövqsüzlüklər qarşısında bir hadisə. Bu şəhidlərin işidir.

Doğrusunu desək, şəhidlərlə bağlı az iş görmüşük. 7 tir şəhidləri hadisəsinin ecazkar cəkisi var. Bu cinayət hadisəsində hədəf olmuş çöhrələrin tanıtıdırılması lazımdır. Bu sarsıdıcı hadisə qarşısında möhkəm dayanmış İran xalqının tanıtdırılması zəruridir. Belə hadisələr qarşısında bu xalq nəinki geri çəkilmir, iki qat artıq ruhiyyə ilə səhnəyə çıxır. Həm düşmənlərin necə çirkin mövcud olduğu, necə xəbis siyasətlər yürütdüyü, aydın olur, cinayətkar əllər görünür. Bu böyük tutum, potensial 7 tir və başqa hadisələrdə mövcuddur. 7 tir daha önəmlidir. Az iş görmüşük. Onları tanıtdırmamışıq. Çox iş görmək olardı və görülməlidir. Məsul orqanlar, hər birimiz bu sahədə az çalışmışıq. Belə görünür ki, bu işi də könüllü inqilabi möminlər cinahına tapşırmaq lazımdır. Bu gənclər könüllü olaraq mədəniyyət, başqa sahələrdə işlər görürlər, istedadlarını ortaya qoyurlar, həqiqətləri işıqlandırırlar, yatmış imkanları oyadırlar. Bu işi də onlar görməlidir. İncəsənət dilində, təsvir dilində, müxtəlif vasitələrlə bu hadisəni, hadisədə hədəf olmuş şəxsiyyətləri tanıtdırmalıdırlar. Şəhid Behişti kimi bir şəxsiyyət dünyaya tanıtdırılmalıdır. Şəhid Rəcai, şəhid Bahünər dünyaya tanıtdırılmalıdır. 7 tir və başqa hadisələrdə şəhadətə çatan şəxsiyyətlər tanıtdırılmağa layiq şəxslərdir.

Mən bəzən şəhidlər haqqında kitabları oxuyuram. Dorğudan da bir dərsdir. Mən dərs alıram. Bu kitabları oxumaqdan ruhiyyə əldə edirəm. Aydın olur ki, onlar necə böyük şəxsiyyətlərdir. Necə ruhiyyələri, əzəmətli olub. Öz isarları ilə necə böyük işlər görüblər. Canlarını əllərinə alıb meydana daxil olublar. 7 tir şəhidləri qarşıda onları nə gözlədiyini bilmirdilər? Məlum idi. O zaman meydanda hərəkət edən hər bir şəxs bilirdi ki, minalanmış bir sahədə hərəkət edir. Hər tərəfdə müxtəlif hadisələr baş verirdi. Bununla belə şücaətlə meydana daxil oldular, hərəkət etdilər. Şəhidlərin bərəkəti çox böyükdür. Bu sözlərlə şəhidlərin haqqını yerinə yetirmək olmaz. Onların gördüyü işin, xidmətin əvəzini çıxmaq olmaz.

Şəhid ailələri də bu qəbildəndir. Bizim bu məclisimizdə üç ya daha artıq şəhid vermiş ailələr var. İnsanın öz ciyərparəsini əldən verməsinə dözmək dildə asandır. Elə ailələr olub ki cəmi iki oğulları olub. Hər iki oğullarını müqəddəs müharibədə təqdim ediblər. Burada xanımlar var ki, həm həyat yoldaşlarını, həm də övladlarını Allah yolunda veriblər. Bunu dildə demək asandır. İlkin İslam dövrü haqqında oxuyuruq ki, Ühud savaşında bir xanım üç şəhidin cəsədini miniyə qoyub Mədinəyə doğru aparırdı. Təəccüblü hadisədir. Əfsanəyə bənzəyir. Biz indi bu əfsanələri gözümüzlə gördük. Zəif ruhiyyələr də güclənir, təravətlənir. Bu gün ölkəmizin belə əzm və iradəyə ehtiyacı var.

Bunu hamı bilsin, bu gün düşməni tanımağa ehtiyac var. Düşməni tanıyaq. Dünyadakı düşmənlər özlərini müxtəlif üsullarla zinətləndirir, informasiya vasitəsiləri ilə simalarını dəyişir, bəzək-düzəklə səhnəyə

çıxırlar. Onları tanıyaq. Amerikanı tanıyaq. 7 tir hadisəsi! Partiya hadisəsi baş verdi, 1366-cı ildə 7 tir günü Sərdəşt kimyəvi bombalarla hücuma məruz qaldı. Bu işi Səddam gördü. Amma onun arxasında kim var idi? Amerikalılar, qərblilər, ona kimyəvi bomba verənlər, ona yaşıl işıq yandıranlar, bu böyük cinayətin, qətliamın qarşısında susanlar vardı. 11 tirdə, bir neçə gün sonra şəhid Səduqinin terror ildönümüdür. Bu da həmin cinayətkarların işi idi. 12 tirdə Fars Körfəzinə bir təyyarə süqut etdi. 7 tirdən 12 tirə qədər terror hadisələrinə, qətliamlara diqqət yetirin. Bu hadisələrdə nə qədər qadın, uşaq, alim, siyasətçi həlak oldu. Bu hadisələrdə Amerikanın əlaltıları iş görürdü. Bu hadisələri Amerika və Qərbin kəşfiyyat orqanları planlaşdırmasa da, ən azı yardımçı olub. Ən azı təşviq ediblər. Bu düşmənləri tanıyaq. 7 tirdən 12 tirə qədər günləri amerikasayağı insan haqları həftəsi adlandırmaq yaxşı olardı. Doğrudan da, amerikasayağı bəşər hüquqları bu neçə gündə ölkəmizdə özünü açıq göstərib. Düşməni tanımağa ehtiyacımız var. Bu gün Amerika siyasətini, onun əlaltılarının siyasətlərini yaxşıya yozanlar xəyanət edirlər. Bu cinayətdir. Belə aşkar həqiqəti gizlətmək, xəbis düşmənin simasını pərdələmək xalqa xəyanətdir. Xalqımızın düşməni tanımağa ehtiyacı var. Düşmənin qəlbindəkini anlamalıyıq.

Düşmənlə qarşılaşmaq üçün hazırlığa ehtiyac var. Bu qarşılaşma həmişə hərbi meydanda qarşılaşma deyil. Meydan qarşıdurmasından da çətini təbliğat qarşıdurması, mədəniyyət qarşıdurması, siyasət qarşıdurmasıdır. İctimai həyat səhnəsində qarşıdurma ağırdır. Bu gün əziz xalqımızın şəhidlərin amallarına ehtiyacı var. Onların mesajlarına ehtiyaclıyıq. Ümidverici, ifşaedici, mənəvi sevinc, yüksək ruhiyyəli bildirişlərə ehtiyaclıyıq. Xalq şəhidlərə borcludur. Siz şəhid ailələrinə borcludur. Hamımız borcluyuq. Kim bunu gizləsə, şəhidlərin adının əzəmətlə çəkilməsini istəməsə, şəhidlər haqqında tərif deyiləndə sinəsinə yara vurulsa, onlar bu millətin xoşbəxtliyinə biganələrdir. Onlar yadlardır. Şəxsiyyət vəsiqələri iranlı olsa da, əslində yaddırlar. Onlar İran xalqı ilə səmimi və həmdərd deyillər.

Vəssəlamu əleykum və rəhmətullahi və bərəkatuh

Iyul, 2015

## İmam Xomeyninin (ə) vəfatının 26-cı ildönümü münasibətilə mərasimdə Ayətullah Xameneinin bəyanatı

### Cənab Rəhbər: İmam (r) Amerikanı Böyük Şeytan adlandırdı!

Bismillahir-rəhmanir-rəhim...

Sözümün başlanğıcında Həzrət Bəqiyyətullahın müqəddəs hüzuruna hörmət və ehtiram bildirməyi zəruri sayıram. Axiruzzamanın xilaskarı bütün İbrahim dinləri tərəfindən qəbul olunur. Bu dinlərdə etiqad var ki, bir şəxs gələcək, dünyanı zülm-sitəmdən xilas edəcək. Bunu İbrahim dinlərində hamı qəbul edir. İslamda bu xilaskarın adı müəyyən edilib. Bütün İslam məzhəblərində bu fövqəladə böyük insanı Mehdi (əc) adı ilə tanıyırlar. Bəlkə də İslam firqələri arasında elə bir firqə tapılmaz ki, Mehdinin (əc) zühuruna inanmamış olsun. İnanırlar ki, o həzrət Peyğəmbər (s) övladlarındandır. Xilaskarın adı və künyəsini də müəyyən ediblər. Şiə etiqadında olan xüsusiyyət budur ki, xilaskarın şəxsiyyəti müəyyənləşdirilərək təqdim olunur. Onun 11-ci İmam Həsən Əsgərinin (ə) övladı olduğu bildirilir. Xilaskarın mövludu şiə tarixçiləri, şiə kəlam alimləri tərəfindən dəqiq şəkildə qeyd olunur. Başqa İslam firqələri bunu nəzər almayıb, ya da qəbul etməyiblər. Amma şiələr aydın və qəti dəlillərlə xilaskarın mövludunu isbat edirlər. Bəziləri deyirlər, necə ola bilər ki, bir şəxs bu qədər uzun ömür yaşasın? Bu Həzrət Mehdi (əc) mövzusunda müxaliflərin irəli sürdüyü yeganə iraddır. Amma Qurani-Kərimin ayələrinə baxdıqda bu suallar öz cavabını tapır. Həzrət Nuh (ə) haqqında buyurulur ki, o öz qövmü arasında 950 il yaşadı. Bu o demək deyil ki, onun ömrü elə bu qədər olub. Həzrət Nuhun (ə) risalət dövrü 950 ildir. Demək, şübhəyə yer qalmır.

İmamın (əc) zühuruna etiqad şiələr arasında böyük bir ümidverici xüsusiyyətə malikdir. Şiə cəmiyyəti təkcə öz tarixi imtiyazlarına istinad etmir, gələcəyə baxır. Şiə etiqadına görə Məhdəviyyət mövzusuna inanan insan ən çətin şəraitdə ümidini itirmir, onun qəlbində daim ümid şöləsi var. O bilir ki, bu qaranlıq dövr, bu zülm dövrü haqsızlığın hakim olduğu dövr ötüb-keçəcək. İmamın zühuruna etiqadın nə mühüm təsirlərindən biri budur. Əlbəttə ki, şiələrin Məhdəviyyət mövzusuna etiqadı bununla məhdudlaşmır. Bəli, Məhdəviyyətə etiqad belə bir etiqaddır. Bu parlaq şölə, nur şiə cəmiyyətində ötən əsrlər boyu olub və olacaq. İnşaallah, zühur əhlinin intizarı başa çatacaq. Ötən gün o böyük şəxsiyyətin mövlud ildönümü idi. Onun səadətbəxş mövludu münasibətilə siz əziz qardaş və bacılar arasında qısa şəkildə hörmət və ehtiram bildirdik.

Bu əzəmətli məclisdə əziz qardaş və bacılarımız üçün 14 xordad münasibətilə qayda üzrə böyük İmamımız (r) haqqında danışacağıq. Bu barədə çox söhbət etmişik, amma yenə də o böyük insan haqqında danışmağın yeri var. Bu gün sizə İmamın şəxsiyyətinin təhrifi haqqında danışacağam. Şəxsiyyətlər də təhrif olunurmu? Adətən təhrif sözü mətnlər haqqında işlədilir. Görən şəxsiyyətləri də təhrif etmək olurmu? Bəli. Şəxsiyyətlərin təhrifi bundan ibarətdir ki, böyük insanların şəxsiyyəti ya gizli qalsın, ya da səhv tanıtdırılsın. Bunlar şəxsiyyətin təhrifidir. Əgər nəsillər üçün nümunə olan, İmam olan, rəhbər olan bir şəxs, onun sözləri təhrif olunarsa çox böyük bir zərbə olar. İmamı təkcə möhtərəm tarixi şəxsiyyət kimi nəzərdən keçirmək olmaz. Bəziləri məsələyə belə baxır. İmamın bu ölkə tarixində bir zaman fəaliyyət göstərmiş, faydalı olmuş, sonra dünyasını dəyişmiş, dövrü başa çatmış şəxsiyyət olduğunu deyirlər. Ona hörmət göstərirlər, adını uca tuturlar. Bununla da kifayətlənirlər. Bəziləri İmamı belə tanımaq, belə tanıtdırmaq istəyirlər. Bu düzgün deyil.

İmam böyük bir hərəkatın real təzahürüdür. Bu hərəkatı İran xalqı başlayıb. Bu hərəkatla İran xalqı öz tarixini dəyişib. Böyük İmam bir düşüncə, ictimai-siyasi məktəbin banisidir. İran xalqı bu məktəbi, bu yolu, bu planı qəbul edib, bu istiqamətdə hərəkətə başlayıb. Bu yolun davamı yol xəritəsini düzgün tanımaqdan asılıdır. İmamı düzgün tanımasaq bu yol xəritəsini tanıya bilməyəcəyik. Şübhəsiz ki, mövzumuz İmamın düşüncəsidir. Mövzu zaman və məkanla şərtlənməyib. Mövzu böyük İmamın təfəkkür formasıdır. Onu düzgün tanımaq istəyirik.

İmam şübhəsiz ki, böyük fəqih idi. Həm böyük fəqih idi, həm filosof idi, həm nəzəri irfanda söz sahibi idi. İmam elm və ixtisas mövzularında, sahələrində seçilirdi. Amma onun üstün şəxsiyyəti bunlardan heç biri ilə məhdudlaşmır. İmamın əsl şəxsiyyəti "Və cahidu fillahi həqqə cihadih" ayəsinin gerçəkləşməsində idi. İmam böyük elmi imkanlara malik olmaqla Allah yolunda cihad meydanına daxil oldu. Bu cihadı ömrünün sonuna qədər davam etdirdi. Böyük bir hərəkat yaratdı. Təkcə öz ölkəsində yox, bütün məntəqədə, bütün İslam dünyasında, müəyyən mənada bütün dünyada hərəkata start verildi. Bu hərəkatın məhsulu misilsiz bir məhsul idi.

İmamın vasitəsilə ölkə tarixində iki böyük və misilsiz iş görüldü. Biri zalım vərəsə səltənətinin süqutu, neçə minillik tarixi olan bir rejimin heyrət yaradan çevrilişi. Bizim ölkəmizdə vərəsəlik yolu ilə birindən o birinə ötürülən, qılınc və hökumətin hərbi gücü ilə əldə saxlanılan, nəsildən nəslə verilən, yanlış və məntiqsiz bir ənənə olan sistem neçə min il hakimiyyətdə oldu. İmamın ilk işi bu oldu ki, bu sistemi dağıtsın və ölkənin taleyini xalqın əlinə versin.

Böyük İmamın ikinci böyük işi bu oldu ki, İslam əsasında hakimiyyət, üsul-idarə yaratdı. İlkin İslam dövründən bu zamana qədər bütün tarixdə belə bir hadisə olmayıb. Böyük İmamımızın böyük cihadının məhsulu belə dəyərli idi. Yeri var deyək ki, "cahədə fillahi həqqə cihadih". Bu barədə Quranda var. Böyük din övliyaları haqqında belə deyilir. Böyük İmamımız da bu ayənin bir ünvanı idi.

Söhbətimin haşiyəsində qeyd edim ki, bu böyük insanın cihadı təkcə ictimai-siyasi və ya ideoloji cihad deyildi. Bütün bunlarla yanaşı daxili bir cihad, nəfslə cihad, Allaha ardıcıl bir bağlılıq vardı. Bu da dərsdir. İdeoloji və ya elmi, eləcə də siyasi ya hərbi cihada qədəm qoyanda cihadın qeyd etdiyim növünə göz yummaq olmaz. Böyük İmam xüşu əhli idi. Allahdan qorxan insan idi, dua əhli idi, təvəssül əhli idi, raz-niyaz əhli idi. Mübarək şəban ayında söhbətlərində Minacati-şəbaniyyədən bunu təkrar oxuyardı: "İlahi həbli kəmaləl-inqitai-iləykə və ənir əbsarə qulubina biziyai nəzəriha iləykə hətta təxriqə əbsarul-qulubi hucubənnuri fətəsilə ila mədinil-əzəmə .." İmamın xarakteri bu idi. Bu böyük insanın ardıcıl cihadını sübhlər göz yaşı, minacat, dua, Allahla rabitə, mənəvi əlaqə təşkil edirdi. Böyük İmamın Allah yolunda cihadı haşiyəsində bunları yadda saxlayın. İmamın düşüncə sistemi bir ideoloji, ictimai-siyasi məktəbin kamil xüsusiyyətlərinə malik idi. Əvvəla, bu sistem bir dünyagörüşünə əsaslanırdı. Həmin dünyagörüşü tövhiddən ibarət idi. İmamın bütün fəaliyyətləri, bütün məntiqi tövhid üzərində idi. Tövhid bütün İslam düşüncəsinin bünövrəsini təşkil edir.

İmamın ideoloji sisteminin başqa bir xüsusiyyəti onu sözün əsl mənasında məktəb formasına gətirmişdi. İmamın düşüncə sistemi aktual idi. Bu sistemdə dünyanın, İran cəmiyyətinin aktual problemləri yer almışdı. Dinləyicilər, İmamı eşidənlər bunu hiss edirdi. İmamın düşüncə məktəbində istibdad və zülmə qarşı mövqe ilk sözü deyirdi. Bunu İran xalqı da hiss edirdi. Dünyanın müsəlman və qeyri-müsəlman xalqları da hiss edirdilər. Ona görə də İmamın çağırışı geniş yayıldı. İmamın düşüncə məktəbinin başqa bir xüsusiyyəti onun canlı, hərəkətli olması idi. Bəzi nəzəriyyəçilər elmi məclislərdə çox gözəl sözlər deyirlər, amma bu sözlərin heç biri təcrübədə özünü göstərmir, meydana çıxmır. İmamın məntiqi, İmamın düşüncəsi, İmamın yolu fəal və mütəhərrik idi. Bütün bu fikirlərin həyata keçməsi mümkün idi. Elə buna görə də qələbəyə çatdı, irəli getdi. Bu hərəkat məmləkətimizin tarixi yolunu dəyişdi. Biz İran xalqı əsarət altında, məqsədsiz və ümidsizlik içində qalmış xalq idik. Biz asılı bir xalq idik. Bu xalqı bilərəkdən inkişafdan saxlayırdılar. Öz fikirlərini bizə zorla qəbul etdirirdilər. Öz mədəniyyətlərini bizə qəbul etdirirdilər. Həm sərvətlərimizi daşıyıb aparırdılar, həm də öz çirkin adət-ənənələrini ölkəmizə gətirirdilər. Biz belə bir millət idik. İmam bizi dəyişdi. Bizi çalışqan, ümidvar, hərəkətli, böyük məqsədləri olan xalqa çevirdi. Bu gün İran xalqı hərəkətli, çalışqan, ümidvar bir xalqdır. Bu gün İran xalqı böyük

məqsədlərə doğru hərəkətdədir. Əlbəttə ki, hələ ki nəzərdə tutduğumuz məqsədlərə çatmağımıza çox qalıb. Amma əsas odur ki, hərəkətdəyik. Əsas odur ki, millətimizin inkişaf gücü və tələşı var. Mühüm odur ki, gənclərimiz böyük məqsədlərə çatacaqlarına inanırlar. İnanırlar ki, ictimai ədaləti tam təmin edəcəklər. İnanırlar ki, tərəqqi və sərvəti bu ölkəyə gətirə biləcəklər. Bizi inkişaf etmiş, mütənasib iqtidara, tarixi kimliyə malik millətə çevirəcəklərinə inanırlar. Bu ümid hazırda ölkəmizdə aktualdır. Gənclərimiz bu istiqamətdə hərəkətdədir. Biz sükunat halından çıxmışıq. Qəflət, mürgü halından xaric olmuşuq. Bu işi böyük İmamın hərəkatı, o böyük insan görüb. Əgər İran xalqı qarşıya qoyduğu məqsədlərə çatmaq istəyirsə, bu yolu davam etdirmək istəyirsə böyük İmamın yolunu düzgün tanımalıdır. İmamın üsulunu, prinsipini düzgün tanımalıyıq. İcazə verməməlidirlər ki, İmamın şəxsiyyəti təhrif olunsun. İmamın şəxsiyyətinin, yolunun təhrifi, İran xalqını doğru yoldan çıxarmaqdır. Əgər İmamın yolunu itirsək, yaddan çıxarsaq, ya Allah eləməmiş, bilərəkdən bunu kənara qoysaq, İran xalqı sillə alacaq. Hamı bilməlidir ki, dünya imperializminin doymayan qarnı ölkəmizdən tamahını çəkməyib. Dünyanın hiyləgər və fırıldaqçı gücləri üçün belə böyük, sərvətli, yolların kəsişdiyi mühüm nöqtədə yerləşən ölkə böyük əhəmiyyət daşıyır. Onlar bu ölkədən gözlərini çəkməyiblər. Yalnız o zaman geri çəkilərlər ki, siz İran xalqı elə güclənəsiniz, elə inkişaf edəsiniz, onların ümidi üzülsün. Elə bu məqamda İmamın təhrif olunması təhlükəsi öz əhəmiyyətini göstərir. Əgər İmamın şəxsiyyəti təhrif olunsa, İmam yanlış tanıtdırılsa bütün bu təhlükələr İran xalqının sorağına gələcək. Belə məqamda İmamın təhrif olunması təhlükəsi ölkə məsulları, inqilabın ideoloqları, İmamın qədim şagirdləri, bu yola bağlı insanların, bütün gənclərin, universitet əhlinin, hövzə əhlinin diqqət mərkəzində olmalıdır. Sözümün müqəddiməsi bu idi.

İmam həyatda olduğu zaman da onun şəxsiyyətinin təhrifi üçün çalışırdılar. Bir tərəfdən bu işi düşmən görürdü. İnqilabın əvvəlindən səy göstərirdilər ki, dünya boyu təbliğatda İmamı sadəcə bir inqilabçı kimi tanıtdırsınlar. Fransa inqilabı, bolşevik inqilabı, bir sıra başqa inqilablar kimi təqdim etməyə çalışırdılar. Yəni quru bir inqilabçı. Qaşlarının düyünü açılmır, düşmənə doğru baxır, heç bir duyğusu yoxdur - belə tanıtdırmaq istəyirdilər. Təbii ki, bütün bunlar yalan idi. Bəli, İmam qətiyyətli idi, sarsılmazdı. Öz qərarlarında çox möhkəm idi. Amma İmam duyğulu bir insan idi. Bir lətafəti vardı. Allah, xalq, xüsusi ilə məzlumlar, zülmə düçar olanlara münasibərdə çox mehriban, sevgili idi. Amma düşmən inqilabın əvvəllərində onu başqa şəkildə tanıtdırmaq istəyirdi.

Ölkə daxilində də bəziləri bilmədən, bəziləri isə bilərəkdən İmamın şəxsiyyətini təhrif edirdilər. Bəli, İmam həyatda olduğu zaman bu işi görürdülər. Öz bəyəndikləri sözü İmamın adına yazırdılar. Hansı ki həmin sözlərin İmama heç bir aidiyyati yox idi. İmam dünyasını dəyişəndən sonra da bu cərəyan davam etdi. Hətta bəziləri İmamı liberal bir şəxs kimi təqdim etmək istədilər. Güya onun heç bir ideoloji, ictimai-siyasi prinsipi yoxdur. Bu da kökündən səhv bir təqdimat idi. Əgər İmamın şəxsiyyətini olduğu kimi tanımaq istəsək bunun yolu var. Əgər bu yolu getsək məsələ həll olacaq. Yoxsa bəziləri bu gün İmamı öz istəyinə, meylinə uyğun tanıtdırır. Sabah başqaları gələr, onlar da dünyada baş verən başqa hadisələrə uyğun olaraq İmamı məsləhət bildikləri kimi təqdim edərlər. Bu yolverilməzdir. Xalq arasında İmama sevgi həmişəlikdir. Düşmən bu sevgini qəlblərdən çıxara bilməyib. Buna görə də ölkə daxilində və xaricdə İmamın qəlblərə nüfuz etmiş məhəbbəti böyük təhlükə sayılır. Bu təhrifin qarşısını ala biləcək yol İmamın prinsiplərini təkrar-təkrar nəzərdən keçirməkdir. İmamın üsulu var, əsasları var. Bu prinsiplər, əsaslar inqilabdan əvvəlki 15 illik hərəkatda, 10 illik İslam hakimiyyəti dövründə İmamın bəyanatlarında yer alıb. İmamın yolunu bu bəyanatlarla müəyyən etmək olar. Demirəm ki, hər haşiyə mövzuya diqqət yetirək. Başqa insanlar kimi İmamın da həyatında eniş-yoxuşlar olub. Onun da həyatında hadisələr baş verib, hər bir hadisənin öz tələbləri olub. Mən prinsiplərdən danışıram. Elə əsaslardan danışıram ki, inkar ediləsi

deyil, İmamın bəyanatlarında yer alıb. İslam Cümhuriyyətinin qurulmasından əvvəl və sonra, səkkiz illik müharibə dövründə İmam öz bəyanatlarında prinsiplərini açıq bildirib. Bu üsulu, prinsipləri seçmə qaydada götürməməliyik. Mən bu gün onlardan bir neçəsini yada salacağam. Amma yenə qeyd edirəm ki, İmamın prinsipləri təkcə bunlardan ibarət deyil. Mütəfəkkirlər, araşdırma aparmaq gücü olanlar İmamın bəyanatlarını nəzərdən keçirsinlər. Həmd olsun Allaha ki, bu bəyanatlar çap olunub, əlimizdədir. Hamı onları əldə edə bilər. Həmin bəyanatlardan İmamın prinsiplərini çıxarış etmək olar. Mən bu gün İmamın bəyanatlardan bütün çıxarışları sadalaya bilmərəm. Onlardan bəzilərini yada salacağam. İstəmirəm də seçmə qaydada olsun. Buna görə deyirəm ki, araşdırmaçılar bəyanatları nəzərdən keçirib lazım olan nöqtələri əldə etsinlər. Amma mənim bu gün deyəcəklərim İmamın məntiqinin, məktəbinin, yolunun, xətinin dəyişməyən prinsipləridir.

İmamın məktəbində ilk məsələ əsl Məhəmməd (s) İslamının sübutu, saxta Amerika İslamının inkarıdır. İmam həqiqi İslamı Amerika İslamına qarşı qoyur. Nədir Amerika İslamı? Amerika İslamının bizim dövrümüzdə, İmamın dövründə, müxtəlif dövrlərdə, olsun ki, gələcəkdə də iki budağı var. Bunun biri sekulyar İslam, digəri təcrid olmuş İslamdır. Buna görə də İmam sekulyar təfəkkürlü insanları, dini cəmiyyətdən ayırmaq istəyənləri, dini təcrid olmuş görmək istəyənlərlə bir sıraya qoyur. Yeni düşüncəyə əsir olanlar təəssübkeş insanlarla eyni dərəcədə yanılır. İmam bu iki zümrəni yanaşı yada salırdı. Bu gün baxsanız hər iki nümunə İslam dünyasında var. Hər ikisini də dünyanın quldur gücləri himayə edir, Amerika onları dəstəkləyir. Bu gün Amerika və İsrail azğın İŞİD, Əl-Qaidə və bu kimi başqa radikal, terrorçu qrupları dəstəkləyir. İslam fiqhi və şəriətə biganə, sadəcə adı İslam olan cərəyanları himayə edirlər. İmamın nəzərincə həqiqi İslam kitab və sünnəyə əsaslanan İslamdır. Bu İslam yeni düşüncə, zaman və məkanla tanışlıq, sübuta yetmiş elmi metodlara malik İslamdır. Bu İslam elm hövzələrində təkmilləşib, sübuta yetib və insanların ixtiyarındadır. Belə deyil ki, sübut yollarına diqqət yetirilmir. Hamı Quranı açıb ictimai hərəkat prinsiplərini çıxarış edə bilər. Bu elmi bir metoddur və üzərində iş aparılıb. Bu işi davam etdirəcək insanlar var. Həqiqi İslam İmamın nəzərində budur. Təbii ki, metodla tanış olan hər adam bu işi görə bilməz. Çıxarış aparan insanın aydın düşüncəsi olmalı, zaman və məkanla tanış olmalıdır. Bu insanlar dünyanın, İslam cəmiyyətinin ehtiyaclarını öyrənməli, düşməni tanımalı, düşmənin üsulları ilə tanış olmalıdır. O zaman həqiqi İslamı tanıya bilərlər. Həqiqi İslamı tanıdıqdan sonra tanıtdıra da bilərlər. Saray mollalarının İslamı, - İmam onları bu adla yada salırdı - İŞİD İslamı, sionistlərin cinayətinə biganə İslam, Amerikanın cinayətlərinə göz yuman İslam, böyük güclərin əlinə göz dikmiş İslam, hamısı bir dəstədir. Müəyyən nöqtələrdə bir-birlərinə qoşulurlar. İmamın nəzərincə, bütün bu cərəyanlar rədd edilməlidir. İmamın tanıtdırdığı İslam bütün bu cərəyanlara qarşıdır. İmamın ardıcılı, İmamın yolunu gedən insan bölgü aparmalıdır. Həm təcrid olmuş İslamı, həm sekulyar İslamı tanımalıdır. Həqiqi İslamı tanıyıb bu yolla getməlidir. İmamın prinsiplərindən biri budur. İmam bunu bir dəfə dilə gətirməyib. Bütün əsərlərində, bəyanatlarında bu prinsip yer alıb.

İmam üçün əsas məsələlərdən biri ilahi yardıma ümid, ilahi vədlərə etimad, eyni zamanda dünyanın zalım güclərinə etimadsızlıqdır. İmamın məktəbində bu iki məsələ bir-birindən ayrı deyil. Allah-Taala möminlərə vəd vermişdir. Bu vədə inanmayanları Allah özü lənətləyir: “Və lənəhumullah.” Başqa bir məqamda “Və qəzibəllahu ələyhim”, buyurulur. Başqa bir ayədə oxuyuruq ki, “əz-zanninə billahi zənnəs-səvi ələyhim dairətus-səvi və qəzibəllahu əleyhim və ləənəhum və əəddə ləhum cəhənnəmə və saət məsira”. İlahi vəd, bu vədlərin həqiqi olması ilə bağlı buyurulur ki, “in tənsurullahə yənsurkum”. İmamın düşüncəsində əsas prinsiplərdən biri budur. İlahi vədlərə etimad, Allahın yardımına ümid. Qeyd etdik ki, bununla yanaşı zalım düşmənlərə etimadsızlıq İmamın əməl və rəftarlarında mühüm mövzulardandır. İmamın bəyanatlarında bunu aşkar görmək olur. Allaha etimad səbəb olur ki, İmam öz inqilabında,öz

inqilabi hərəkatında açıq mövqe tutur. İmam açıq və qətiyyətli danışırdı. İnandığını aşkar bəyan edirdi. Çünki Allaha etimadı vardı. Deyə bilmərik ki, İmam zalım güclərin xəbəri olmadığını düşünüb belə danışırdı. Əslində düşmənin möqeyini bilirdi. Amma Allahın yardımına, qələbə vədinə ümid etdiyi üçün açıq və qətiyyətli mövqe tuturdu. Hadisələr zamanı İmamda utancaqlıq görünməzdi. Dünyanın imperialist dövlət başçılarından İmama iki məktub gəlmişdi. İmam hər iki məktuba çox qətiyyətlə cavab verdi. Cavablar İranın radio-televiziya şəbəkəsində yayımlandı. İmam ədəblə danışırdı. Ədəb çərçivəsində öz mövqeyini aydın və qəti bəyan edirdi. İmamın bu təvəkkülü, Allaha bağlılığı millətə də sirayət etmişdi. Onların damarında axan bir ümidə çevrilmişdi. Beləcə, millət də Allaha təvəkkül etdi, ilahi vədlərə inandı və bu yolda qədəm götürdü. İmam zalım güclərə inanmadığından onların vədlərinə əhəmiyyət vermirdi. Amerika prezidenti Reyqan İmama məktub yazdı, elçi göndərdi, amma İmam bütün bunlara əhəmiyyət vermədi. İmam ona verilən vədlərə etina göstərmədi, hətta cavab vermədi.

8 illik müharibənin sonlarında Amerikaya bağlı dövlətlərdən biri çox böyük yardımlar vəd etmişdi. İmam bu sözlərə zərrəcə əhəmiyyət vermədi. Biz hazırda müxtəlif sahələrdə həmin qeyri-səmimi vədlərlə rastlaşırıq. Şahid oluruq ki, zalım güclərin vədinə etimad göstərmək olmaz. Xüsusi görüşlərdə verdikləri vədlərə inanmaq mümkün deyil. Biz bunu hiss edirik. İmam öz işində bir prinsip olaraq bunu gözləyirdi. Allaha etimad, zalımlara etimadsızlıq! Əlbəttə ki, bu dünya ilə əlaqələrin kəsilməsi mənasında başa düşülməməlidir. Bir çox ölkə başçıları müxtəlif münasibətlərlə İmama təbrik məktubu göndərirdilər. İmam da onların təbrikinə cavab verirdi. Adi halda İmam ona ünvanlanan məktublara ədəblə cavab verir, amma heç vaxt zalımlara, quldurlara, onların əlaltılarına inanmırdı. İmamın yolunda əsas prinsiplərdən biri xalqın iradəsi və gücünə iman idi. Bu üçüncü nöqtədir. İmam dövlətin mərkəzləşməsinə müxalif idi. Onun işində əsas xətlərdən biri bu idi. O dövrdə səy göstərilirdi ki, bir yanlış hərəkətə görə ölkənin bütün iqtisadi məsələlərini dövlətin öhdəsinə buraxsınlar. İmamın bəyanatlarına nəzər saldıqda görürük ki, İmam bu işi xalqa tapşırır. İmam iqtisadi məsələlərdə, hərbi məsələlərdə xalqa etimad göstərirdi. Bu nöqtəyə diqqət yetirin. İmam elə əvvəlcədən ordunu himayə edirdi. İnqilab zamanı ordunun buraxılmasına qarşı çıxan İmam oldu. Amma bununla belə SEPAH-ı yaratdı. Sonra bəsic qüvvələri yaradıldı. Hərbi sahə bir xalq cərəyanına çevrildi. İqtisadi məsələlərdə də xalqa güvənirdi. Hərbdə də belə idi. Ölkənin qurulmasında xalqa etimad göstərirdi. Bu məqsədlə Cihadi-Sazəndigi hərəkatını işə saldı. Təbliğat işlərində də istinad yeri xalq idi. Xüsusilə ölkədə seçki məsələsində, ölkənin idarə olunmasında, siyasi təşkilatların idarə edilməsində xalqın rəyinə əhəmiyyət verirdi. İmam 10 il cümhuriyyətə rəhbərlik etdi. Bu 10 ildən səkkiz ili müharibə oldu. Şəhərlər bombalandı, xalq müharibə aparırdı. Həmin dövrdə ölkədə 10-a yaxın seçki keçirildi. Təyin olunmuş seçkilər bir gün də təxirə salınmadı. İmam istənilən şəraitdə təkid edirdi ki seçki vaxtında keçirilsin. Başqa ölkələrdə fövqəladə vəziyyət elan olunurdusa, İmam bir gün olsun fövqəladə vəziyyət elan etmədi. Seçki günü ilk səs verənlərdən biri İmam olurdu. İmam doğrudan da xalqın səsinə, rəyinə böyük əhəmiyyət verirdi. Xalq elə bir şeyə səs verə bilərdi ki, İmam həmin mövzuda fərqli mövqedə olardı. Bununla belə xalqın rəyinə üstünlük verirdi. Bəli, İmamın məktəbində əsas prinsiplərdən biri xalqa etimad idi. İmam xalqı məsullar üçün bir nemət səbəbi kimi tanıtdırırdı. Dəfələrlə təkrarlayırdı ki, bu xalq sizin üçün bir nemətdir. Özünü xalqın xidmətçisi adlandırırdı. Deyirdi ki, mənə rəhbər deməyinizdən xalqın xidmətçisi deməyiniz yaxşıdır. Bu böyük sözdür. Xalqa verilən qiymətdir. Xalq da bu diqqət və məhəbbətin cavabını verdi. Xalq daim səhnədə oldu. İmamın işarəsi ilə xalq fədakarlıq göstərir, səhnəyə çıxırdı. Bəli, bu etimad qarşılıqlı idi. İmam xalqa, xalq İmama etimad göstərirdi. İmam xalqı sevirdi, xalq da İmamı. Bu rabitə qaşılıqlı və təbii idi.

İmamın məktəbində dördüncü mühüm nöqtə ölkənin daxili ilə bağlıdır. İmam ciddi şəkildə məhrum təbəqəni, yoxsul təbəqəni himayə edirdi. İmam iqtisadi baxımdan qeyri-bərabərliyi şiddətlə rədd edirdi.

Dəbdəbəçiliyə qarşı çıxırdı. İmam sözün həqiq mənasında ictimai ədalət tərəfdarı idi. Hamı çalışmalıdır ki, yoxsulluğun kökü kəsilsin. Hamı məhrumları ağır durumdan çıxarmaq üçün çalışmalıdır. Ölkənin imkanları daxilində məhrumlara yardım olunmalıdır. Digər tərəfdən ölkə məsullarına xəbərdarlıq edirdi ki, saray dəbdəbəsindən uzaq olsunlar. Quranda oxuyuruq: "Və səkəntum fi miskinilləzinə zələmu." İmam hamını dəbədəbədən çəkinməyə çağırırdı. Təkrarlayırdı ki, zəif təbəqənin sədaqətinə etimad göstərin. Yada salırdı ki, məhrum təbəqənin vəziyyəti ağırdır, amma onlar hətta etiraz etmirlər. Lazım gələndə canlarını təhlükəyə də atırlar. Amma maddi durumu daha yaxşı olanlar kiçik bir problem yarananda dərhal narazılıq edirlər. Yoxsul təbəqə isə vəfalı və sədaqətlidir. İmam bunu yüksək dəyərləndirirdi. Beytül-malın düzgün xərclənməsini təkidlə tapşırırdı. İsrafın qarşısını almağa çağırırdı. Bu da əsas xətt idi. İctimai ədalət, məhrumların himayəsi, dəbdəbəçilikdən uzaqlıq İmam üçün əhəmiyyətli məsələlər idi.

Beşinci nöqtə xarici yöndədir. İmam beynəlxalq hüquqlar, zalım güclərə qarşı müxalif mövqe tutmuşdu və heç bir güzəştə getmirdi. İmam zalımların məzlumlarla qarşıdurmasında məzlumlar cəbhəsində idi. Bunu açıq bildirirdi. Dünya məzlumlarını ciddi müdafiə edirdi. Zalımlara qarşı isə güzəşti yox idi. "Böyük şeytan" adını Amerikaya verməsi İmamın maraqlı tapıntısı idi. Böyük şeytan təbirinin mərifət və elm baxımından mənası genişdir. Siz bir qurumu şeytan adlandıranda məlum olur ki, onunla necə rəftar etməlisiniz. Şeytan adı artıq münasibtələri təyin edir. İmam son günə qədər Amerikaya bu münasibətdə oldu. Həmişə də böyük şeytan sözünü işlədirdi. Bu ifadənin mənasına dərin etiqadı vardı. İnqilabın əvvəllərində bəziləri başa düşmürdülər ki, zalım rejimi himayə edən Amerikadır. Bu rejimi İran xalqı devirdi. Hansı ki kimlərsə həmin dövrdə Amerikanın, Amerikanın bəzi təşkilatlarının İranda olmasını istəyirdi. İmamın müvəqqəti hökumətlə əsas müxalifəti bu mövzudan dolayı yarandı. Biz bu hadisələri yaxından müşahidə edirdik. Bəziləri zalım rejimin Amerika tərəfindən himayə olunmasına diqqətsiz yanaşırdı. İndi həmin rejim süquta uğramışdı, amma onu himayə edən yerində qalırdı və fəal idi. Əgər ona meydan verilsəydi yenidən işə başlayacaq, zərbə vuracaqdı. Amerika zəif nöqtələri axtarırdı. Bu nöqtələrdən işə başlayırdı. Müvəqqəti hökumət bunu görməsə də İmam görürdü. Buna görə də mövqeyi qətiyyətli idi. Əslində casus yuvası olan Amerika səfirliyi məsələsində İmamın baxışı dəyişməmişdi. Müasir dünyada bəziləri bu nöqtəyə qədərincə əhəmiyyət vermədilər və zərbə aldılar. Biz buna görə kimisə məzəmmət etmək istəmirik. Amma bu gün zərbə alan bəzi dövlətlər bilməlidirlər ki, bunun səbəbi zalım rejim devriləndən sonra onu himayə edənin meydanda qalmasına diqqətsizlik olub. İmam bunu əvvəlcədən görürdü. Buna qarşı çıxdı və sona qədər Amerikaya, Amerikanın siyasi və təhlükəsizlik qurumlarına qarşı oldu.

İmam eyni zamanda uzun illər boyu Fələstini himayə etdi. İmam Fələstini, Əfqanistanı müdafiə edirdi. Sovetlər Birliyi Əfqanistana girən gündən, Amerika ilə gərgin münasibətdə olmağımıza baxmayaraq İmam Sovetlər Birliyinə qarşı sərt mövqe tutdu. Adətən dövlətlər bir dövlətlə problem yaşadıqda o biri dövlətlə problemlərə göz yumurlar. Amma İmam belə deyildi. İmam heç nəyi əhəmiyyət vermədən Əfqanistan xalqını müdafiə edirdi. Livan xalqının, Fələstin xalqının müdafiəsində dayanmışdı. Bu İmamın məntiqidir. Zalım qurumlarla mübarizə mövqeyi. Bu məntiqlə hazırkı dünyanın atmosferini tanıya bilərik, düzgün mövqe tuta bilərik. Biz İraq və Suriyada İŞİD-a qarşı necə müxalifiksə, Amerika polisinin öz xalqına qarşı vəhşiliyinə də müxalifik. Bunlar ikisə də eyni şeydir. Eləcə də Qəzzənin mühasirəsi bu xalqa qarşı zülmdür və biz buna müxalifik. Eyni dərəcədə Yəmənin bombalanmasına qarşı çıxırıq. Eyni zamanda Bəheyn xalqına qarşı zorakılığa müxalifik. Eyni zamanda Amerikanın pilotsuz təyyarələrinin Əfqanistan və Pakistan xalqını bombalamasına müxalifik. Bu məntiq İmamın məntiqidir. Zülm olan yerdə iki cəbhə var: zalım və məzlum. Biz məzlumların tərəfdarıyıq, zalımlara qarşıyıq. Bu mövqe İmamın qətiyyətlə ortaya

qoyduğu mövqe idi. İmamın məktəbində əsas xətt budur. Elə buna görə də hazırda Fələstin məsələsi bizim üçün əsas məsələ olaraq qalır. Bunu hamı bilsin. Fələstin məsələsi heç vaxt İslam Cümhuriyyətinin gündəmindən çıxmayacaq. Fələstin vacib cihad səhnəsidir və heç hadisə bizi Fələstin məsələsindən uzaqlaşdıra bilməz. Fələstində bəzi məsulların öz vəzifəsinə əməl etməməsi mümkündür. Onların hesabı ayrıdır. Amma biz Fələstin xalqını, Fələstin mücahidlərini qəbul və himayə edirik.

İmamın təfəkküründə əsas nöqtələrdən biri məmləkətin müstəqilliyi, istiqlalı idi. İmam əsarəti rədd edirdi. Bu da mühüm prinsiplərdəndir. Mən ötən il elə bu mərasimdə həmin mövzudan danışdım. İstiqlal bir millət miqyasında azadlıqdır. İstiqlalın mənası budur. Bəziləri fərdi azadlıqdan danışır, amma ölkənin müstəqqiliyinə qarşı çıxırlar. Burada ziddiyyət var. Necə ola bilər ki, bir fərdin azadlığı möhtərəm olsun, bir xalqın azadlığı yox?! Müxaliflərin, biganələrin sanksiyalarına qarşı çıxmaq lazım olduğu kimi məmləkət səviyyəsində azadlıq da lazımdır. Təəssüf ki, bəziləri nəzəriyyəçilik edir. Bəzən müstəqilliyi təcrid olma kimi dəyərləndirirlər. Bəzən iddia edirlər ki, bu gün ölkənin müstəqilliyi dəyər sayılmır. Bu barədə yazırlar, danışırlar. Təbii ki, bu sözlər cəmiyyətdə yayılır. Bəziləri belə hərəkət edir. Bu böyük səhvdir. Çox böyük və təhlükəli bir xətadır. İmam ölkənin müstəqilliyinə əhəmiyyət verirdi. Hər bir əsarəti rədd edirdi. Düşmən ötən illərdə bizə qarşı faəliyyətlərində bir məqsəd güdüb, o da bundan ibarətdir ki, müstəqilliyimizə zərbə vursun. Sanksiyalarla, hədə-qorxu gəlməklə müstəqilliyimizi hədəfə alıblar. Hamı oyaq olmalı, bilməlidir ki, düşmənin məqsədi nədir. Bu da əsas nöqtələrdən biridir. İmamın təfəkkür, yol və xəttində əsas prinsiplərdən biri - bu vurğulayacağım son nöqtədir - milli vəhdət məsələsi idi. İmam istənilən bir təfriqəyə, sünnü-şiə təfriqəsinə qarşı idi. Millətlər arasında təfriqəyə qarşı idi. Fars, ərəb, türk, kürd, lor, bəluc, istənilən bir millətə ehtiramla yanaşır, millətlər arasında təfriqəni rədd edirdi. Belə təfriqələr düşmənin siyasətlərindəndir. Buna görə də İmam ilk gündən milli birlik, vəhdət üzərində dayanır, bu məsələyə böyük əhəmiyyət verirdi. Biz bu gün həmin xətti davam etdirməliyik. Baxsanız, bu gün imperializmin dünyada əsas siyasətlərindn biri İslam dünyasında təfriqə yaratmaqdır. Bu gün amerikalılar şiə və sünnü adlarını çəkir. Şiə İslamı, sünnü İslamı deyirlər. Birini müdafiə edir, o birinin üzərinə hücuma keçirlər. Hansı ki İran İslam Cümhuriyyəti ilk gündən məzhəblər arasında təfriqəyə qarşı çıxıb. Bizim fələstinli qardaşlarımız sünnə əhlindəndir. Biz onlarla eynən Livandakı şiə Hizbullah qardaşlarımız kimi rəftar etdik. Ölkə daxilində də İmamın baxışı belə idi. İslam dünyasında İran İslam Cümhuriyyətinin mövqeyi vahid İslam ümmətidir. Bu gün Amerikaya nökərlik edən, şiələrə qarş çıxanlar təfriqə salanlardır. Amerika belə təfriqə yaradan qrupları İraq və Suriyada himayə edir. Bəzən də məxfi şəkildə yardım göstərirlər. Onların əlaltıları onların mənafeyini himayə edir. Aydın olur ki, İslam düşmənləri müsəlmanlar arasında təfriqəyə böyük əhəmiyyət verir. Buna diqqətli olmaq lazımdır. Həm şiələr diqqətli olmalıdır, həm də sünnülər. Düşmənin oynuna aldanmamalıyıq. Bu gün Amerikanın himayə etdiyi sünnilik, Londondan dünyaya təbliğ olunan şiəlik bir misal ola bilər. Hər ikisi şeytanın qardaşlarıdır. Hər ikisi Amerika, Qərb və imperializmin əlaltılarıdır.

Biz bu ilin əvvəlində qəlb və dildə birlik şüarını verdik. Sonralar da bu prinsipi təkrarlamışıq, onun üzərində dayanmışıq. Ölkəmizdə müxtəlif millətlərdən, dinlərdən, məzhəblərdən olan qardaş və bacılarımız vahid bir ailə təşkil edir. Həmd olsun Allaha ki, bu günə qədər bu birlik olub. İmkan verməyin ki, düşmən İslam fəzasına nüfuz etsin. Daha geniş müstəvilərdə sünnü və şiə qardaşlar bilsinlər ki, düşmənçilik İslamın mövcudluğu üçün təhlükə yaradır. Bu da əsas prinsiplərdəndir.

Mən İmamın yolu, məktəbindən yeddi prinsip üzərində dayandım. Şübhəsiz ki, İmamın yolu bu prinsiplərlə məhdudlaşmır. Başqaları da bu mövzunu araşdırsınlar və insanlar öz xoşladıqları sözü İmama aid etməsin. İmama aid etdiyimiz sözlər ona aid mənbələrdə olmalıdır. Özü də bu sözlər təkrar, ardıcıl şəkildə İmamın bəyanatlarında yer almalıdır. Mənim qeyd etdiyim yeddi məsələ bu qəbildəndir. İmam ilk

bəyanatından son bəyanatına qədər uzun illər boyu bu prinsiplər üzərində dayanıb. Başqaları da araşdırma aparıb bu nöqtələri görə bilər. İmamın cazibəsi, eləcə də dəf etməsi bu üsullar əsasında olub. Biz də cazibə və dəf etmə imkanları istəyirik. Həmin prinsiplər əsasında buna nail ola bilərik.

Hamı bilsin ki, gündə bir qiyafədə gələn, bir gün qaşqabaqlı, bir gün təbəssümlü olan, bir gün vəd verib, sabah hədə-qorxu gələn düşmənin məqsədi ölkəni əsarət altına almaqdır. Düşmən zalım rejim dövrünə qayıtmaq, qeyd-şərtsiz ölkəyə nəzarət etmək istəyir. İslam bu qayıdışa müxalifdir. Düşmənin bu fitnələri qarşısında möhkəm güc dayanıb. Düşmən bu güclə, İslamla müxalifdir. Düşmən İslamla ona görə müxalifdir ki, İslam maarifi, İslam hökmləri onların qarşısında möhkəm sədd çəkir. Bizim millətə müxalifdirlər. Çünki millət onların qarşısında dağ kimi dayanıb. Kim onlara daha çox mane olursa, ona daha çox müxalifdirlər. Möminlərə qarşı daha çox müxalifdirlər. İnqilabi təşkilatlar, qurumlara qarşı daha çox müxalifdirlər. Hizbullah fərdlərə qarşı çox müxalifdirlər. Bilirlər ki, onlar möhkəm sədlərdir, düşmənin nüfuzu qarşısında dayanıblar. Düşmən hökm vermək, nəzarət etmək ardıncadır. Bütün təlaşları buna görədir ki, İslam Cümhuriyyətinin tərəqqisinin qarşısını alsınlar. Bu xalqın tərəqqisi cümhuriyyətin fəaliyyətləri ilə şərtlənib. Qədim Amerika siyasətçilərindən biri deyir ki, təkfirçi terrorçu qrupların biz qərblilər üçün əhəmiyyəti yoxdur; olsunlar, eyb etməz; bizim üçün mühüm olan İran İslam Cümhuriyyətidir; çünki bu cümhuriyyət böyük bir mədəniyyət yatmaq istəyir... Əlbəttə ki, həmin şəxs imperiya sözünü işlədib və bu bir səhvdir. Deyib ki, biz İranı mühüm düşmən kimi görməliyik. Bu sözlər ümmət yaradılmasının əhəmiyyətini də göstərir.

Siz əzizlərə, uzaq yol gəlmiş, müxtəlif şəhərlərdən gəlmiş əzizlərə, İran xalqına deyəcəklərimiz bunlar idi. Sizə xoş gəldin deyirəm, yorulmayasınız deyirəm. Allah hamınızı qorusun.

Pərvərdigara! Məhəmməd və Ali-Məhəmməd xatirinə, öz rəhmət və bərəkətini bu böyük millət üzərinə nazil et.

Pərvərdigara! Öz rəhmət və bərəkətini qarşımızda belə nurani yol açmış böyük İmamın ruhuna nazil et.

Pərvərdigara! Bizi bu yolun sabit ardıcıllarından qərar ver, ölümümüzü bu yolda şəhadət buyur.

Pərvərdigara! Vəliyyi-Əsrin qəlbini bizdən razı sal.

Vəssəlamu ələykum və rəhmətullahi və bərəkatuh.

Iyun, 2015

## Ayətullah Xameneinin Quranla ünsiyyət məclisində çıxışı

## Qari oxumağa başlayan kimi Allah, Allah deyilməsinə ehtiyac görmürəm...

Hicri-qəməri 1436-cı il, mübarək ramazan ayının ilk günü

İmam Xomeyni (r) Hüseyniyyəsi

Bismillahir-Rəhmanir-Rəhim

Əziz qardaşlara çox təşəkkür edirəm. Doğrudan da, bu gün onlardan bəhrələndik. Məclis gözəl, rəngarəng, cazibədar, mənalıdır. Həmd olsun Allaha. Hər il Quran tilavəti sahəsində inkişaf nişanələri görürük. Gənclərimiz arasında, xalqımız arasında bu tərəqqi məni çox sevindirir. Allaha şükür edirəm. Bu gün də həmd olsun Allaha bu gözəl tilavətlərin sayəsində məclis mənalı oldu. Xüsusi ilə zövqlu aparıcının bu tilavətlərin savabını hədiyyə etməklə bağlı sözləri, bu məclisdə tilavətin savabının Tehranda dəfn olunan son şəhidlərin ruhuna hədiyyə olunması fikri məclisi daha da mənalandırdı. Quranın gözəl səs, qaydalara uyğun oxunması onun mənalarının qəlblərə nüfuzu üçün müqəddimədir. Əgər Quranın məna baxımından faydasını kənara qoyub yalnız gözəl səsə görə tilavətinə baxsaq, şübhəsiz ki, bu iş yüksək məqamdan enər. Quranın gözəl səslə, qaydalara uyğun oxunması ilə bağlı bütün tövsiyələr ona görədir ki, onun mənaları qəlblərə təsir etsin. Nəticədə Quranla ünsiyyət quraq, Quran rənginə, Quran sifətlərinə sahib olaq. Əgər məqsəd Qurandan təsirlənməkdirsə, bunun şəraiti, qaydaları var. Birinci qayda budur ki, Quran oxuyan, tilavət edən şəxs Qurana diqqətlə, onun mənalarına etiqadla tilavət etsin. Əgər nə oxuduğumuzu bilməsək, mənaları anlamasaq qəlbimizə təsir etməz. Belə bir şəraitdə tilavət oxuyana da, ətrafdakılara da az təsirli olar. Bu birinci şərtdir.

Mən hörmətli qarilər və ustadlardan xahiş edirəm ki, bir nöqtəyə diqqətli olsunlar. Oxuyacaqları ayələri zehnlərində nəzərdən keçirsinlər, bu ayələr barədə düşünsünlər. Ayələrin mənalarını düzgün şəkildə qəlblərində və etiqadlarında möhkəmləndirsinlər. Bu ruhiyyə, bu zəminə, bu hazırlıqla oxusunlar. Belə bir tilavət dinləyicinin ruhunun dərinliyinə nüfuz edər. Həqiqətən də, bu günə qədər siz çox irəliləmisiniz. Mən uzun illərdir ölkədə Quran sahəsində fəaliyyətləri izləyirəm. Gənclərimiz çox inkişaf edib. Qarilərimiz, ustadlarımız insafla desək çox gözəldir. Amma daha artıq təsir üçün hələ yer çoxdur.

Mən bir neçə nöqtə qeyd etmişəm. Biri budur ki, siz öz tilavətinizlə Quran mənalarını dinləyiciyə çatdırmaq istəyirsiniz. Dorğudur ki, adətən dinləyicilərin çoxu ərəb dilini, Quran dilini bilmirlər. Quranın möcüzəsi budur ki, elə bu şəraitdə, dinləyicilər dili anlamadığı halda ayələr qaydasınca çatdırılsa, xülasə də olsa mənalar dinləyiciyə ötürülür. Təbii ki bunun şərtləri var. Mən radiodan yayımlanan tilavətləri dinləyirəm. Bu gözəl imkandır. Ustadların, qarilərin oxuduqlarını belə dinləmək münasib fürsətdir. Gözəl səs baxımından qarilərimiz müvəffəqdir. Bunu xaricdəki qarilər də təsdiqləyir. Onlar İran səsini, ahəngini xoşlayırlar. Həqiqətən də sizin bəzi səsləriniz zatən xoşdur. Gözəl bir səsin başqa şərtləri də var, bu şərtləri tilavət şərtləri ilə qoşalaşdırmaq lazımdır.

Tilavət şərtlərindən biri budur ki, tilavət olunan ayəni adi halda oxuyarkən üzərində dayandığınız nöqtəni tilavətdə də bildirəsiniz. Farsca şeir oxuyan məddahlar əsas məqsədi ifadə edən söz və ya cümləni xüsusi bir şəkildə tələffüz edirlər. Adi danışıqda da bu qayda var. Adi danışıqda daha mənalı saydığınız cümləni xüsusi şəkildə ifadə edirsiniz. Quran da belə oxunmalıdır. Xüsusi sözlər fərqli tilavət edilməlidir. Cümlələr və ifadələr zehninizdə xüsusi yer aldığı şəkildə ifadə olunmalıdır. Gözəl təbir gözəl ifadə olunur. Bəzən bir mənanı dinləyiciyə çatdırmaq üçün təkrarlamaq lazım gəlir. Onu təkrarlayın. Mən bir neçə il öncə ayələri

çox təkrarlayanlara irad bildirmişdim. Demək istəyirəm ki, bəzən təkrarlamağın yeri var, bu lazımdır. Bir dəfə oxumaqla məna öz əksini tapmır. Onu təkrarlamaq lazımdır. İki dəfə, üç dəfə təkrarlansa münasibdir. Bəzən iki-üç ayəni təkrarlamaq lazım gəlir. Məqsədim bu deyil ki, ifrata varılsın. Bəzi misirli qarilər bu işdə ifrata varır. Bunun təsiri mənfidir. Mən ifrat nəzərdə tutmuram. Bir şeyi 10 dəfə təkrarlamaq xoş deyil. Ərəb ahənglərində belə təkrar münasib sayıla bilər. Amma Quran tilavətində bu münasib deyil. O qədər təkrarlamaq lazımdır ki, məna zehndə otursun. Bəzən adama elə gəlir ki, qari sadəcə kitabı əlinə alıb oxuyur, ifadələri tələffüz edir. Bu yaxşı deyil. Siz mənanı ötürməlisiniz. Dinləyicinin zehnində mənalar əks olunmalıdır. Bu bəzən ifadəni xüsusi şəkildə vurğulamaqla, bəzən təkrarla həyata keçir. Bəzən cümləni, bəzən sözü təkrarlamaq və ya xüsusi ifadə etmək lazım gəlir. Diqqət mərkəzində saxlanılası başqa bir nöqtə ləhn meyarlarını gözləməkdir. Ərəbcə ləhnlər, Quran ləhnləri bizim xalq, ifaçılar üçün bir qədər uzaqdır. Görürsünüz ki, farsca şeir oxuyan çox münasib ahənglə oxuyur. Bu şəxs ərəbcə şeir oxumaq istəsə münasib ahəng tapa bilməməsi mümkündür. Çünki ləhn, ahəng biganədir. Bizə tanış ləhn deyil. Başqa dilin ahəngini farsca ləhn, farsca ahənglər kimi hiss etmirik. Quran ləhnləri çox təkrarlandıqca tilavət əhli arasında doğmalaşır. Ləhnləri düzgün ifadə etmək lazımdır. Bəzən görürəm ki, ayəni gözəl səslə, qüvvəli səslə, yaradıcılıqla ifa edən şəxs onun ləhnini gözləyə bilmir. Sözdə ləhnə riayət etmək, ahəng nizamını gözləmək lazımdır. Quranı adi yox, ahənglə oxuyun. Tövhid dinləri, hətta bəzi qeyri-tövhid dinlərində müqəddəs sayılan mətnlər ahənglə oxunur. Bunu yaxından müşahidə etmişik. Tilavət də ahənglə olsun. Ahənglər düzgün yerinə yetirilməlidir. Ləhnlər öz ölçüləri ilə əda olunmalıdır. Əgər buna riayət olunmasa, arzulanan təsiri əldə edə bilməyəcək. Bəzən əks təsir olacaq.

Bir nöqtə diqqətinizə çatdırım. Burada olanların əksəriyyəti qaridir. Ərəb qariləri, Misir qariləri arasında yayılmış və bizim də ölkəmizə keçmiş bir hal yüksək nəfəsə əhəmiyyət verilməsidir. Mən bunu anlamıram. Biz yüksək nəfəs vermək (zilə qalxmaq) xatirinə bir neçə söz və ya ayəni bir-birinə birləşdiririk. Buna ehtiyac yoxdur. Bəzən ayənin mənası tələb edir ki, birnəfəsə oxunsun. Bunu edin. Amma tilavətin gözəlliyi, təsiri heç bir halda yüksək nəfəsə bağlı deyil. Hazırda bir sıra Misir qarilərinin məharəti yüksək nəfəsdədir. Dinləyicilər də sadəliklə uca səslə oxunulanda daha çox alqışlayırlar, Allah, Allah deyirlər. Mən bunu səhv sayıram. Dinləyici tərəfindən də səhvdir. Bizim dəyərli Misir qariləri arasında nəfəsi qısa olan qarilərimiz var. Amma həm gözəl oxuyurlar, həm də təsirli. Əbdülfəttah Şəşai də bu qəbildəndir. Onun nəfəsi qısadır. Amma ən gözəl qarilərdəndir. Allah-Taala onu və bütün Quran qarilərini öz mərhəmətindən bəhrələndirsin. Mən xahiş edirəm ki, qarilər nəfəs məsələsində özlərini incitməsinlər. Söz və ayələri də adrbaard təkrarlamağa ehtiyac yoxdur. Quran oxuyanın təşviqi, Allah, Allah deyilməsi ərəblərdən təqliddir. Xahiş edirəm ki, dinləyicilər bu işdə də həddi gözləsinlər. Bəziləri qari oxumağa başlayan kimi ardıcıl Allah, Allah deyir. Sanki qarinin sözünə davam etməsi üçün bu zəruridir. Bəzən siz ayədən çox təsirlənirsiniz. Bu zaman ixtiyarsız olaraq təşviq edirsiniz. Təşviq də ərəblərdə qayda olduğu kimi Allah, Allah deməkdir. Belə bir təşviq təkcə Qurana aid deyil. Onlar adi ahəng oxunanda da Allah, Allah deyirlər. Bunun eybi yoxdur. Amma qari oxumağa başlayan kimi Allah, Allah deməyə ehtiyac görmürəm. Xahiş edirəm ki, ustadı olduğunuz məclislərdə Allah, Allah deməkdə ifrata varılmamasını tapşırın. Qari doğrudan da çox gözəl oxuyursa təşviqin eybi yoxdur. Təşviq etsinlər. Amma təkcə "Auzu billahi minəşşəytanir-rəcim" deyilməsini gözləyib, dərhal Allahu Əkbər desək münasib deyil. Ümid edirik ki, Allah-Taala hamınızı Quranla məhşur edər. Dünya və axirətinizi Quranın bərəkəti ilə abadlaşdırar.

Vəssəlamu əleykum və rəhmətullahi və bərəkatuh

Iyun, 2015

## 32-ci Beynəlxalq Qurani-Kərim Müsabiqəsi iştirakçıları ilə görüşdə bəyanat

### İxtilaflı söz danışan ağız düşmənin ruporudur!

Ayətullah Xamenei: Quran tilavəti müqəddimədir, məqsəd deyil!

Bismillahir-Rəhmanir-Rəhim...

Bütün əziz qardaş və bacılara xoşgəldin deyirəm. Qarilər, hafizlər, Quran əhli, Quranla ünsiyyətdə olanlar Quran ayələrini tilavət edəndə həqiqətən Quran ətri həyat fəzasını bürüyür. Mən bu gözəl mərasimi təşkil edən, onu ərsəyə gətirənlərə təşəkkür edirəm. Möhtərəm qarilərə, bu gün proqramı icra edənlərə təşəkkürümü bildirirəm.

Ümir edirik ki, Allah bizi Quran əhli qərar versin. Quran əhli olmaq lazımdır. Quran tilavəti müqəddimədir, məqsəd deyil. Məqsəd Quran əxlaqı ilə tərbiyələnməkdir. Peyğəmbərin (s) möhtərəm zövcələrindən nəql olunub ki, Həzrətin (s) əxlaqı barədə deyiblər: Kanə xulquhul-quran... Peyğəmbərin (s) əxlaqı Quran idi... (Nəhcül-bəlağənin şərhi, c.6, səh. 320) Yəni Peyğəmbər (s) mücəssəm, təcəssüm etmiş Quran idi. Rəftarımız, əxlaqımız, şəxsi səciyyələrimiz Qurana uyğun olsun. Bu lazımdır. Tilavət bu yolun müqəddiməsidir. Təkcə bu da deyil. Qurana uyğun fərdi formalaşmadan əlavə, cəmiyyətimiz, həyat fəzamız da quransayağı olmalıdır.

Yol verməyin ki, cahiliyyət özünü cəmiyyətimizə, həyatımıza qəbul etdirsin. Hansı ki bu iş baş verib. Bu gün İslam dünyası cahil rejimlərin təzyiqi altında əzab çəkir. Bu gün İslam dünyası zəiflik, yoxsulluq, ixtilaf, daxili müharibələr yaşayır, onun böyük daxili mənbələri, enerjiləri öz əleyhinə işləyir. Bütün bunları İslam dünyasına zorla qəbul etdiriblər. Quran bizi bu təzyiqlərdən xilas etmək istəyir. Buna müvəffəq olmalıyıq. Quranı öyrənək, Quranla ünsiyyət quraq, Quran qarşısında təslim olaq, Qurandakı məqsədlərə doğru hərəkət üçün əzm və iradə göstərək. Bu halda bacararıq. Əgər bir addım irəli getsək, Allah-Taala bizə ikiqat güc verər. Bu gün müsəlman xalqların dərk etməli olduğu məsələ budur. Bunu dərk etməlidirlər. Bir addım atıb, sınayaq.

Biz bunu yaşadıq. Biz İran xalqı bunu təcrübədən keçirdik. İslam düşmənləri və Quran düşmənləri qarşısında təslim olmadıq, müqavimət göstərdik. Allah bizə güc verdi. Müqavimət göstərdikcə gücümüz artdı, imkanlarımız artdı, gələcəyə ümidimiz artdı. Bu, İslam dünyasına əlac nüsxəsidir. İslam düşmənlərinin İslam ümməti arasında həmişə, bu gün də izlədiyi məsələlərdən biri ixtilaf, qarşıdurma

yaratmaqdır. Bunun qarşısını almaq lazımdır. İxtilaf yaradan söz danışan hər ağız düşmənin ruporudur. Özü bilsə də, bilməsə də, bu belədir. Diqqətli olaq ki, ağızlarımız İslam və Quran düşmənlərinin ruporu olmasın, ixtilaf havası çalmasın. Dini ixtilaf, şiə-sünni ixtilafı, ərəb-əcəm ixtilafı, ölkələrarası ixtilaf, millət-tayfa ixtilafları, millətçilik təəssübləri müsəlman cəmiyyətində şölələndirilən ixtilaflardır. Onların qarşısında dayanmaq lazımdır.

Bəli, bu sözləri danışmaq asandır. Onlara əməl etmək çətindir. Amma əməl üçün yol var, yol açıqdır. Əsas amil bizim əzm və iradəmizidr. Qərara gələk. Bəsirət və əzm iki əsas amildir. Əvvəla, bəsirətimiz olsun, dostu-düşməni tanıyaq. Bu gün elə İslam ölkələri var ki, onların məsullarının bəsirətində xəta var. Dostu düşməndən seçə bilmirlər. Düşməni dost sayırlar, dostu düşmən. Beləcə, insan zərbə alır. Belə bir ölkə, belə bir baxışla zərbəyə məruz qalır. Bəsirət lazımdır. Qul hazihi səbili ədu iləllahi əla bəsirətin ənə və mənittəbəəni... De: Bu mənim yolumdur. Mən və mənə tabe olan möminlər açıq-aşkar bir dəlillə Allaha çağırırıq... (Yusuf, 108) Əgər bəsirət olsa, insan yolu düzgün tanıyar. O zaman əzm və iradə göstərsə yolu asanlıqla keçər. İlahi nüsrət budur. İn tənsurullahə yənsurkum... Bundan aydın necə demək olar?! İn tənsurullahə yənsurkum və yusəbbit əqdaməkum... Əgər siz Allaha yardım göstərsəniz, O da sizə yardım göstərər və sizi sabitqədəm edər. (Muhəmməd, 7) Allahın nüsrəti budur. Allahın yolunu tanımaq, tapmaq, izləmək, düşmənin fitnə, hiylə və zoruna təslim olmamaq! Quran biz belə təmin edir.

Bizim illik Quran toplantımız həmd olsun Allaha müvəffəq toplantıdır. Quran tədricən cəmiyyətimizdə öz yeni həyatını tapır. Quranı sevənlər, Quranla ünsiyyətə qatılanlar, Quranla mənus olanlar həmd olsun Allaha cəmiyyətimizdə artmaqdadır. Bizim Quranın hifzi, tilavəti üzərində israrımıza irad tutmasınlar ki, bunlar əsas deyil. Biz də bilirik ki, əsas deyil, vasitədir. Bu vasitələrsiz Qurana yaxınlaşmaq olmaz. Quran maarifi ilə tanış olmayan, Quran ayələrini düşünməyən, Quranla ünsiyyətdə olmayan insan Quranla hərəkət etmək istədiyi cəmiyyətə necə yol göstərə bilər?! Ziyalılarımız, gənclərimiz Quranla tanış olmalı, ünsiyyəti gücləndirməlidirlər. Düşüncəyə Quran maarifi süzüldükdə düşüncədən bayıra çıxan da o olacaq. Zehn Quran maarifi ilə zənginləşdikdə insanın dilində, əməlində, qərarlarında, rəftarlarında özünü göstərəcək. Bu bizim izləyəcəyimiz məqsəddir. Ölkə məsulları Qurana ciddi yanaşsınlar. Bu məsələni kiçik məsələ hesab etməsinlər. Quran öyrənmək, Quran tilavəti, Quranla ünsiyyət yolunda olan siz əziz gənclər bu yolu ciddi şəkildə izləyin. Quran bizim üçün gələcəyi işıqlandırır. Quran bizə doğru yolu, sirati-mustəqimi göstərir, bizi xoşbəxt edir.

Dedik ki, bu gün İslam dünyasının zəiflikləri çoxdur. Amma xoşbəxtlikdən İslam cəmiyyətində İslam və Qurana doğru hərəkət başlayıb. Məntəqə ölkələrində yaşanan İslam Oyanışı səhnədən çıxası deyil. Bu oyanış davam edəcək, inşaallah öz təsirlərini göstərəcək. İslam Oyanışı bir həqiqətdir. Bu həqiqət inşaallah hər gün daha artıq özünü göstərəcək. Bəli, alimlərin ikiqat artıq vəzifəsi var. Ziyalıların, yazıçıların, tələbələrin, araşdırmaçıların, o cümlədən xalqın sevdiyi siz qarilərin vəzifəsi ikiqat ağırlaşıb. Quranın sizi müjdələdiyi yola xalqı ümidvar edə bilməlisiniz.

İnşaallah, Allah-Taala sizi müvəffəq etsin, sizi öz yardımlarından bəhrələndirsin. İnşaallah, müsəlman dövlətləri, müsəlman rəhbərlər sözdə yox, əməldə bir dədər Qurana yaxınlaşsınlar. İnşaallah, İslam dünyası öz xoşbəxt gələcəyini Quran sayəsində əldə etsin.

Əssəlamu ələykum və rəhmətullahi və bərəkatuh.

May, 2015

## Cənab Rəhbər Ayətullah Xameneinin İmam Hüseyn (ə) adına Zabitlər və Keşikçilərin Təlimi Universitetində bəyanatı

## Cənab Rəhbər: Mən icazə verməərəm!

Bismillahir-Rəhmanir-Rəhim...

Siz əziz gənclərə, İran xalqının gözünün nuru olan əziz övladlarına təbrik deyirəm. Həm müqəddəs keşikçilik məsuliyyətini qəbul edənlərə, həm rütbə alanlara, həm də bu iftixarlı mərhələyə qədəm qoyanları salamlayıram. Bu yaradıcı, gözəl, mənalı səhnələrə görə təşəkkür edirəm. Düzülüşlər və proqramlar həm gözəl idi, həm də dərin məzmuna malik və yeni idi. Həyatın bütün sahələrində, elmdə, müdiriyyətdə, həyat tərzinin təkmilləşdirilməsində, inqilabi dəyərlərin qorunmasında bu bir neçə nöqtəyə diqqət zəruri, həm də mümkündür. Bütün işlərdə həm yenilikçilik və ixtiraçılığa, həm gözəllik və mənaya diqqət yetirmək lazımdır. Məmləkətin mühüm məsələlərində, eləcə də həyatın bütün sferalarında səthi işlərdən çəkinmək lazımdır. Dərin, mənalı, davamlı işlərə diqqət yetirilməlidir.

Allaha şükür edirəm ki, bu şəcəreyi-təyyibə (pak ağac), yəni İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) güc, inkişaf, düşüncə və əməl yetkinliyi baxımından hazırkı mərhələyə çatıb. Həmd olsun Allaha ki, hər gün irəli gedirsiniz, hər gün zahir və batini kamilləşdirirsiniz. Bu universitet özü İslam İnqilabı Keşikçiləri Korpusunun irəliyə doğru hərəkətinin göstəricilərindəndir. Əziz gənclər, mənim əziz övladlarım! Diqqət yetirin ki, sizin universitetin Xurrəmşəhrin fəthi, Fəthül-mubin əməliyyatı, Fav əməliyyatı, Kərbəla-5 əməliyyatı kimi keçmişi var. Bugünkü inkişaflar üçün həmin mücahidələr, həmin fədakarlıqlar, cəbhələrdə sizdən əvvəlkilər, sələfləriniz vasitəsilə şöləlınən, gözləri qamaşdıran nur zəmin olub. Bu nur ölkəni hərəkətə gətirir, İran İslam Cümhuriyyətinin həyat fəzasını, bu məmləkətin əziz xalqını məqsədlərə, amallara uyğunlaşdırır.

Bu gün böyük İslam İnqilabının davamı, bayrağı sizin əlinizdədir. Hansı bayraq? Yəni İslam sivilizasiyası bayrağı. Bu bayraq bəşəriyyətin səadəti üçün yol açır. Bunu hamınız bilin, İslam sivilizasiyası bütün insanlar və bəşəriyyət üçün yol açır. Bu baxış bugünkü gənclərin ixtiyarındadır. Bu yeni, təlaşlı, cazibəli baxış Böyük İmamın rəhbərliyi altında İslam İnqilabı ərsəyə gətirib. Onu bu millətin ixtiyarına verib. Bu düşüncəli, oyaq, qədirbilən xalq onu alıb və qənimət sayıb. Bu günə qədər onun keşiyində dayanılıb. İran xalqının fədakarlığının mühüm təzahürlərindən biri Müqəddəs Müdafiə idi. Bu fədakarlıq bu gün həmin bayrağı ucaya qaldırıb.

Bu bayraq, bu sivilizasiya qarşısında dünyanın müasir cahiliyyət sivilizasiyası dayanıb. İslam baxışı ədalət tərəfdarıdır, bəşəriyyətin azadlığına tərəfdardır. Bu baxış imperializm və istismar zəminələrinin aradan qalxmasına tərəfdardır, bütün dünya da istibdadın məhv olması tərəfdarıdır. Yəni dünyada iki cinah, əzən və əzilən cəbhə olmasın. İslam nizamının baxışı budur. Sizin əlinizdə olan bayraq bu bayraqdır. Qarşıda isə, əks cəbhədə isə zalım, zor deyən, təkəbbürlü, eqoist bir baxış dayanır. O, dünyanın inhisarçı, müstəbid, böyük kapitala arxalanan qüvvələrinin baxışıdır. Həmişə olublar, bu gün də mövcuddurlar. Keçmişdə açıq və utanmadan öz mahiyyətlərini göstərirdilər. Bu gün müxtəlif örtüklər altında, gözəl sözlərlə, məsələn, insan haqları, amansızlığa son kimi şüarlarla, münafiqcəsinə, riyakarlıqla işlərini irəli aparırlar. Amma millətlərin iti gözü bunu seçir. Bu iki baxışı, bu iki yanaşmanı bir-birindən ayıra bilirlər. Bu iki diskurs barışası deyil. Onlar yaxınlaşmayacaq, barışa bilməyəcək. Onlardan biri məzlumlara, dünya xalqlarına zülm-sitəm diskursudur. Digəri məzlumların zalımlar qarşısında müdafiəsi diskursu. Bunlar nec barışa bilər?! Bunlar necə yaxınlaşa bilər?! Bu gün dünya hər şeyi görür, hər şeyi anlayır. Düşmənlərimiz öz təbliğatlarında İslam Cümhuriyyətini təcrid olmuş, güşənişin kimi göstərməyə çalışırlar. Amma İslam Cümhuriyyəti təcrid olmayıb. İslam Cümhuriyyəti yarandığı zamandan bu günə qədər dünya xalqlarının qəlbində özünə yer edir. Bəli, harada təbliğat, ağı qara göstərməyə təlaş varsa həqiqət pərdələnir. Amma bu işi qısa müddət görmək olar. Baxın görün İran İslam İnqilabından bu günə qədər başqa ölkələrə səfərə gedən prezidentlərimizi xalqlar necə qarşılayıb? İnsanlar öz rəftar və danışıqlarında heyrətlərini gizlətməyiblər. Bu bir dövrə aid deyil. İnqilabın əvvəlindən bu günə qədər belə olub. Şimali Afrika, Qərbi Asiya, Şərqi Asiya, bütün bu məntəqələrə gedən prezidentlərimiz orada xalqla görüşmək istəyib. Həmin məmləkətin xalqı öz sevincini bildirib. Bu gün bütün dünyada belədir. Qərblilərin adını Yaxın Şərq qoymaq istədiyi Qərbi Asiya ölkələrində də görüşlər belə olub. Hətta Avropa ölkələrinə qonşu olkələrdə də eyni münasibət müşahidə edilib.

Bu gün sizin adınız, İran xalqının adı dünyada, millətlər arasında dünyanın azad insanları arasında uca və iftixarlı addır. Bəs dövlət arasında necə? Dövlətlər arasında da belədir. Dövlətlər də insanlardan təşkil olunur. Kimin ki qəlbi zülmətə dönməyib, kimlər ki azğın nəfs istəklərinə qərq olmayıb, kimlər ki imperializmə nökərçiliyi qəlbən qəbul etməyib, etiraf edir ki, İran xalqı əzəmətlidir, onun əzəmətli nizamı bu xalqı bu sayaq irəli apara bilib.

Ölkəmizdə təşkil olunan tədbirlərdə, istər İslam konfransında, istər bloklara qoşulmayanların toplantılarında ölkə başçılarının əksəriyyəti bir araya gəlib, öz məhəbbətlərini bildiriblər. Deyillər ki, İran bir güşəyə çəkilib. İranın təcrid olduğunu deyirlər. O şəxslər təcrid olub ki, yalnız güc, pul, dollarla qəlbləri ələ ala bilirlər. Onların bəyanatlarında, müraciətlərində, əməllərində dünya üçün cazibədar heç nə yoxdur. Əzizlərim, ey İran xalqının əziz övladları! Bu iftixarlı bayraq sizin əlinizdədir. Bu universitetdə, ölkənin bütün nöqtələrində gənclərimiz imanla hərəkətdədirlər.

Biz İslam, İslam nizamı, inqilabi hərəkat, inqilabi baxış, inqilabi ideallar vasitəsilə əldə etdiyimiz izzəti, ucalığı əldən verməyəcəyik. Bu gün düşmənlər nigarandırlar. Hər gün İran İslam Cümhuriyyəti qarşısında bir problem yaradırlar. Biz qorxmuruq, biz çəkinmirik. Əgər biz hərəkətsiz bir vücud olsaydıq bizə qarşı belə təlaş göstərməzdilər. Biz hərəkətdəyik, biz diriyik, biz inkişaf edirik, biz fəalıq, buna görə də qarşımızda problemlər yaradılmasını gözləyin. Allah-Taalanın qüdrəti, Ona təvəkküllə, ilahi vədlərə etimadla, özünəinamla bu problemlərdən ötüb-keçəcəyik. Düşmənlərimiz düzgün dərk etməyiblər, İran xalqını düzgün tanımayıblar, İslam Cümhuriyyətinin məsulları ilə lazımınca tanış deyillər. Buna görə zorakı sözlər danışırlar. Elə bu nüvə müzakirələrində zor göstərirlər. Aydın olur ki, bu milləti tanımayıblar. Bizim dövləti tanımayıblar. Bizim dövlət təslim olmayacaq. Dövlətimiz bu millətdəndir. Bu millət arasından çıxmış dövlətdir. Həmin ideallarla irəli gedib, həmin ideallarla inkişaf ediblər. Dünyada bu

düşmən qarşısında hansı dövlət, hansı millət, hansı məsul geri çəkilibsə düşmən irəli gəlib. Onlar daha artıq tələb ediblər. Onların dünya xalqlarına münasibətdə istismar və əsarətdən başqa istəyi yoxdur. Bacardıqları qədər irəli gəlirlər. Onların qarşısında əzm və iradə, təvəkkül, milli iqtidardan möhkəm divar çəkmək lazımdır.

Müzakirələrdə yeni sözlər danışırlar. Biz dedik ki, heç bir hərbi obiektimizə biganələrin müfəttişini buraxmayacağıq. Deyirlər ki, biz sizin alimlərinizlə söhbət etməliyik. Əslində onları sorğuya çəkmək istəyirlər. Biz yol vermərik ki, bizim nüvə alimlərimizə, istənilən mühüm ixtisas üzrə alimlərimizə qarşı zərrəcə alçaldıcı hərəkət edilsin. Mən icazə verməərəm ki, biganələr bizim alimlərimizi, İran xalqının layiqli və əziz övladlarını sorğuya çəksinlər. Bu layiqli övladlar elmi bu səviyyəyə çatdırıb. Dünyada heç bir ağıllı insan, heç bir dövlət buna icazə verməz. Hamı öz alimlərini gizlədir. Onların adlarının açıqlanmasına yol vermir. Həyasız düşmən istəyir ki, biz yolu açaq, gəlib bizim alimlərlə söhbət etsinlər, müzakirə aparsınlar. Nə barədə? Ölkədə ümumi elmi inkişaf barədə. Şübhəsiz, belə bir işə yol verilməyəcək. Bunu həm düşmənlər, həm də İslam Cümhuriyyətinin qərarını gözləyənlər yaxşı bilsinlər.

Əziz məsullarımız bu meydanda şücaətlə hərəkət edirlər. Bilsinlər ki, həyasız düşmənlə yeganə rəftar üsulu qətiyyət və güzəştə getməməkdir. Onlar müzakirələrdə İran xalqının istəklərini, bu xalqın əzəmətini göstərməlidirlər. Hər birimiz, hansı məsuliyyətdə kim varsa, İslam İnqilabının bərəkəti sayəsində həmin məsuliyyətə çata bilib. Siz bir gənc tələbə olaraq böyük arzularla yaşayırsınız. Məsullar müxtəlif sahələrdə uca məqsədlərə çatmaq üçün çalışırlar, xidmət göstərirlər. Hamımız xidmətçiyik. Bu həqir hamınızın xidmətçisiyəm. Zor deyən düşmən qarşısında, həyasız düşmən qarşısında, düşmənin yersiz istəkləri qarşısında, düşmənin fitnəkarlıqları qarşısında var gücümüzlə möhkəm dayanmaq hamımızın vəzifəsidir.

Mənə xəbər çatıb ki, düşmənlərimiz Fars körfəzi ölkələrinin bəzi ağılsız başçıları ilə - hamısını nəzərdə tutmuram - birlikdə təmsili (uzaqdan idarə edilən) müharibələri İran sərhədlərinə doğru çəkmək istəyirlər. İslam İnqilabı Keşikçiləri, milli təhlükəsizliyi qoruyan bütün insanlar müxtəlif təşkilatlar da oyaqdırlar, diqqətlidirlər. Yaxşı bilsinlər ki, əgər bir şeytənət baş versə, İran İslam Cümhuriyyətinin reaksiyası çox sərt olacaq. Bu aydın bir yoldur. Bu açıq və geniş bir yoldur. İran xalqının qarşısında bu açıq bir üfüqdür. İran xalqı böyük ümidlə həmd olsun Allaha ki, bu yolu gedir. Əlbəttə ki, böyük məqsədlərə doğru hərəkət zamanı yorğunluqlar, xərclər və problemlər də var. Tarixdə problemlərdən yorulmayan, dizə çökməyən, düşmən qarşısında əyilməyənlər ləyaqətli insanlar, ləyaqət ordeni almış xalqlardır. Onlar bütün təcavüzlər, sözdə, işdə təcavüzlər qarşısında öz əzm və iradələrindən möhkəm divar çəkiblər. İstər meydan müharibələrində, istər informasiya müharibəsində təcavüzkara müqavimət göstəriblər. İran xalqı bu xalqlardandır. 35 ildir ki, İran xalqı bu yolda hərəkət edir. Bu gün siz əziz gənclər bu səhnənin növrəstə bəhrələrisiniz. İnşaallah, bu ağır yükü siz və ölkə boyu işə məşğul olan, təhsil alan gənclər çiynınə götürsün. İnşallah, bu əmanəti bizdən, əvvəlki nəsillərdən daha üstün şəkildə irəli aparın, Allah qarşısında, ilahi dərgahda əziz şəhidlərin gözünü işıqlandırın.

Pərvərdigara! Məhəmməd və Ali-Məhəmməd hörmətinə, bizim dəyərli şəhidlərimizin pak ruhuna, Böyük İmamın pak ruhuna öz rəhmət və bərəkətini nazil et!

Pərvərdigara! Bu gənc qəlblərə, bu pak insanlara öz rəhmət və bərəkətini nazil et!

Pərvərdigara! Şəban ayı və qarşıdakı ramazan ayında bu gənclərə öz tövfiqini əta et, onlara özünə yaxınlığı lütf buyur.

Əssəlamu əleykum və rəhmətullahi və bərəkatuh.

May, 2015

## Cənab Rəhbərin Besət bəyanatı

### Cahiliyyət təkcə elmdən məhrumluq deyil.

Ölkə məsulları və İslam ölkələri səfirləri ilə görüşdə bəyanat

Ayətullah Xameneinin əziz Peyğəmbərin (s) Besət ildönümü münasibilə bəyanatının tam mətni

Bismillahir-Rəhmanir-Rəhim...

Bu böyük, tarixi və misilsiz bayram münasibətilə siz möhtərəm iştirakçıları, əziz qonaqları, bütün İran xalqını, dünya müsəlmanlarını , eləcə də qəlbi ədalət, insanlıq və azadlıq üçün çırpınan bütün insanları təbrik edirəm. Besət təkcə müsəlmanlar yox, hamı üçün bayramdır. Besət bayramı, besət gününün əziz tutulması səbəbi budur ki, besətin məzmununu təkrarlayaq və ondan dərs alaq. Məqsəd budur. Biz besət dərslərinə həmişə ehtiyaclıyıq. Besət müəyyən dövrə aid olan tarixi hadisə deyil, tarixin bütün dönəmləri üçündür.

Bu gün mənim Besətin böyük məcmuə olan dərslərindən seçib, haqqında qısaca danışmaq istədiyin budur ki, Besət cahiliyyətlə mübarizə üçün gəlib. İslam leksikonunda cahiliyyət əziz Peyğəmbərin (s) risalətinin doğuşundan əvvəlki dövrdür. Təsəvvür etməməliyik ki, bu cahiliyyat Ərəbistan yarmadası, Məkkə, Hicaz ərəbləri və başqa nöqtələrə aid olub, xeyr. Bu cahiliyyət ümumi olub. O zaman İran da, Rum da cahiliyyət bataqlığında qərq olmuşdu. İslam və Peyğəmbərin besəti bütün bu cahiliyyətlə mübarizə üçün gəldi. Cahiliyyət təkcə elmdən məhrumluq deyil. İslam leksikonunda cahiliyyətin çox geniş mənası var. Cahiliyyətin bir hissəsi elmdən məhrumluqdur. Amma geniş mənada cahiliyyət insanın şəhvət və qəzəb qüvvəsinin həyat fəzasına qalib gəlməsi, hakim olmasıdır. Cahiliyyət budur. Cahiliyyət, yəni bəşər cəmiyyətinin xüsusilə hakimlərin şəhvət və qəzəb meyllərinin əsarətinə düşməsi ilə onda fəzilətlərin məhv olması, rəzalətlərin hakim olması. Bu olur cahiliyyət.

Cahil xalqın həyatında bir geniş azğınlıq meydanı var. Bir tərəfdən cilovu qırmış nəfs, cinsi şəhvət və bu qəbil şeylər. Siz Ərəbistan yarmadasında mühitə baxın. Başqa fəzalar da belə idi. Cilovu qırmış vəziyyətdə şəhvətə qərq olmuşdular.  Bacaran adam şəhvətpərəstliklə məşğul idi. Digər tərəfdən, şəhvətə tabe olan bu insanlar qan tökməkdə təsəvvürə gəlməyən dərəcədə həddi aşırdılar. Öz körpələrini öldürürdülər. Qəd xəsirəlləzinə qətəlu əvladəhum... (bax: Ənam, 140) O kəslər ki övladlarını qətlə yetirir səbəbi səfehlikləridir. Səfəhən biğeyri ilm... (həmin ayə)  Bu səfehlik elə həmin cahiliyyətdir.  Daşürəklik, qəddarlıq elə bir həddə çatır ki, başqalarının günahsız ailə-övladı bir kənara, öz övladlarına da rəhm etmirlər. Bu olur cahiliyyət. Bir tərəfdən şəhvət,bir tərəfdən qəzəb. O zaman həyat mühiti bu iki azğın hissin əsiri olur. İslam gəldi ki,  bu vəziyyəti aradan qaldırsın. Bu hallar Sasani İranında da, Roma İmperatorluğunda da  var idi. Zalım imperator və hakimlərin nəzarəti altında olan başqa yerlərdə də bu hal var idi. İslam bütün bu çirkinliklərin qarşısında dayandı. Lilaləminə nəzira... (bax: Fürqan, 1) İslam bütün dünyaya xitab etdi. Bu İslamın göstərişidir.

Bu gün də dünyada cahiliyyət var. Biz gözümüzü açmalı, cahiliyyəti tanımalıyıq. Bu gün də eynən həmin məna mövcuddur. Ölçüsüz, cilovsuz, məntiqsiz şəhvətpərəstlik. Bu gün qərb dünyasında şəhvətpərəstliyin məntiqi “təmayül”dür. Soruşuruq ki, nə üçün homoseksualizmi yayır, genişləndirirsiniz? Deyirlər ki, bu insanda bir meyldir. Budur məntiqləri! Şəhvətdə, cinsi meyllərdə  heç bir qırmızı xətt tanımayanlar  növbə qəddarlığa çatanda müşahidə edirik ki, günahsız insanları necə qətlə yetirirlər, heç bir təqsiri olmayan millətləri necə məhv edirlər. Bu hazırda mövcud olan cahiliyyətdir, modern cahiliyyət! Bu cahiliyyətin Quran təbirincə ilkin cahiliyyətdən fərqi odur ki, bu gün cahiliyyət elmlə silahlanıb. İnsanlara xoşbəxtlik gətirəcək elm onu qara günə salıb, bəşər cəmiyyəti üçün bədbəxtlik səbəbi olub. Bu gün dünyaya meydan oxuyanlar öz elmi nailiyyətlərinə güvənib zor deyənlərdir. Bu gün əllərindəki silah, informasiya vasitələri, təhlükəsizlik texnologiyaları, böyük təbliğat maşınları elmin səmərəsidir. Bütün bunlar şəhvət və qəzəbin xidmətindədir. Dünyanın hazırkı vəziyyəti belədir. İslam cəmiyyəti belə bir reallıqla üzbəüzdür. İslam dünyası bunu hiss etməli, dərk etməlidir.

Bu  gün cahiliyyət təkrar istehsal edilib. İlkin İslam dövründəkindən daha güclü, yüz dəfə, min dəfə təhlükəli. Həmd olsun Allaha ki, bu gün İslam da təchiz olunub. Müxtəlif vasitələrdən istifadə etməklə İslam dünyaya yayılıb. Müvəffəqiyyətə, düşmən fitnəsi üzərində qələbəyə ümid kiçik ümid deyil. Birinci dərəcəli zərurət bəsirətdir. İkinci izzət və himmətdir. Bunlar İslam millətlərinin ehtiyac duyduğu şeylərdir.

Bu gün  İslam dünyası həqiqətən problem yaşayır.  Öz məntəqəmizdə İslam ölkələrinin vəziyyətinə baxın. Pakistan və Əfqanıstandan başlamış Suriya, Livan, Fələstinə qədər, Yəməndən başlamış Liviyaya qədər ölkələr,  Qərbi Asiya və Şimali Afrika ölkələri çoxsaylı problemlər içindədir. Böhran problemi, qardaş qırğını problemi, Allahdan xəbərsiz qruplaşmalar problemi. Bütün bunların arxasında isə böyük güclərin, başda Amerikanın planları dayanır. Öz milli mənafelərinə xidmət adı ilə meydana daxil olur, şəhvət və qəzəb hökmü altında istədiklərini edirlər. Günahsız insanları qətlə yetirir, terrorçu qruplaşmaları dəstəkləyirlər.

Təbliğatları həqiqətən də genişdir, bütün mövzuları əhatə edir. Biz iranlılar Çörçil adı ilə tanışıq. İngiltərənin ötən nəsil siyasətçilərindəndir. Onun məzhəkəli bir sözü var. Deyir həqiqət o qədər qiymətlidir ki, onu yalana bükük qorumaq lazımdır!! Məntiqə baxın! Həqiqətin tam ziddi olan yalanın təbliği! Qərb siyasətində müşahidə etdiyimiz budur.

Bu gün amerikalılar iddia edirlər ki, terrorla mübarizə aparmaq iatəyirlər. Hansı ki ən qəddar terrorçuları özləri ərsəyə gətirib. İŞİD-i kim yaradıb? Özləri etiraf edirlər ki, İŞİD-in yaranmasında mühüm rol oynayıblar. İŞİD-ə bənzər irili-xırdalı terror qruplaşmalarını İraq və Suriyada, başqa yerlərdə millətlərin canına salan kimdir?  Bu cinayətkarların, qatillərin əlindəki silah-sursat, dollarlar haradandır? Bu pullar haradan gəlir? Amerikanın siyasəti, göstərişləri əsasında məntəqədə terrorçu qrupları dəstəkləyən kimdir? İmperialistlərin məntəqədə  terrorçu qrupları yaratmasına, genişləndirməsinə, onları himayə etməsinə şübhə var?! Bu məntəqənin hansı nöqtəsinə baxsan orada terror hadisələrində düşmənin əlini görərsən. Qəzzədə, Qərb Sahilində Fələstini təzyiq altında saxlayan saxta sionist rejimi kim himayə edir? Onlara yol açan kimdir? Onların arxasında kim dayanıb? Başda Amerika olmaqla  qərb dövlətləri bu rejimi himayə edir. Belə bir vəziyyətdə şüarları terrorla mübarizə, İŞİD-ə qarşı müxalifətdir. Yalan deyirlər, sözləri həiqəqətə ziddir. Bu cahiliyyətdir. Bu müasir dünyamızda mövcud olan cahjiliyyətdir.

Oyaq olmalıyıq. Əziz qardaşlar, əziz İran xalqı, böyük İslam ümməti, ölkə başçıları! Bilin ki, biz bu cahiliyyətin  qarşısını ala bilərik. Bu imperializm öz xəbis siyasətləri ilə məntəqəmizdə başqa əllərlə müharibə aparır. Öz mənafeləri naminə məntəqə ölkələrini ya ölkə daxilində qrupları qızışdırırlar, bir-birinin üstünə salırlar. Öz mənafeləri yolunda belə edirlər. Silah istehsalçılarının cibini doldurur, süquta uğramaqda olan  iqtisadiyyatlarını bu yolla dirçəltmək istəyirlər. Məqsədləri budur, oyaq olmalıyıq.

Farz körfəzi məntəqəsi haqqında danışırlar. Fars körfəzində təhlükəsizlik körfəz ölkələrinin müştərək mənafeyidir. Biz körfəz ölkələriyik,  müştərək mənafelərimiz var. Biz qonşuyuq, burada təhlükəsizlik bizim xeyrimizədir. Əgər Fars körfəzi təhlükəsiz olsa, hamımız bu təhlükəsizlikdən faydalanarıq. Qeyri-sabitlik olsa bu hamımıza zərərdir. Təhlükəli körfəz hamı üçün təhlükəlidir. Burada təhlükəsizliyi körfəzin sahibləri təmin etməlidir. Amerika kimdir ki, gəlib Farz körfəzi haqqında fikir bildirsin?! Onlar sabitlik yox, mənafe arxasıncadırlar. Bir yerdə böhran yaratmaq istəyəndə bu işi görür və görənləri himayə edirlər.

Bəli, Yəmən qarışdı,  uşaq və qadınların qətlgahına döndü. Bu təhlükə deyil? Bu təhlükəni kim dəstəkləyir? Amerika! Təəssüf ki,  səbəbkarların da adı müsəlmandır. Onlar aldanıblar. Himayə edən odur, plan cızan odur, terroru yayan onlardır.

Sonra da deyirlər İran terroru dəstəkləyir. Biz terrorla mübarizə apardıq, terrora sillə vurduq. Terror ölkəmizdə düşmənlərimizin pulu ilə, Amerikanın planı əsasında  baş qaldırdı. İran xalqı ölkə daxilində terrorçuların başına zərbə endirdi. Bundan sonra da belə olacaq.

Biz öz ölkəmiz daxilində, İraqda, Suriyada, Livanda terrorla vuruşanlarla həmkarlıq etdik, kömək göstərdik, bundan sonra da edəcəyik. Biz terrora qarşı dayanmışıq. Məntəqənin ən xəbis və təhlükəli terrorçuları sionistlərdir. Biz sionistlərə qarşıyıq. Bizə deyirlər İran terroru dəstəkləyir. Sizsiniz terroru dəstəkləyən! Amerika  terrorçu sionist rejimin hamisidir. Amerika İŞİD-i yaratdı, onu himayə etdi. Siz Suriyada insan öldürən, insanı diri-diri yandıran, ölünün sinəsini yarıb ürəyini çıxaran və dişinə çikən terrorçuları himayə edirsiniz. Siz onlara arxa durdunuz, onlara həvəs verdiniz.  Sizin pilotsuz təyyarələriniz Pakistan və Əfqanıstanda evləri viran qoydu, xalqın toy mərasimini əzaya çevirdi. İraqda da belə hadisələr baş verdi. Bu işləri siz görürsünüz. Terror sizin əməlinizdir. Terrorçu sizsiniz. Deyirsiniz İran terroru himayə edir, hansı ki terror sizin işinizdir. Biz terrora müxalifik və istənilən terorçu ilə mübarizə aparırıq. Biz zülmə düçar olan hər kəsi müdafiə edəcəyik. Bu gün Yəmən xalqı zülmə məruz qalıb. Bundan böyük zülm nə ola bilər ki, rəcəb kimi haram ayda müsəlmanları qətlə yetirirsiniz. Məkkə müşrikləri də rəcəb ayı gələndə müharibəni dayandırırdılar.

Bu gün haram rəcəb ayında yəmənli ailələri əzaya batıranlar o günün məkkəlisindən çirkin və alçaqdır. Uydurma bəhanələr, yalan iddialarla bir sutkada bir məntəqəyə 100-200 dəfə havadan hücum olur. Yəmən xalqı məzlum xalqdır. Bəhreyn xalqı məzlum xalqdır. Fələstin xalqı daha ağır zülmə məruz qalıb. Uzun illərdir ki, bu xalq təzyiq altındadır. Biz bacardığımız qədər, gücümüz çatan qədər məzluma kömək edəcəyik. İslam bizə tapşırır ki, zalımla sərt, məzlumla mərhəmətli olaq. Bu Əmirəlmömininin (ə) tapşırığıdır. Biz demirik ki, qardaşın zalım da olsa, məzlum da, onu müdafiə etməlisən. Bu cahiliyyət şüarıdır. Quran belə demir. İslam bunu inkar edir. Məzlum kim olur-olsun onu müdafiə etmək lazımdır.

Məntəqə ölkələri diqqətli olsunlar. Məntəqənin, İslam toplumunun düşmənlərinin məqsədi məntəqə ölkələrini bir-biri ilə qorxutmaqdır. Onlar qorxunc düşmən siması yaratmaq, diqqəti əsil düşmən olan imperializm, təcavüzkar və çoxsaylı kompaniyalar, sionistlərdən yayındırmaq istəyirlər. İranı ərəblərə, bir milləti o birinə, şiəni sünniyə qarşı qoymaq düşmən siyasətlərindəndir. Buna qarşı çıxmaq lazımdır. Bu siyasətlərlə mübarizə cahiliyyətlə mübarizədir. Bu günün modern cahiliyyəti qəddar, rəhmsiz, hərtərəfli təchiz olmuş cahiliyyətdir. Bu cahiliyyətlə diqqətlə mübarizə aparmaq lazımdır. İran xalqı mübarizə aparıb və aparacaq.

Xoşbəxtlikdən məntəqə xalqları oyanıb. Bəli, İslam Oyanışını müvəqqəti olaraq boğdular. Amma oyanış, bəsirət məhv olası deyil. İran xalqı oyaqdır, bir çox məntəqə xalqları agahdır. Həmd olsun Allaha, İslam ümməti oyanmaqdadır. Bəli, düşmən cövlan edir, batil bir manevr aparır. Bu gün Peyğəmbərin besəti ilə bağlı vəzifələrimiz bunlardır. Diqqətli olmalıyıq ki, İslam ümmətinin missiyası yaddan çıxmasın, ümmətin gücünü görə bilək. Xoşbəxtlikdən İslam ümmətinin gücü böyük gücdür. Sübutu budur ki, uzun illər çalışsalar da məntəqədə oyanış və müqaviməti səhnədən çıxara bilməyiblər. Bu oyanışın mehvəri olan İslam Cümhuriyyəti ilə 35 ildir mübarizə aparırlar. Həmd olsun Allaha ki, məğlub olublar və olacaqlar.

Pərvərdigara! Bu yolun bütün şəhidləri və mücahidlərinə öz salam və rəhmətini çatdır. Pərvərdigara! Bizə bu dərsləri öyrədən, qarşımızda bu yolu açan böyük İmamı övliyalarınla məhşur et. Əziz şəhidlərimizi Peyğmbərlə məhşur buyur.

Vəssəlamu ələykum və rəhmətullahi və bərəkatuh

May, 2015

## Müəllimlər və maarif işçiləri ilə görüş

## Amerika! Bu olası iş deyil ki, siz vurub aradan çıxasınız. Artıq o addım atılsa ilişəcəksiniz və biz sizdən əl çəkməyəcəyik!

Cənab Rəhbər Ayətullah Xameneinin müəllimlərlə və maarif işçiləri ilə görüşdə bəyanatı

Bismillahir-Rəhmanir-Rəhim...

Çox xoş gəlmisiniz, mənim əzizlərim! Öz pak nəfəsinizlə bu fəzanı, Huseyniyyəni ətirləndirdiniz. Doğrudan da müəllimin nəfəsi pak nəfəsdir. Bir fəzada müəllimlər olarsa insan əmin olur ki, o fəzada, o məkanda Allahın rəhmət və bərəkəti var. Ümid edirik ki, Allah-Taala bu böyük işi, bu böyük məsuliyyəti yerinə yetirməkdə sizə yardımçı olacaq. Həm siz müəllimlər, həm də təhsil sahəsində çalışanlar vəzifələrini layiqincə yerinə yetirə biləcəklər.

Rəcəb ayıdır. Sizin ifa etdiyiniz mənalı və gözəl surudda rəcəb ayına, təvəssülə, zirk və duaya işarə olundu. Bu ayda dua oxuyan möminlər Allahdan istəyirlər: Əllahummə fə əhdini hudəl-muhtədin vərzuq-nictihadəl-muctəhidin və la təcəlni minəl-ğafilinəl-mubədin... Duanın hər üç hissəsi çox əhəmiyyətlidir. Son hissə məğfirətlə bağlıdır və bu da bütün işlərin əsasıdır. Vəğfirli yəvməddin...

Hidayət olanların hidayəti, təlaş göstərənlərin təlaşı bu duada Allahdan istənilir. Diqqət etsəniz, bu iki amil məndə və sizdə olarsa, bütün problemlər həllini tapar. Həm hidayət olanların hidayəti, həm təlaş göstərənlərin bəşər tarixindəki təlaşları nəsibimiz olar. Danışığımızda, rəftarlarımızda bu hiss edilər. Duanın üçüncü hissəsində mümkün bir təhlükəyə işarə olunur: Və la təcəlni minəl qafilinəl-mubədin... Qəflət, xəbərsizlik ən böyük təhlükədir. Yoldan, məqsəddən, gücdən, imkanlardan, düşməndən,

vəzifədən xəbərsizlik bu gün bizi hədələyir. Bizim ən böyük düşmənimiz qəflətdir. Düşmən qarşısında bizi yendirən qəflətdir. Və la təcəlni minəl-qafilinəl-mubədin... Bu qəflətin nəticəsi Allahdan, məqsəddən, nemətlərdən uzaqlaşmaqdır. Duanın məzmunu mərifət, tövhid, həyat dərsidir. Bu diqqətlə həmin duaları oxuyur, həm bu ayın fəzasından bəhrələnirik.

Müəllim həftəsi əziz və böyük şəhid mərhum Ayətullah Mütəhhərinin mübarək xatirəsi münasibətilə qeyd olunur. Şəhid Mütəhhərinin üstün xüsusiyyətləri çox idi. Amma nəzərimcə, onun şəxsiyyətində əsas göstərici müəllim olması idi. O hövzədə, universitetdə müəllim idi. Adi həyatda da müəllim idi. Söhbətləri təlim idi, dərs idi. Çünki ixlaslı idi, çünki ictihada malik idi. Yəni təlaş göstərirdi. Mən onun elmi təlaşlarını yaxından müşahidə etmişəm. Hər mövzu ilə bağlı qeydləri vardı. Harada zəruri bir nöqtə görürdüsə onu dərhal qeyd edirdi. Qeydlərini müəyyən bir yerdə toplayırdı. Mənə müxtəlif mövzularda topladığı qeydlərini göstərmişdi. Təəccüb edirdim ki, bu işləri görmək üçün necə səbir, hövsələ, enerji lazımdır. Elə bunun nəticəsidir ki, şəhadətindən 35 il ötüb, amma onun kitabları, onun sözləri yaşayır, aktualdır. Həmin sözlər, həmin kitablar, həmin təlimlər bu gün gənc nəsil üçün faydalıdır, araşdırmaçıların istifadəsindədir. Əlbəttə ki, bütün bunlarla kifayətlənmək lazım gəldiyini demirəm. Yeni sözlər, yeni düşüncələr, yeni şübhələr var. Kimlərsə Mütəhhəri yolunu getməli, onun kimi çalışmalıdır. Amma Mütəhhəri adı həmişə yaşayacaq bir addır.

Bu gün müəyyən məsələləri nəzərinizə çatdırmaq istəyirəm. Onlardan bəziləri təlim-tərbiyə sahəsinə aiddir. Başqa mövzular da var. Amma bu gün əsas mövzumuz təlim-tərbiyə mövzusudur. Bu mövzu mənim üçün çox mühümdür. Çünki təlim-tərbiyə gerçəkdən gələcək nəsillər üçün mühüm bir ocaqdır. Hər halda gələcəyimiz var, iyirmi il, iyirmi beş il sonra iş başına yeni nəsillər gələcək. Bu gün həmin nəsil hazırlanır, yaranmaqdadır. Bu nəsli yetirən müəllimdir, təlim-tərbiyə sahəsidir. Siz bir nəsil hazırlayırsınız. Onu necə hazırlayacaqsınız? Bu çox əhəmiyyətlidir. Məmləkətin gələcəyi, dünyanın gələcəyi, təlim-tərbiyə sahəsinin təlaşlarından asılıdır. Bu kiçik məsələ deyil. Bu həddə əhəmiyyətli başqa bir sahə yoxdur. Bəli, universitetdə, hövzədə də dərs oxuyurlar. İctimai mühitlərdə də tərbiyə prosesi gedir. Amma müəllimin rolunu əvəz edəcək bir şey yoxdur. Bugünkü körpənin, sabahın insanlarının düşüncə və ruhunun formalaşmasında müəllimin rolu misilsizdir. Onun uşaq və yeniyetmənin on iki il təhsil müddətində fəaliyyətləri böyük dəyərə malikdir. Nə ata-ana, nə mühit onu əvəz edə bilər. Müəllim bu qədər dəyərlidir. Təlim-tərbiyə sahəsi belə dəyərli sahədir. İctimai həyatla rabitədə təlim-tərbiyə, təhsil sahəsinin rolu kiçik deyil. Siz on üç milyona yaxın şagirdlə işləyirsiniz. Bu iyirmi altı milyon ata-ana deməkdir. Ümumilikdə otuz doqquz milyon insan, bir milyon da müəllim və maarif işçisi bir sahədə çalışır. Qırx milyon insan bu sahə ilə bağlıdır. Cəmiyyətlə belə bir rabitəsi olan ikinci sahə tanıyırsınızmı?! Elə bu əsasla təlim-tərbiyə sahəsinə ümid edirik.

Mən bu qurum barədə bir neçə söz demək istəyirəm. Bunu əvvəllər də demişəm. Yenə də təkrarlayıram. Bu sahəyə nə qədər pul xərclənsə həmin pul sərmayə kimidir. Təlim-tərbiyə sahəsinə belə baxmalıyıq. Təhsil iqtisadiyyatı heç bir iqtisadiyyata bənzəmir. Burada nə xərcləyirsinizsə onu sərmayə kimi yatırırsınız. Bu sözlər olduqca mühümdür və ölkə məsullarının, xalqımızın bu mövzuya diqqətlə yanaşmasını istəyirəm.

Bu böyük qurumda istinad nöqtəsi, mərkəzdə dayanan, bayraqdar kimdir? Müəllimdir! Bu meydanın sahibi müəllimdir. Müxtəlif qurumlar, təşkilatlar, sənəd və kitablar bu meydan sahibi ilə əlaqəlidir. Yaxşı müəllim o müəllimdir ki, onun əvəzi yoxdur. Yaxşı müəllim adi bir məktəbdə böyük insan tərbiyə edə bilər. Biz bunun şahidi olmuşuq. Yaxşı müəllim böyük insanlar, böyük şəxsiyyətlər yetişdirir. Qurum mühüm qurumdur və işdə müəllimə bağlıdır.

Müəllimin işi nədir? Mənim qeydlərim var. Müəllim müəyyən xüsusiyyətlərə malik nəsil tərbiyə etməlidir. Bu nəsil elmli, imanlı, özünəinanan, nikbin, sağlam, fiziki və ruhi baxımdan yetkin, işıqlı olmalıdır. O iradəli olmalıdır. Xərci az, faydası çoxdur. Müəllim belə bir nəsil tərbiyə etməlidir. Bu kiçik iş deyil. Deyirlər ki, müəllim peyğəmbərlərin işini görür. Bunun dərinliyinə gedək. Bu sözlər nə deməkdir? Yuzəkkihim və yuəllimuhumul-kitəbə vəl-hikmə ... Peyğəmbərlərin işi budur. Peyğəmbərlərin işi bəşəriyyəti xilas etməkdir. Peyğəmbərlərin işi üstün bir cəmiyyət yaratmaqdır. Budur peyğəmbərlərin fəaliyyəti. Deyirik ki, müəllimin işi peyğəmbərlərin işidir. Müəllimlik peyğəmbərlik peşəsidir, sözün canı budur.

Bəli, bunun şərtləri var. Biri qeyd etdiyim iqtisadiyyat məsələsidir. Təhsilinin iqtisadiyyatı, müəllimlərin maddi durumu zəruri şərtlərdəndir. Dövlət qurumlarındakı məhdudiyyətlərdən xəbərdarıq. Mövcud məhdudiyyətlərə biganə deyilik. Dövlət məsullarının vəzifəsidir ki, bu sahəyə xüsusi diqqət yetirsinlər. Qeyd etdim ki, bu sahəyə pul xərcləmək sərmayə yatırmaqdır. Bu sərmayənin cavabı, qazancı var. O əlavə gəlir gətirir. Bu sadəcə pul xərcləmək deyil. Dövlət idarəçiliyində, dövlət qərarlarında bu nəzərə alınmalıdır. Bunu etməsək düşmən sui-istifadə edər. Bu nöqtədən düşmən informasiya vasitələrində, radioda dövlət və İslama qarşı sui-istifadə edə bilər. Bunlar düşmən üçün bir vasitə olar. Əlbəttə ki, bizim müəllimlər həm ayıqdırlar, həm nəcabətlidirlər, həm mömindirlər. Mənim buna etiqadım var. Ötən illərdə bunu sınaqdan keçirmişik. Bu gün də ölkə boyu müşahidə edirik ki, müəllimlər düşmənin fitnəkarlıqlarından xəbərsiz deyillər. Onlar sosial vəziyyət adı altında şüar verirlər. Bu şüarların arxasında fitnəkar siyasi şüarlar da var. Hamı bilir ki, onların məqsədi xeyirxahlıq deyil. Onlar müəllimə can yandırmırlar, başqa məqsədləri var. Bu gün də həmin qüvvələrin bu işləri gördüyünə şahidik. Əvvəlkindən daha artıq çalışırlar. Bunun səbəbi canıyananlıq deyil. Onlar bizim üsul-idarə, dövlətçiliyimiz üçün problem yaratmaq istəyirlər. İslama, məmləkətimizə, İslam Respublikasına düşmənçilik səbəbindən belə edirlər. Hər halda onların əlinə bəhanə verməməliyik. Dövlət qurumları, məsullar, iqtisadiyyat sahəsinə baxanlar bu məsələyə diqqət yetirsinlər. Onlar bu məsələyə öz praqramlarında önəmli yer versinlər. Bu bir nöqtədir. Qeyd etdim ki, müəllimlər ehtiyatlı olmalıdırlar və ehtiyatlıdırlar. Xoşbəxtlikdən müəllimlərimiz agahdırlar. Bəziləri nizama, inqilaba bacardıqları şəkildə zərbə vurmaq istəyirlər. Onlar İslam Cümhüriyyəti ilə düşməndirlər. Nizama münasibətdə kinlidirlər. Müəllimə can yandırmırlar. Hər sahədə sui-istifadəyə çalışırlar.

Başqa bir məsələ maarif işçilərinin universiteti məsələsidir. Əvvəllər bu barədə danışmışam. Möhtərəm nazirlə, müəllimlər arasında bu məsələyə toxunmuşam. Maarif işçiləri universiteti mühüm bir məsələdir. Sonu müəllimlərin tədris, təlim-tərbiyə üçün cəzb edilməsi olan təlaşlar İslam və inqilabın meyarları ilə

ölçülməlidir. Əgər bu işi görsək nəticə sizin istədiyiniz kimi olacaq. Bunda Allahın da razılığı var. Belə olsa məmləkətin gələcəyi üçün də faydalıdır. Əzəmətli və ümidverici bir nəsil yaranar. Buna riayət olunmasa məqsədə çata bilmərik. Maarif işçiləri universitetində həm dərs proqramları, həm də dərslərin məzmunu mühümdür. Təbii ki, elmi heyət, ustadların da kimliyi əhəmiyyət kəsb edir. Biz kimi tərbiyə etmək istəyirik? Xalqın övladlarını kim tərbiyə etməlidir? Kim böyük insanlar yetişdirməlidir? Bütün bunlar çox mühümdür. Müəllimlərin səlahiyyəti, dərs kitabları, dərs kitablarının məzmunu böyük əhəmiyyət kəsb edir.

Başqa bir mühüm məsələ təhsil sistemində köklü dəyişiklikdir. Bu məsələyə möhtərəm nazir işarə etdi. Görülən işlərdən danışdı. Mən hesabatı görmüşdüm. Bu sahədə ilk məsələ budur ki, dəyişiklik zərurətini hamı qəbul etsin. Bu qədim təhsil sistemində heç bir eyb olmasa belə uzun müddət islahatlar aparılmaması onun dəyişməsi üçün yetərli dəlildir. Təhsildə islahatlar sənədi xoşbəxtlikdən 2-3 ildir var. Bu sənədlər əsasında proqramlaşdırma aparılıb. Gözəl mütəxəssislərin işlədiyi bir sənəddir. Onlar öz sahələrində mütəxəssis insanlardır. Deyirlər ki, köklü dəyişikliklər sənədi uzun müddətə, böyük təlaşlarla hazırlanıb. Onun ərsəyə gəlməsində hamı çalışıb. Bunu təhsil məsulları da təsdiq edir. Möhkəm və mühüm sənəd olduğunu deyirlər. Deməк, onu həyata keçirmək lazımdır. Təbii ki, belə layihələrin qısamüddətdə nəticə verəcəyini gözləmək olmaz. Onun 3-5 ilə nəticə verməsini gözləməməliyik. Nəticələri səbirlə gözləmək lazımdır. Mühüm nöqtələrdən biri budur ki, sənədin bütövluyu qorunsun. Dedilər ki, sənədin bəzi maddələri həyata keçirilib. Bu yaxşıdır. Amma bütün maddələri reallaşdırmaq lazımdır. Bu əsaslı bir məcmuədir. Əgər onun məsələn 40 maddəsini yerinə yetirib başqalarını saxlasaq nəticə əldə etmərik. Bir sözlə, sənədin bütövlüyü qorunmalıdır. Bütün maddələr həyata keçəndən sonra iş irəli gedəcək. İş sürətlənər və düzgün nəticə əldə olunar.

Başqa bir nöqtə budur ki, ölkənin təhsil sistemi bu sənədlə tanış olsun. Ondakı mövzulardan xəbərdar olsunlar. Məktəbdə tədrislə məşğul olan müəllim bu sənədin ondan nələr istədiyini bilməlidir. Məktəb müdiri sənəd əsasında hansı məsuliyyətlər daşıdığından xəbər tutmalıdır. Sənədin tələbləri aydın olmalıdır. Sənədin tələblərini geniş miqyasda həyata keçirmək üçün plan olmalıdır.

Digər tərəfdən, bu işə mətbuat, informasiya vasitələri kömək etməlidir. Hətta belə bir təklif var ki, radio-televiziya şəbəkəsində buna xüsusi yer ayrılsın. Bunu təhsil məsulları ilə radio-televiziya məsulları müzakirə etməlidir.

Hörmətli nazirin də toxunduğu başqa bir mühüm məsələ var. Bu altıncı proqramın tutumudur. Hazırda altıncı proqramın siyasətləri hazırlanır. Sonra proqram özü işlənəcək və təsdiqlənəcək. Növbəti mərhələdə icra olunacaq. Bu proqram əsasında təlim-tərbiyə məsələsi, əsaslı dəyişiklik sənədi aydınlaşmalıdır. Bilməliyik ki, şəmsi 1404-cü ilə təhsil sistemində vəziyyət necə olacaq.

Başqa bir nöqtəni təlim-tərbiyə məsullarının diqqətinə çatdırıram. Ehtiyatlı olun ki, hansısa başqa səthi proqramlar əsaslı dəyişikliklər proqramının yerini tutmasın. Sadəcə dəyişiklik gedir deyə sevinməməliyik.

Səthi dəyişikliklər mühüm deyil. Əsas məsələ köklü dəyişikliklərdir. Bu sistem tədricən yenidən qurulmalıdır. Bu mühümdür.

Xoşbəxtlikdən buna şərait də var. Mən ölkə miqyasında nəzər salanda görürəm ki, məsulların təhsildə keyfiyyət dəyişiklikləri aparmaq şəraiti var. Sistem dəyişikliklərə hazırdır. Bir gün bizim 18 milyon şagirdimiz vardı. Bu gün şagirdlərimizin sayı 13 milyondan azdır. Bu bir fürsətdir. Bir zaman biz təhsil fəzası baxımından çətinlik yaşayırdıq. Ölkədə 2-3 növbə dərs tədris olunurdu. Artıq bu vəziyyət yoxdur. Ölkənin əksər yerlərində vəziyyət münasibdir. Bu işə maraq göstərənlər var və bu cərəyanı qorumaq lazımdır. Deməк, bu gün dəyişikliklər aparmaq üçün şərait var. Xoşbəxtlikdən ölkədə sabitlik hökm sürür, məsullar həvəslə işə məşğuldurlar. Bu gün biz təhsildə keyfiyyət dəyişiklikləri apara bilərik. Bir daha vurğulayıram ki, bu işdə mehvər müəllimlərdir. O, meydanın ortasındadır. Siz əziz müəllimlər bir mehvərsiniz. Mən bütün ölkə boyu müəllimləri salamlayıram. Ümid edirəm ki, Allah-Taala bütün əziz müəllimləri öz sayəsində hifz etsin.

Bir nöqtə də təlim-tərbiyə çərçivəsindən kənardadır. Bu ölkənin əsas problemlərindəndir. Mən düşmənin İran İslam Cümhüriyyəti ilə rəfarlarını nəzərdə tuturam. Ötən 35 ildə ölkəmizdə böyük xalq hərəkatı, irəliləyiş İslam Cümhüriyyəti düşmənlərinin gözünə tikan olub. Rəcəz oxuyurlar. Bacardıqları hər yola əl atıblar. Amma İran xalqı onların gözündə heybətlidir. Biz bu heybəti qorumalıyıq. Bu heybət hifz olunmalıdır. Bu bir həqiqətdir, təxəyyül deyil. Biz böyük ölkə, 70 milyondan yuxarı sayı olan millətik. Böyük mədəniyyət və tariximiz var. Başqa məntəqələrlə müqayisədə şücaət və əzəmətimiz var. Bunun bir nümunəsi 8 illik müqəddəs müdafiədir. Həmin 8 ildə bütün dünyanın, Şərq və Qərbin supergücləri, onların əlaltıları, əl-ələ verib İran xalqını dizə çökürmək istədilər. Amma bacarmadılar. Belə bir millətin düşmən gözündə heybət və əzəmətli olması düzgün deyilmi?! Bu əzəməti qorumalıyıq. Bu sözləri müxtəlif ölkələrin siyasətçiləri, məsulları bizə deyir. Bəziləri də öz ölkələrində bunu dilə gətirir. Bu xəbərlər bizə çatır. Ölkəmizə qarşı sanksiyalar hər hansı başqa ölkəyə tətbiq olunsaydı həmin ölkə dağılardı. Amma İran İslam Cümhüriyyəti yerindən tərpənməyib. Bu kiçik məsələ deyil. Bu çox böyük hadisədir. Əlbəttə ki, dünyadakı təbliğat sistemi dünya ictimaiyyətinin həqiqəti bilməsinə mane olur. Amma bir çox xalqlar, xüsusilə bizə yaxın olanlar həqiqəti bilirlər. Dünyanın bütün siyasiləri həqiqətdən xəbərdardır. Onların sözlərinə fikir verməyin. Avropa və Amerikanın siyasiləri, sözçüləri dildə bir söz desələr də, qəlblərində ölkəmizin, millətimizin əzəmətini hiss edirlər. Onlar bu xalqın ləyaqətini təsdiqləyirlər. Amma bunu dilə gətirməyi özlərinə sığışdırmırlar.

Mən dəfələrlə nüvə müzakirələri barədə danışmışam. Deyiləsi sözləri demişik. Amma hamı yadda saxlasın ki, bir millət öz kimliyini, əzəmətini biganə qarşısında qoruya bilməsə alçalar. Bunu xarici siyasət məsulları, bütün başqa məsullar, tanınmış şəxsiyyətlər bilsinlər. Öz kimliyimizin qədrini bilməliyik. Düşmən bizi hədələyir. Ötən neçə gündə iki Amerika rəsmisi hərbi hədə-qorxu ilə çıxış edib. Biz böyük məsuliyyəti olmayanları yada salmırıq. Mən anlaya bilmirəm ki, hədə-qorxu altında müzakirələrin nə mənası var?! Hədə-qorxu altında müzakirə aparaq?! Başımız üstündə qılınc tutublar. Yox, İran xalqı bunu qəbul etməz. İran xalqı hədə-qorxu altında müzakirələrə getməz. Nə üçün hədələyirlər? Nə üçün çox yanlışlığa yol verirlər? Deyirlər filan məsələlər olmasa İrana hərbi hücum etməyimiz mümkündür. Əvvəla çox səhv edirlər. İkincisi mən sabiq ABŞ prezidentinin vaxtında demişəm ki, vurub-qaçmaq dövrü qurtardı. O zaman da hədə-qorxu gəlirdilər. Artıq bu olası iş deyil ki, siz vurub aradan çıxasınız. Artıq o addım atılsa ilişəcəksiniz və biz sizdən əl çəkməyəcəyik. İran xalqı sizi rahat buraxmayacaq. Biri bu xalqa

təcavüz etsə biz ondan əl çəkməyəcəyik. Bu nöqtəyə hamı diqqət yetirsin. Müzakirə aparan qrup da buna diqqətli olsun. Qırmızı və əsas xətlər deyildi, bu xətlərə həmişə diqqətli olsunlar. İnşaallah bütün bunlar onların nəzərindədir və bu xətləri aşmazlar. Amma bu da qəbul olunası deyil ki, qarşı tərəf ardıcıl hədə-qorxu gəlsin. Bu nə hədə-qorxudur? Sizin bu müzakirələrə ehtiyacınız bizdən az deyil. Bəli, biz sanksiyaların aradan qaldırılmasını istəyirik. Amma sanksiyalar götürülməsə başqa yolla ölkəni idarə edə bilərik. Bunu sübut etmişik. Mən bir zaman bunu demişdim. İndi görürəm ki, xoşbəxtlikdən ölkə iqtisadiyyatçıları, məsullar bu sözü təkrar edir. Deyirlər ki, ölkə iqtisadiyyatının bu sanksiyalardan asılı olması düzgün deyil. Belə deyil ki, sanksiyalar qaldırılsa problemlər də aradan qalxacaq. Xeyr, bu problemləri öz iradəmizlə, öz əllərimizlə aradan qaldıra bilərik. Əlbbətə ki, sanksiyalar olmasa problemləri aradan qaldırmaq daha asandır. Sanksiyalar olsa bir qədər çətindir, amma mümkündür. Müzakirələrə münasibətdə vəziyyətimiz belədir. Amma hazırkı Amerika dövlətinin müzakirələrə ciddi ehtiyacı var. Onlar öz hesabatında deyə bilərlər ki, biz İran İslam Respublikasını müzakirələrə gətirə bilmişik. Məsələn, filan mövzunu onlara qəbul etdirdik. Onların buna ehtiyacı var. Ehtiyacları bizdən çox olmasa da hər halda bizim qədər ehtiyacları var. Nə üçün hədə-qorxu gəlirlər? Mən hədə-qorxu altında müzakirəni qəbul etmirəm. Qoy müzakirə aparsınlar, razılıq əldə olunsun, bunun eybi yoxdur. Əlbəttə ki, bu işdə qırmızı xətlər gözlənilməlidir. Amma heç bir halda zoru qəbul etməsinlər. Təhqiri, hədə-qorxunu qəbul etməsinlər.

Bu gün onlar dünyada nüfuzlarını itiriblər. Bu gün Səudiyyə Ərəbistanının Yəməndəki cinayətləri heç bir regionda görünməyib. Təyyarələri bir ölkə üzərinə göndərirlər ki, nə üçün filankəsin prezidentliyini qəbul etmirsiniz?! Xalqı, infrastrukturları vurur, cinayət törədir, qadın və uşaqları qətliam edirlər. Od vurub ölkəni yandırırlar. Bunun heç bir izahı yoxdur. Amerika da bu cinayətləri himayə edir. Bundan böyük rüsvayçılıq olar?! Bu gün Amerikanın məntəqə xalqları arasında zərrəcə hörməti yoxdur. Hamı baş verən hadisələri görür. Amerikalılar açıq deyirlər ki, biz bu cinayəti müdafiə edirik, xəcalət də çəkmirlər. Sonra da bizə deyirlər ki, siz nə üçün kömək edirsiniz? Biz tibbi yardım göstəririk. İstədik yaralılara, xəstələrə dava-dərman göndərək. Silah göndərmək fikrimiz yox idi. Onların bizim silaha ehtiyacları yoxdur. Yəmənin bütün hərbi hissələri, ordu qərargahları xalqın əlindədir. Mübariz xalq, Ənsarullah bütün bunları nəzarət altına alıb. Onların silaha ehtiyacı yoxdur. Biz onlara tibbi yardım göstərmək istədik. Siz bir ölkəni mühasirəyə alıb tibbi yardıma yolu bağlamısınız. Ərzağın, enerjinin qarşısını kəsmisiniz. Belə bir vaxtda deyirsiniz ki, kimsə onlara kömək etməsin. Hətta qırmızı aypara cəmiyyətinə xidmət göstərməyə icazə vermirlər. Digər tərəfdən Səudiyyə Ərəbistanını kəşfiyyat məlumatları təchiz edir, silah verir, daşınma işində kömək göstərirlər. Siyasi baxımdan təşviq edirlər. Onların şəxsiyyəti yoxdur. İranın tutduğu yol mətin, möhkəm, aqibəti xoş olan bir yoldur. Düşmənin gözünə tikən olsun, bu yol İlahi tövfiqlə son nəticəyə çatacaq. İran xalqı müvəffəq olacaqlar. Düşmən görəcək ki, İran xalqına qarşı çirkin məqsədləri həyata keçmədi.

Allahın rəhməti olsun əziz şəhidlərimizə ki, canlarından keçdilər. Allahın rəhməti olsun böyük İmama (r) ki, qarşımızda belə bir yol açdı. Allahın rəhməti olsun səhnədə bu sayaq möhkəm dayanmış siz əziz mömin qardaş və bacılara.

Əssəlamu əleykum və rəhmətullahi və bərəkatuh

May, 2015

## Fəhlələrlə görüş

### Əziz Peyğəmbərimiz (s) fəhlənin əlindən öpüb...

Cənab Rəhbər Ayətullah Xameneinin Beynəlxalq Fəhlə Günü münasibətilə bəyanatı

Bismillahir-Rəhmanir-Rəhim

Əvvəla, bütün əziz qardaş və bacıları salamlayır, ədalət təcəssümü, bəşər tarixinin parlaq çöhrəsi Əmirəlmömininin (ə) mövlud günü münasibətilə əvvəlcədən təbrik edirəm. Eyni zamanda, həzrət Cəvadul-Əimmənin (ə) mövludu münasibəti ilə sizlərə təbrikimi çatdırıram. Rəcəb ayının bərəkəti təkcə bu mövlud günlərinə aid deyil. Özümü də, sizi də rəcəb ayının bərəkətlərindən faydalanmağa dəvət edirəm. Rabitələri gücləndirmək, Allahla qəlb bağlılığını artırmaqla addım ataq. Əgər hər birimiz Allah-Taala ilə rabitəmizi gücləndirsək, bir çox problemlər, çətinliklər öz-özünə aradan qalxacaq. Mən cənab nazirə də təşəkkürümü bildirirəm ki, dəqiq və gözəl nöqtələrə işarə etdi. İstər Sosial Təminat Nazirliyində, istərsə də dövlətin başqa orqanlarında məsulların aydın istiqamətləri gücləndirməsini istəyirəm. Fəhlələrlə bağlı bir çox mövzular başqa nazirliklərlə əlaqəlidir.

İş görmək lazımdır. Gözəl sözlər çox danışmışıq. Belə sözləri tez-tez təkrarlamış, gözəl qərarlar çıxarmışıq. Amma cəmiyyətin həyatını dəyişən, onu yaxşılığa aparan söz yox, işdir. Əsas məqsədlərin həyata keçməsində təsirli olan bizim işimizdir. Allah-Taala sizə və bizə lazımınca hərəkət üçün tövfiq əta etsin.

Bu gün sizinlə, məmləkətin fəhlələri ilə, əziz insanlarla görüş fəhlə sinfinə sevgimizin göstəricisidir. Bu günə qədər çox danışmışıq, bu gün də bəzi nöqtələri yada salacağam. Məqsəd bu gürüşdə fəhlələrin zəhmətini dəyərləndirməkdir. Öz düşüncəmizdə və İran xalqının düşüncəsində işin nə dərəcədə əhəmiyyətli olduğunu möhkəmlətmək istəyirik. Bilməliyik ki, bütün böyük nailiyyətlər iş sayəsində əldə olunur. İş deyəndə bu sözün ümumi mənasını nəzərdə tuturuq. İş dəyərlidir. İş dəyərli olduğundan fəhlənin cəmiyyətdə dəyəri yüksəkdir. Məşhur rəvayətdir ki, Həzrət Peyğəmbər (s) fəhlənin əlini öpüb. Bu təkcə tərif yox, bir təlimdir. Bu əsasla iş və işçini, fəhləni dəyərləndirmək, xoşsözlər demək istəyirik. Məsullar fəhlələrlə bağlı problemlərə diqqətli olmalı, həmin problemlərin aradan qaldırılmasına çalışmalıdırlar. Bəli, problemlər var. Ölkədə işlə bağlı müəyyən problemlər yaşanır. İşdən çıxardılma,

maaşların yubanması halları var. Bu görüşdə məqsədimiz məsulların diqqətini həmin problemlərə yönəltməkdir.

Mənim gördüyüm budur ki, fəhlə sinfi inqilabın əvvəlindən bu günə qədər məmləkət üçün dəyərli iş görüblər. Həqiqəti desək, insafla danışsaq bu belədir. Əvvəla, iş və fəhlə özü dəyərlidir. İkincisi, onların ötən illərdə müxtəlif və çətin sahələrdə iştirakını qeyd etməliyik. Üçüncü mühüm nöqtə budur ki, dəyərli fəhlə sinfi onları inqilabın əvvəlindən nizama qarşı qoymaq istəyənlərin hiyləsinə aldanmayıb. Onlar belə bir böyük fədakarlığa imza atıb. Müxtəlif dövrlərdə fəhlələrin probemləri olub. Amma onlar inqilab boyu imtahandan alnıaçıq çıxıblar. Qeyd etdiyim kimi, mövcud problemlər sözlə, danışmaqla həllini tapan deyil. Addım atmaq, yollar tapmaq, iş görmək lazımdır. İkinci növbədə, iqtisadi problemlərin həlli üçün daxili qüvvələrə güvənmək lazımdır. Fəqərə sütunları istehsaldan ibarətdir. Biz müqavimət iqtisadiyyatının fəqərə sütunlarından danışdıq. Bu sırada əsasən daxili istehsalın gücləndirilməsi yer alır. Əgər bu iş görülsəydi, bütün təlaşlar bu istiqamətdə yönəldilsəydi, problem tədricən həllini tapardı. İş öz dəyərini alardı, fəhlə dəyərli olardı. Ciddi problem olan işsizlik tədricən azalıb, sonda aradan qalxardı. Əsas məsələ istehsaldır.

Bəziləri deyə bilər ki, sizin tez-tez təkrarladığınız, və bizim üzərində dayandığımız daxili istehsal prosesini sanksiyalar, beynəlxalq təzyiqlər şəraitində rövnəqləndirmək mümkün deyil. Mən inkar etmirəm ki, düşmənlərin İran xalqına qarşı bu amansız sanksiyaları, inqilab düşmənlərinin xalqayönəli təzyiqləri təsirsizdir. Şübhəsiz ki, təsirsiz deyil. Bununla belə, mən sanksiyaların təşkilatlanmış bir hərəkatın qarşısını ala biləcəyini inkar edirəm. İstehsalın çiçəklənməsinə yönəli ümumi hərəkatın qarşısını almaq olmaz. Mən bunu qəbul etmirəm. Mən ölkəyə nəzər salıram, görürəm ki, bəzi sahələrdə xüsusi ilə sanksiyaların təsiri ağır olub. Bununla belə məsulların, fəhlələrin, təlaşlı gənclərin sayəsində istehsal irəli gedib. Mən bunu görürəm. Bu göz qarşısındadır.

Hərbi sənayeni yada salaq. Siz bu sahəni 15-20 il qabaqkı vəziyyətlə müqayisə edin. 10 il qabaqla da müqayisə etsəniz görərsiniz ki, necə böyük inkişaf olub. Hərbi istehsalda heyrətamiz nailiyyətlər var. Hansı ki hərbi sənayeə qarşı sanksiyalar daha güclü olub. Hərbi sənayeə təzyiq ötən ilin, bu ilin söhbəti deyil. Uzun illərdir bu sahəyə təzyiqlər var. Amma həmin sahə inkişaf edib. Biotexnologiya sahəsində də inkişaf böyükdür. Hansı ki həmin sahədə də sanksiyalar məhdudiyyətlər yaradıb. İş bir yerə çatıb ki, dünyanın tanınmış təhsil ocaqlarında iranlı tələbəyə bu peşələrə yiyələnmək icazəsi verilmir. Halbuki həmin sahələrdə böyük bir inkişaf müşahidə edirik. Bu sahədə məlumat almaq istəyən adamlar müraciərt edə bilər, burada gizli bir şey yoxdur. Dünyanın yeni texnologiyalarından olan nanotexnologiya sahəsində də böyük inkişafımız var. Bu sahədə bizə kömək edən olmayıb. Bundan sonra da kömək edən olmayacaq. Biz bu sahədə irəlidəyik. Gənclərimiz, alimlərimiz, araşdırmaçılarımız bu sahədə çalışırlar və ciddi nailiyyətlər əldə olunub. Innovasiya sahəsini götürək. Bu sahədə böyük inkişaf var. Bir müəssisədə elmi araşdırmalar və bu araşdırmaların nəticəsinin tətbiqi böyük nailiyyətdir. Mən innovasiya müəssisələri ilə yaxından tanış olmuşam. Orada ciddi iş gedir, gənclərimiz, alimlərimiz ciddi çalışırlar. Innovasiya müəssisələri sahəsində 10-15 il qabaqla müqayisədə çox inkişaf etmişik. Bütün bu inkişaflar qadağalar dövründə əldə olunub. Təbii ki, düşmənin amansız sanksiyaları olmasaydı inkişaf daha böyük olardı. Bunu inkar etmirik. Bu da olar bilərdi ki, diqqətsizlik göstərək, neft pullarından istifadə edək, idxala daha çox yer verək, nəticədə istehsal geri qalsın. Bu mümkün idi. Bizim inkişafımızın bir qismində sanksiyaların rolu olub. Məcbur olub təlaş göstərmişik. İdxal yolu açıq olanda, istədiyimizi xaricdən gətirə biləndə insanlarda səhlənkarlıq yaranır, istehsala maraq azalır. Bütün bunlara əsaslanaraq deyə bilərəm ki, sanksiyalar şəraitində istehsalın inkişafının mümkünsüzlüyünü iddia etmək düzgün deyil. Bu

mümkündür. Hansı sahədə qərar çıxarıb, addım atsanız, öz gücünüzü ortaya qoysanız, Allah-Taalanın yardımı ilə bu iş olasıdır. Biz bunu imtahandan çıxarmışıq.

Hazırda bəzi sənaye sahələri üzrə dünyada öndəyik. Bəndlər tikilməsi sahəsini misal göstərmək olar. Bizə bu sahədə kim kömək edib?! Hazırda İran bənd tikilməsində dünyada öndə gedən ölkələrdəndir. Bəzi ölkələrdə həmin bəndləri Qərb şirkətləri böyük qiymətə qurur. İranlı gənclər isə bunu daha üstün və ucuz qiymətə başa gətirirlər. Biz bu sahədə inkişaf etmişik. Ötən illərdə bu sahədə bizə kim kömək edib?! Nüvə enerjisi də bu qəbildəndir. Bir çox başqa sahələrdə də eyni uğurlar var. Mən inanıram ki, ölkənin bir sıra iqtisadi problemləri, o cümlədən fəhlələrin problemləri, fəhlələrin sosial vəziyyəti, işsizlik milli istehsal güclənərsə öz həllini tapacaq. Bu zaman yeni iş yerləri açılır, milli ləyaqət hissi güclənir. İnsanlar özlərini başqalarından asılı hiss etmir. Ölkə öz daxili qüvvələrinə güvənəndə ehtiyacsız olur. İnsan müəyyən məsələləri dünya ilə həll edə bilər. Amma müzakirələr mizi arxasına hansı vəziyyətdə getmək mühümdür. Siz özünüzü güclü hiss edirsiniz, yoxsa zəif? Bu çox mühümdür. İnsan özünü güclü hiss edəndə bir cür müzakirə aparır, zəif hiss edəndə başqa şəkildə. Əgər ölkədə iqtisadiyyat möhkəm olsa, müxtəlif məsələləri dünya ilə müzakirə etmək olar. Amma müzakirələrdə sənin mövqeyin üstün olmalıdır. Müzakirələrə ehtiyac səbəbindən getməməlisən. Belə olanda düşmənin dili uzun olur, ardıcıl şərtlər qoyur. Boş sözlər danışırlar. Mən çıxış yolunu bunda görürəm. Əvvəlcədən demişəm ki, hamı öz gücünü milli istehsalın gücləndirilməsinə sərf etməlidir. Əlbəttə ki, bu məqsədə çatmaq üçün müəyyən vasitələrə ehtiyac var. Bu yolda həm sərmayə yatıranın, həm fəhlənin, həm istifadəçinin, həm dövlət məsullarının vəzifələri var. Hamı bu işdə həmkarlıq etməlidir. Xalqın dövlətlə sözdə və işdə birliyi elə budur. Hamı həmkarlıq etsə ölkənin inkişafı yolundakı böyük daşı qaldırıb kənara atmaq olar.

Sərmayə sahibləri, imkanlı insanlar sərmayə yatırmalıdırlar. Mən elə insanlar tanıyıram ki, öz kapitallarını daha gəlirli sahəyə qoya biləcəkləri halda onu daha az gəlirli milli istehsal sahəsinə yatırıblar. Deyirlər məmləkətə xidmət etmək istəyirik. Bu məqsədlə istehsala pul yatırdılar. Bu sahədə qazanc azdır. Amma onlar başa düşdülər ki, ölkənin ehtiyacı var. Bu bir ibadətdir. Ölkənin ehtiyacını düşünən, can yandıran sərmayə sahibi əgər pulunu daha çox qazanc xatirinə başqa sahələrə yox, istehsala yatırırsa bu işin böyük rolu var. Bəli, sərmayə sahiblərinin bu sahədə rolu var. Bu sahədə çalışqan və vicdanlı fəhlənin rolu var. Fiziki iş ağır işdir. Fəhlə öz ömrünü, vaxtını, enerjisini sərfetdiyi işdə vicdanlı olarsa, bu bir ibadətdir. Mən siz əzizlərlə görüşlərdə əziz Peyğəmbərimizin (s) bu rəvayətini nəql etmişəm. Həzrət buyurur ki, Allah rəhmət etsin işini möhkəm, düzgün görən kəsə. İstər sənayedə, istər əkinçilikdə, istərsə də başqa sahələrdə iş düzgün, vicdanla görüləndə məhsul da yaxşı olur. Fəhlənin bu işi ibadət ola bilər.

İnsaflı, vicdanlı istifadəçi də milli istehsala kömək edə bilər. Əgər istifadəçi alıcı ad arxasınca, marka arxasınca qaçmasa, ölkənin məsləhətini, faydasını nəzərə alsa milli istehsala, iranlı fəhləyə kömək edib. Bu gün Brend sözü çox təkrarlanır. Brend arxasınca qaçmasaq bu istehsala kömək olar. Təəssüf ki, bəziləri sözdə fəhləyə köməkdən danışsalar da, işdə ona zərbə vururlar. Fəhləyə zərbə onun istehsal etdiyi mala arxa çevirib həmin malı xaricdən gətirməkdir. Bəzən bu mallar daha baha qiymətə gətirilir. Hansı ki, bəzi sahələrdə biz dünyada irəlidəyik. Ölkəmizdə daha yaxşı istehsal olunan mal ola-ola xaricdən mal gətirilir. Bu hər birimizin, dövlətin vəzifəsidir ki, ölkə daxilində istehsal olunan mala yol açaq. Sosial Müdafiə Naziri buradadır. Mən xahiş edirəm ki, dövlət dövlətin istifadəsində olan malları xaricdən gətirməsin. Dövlət özü bir istifadəçidir. Deməyin ki, bizə lazım olan filan şey ölkədə yoxdur, xaricdən gətirməyə məcburuğ. Nə üçün ehtiyacınızı bu gün dilə gətirirsiniz? Məgər sizin proqramınız yoxdur? Bu gün ehtiyacınız olan malın istehsalı üçün iki il qabaq addım ata bilərdiniz. Bunlar mühüm məsələlərdir. Dövlət edə bilər ki, kağız-qələm tutmuş tikinti materiallarına qədər olan ehtiyacını daxili bazardan əldə etsin. Belə malları xaricdən gətirməyi özünüzə haram edə bilərsiniz. Bu işdə səhlənkarlıq olmaz. Dövlət

məsulları bunun qarşısını almalıdır. Biz bütün bunları sınaqdan keçirmişik. Neçə illər öncə mən məsullardan birini çağırıb dedim ki, öz işinizdə xarici qələmlərdən istifadə etməyin. Onlar bunu qəbul etdilər. Sonradan aydın oldu ki, həmin müəssisədə ehtiyac duyulan şeylərin 98 faizini daxili bazardan alıblar. Yalnız iki faiz ölkə daxilində olmayıb və xaricdən gətirilib. Demək, bu işi görmək olar. Bəli, alıcı, istifadəçi də milli istehsala öz töhfəsini verə bilər.

Mühüm məsələlərdən biri qaçaqmalçılıqla mübarizədir. Bu mövzu üzərində çox dayanmışıq. Müxtəlif dövlətlər hakimiyyətdə olduqları zaman bu məsələ ilə məşğul olublar. Bu sahədə müvəffəq olmaq lazımdır. Mümkünsüz iş yoxdur. Qaçaqmalçılığın qarşısı qəti şəkildə alınmalıdır. Mən bir dəfə xatırlatmışam ki, qaçaqmalçılıqla yalnız sərhəddə mübarizə aparılmasın. Əlimizdə olan təqribi rəqəm budur ki, bu gün milyardlarla dollar qaçaq yolla gələn mallara xərclənir. Çox böyük rəqəmlərdən danışırlar. Böyük pulların qaçaqmala sərf olunduğu deyilir. Qaçaqmal sərhəddən başlamış dükanlara qədər izlənilməlidir. Bu çox mühümdür. Qaçaqmalçılıqla mübarizə aparanlar ibadət edir.

Milli istehsalda başqa sütun daim idxal olunan qurğulardır. Bu qurğular nəzərdən keçirilməlidir. Təbii ki, hər şey dövlətin əlində deyil. Qurğuların bir hissəsi qeyri-dövlət sektorunda istifadə olunur. Amma dövlət idxalın milli istehsala vurduğu zərbənin qarşısını ala bilər.

Bu sahədə təbliğat və informasiya vasitələrinin də rolu var. Radio-televiziya, başqa informasiya şəbəkələri milli istehsala rəğbət yaratmaq üçün təbliğat aparmalıdır. Bu təsirsiz deyil.

Mühüm məsələlərdən biri parlamentin öhdəsində olan qanunların sabitliyidir. İqtisadiyyata, o cümlədən işə aid qanunlar tez-tez dəyişməməlidir. Bu qanunlar sürətlə dəyişdikdə proqramlaşdırma aparanlar çətinliyə düşür.

Ölkədə mədəniyyət sahəsinə cavabdeh insanlar işsizliklə mübarizə, işə maraq yaratmaq sahəsində iş görməlidir. Çətin işi qəbul etmək lazımdır. Çətin işdən qaçıb asan iş axtarmaq düzgün deyil. Əgər çətinliyi qəbul etməsək müvəffəq ola bilmərik. Hamı asan iş ardınca gedə bilməz. Elm və texnologiyada, sənayedə müvəffəqiyyət qazananlar çətinliyə dözməklə müvəffəq olub. Cəmiyyətdə buna maraq yaratmaq üçün ideoloji iş aparılmalıdır.

Qanunsuzluq, cinayətlə mübarizə aparanların da rolu az deyil. İndi maliyyə qanunsuzluqlarından çox danışılır. Təkcə danışmağın faydası yoxdur. Oğru, oğru deməklə oğru oğurluqdan əl çəkməz. İrəli getmək, məsələyə müdaxilə etmək lazımdır. Dövlət məsulu qəzetçi deyil ki, yalnız danışsın. Bəli, mətbuatın işi danışmaqdır. Biz isə iş görməliyik. Əgər işdə fəsadın qarşısını ala biliriksə, bu işi görməyimiz lazımdır.

Bütün bunlar bizim vəzifələrimizdir. Müxtəlif sahələrdə biz bu vəzifələrə məsuluq. Əgər ölkənin iqtisadi problemlərini həll etmək istəyiriksə milli istehsal üzərində dayanmalı, bu sahədə çalışmalıyıq. Qeyd etdim ki, hamının bu sahədə müəyyən məsuliyyəti var. Bəzilərinin məsuliyyəti ağır, bəzilərinin məsuliyyəti yüngüldür. Amma hamı məsuldur. İqtisadi problemlərin-in həllini Lozanna, Cenevrə, Nyu-Yorkda axtarmamalıyıq. Problemlərin açarı ölkədədir. Hamı çalışsın, hamı təlaş göstərsin, inşallah problem həll olacaq. İran xalqı, dövlət məsulları ötən illərdə böyük işlər görüblər. İstehsal məsələsini də həll etmək olar. Hazırki dövlət də həmd olsun Allaha, məşğuldur, həvəslə çalışır. Dövlətin tərkibində bacarıqlı, bilikli insanlar var. Çalışsınlar, iş görsünlər, inşallah problemlər həll olar.

İnsafla desək, həqiqətən də bizim fəhlə cəmiyyətimiz nəcabətli bir cəmiyyətdir. Mən bu sinfi inqilabın əvvəl günlərindən, hətta inqilabdan əvvəlki günlərdə müxtəlif aksiyalarda, 57-ci ilin hadisələrində görmüşəm və yaxşı tanıyıram. Bəziləri ilə yaxından tanışam. Uzun illər onlar meydanda olub. Mən özüm

prezident olduğum dövrlərdən bu günə qədər fəhlə sinfini dövlətə qarşı qoymaq istəyiblər. Amma fəhlə cəmiyyəti böyük əzm və nəcabətlə çətinliklərə dözüb, mövqeyini dəyişməyib. Bu çox dəyərlidir. Məsullar əzəmətli fəhlə cəmiyyətinin qədrini bilməlidir. Onlar çətinliklərə dözərək çalışıblar. Onların nəcabətinin cavabı budur ki, hamı problemlərin həlli üçün addım atsın. Heç şübhəsiz, Allah-Taala xeyir niyyəti olan, xeyir iş görmək istəyənlərə, ilahi hədəflərə doğru hərəkət edənlərə yardımçı olacaq.

Ümid edirəm ki, Allah-Taala siz əzizləri, əziz fəhlələri, bu sahədəki məsulları, bu sahədə təlaş göstərənləri öz lütf və mərhəmətindən bəhrələndirəcək. Fəhlə cəmiyyətinin şəhidləri peyğəmbərlə məhşur olacaq. Qarşımızda bu yolu açan böyük İmam (r) peyğəmbərlə məhşur olacaq.

Əssəlamu əleykum və rəhmətullahi və bərəkatuh

Aprel, 2015

## İmam Rizanın (ə) hərəmində çıxış

### Bu gün imkanlarımız böyükdür!

Bismillahir-Rəhmanir-Rəhim...

Allah-Taalaya şükür edirik ki, Həzrət Əbül-Həsən Ər-Rizanın (ə) barigahı civarında növbəti dəfə, daha bir il siz əziz qardaş və bacılar, zəvvarlarla görüşü lütf etdi.

Bacarıqlı iranlı müsəlman qədim Novruzu əqidəsinə və istəyinə uyğun şəkilə saldı. Novruzun formasını saxladı, mahiyyətini dəyişdi. Qədim Novruz padşahların Novruzu idi. Müstəbid sultanlar və hakimlər üçün bir fürsət idi. Onlar bu yolla öz zahiri əzəmətlərini millətlərə nümayiş etdirirdilər. Oturub onlardan hədiyyə gözləsinlər. Hətta Bəni-Üməyyə və Bəni-Abbas dövründə Novruz saraya daxil olmuşdu. Fars hökmdarlarının rəftar və adətlərinə əməl edilirdi. Amma iranlı müsəlman bu adəti öz mənafeyinə uyğun dəyişdirdi. Bu dəyişiklik birbaşa olmadı. Amma siz əsirlər ötəndən sonra görürsünüz ki, Novruz xalq arasında münasibətlərin genişlənməsi üçün vasitəyə çevrilib. Allah-Taalanın müqəddəs zatının, əzəmət və izzətinin izharı amili olub. İranlı Novruzu mahiyyətcə xalqa aiddir. Novruz münasibətilə insanlar bir-birləri ilə səfa-səmimiyyət, eşqlə rəftar edirlər. Bir-birlərini təbrik edirlər, hədiyyə verirlər. İllər və əsrlər ötdükdən sonra Novruzda tarixi, hakimlərə məxsus adət-ənənə qalmayıb. Novruz günləri, il təhvil olanda (dəyişəndə) ölkədə insanların ən izdihamlı yeri İmam və İmamzadələrin müqəddəs barigahıdır.

Ötən gecə, gece yarı bu müqəddəs hərəmdə 100 minlərlə mömin pak qəlblə əzəmət və qüdrət mənbəyinə üz tutub Allahı ilə danışırdı. Halları dəyişən Allahdan özləri üçün yaxşı hal istəyirdilər. Dini mərasimlər keçirildi. Demək, bizim Novruzumuz qədim Novruz deyil, müasir iranlı Novruzudur. Müsəlman millət Novruzu özü üçün qədim ənənədən sərmayə götürə bilib. Bu sərmayə ilə öz hədəflərinə doğru gedir. Ümid edirik ki, Allah-taala əziz İran xalqına kömək olacaq, bu xalq bütün sahələrdə öz bacarıqlı ixtiralarını işə salacaq. Bu il Novruz günləri İslam dünyasının əzəmətli xanımının Həzrət Fatimeyi-Zəhranın (s) şəhadətinə təsadüf edir. Şübhəsiz, Novruz mərasimi o böyük Xanımın (s) ehtiramına zidd olmamalıdır. Şübhəsiz, olmayacaq da! Bu gün mən siz əziz qardaş və bacılara, burada toplanmış insanlara, bütün İran xalqına demək üçün müəyyən nöqtələr nəzərdə tutmuşam.

Söhbətə bir Quran ismarcı ilə başlayıram. Allah-Taala qələbə vəd etdiyi kəslər üçün şərt qoyub: "Və innəllahə əla nəsrihim ləqədir". ("Həcc", 39: Həqiqətən Allah onlara yardım etməyə qadirdir); "Əlləzinə in məkkənnahum fil-ərzi əqamus-sələtə və atuz-zəkətə və əməru bil-mərufi vənnəhva ənil-munkəri və lillahi aqibətul umur" ("Həcc", 41: O kəslər ki, əgər onları yer üzündə yerləşdirsək, namaz qılar, zəkat verər, yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər. Bütün işlərin sonu Allaha aiddir).

Allah-Taala bu şərif ayədə qüdrət verilmiş və bu qüdrətlə zalım hakimlərin əsarətindən qurtulan möminlər üçün dörd meyar müəyyənləşdirir. Əvvəla buyurur ki, Allah-Taala bu milləti qələbəyə çatdırmağa qadirdir. Şübhəsiz ki, onları qalib edəcək. Bu dörd şərtdən biri namaz, biri zəkat, biri əmr be məruf, sonuncusu nəhy əz munkərdir. Bu dörd şərtin hər birinin fərdi, şəxsi cəhəti var. Amma fərdi cəhətlə yanaşı ictimai cəhət də mövcuddur. Bu şərtlərin ictimai quruculuğda da təsiri mövcuddur. Hər bir möminin meracı sayılan, saysız rəmzlər mövcud olan namaz səadət vasitəsidir. ("Mən la yəhzəruhul-fəqih") Namaz bütün əməllərin fövqündədir. Namazın ictimai yönü də var. Onun ictimai yönü bundan ibarətdir ki, hər bir müsəlman namaz vasitəsi ilə vahid mərkəzlə təmasa qatılır. Eyni anda namaz zamanı bütün İslam dünyasında müsəlmanlar diqqətlərini bir nöqtəyə yönəldirlər. Bütün qəlblərin vahid mərkəzə yönəlişi ictimai məsələdir. Bu nizam yaradan bir mövzudur. Mövcud hal İslam nizamına həndəsi forma verir. Zəkatın fərdi yönü var, insana sevdiklərindən əta etməyi öyrədir. Bu çox böyük bir təcrübədir. Amma zəkatın ictimai yönü də var. Zəkat Quran leksikonunda bütün infaq mənasını daşıyır. Tövbə surəsinin 103-cü ayəsində buyurulur ki, onların malından sədəqə al. Deməli, zəkat mütləq maddi infaqdır. Zəkatın ictimai quruculuqda bu yönü var. Cəmiyyətdə fərd maddi sərvətlərə malikdir. İslam mühitində İnsan özünü vəzifəli, borclu sayır. Onun cəmiyyətdən tələbi yoxdur, özünü cəmiyyətə borclu hesab edir. Həm yoxsullar və zəiflər qarşısında, həm də Allah yolunda özünü vəzifəli sayır. Demək, zəkat bu cəhətdən ictimai qurucu hökm və meyardır.

Əmr be məruf və nəhy əz munkər isə İslamda bütün ictimai fəaliyyətlərin bünövrəsidir. "Kafi"də bu hökmün icrası ilə bütün zəruri hökmlərə yol açıldığı bildirilir. Əmr be məruf o deməkdir ki, dünyanın müxtəlif bölgələrində olan bütün möminlər cəmiyyəti yaxşılığa doğru sövq etməlidirlər. Nəhy əz münkər odur ki, möminlər başqalarını, cəmiyyəti pislikdən uzaqlaşmağa çağırırlar. Bu dörd meyarın hər biri İslam nizamının quruluşu və həndəsəsinin tərcümanıdır.

Haşiyə olaraq qeyd edim ki, əmr be məruf və nəhy əz munkərin bu mühüm mənasını onun üçün son hesab etmək olmaz. Düşünməməliyik ki, bir kişi və ya qadını dini vəzifənin icrasına çağırmaq pis işdən çəkindirmək əmr be mərufdur. Bəli, bu işlər əmr be məruf və nəhy əz münkərdir. Amma onun əsl mahiyyəti deyil. Əsl mahiyyət ən böyük yaxşılıqlara çağırış, ən böyük pisliklərə qadağadır. Ən böyük yaxşı iş nədir? Ən böyük yaxşı iş İslam quruluşu yaratmaqdır. Bu əmr be mərufdur. Bundan yuxarı yaxşı iş tanımırıq. Kim bu yolda addım atsa əmr be mərufdur. Müsəlman xalqın əzəmət və şəxsiyyətini qorumaq ən böyük yaxşı işdir. Mədəniyyəti, əxlaqı, ailə mühitini qorumaq, yeni nəsil tərbiyə etmək, iqtisadiyyatı çiçəkləndirmək, milli istehsal, İslam əxlaqını yaymaq, elm və texnalogiyanı inkişaf etdirmək, mühakimədə ədalətin bərpası, milli iqtidar yolunda mücahidə, İslam vəhdəti üçün çalışmaq ən böyük məruf, ən böyük yaxşı işdir. Hamı bu yolda çalışmalıdır. Əks qütbdə pis işlər dayanır. Əxlaqı pozmaq, İslam düşmənlərinə kömək etmək, İslam quruluşunu zəiflətmək, İslam mədəniyyətini tənəzzülə uğratmaq, iqtisadiyyatı tənəzzülə uğratmaq, elm və texnologiyanı geri çəkmək ən böyük münkər, ən böyük ps işdir. Bu pis işlərə qadağa qoyulmalıdır. İlk əmr be məruf Allah-Taalanın qəddəs zatıdır. Nəhl surəsinin 90-cı ayəsində buyurulur: "İnnəllahə yəmuru bil-ədli vəl-ihsani və itai zil-qurba və yənha ənil-fəhşai vəl-munkəri və bəğa" (Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi, qohumlara verməyi buyurar, zina etməyi, pis işlər görməyi və zülm etməyi qadağan edir).

Göründüyü kimi Allah-Taalla Özü əmr be məruf və nəhy əz munkər edir. Məruflar və münkərlər məlumdur. Böyük İslam Peyğəmbərinin (s) müqəddəs vücudu əsas əmr və nəhy edən şəxsdir. (Bax: Əraf, 157) Məsum İmamlar da bu qəbildəndir. Ziyarətdə oxuyuruq: "Əşhədu ənnəkə qəd əqəmtəssəlatə və atəytəzzəkatə və əmərtə bil-mərufi və nəhəytə ənil munkər". Bütün dünyada mömin kişi və qadınlar yaxşıya çağıran və pisə qadağa qoyanlardır. Tövbə surəsinin 71-ci ayəsində oxuyuruq: "Mömin kişilərlə mömin qadınlar bir-birinə dostdurlar. Onlar yaxşı işlər görməyi əmr edər, pis işləri yasaq edər, namaz qılıb zəkat verər, Allaha və Peyğəmbərinə itaət edərlər". Bu İslam quruculuğu üçün dörd sütundur. Onların hər birindən budaqlar şaxələnir. İslam nizamı namazın bərpası, zəkat verilməsi, əmr be məruf və nəhy əz munkər üzərində qurulub. Yəni birlik, xalq kütlələri arasında ictimai rabitələr.

Sözümün başlanğıcında bu mövzudan nəticə çıxarıram. Əziz xalqa dünən gecə söhbətdə ilin şüarını söylədim. Cəmiyyətimizdə, əziz və böyük məmləkətimizdə İslam hər bir ictimai mənsubiyyətə, səliqəyə malik olan insanlardan, hamımızdan birlik, həmkarlıq istəyir. İslam quruluşunda dövlətləri xalq himayə etməlidir. Hətta dövlətdə bir şəxsə səs verməyəndə onu dəstəkləməlidir. Ölkəmizdə ictimai və milli birliyin əsl mənası budur. Hamı əl-ələ verərək işə məsul və iş başında olan dövlətlə sözdə və işdə bir olmalıdır. Xüsusilə belə bir zamandır ki, ölkəmiz mühüm problemlər, maneələrlə üzbəüzdür. Bu barədə danışacağam. Bu gün xalq kütlələrinin vəzifəsi budur ki, ölkə məsullarını himayə etsinlər, onları dəstəkləsinlər. Dediklərim təkcə bu dövlətə aid deyil. Bütün dövlətlərə aiddir. Bundan sonra iş başına gələcək dövlətlər də himayə olunmalıdır. Birincisi, bütün dövlətlərin ilk istəyi xalqın problemlərini həll etməkdir. Onların imkanları fərqli ola bilər. Hamı eyni səviyyədə deyil. İkincisi, səliqələr fərqli ola bilər. Amma bütün dövlətlərin məqsədi öz məsuliyyət dövründə gücü çatdığı qədər ölkənin problemlərini həll etməkdir. Konstitusiya əsasında iş başına gələn hər bir dövlət legitimdir, qanunidir. Xalqın bütünlüklə prezidentə səs verməsi mühüm deyil. Səsin çoxluğu ya azlığı xalqın məhəbbətini göstərir, amma legitimliyə təsirsizdir. Qanun əsasında lazım olan sayda səs qazanan prezident seçilir və bu dövlət qanunidir. Xalq onu qanuni saymalıdır. Bu dövlətə kömək edilməlidir. Əlbəttə, qarşılıqlı hüquqlar

mövcuddur. Hər dövlətin tənqidçiləri var, bu dövlət də istisna deyil. Əvvəlki dövlətlərin də tənqidçiləri olub. Bu nöqtəyə qədər problem yoxdur. Bəziləri bu üsulu qəbul etmir. Bu sözü, bu siyasəti qəbul etməyənlər var. Tənqid edirlər, tənqidin eybi yoxdur. Amma tənqid məntiqi olmalıdır. Mən özüm də ayrı-ayrı dövlətləri tənqid etmişəm. Bəzi nöqtələri təkrar xatırlatmışam. Bir şeyi eyb biləndə və tənqid yeri olanda bundan çəkinməmişəm. Amma tənqidlər münasib şəkildə, münasib zamanda olub. Bəzən ismarıc göndərmişik, bəzən üzbəüz xəbərdarlıq etmişik. Xəbərdarlığın heç bir eybi yoxdur. Amma bu xəbərdarlıqlar elə bir formada olmalıdır ki, üzərində məsuliyyət olanları etimaddan salmasın. Tənqid xalqın məsul tərəfə etimadını qırmamalıdır. Tənqiddə aşağılamaya yol verməməliyik. Qəzəblə, kobud tənqiddən çəkinməliyik. Hamı dövlətlə millət arası rabitələrdə İslam qardaşlığına baxsın və bu üsula riayət etsin.

Bəli, bu qarşılıqlıdır. Mən həm xalqa dövlətlə mehriban olmağı, həmkarlıq və həmrəyliyi, həm ölkə məsullarına, üç hakim struktura onları tənqid edənlərlə münasib davranmağı, onları təhqir etməməyi tapşırıram. Məsullar tərəfindən müxaliflərin təhqiri tədbir və hikmətə ziddir. Mən xalqımızı biganəliyə, nəzarət etməməyə çağırmıram. Onları məmləkətin əsas problemlərinə diqqətli olmağa dəvət edirəm. Amma vurğulayıram ki, xalqın məsullarlı tənqidi, məsulların tənqidçilərə münasibəti dağıdıcı olmamalıdır. Təhqir, aşağılama yolverilməzdir. Bir mövzu ilə bağlı kimsə narahat ola bilər. Narahatçılıq günah deyil. Nigaran olmaq günah sayılmaz. Bəzi insanların ölkənin bəzi problemlərinə həqiqətən həssas olması mümkündür. Buna irad yoxdur. Amma bu nigarançılıq ittiham etməyə əsas vermir. Zəhmətləri, xidmətləri görməməzliyə vurmaq olmaz. Qarşı tərəfdən dövlət və onun tərəfdarları nigaran insanları aşağılamamalıdır. Əvvəllər demişəm, indi də əziz xalqımıza bildirirəm ki, mən məsuliyyət daşıdığım dövürlərdə bütün dövlətləri himayə etmişəm. Bu dövləti də himayə edirəm. Harada lazımsa bunu xatırladıram. Təbii ki, kimsəyə imzalanmış ağ (məbləğ göstərilməmiş) çek də vermirəm. Fəaliyyətlərə baxıram, mühakimə aparıram, Allahın tövfiqi ilə fəaliyyətlər əsasında rəftar edirəm. Dövlət və xalq arasında qəlb və sözdə birlik şüarı ilə bağlı deyəcəyim ilk nöqtə bu idi. Qəlbdə, sözdə həmkarlıq etsinlər, problemlərin həllində əl-ələ versinlər.

Qeyd etdim ki, bu mövzu böyük perspektivlər olanda, insanı böyk problemlər gözləyəndə əhəmiyyət daşıyır. Bu gün həmin günlərdəndir. Həm böyük fürsətlərə malikik, həm qarşıda böyük problemlər var. İmkanlardan faydalanaraq Allahın yardımı ilə problemləri aradan qaldırmalıyıq.

Bəli, bu gün böyük imkanlara malikik. Bu imkanlardan biri fəal və yaradıcı insan resurslarıdır. Həmd olsun Allaha ölkəmizdə bu imkan böyükdür. Fəal qüvvələrimiz, yaradıcı və ruhiyyəli gənc qüvvələrimiz var.

Ən böyük fürsətlərdən biri xalqımızın, gənclərimizin nizam və böyük İmamın ideallarına bağlılığıdır. Siz əziz qardaş və bacılara xatırladıram ki, Qüds günü ya 22 bəhməndə nümayişlərdə əksəriyyət gənclərdən ibarət idi. Bu həmin gənclərdir ki, gecə-gündüz radio, televiziya, internet şəbəkələri tərəfindən dağıdıcı bombardman altındadır. Dünyada, internet fəzasında qovğadır. Yüzlərlə, minlərlə informasiya şəbəkəsi gənclərimizin təfəkkürünü bombalayır. Bəziləri gəncləri dindən uzaqlaşdırmağa çalışır. Bəziləri onları İslam quruluşuna münasibətdə azdırmağa təlaş göstərir. Bəziləri ixtilaf yaratmaq istəyir. Bəziləri bu

gəncləri öz xəbis məqsədlərinə xidmətə cəlb etməyə çalışır. Bəziləri çalışır ki, bu gənclər işsizliyə, vaxtı boşa keçirməyə maraqlı olsun. Hazırda gənclərimiz həmin informasiya vasitələrinin hücumlarına hədəfdirlər. Digər tərəfdən görürük ki, bu gənclərdən milyonları ölkə boyu 22 bəhməndə nümayişə çıxır, şüar söyləyir, İmam və İslama sevgisini bildirir, İslam quruluşuna bağlılığını göstərir. Bu kiçik şey deyil. Bu fürsət çox böyükdür.

Fürsətlərdən biri də budur ki, sanksiyalar dövründə elmi tərəqqiyə nail olmuşuq. Bəzən dünyanın super gücləri, böyük kapitallar bir millətin köməyinə gəlir. Bəzən də bir millətin üzünə bütün qapıları bağlayırlar. Eyni zamanda bu millət müxtəlif sahələrdə böyük işlər görə bilir. Bu gün həmin işləri görürsünüz. Bunu kiçik saymamalıyıq. Bir neçə gün öncə prezidentin iştirakı ilə işə salınan Cənubi Pars 12-ci Faz layihəsi böyük sənaye layihəsi idi. Bu ölkənin iqtisadi inkişafını, ölkənin ümumi tələşını hiss ediləcək səviyyədə yüksəldən layihədir. Belə layihələr çoxdur. Silahlı Qüvvələrin manevrlərini gördünüz. Ortaya elə qurğular çıxarıldı ki, düşmən heyrətə gəldi. Heyrətlərini dilə də gətirdilər. Onların təəccübü ehtimal deyil, özləri açıq deyiblər. Bütün bunlar sanksiyalar dövründə baş verir. Bu kiçik iş deyil, çox böyük fürsətdir. Uzun sanksiya illərində, yəni 89, 90, 91, 92-ci illərdə, onların nəzərincə iflicedici qadağalar zamanı gənclərimiz, yaradıcı qüvvələrimiz böyük işlər gördü. Məmləkətimiz üçün bu fürsət böyük fürsətdir. Sanksiyalar özü də fürsətdir. Bir qədər irəlidə sanksiyaların İran xalqı üçün stimul olmasından danışacağam. Bəli, çətinliklər də yarandı. Amma sanksiyalar yeni fürsət də ola bilər, bu barədə söhbət edəcəyəm. Problemlərimiz də var, problemlər barədə də bir qədər danışacağam. Bu gün məmləkətin əsas problemlərindən biri milli iqtisadiyyatdır. Xalqımız haqlı olaraq çiçəklənən bir iqtisadiyyat intizarındadır. Bu iqtisadiyyat ümumi rifah yaratmalı, zəif təbəqəni dözülməz vəziyyətdən çıxarmalıdır. Bu xalqımızın gözləntiləridir. Haqlı gözləntilərdir. Ölkə iqtisadiyyatı ciddi bir hərəkət, böyük bir işə ehtiyaclıdır. Mən bəzi xüsusiyyətləri qeyd edəcəyəm. Mən neçə illərdir iqtisadiyyat barədə danışıram. Neçə illər öncə bunu proqnozlaşdırırdım, deyirdim ki, düşmənlər gücü iqtisadiyyatımıza vuracaq, məsullar bu barədə düşünməlidir, hazırlaşmalıdır. Düşmənin fitnələri, rəzil siyasətlərinə qarşı səfərbər olmaq lazımdır. İqtisadiyyatla bağlı bəzi nöqtələrə işarə edəcəyəm.

Bu gün Ədalət və Tərəqqi onilliyinin yarısı ötüb-keçib. Bu adla onillik müəyyən etmişdik. Onun yarısı geridə qalıb. 20 illik strategiyamız var idi. On ili geridə qalıb. On ili qarşıdadır. Bunlar mühüm məsələlərdir. Bu reallıqlara baxdıqda iqtisadi məsələlərə diqqət güclənir.

Düşmənlərimiz açıq elan edirlər ki, iqtisadi təzyiqlərdə siyasi məqsəd izləyirlər. Onların məqsədi İran xalqını İslam dövlətinə qarşı qoymaqdır. Bəli, Amerikaya ölüm! Çünki bu təzyiqlərin əsas aparıcısı Amerikadır. Özləri də israr edirlər ki, əziz millətimizin iqtisadiyyatını hədəfə alıblar. Məqsədləri nədir? Məqsəd budur ki, xalqı quruluşa qarşı qoysunlar. Açıq deyirlər ki, iqtisadi təzyiqlərdə məqsəd xalqa çətinlik yaratmaq, onu etiraz üçün ayağa qaldırmaqdır. Açıq sözləri budur. Əlbəttə, bəzən yalan danışırlar, iddia edirlər ki, İran xalqının tərəfdarıdırlar. Bu yalanlara inanmaq olmaz, düşmənə inanmamalıyıq. Məqsədləri siyasi məqsəddir. Bizim qərbi asiya məntəqəsində misilsiz sabitliyimiz var. Onlar ölkənin sabitliyini pozmağa çalışır. Həmd olsun Allaha, bizdə şərqimizdə, qərbimizdə, şimalımızda, cənubumuzda, heç bir ölkədə olmayan sabitlik var. Onlar misli olmayan sabitliyi xalqın öz əzli ilə məhv etmək istəyirlər. Xalqı sabitliyin pozulmasına vadar edirlər. İstəyirlər ki, ölkədə etiraz dalğası yaratsınlar.

Təhrik edirlər, iş görürlər, bu istiqamətdə plan cızırlar. Ciddi və geniş şəkildə bu istiqamətdə hərəkət edirlər. Bu çox həssas şəraitdir. Çox ciddi bir problemdir. Belə bir problemlə üzbəüz olduğumuz zaman hamı əl-ələ verməlidir, hamı həmkarlıq etməlidir, iqtisadiyyat mövzusuna ciddi yanaşılmalıdır.

İqtisadiyyat mövzusunda bir neçə nöqtə qeyd edim. Birincisi budur ki, Amerikanın düşmən siyasətləri nəticəsində iqtisadiyyat sahəsi bir savaş meydanıdır. Bu xüsusi bir savaşdır. Bu meydanda məmləkətin xeyrinə kim addım atsa cihad etmişdir. Bu gün məmləkətin iqtisadiyyatına kömək edən insan bir cihad addımı atmışdır. Bu cihaddır. Təbii ki, onun öz silahları, öz üsulları var. Bu cihadı hamı öz üsulu, öz silahı ilə aparmalıdır. Bu birinci nöqtə idi.

İkinci nöqtə budur ki, ölkənin iqtisadiyyatına iki növ baxış var. Mütəxəssislərin, gənclərin, əziz xalqımızın bu nöqtəyə diqqətli olmasını xahiş edirəm. İqtisadiyyatın inkişafına, rövnəqlənməsinə baxışlardan biri budur ki, ölkənin daxili imkanları, xalqın gücü ilə inkişafa nail olmalıyıq. Ölkənin potensial imkanları böyükdür. Mövcud imkanlardan ya istifadə edilməyib, ya da düzgün istifadə edilməyib. İmkanlardan istifadə edək. Sərmayəsi ölkənin daxilindən, milli resurslardan olan iqtisadiyyat sorağına gedək. Bu bir baxışdır. Bu baxışa əsasən ölkənin mövcud imkanlarından faydalanmaqla iqtisadiyyatı çiçəkləndirmək olar.

İkinci baxış budur ki, ölkə sərhədlərindən xaricin köməyi ilə iqtisadiyyat inkişaf etdirilməlidir. Deyirlər ki, iqtisadiyyatı inkişaf etdirmək üçün xarici siyasəti dəyişməliyik. Filan zalım, müsdəbidlə yoldaş olub iqtisadi problemləri həll etmək istəyirlər. İmperialistlərin müxtəlif sahələrdə aparıcılığını qəbul etməklə çətin vəziyyətdən çıxmağı mümkün sayırlar. Bu ikinci baxışdır. Tam yanlış, naqis və faydasız bir baxış! Bu gün İran xalqına qarşı sanksiyalar bu baxışın yanlışlığına məntiqi dəlildir. Köməyinə ümid etdiyiniz, köməyi ilə iqtisadiyyatı rövnəqləndirmək istədiyiniz güclər aza qane olmur. Bu gün diqqət etsəniz neftin ucuzlaşması problemini görərsiniz. İmperialistlər regiondakı əlaltılarının həmkarlıqları ilə nefti yarıdan aşağı ucuzlaşdırıblar. Ətrafa nəzər salsanız belə bir problem görərsiniz. Amma daxilə baxsanız vəziyyət başqadır. Xarici güclər, imperialist qüvvələr ölkəmizdə ikinci baxışı gücləndirmək istəyirlər.

Mən novruz bayramı münasibəti ilə Amerika prezidentinin İran xalqına müraciətini gördüm. Bu müraciətdə deyir ki, bizim sözlərimizi qəbul edin. Sözünün canı budur ki, nüvə müzakirələrində diktə etdiklərini qəbul edək, ölkə çətin vəziyyətdən çıxsın. Deyir sözümüzü qəbul edin, sərmayə yaransın, ölkənizdə iqtisadi fəaliyyətlər işə düşsün. Bu elə ikinci baxışdır. Bu baxış heç zaman nəticəyə çatmayacaq. Ölkənin daxilinə, daxili imkanlara baxmaq lazımdır. Müqavimət iqtisadiyyatı adlandırdığımız, irəli sürdüyümüz layihə xoşbəxtlikdən bütün mütəxəssislər tərəfindən müsbət qarşılanıb. Mən bu layihəni qəbul etməyən iqtisatçı, ictimai xadim görməmişəm. Yəni diqqət daxili imkanlara yönəlməlidir. Əgər sizə kənardan su gətirməyə icazə vermirlərsə öz torpağınızda quyu qazmalısınız. Xəbis qonşuya möhtac olmamaq üçün öz torpağınızdan su çıxarmalısınız. Daxili imkanlardan yararlanıb irəli getməliyik. Bu ikinci nöqtə idi.

Üçüncü nöqtə budur ki, nə iqtisadiyyatda, nə də başqa bir sahədə strategiyasız hərəkət etmək olmaz. Hədəflər müəyyən olunmalıdır. Əgər dövlət məsulları hədəfləri müəyyənləşdirmədən hərəkət etsələr nəticəyə çatmayacaqlar. Aydın və sabit hədəf olmalıdır. Bu hədəfə doğru bütün qüvvələr, bütün imkanlar səfərbər edilməlidir. Mənim nəzərimcə, bu il və qarşıdakı illərdə iqtisadiyyatın hədəfi daxili istehsala sərmayə qoyulması olmalıdır. Bütün təlaşlar daxiliistehsalın gücləndirilməsinə yönəldilməlidir. İqtisadiyyat sahəsində çalışan bütün məsullar və bütün xalq daxili istehsalın gücləndirilməsinə çalışmalıdır. Təbii ki, belə bir kömək üçün yollar var. Mühüm işlərdən biri budur ki, orta və kiçik istehsal müəssisələri himayə olunmalıdır. İnnovasiya müəssisələri gücləndirilməlidir. Elm və texnologiyaya çox diqqət yetirməyimiz təkcə elmi tərəqqi üçün deyil. Elmi tərəqqi iqtisadiyyatın inkişafına kömək edir. İnnovasiya müəssisələri milli iqtisadiyyata kömək edə bilər. Zəruri işlərdən biri xam mal satışını azaltmaq hərəkatı yaratmaqdır. Mən əvvəllər iqtisadiyyatın neftdən asılılığına etiraz etmişəm. Çalışıb xam mal satışını tədricən azaltmalıyıq. Bir zaman buna son qoymaq lazımdır. Əlavə dəyər yaradırmalıdır. Banklar bu sahədə rol oynaya bilər. Həm kömək edə bilərlər, həm də zərbə vura bilərlər. Bank məsulları bu nöqtəyə diqqətli olsunlar. Ölkə boyu bəzi banklar xüsusi üsullarla kiçik iqtisadi müəssisələri məhv etdilər. Bəli, banklar həm kömək edə bilər, həm də geri çəkə bilər. Əsas işlərdən biri sərmayə yatırımıdır. Başqa bir bir mühüm iş idxal mallarının həcmini azaltmaqdır. Qaçaqmalçılıqla mübarizə də əsas işlərdəndir. Dövlət məsulları müxtəlif işlər görə bilər. Bəzi işləri burada sadaladım. Təbii ki, bütün bu işlər çətin işlərdir. Sözlə demək asandır, əməl etmək çətindir. Amma bu çətin işləri məsullar hökmən yerinə yetirməlidir. Çünki məsələ mühüm məsələdir. Xalq da bu işdə rol oynaya bilər. Sərmayə qoya bilən insanlar istehsala sərmayə qoysunlar. İstifadəçilər, bütün xalq daxili istehsal mallarından istifadə etsinlər. Dəfələrlə bu nöqtəni vurğulamışam. Bu gün bir daha deyirəm. Hamı çalışsın ki, daxili məhsullardan istifadə etsin. İranlı işçi himayə olunsun. Daxili istehsal sahəsi daxili məhsuldan istifadə vasitəsilə rövnəqləndirilsin. İsrafdan çəkinmək lazımdır. İsraf əhli bilsin ki, israf, dəbdəbəçilik, ifratçılıq İslamda məzəmmət olunur. İsraf milli iqtisadiyyatda ciddi maneədir. Qonaqlıqlarda, izdivac mərasimlərində, bütün başqa mərasimlərdə istər su, istər çörək, istərsə də başqa şeylərin israfının qarşısını almaqla milli iqtisadiyyata kömək etmək olar. Xarici ticarət sahəsində olanlar mühüm rol oynaya bilər. Onlar öz sahələrində sağlam fəaliyyət göstərsə İran xalqının şəxsiyyətini qorumuş olar. Bu da üçüncü nöqtə idi.

İqtisadiyyat sahəsində dördüncü nöqtə budur ki, düşmənin yeganə silahı sanksiyadır. İran xalqına qarşı sanksiyadan başqa silahları yoxdur. Biz düzgün, tədbirlə hərəkət etsək, sanksiyalar təsirsiz qala bilər. İşarə etdim ki, bu gün dövlət orqanlarının açdığı istehsal, sənaye sahələri, o cümlədən Cənubi Pars 2-ci Faz layihəsi, hərbi sənayeinin inkişafı, elm və texnologiya sahəsində tərəqqi sanksiyaların təsirini aradan qaldıra bilər. Öncə bu təsiri zəiflətmək, sonra tam aradan qaldırmaq olar. Sanksiyaların çətinliyi olsa da bərəkətləri də olub. Sanksiyalar bizə öyrətdi ki, özümüzə güvənməliyik. Sübut oldu ki, daxili qüvvələrimizdən istifadə edə bilərik. Dövlət məsulları, xalq, iqtisadiyyat sahəsindəki fəallar çalışmalıdır. İnformasiya vasitələri də kömək etməlidir. Bu işi görsək inşaallah sanksiyalar İran xalqının inkişafını əngəlləyə bilməyəcək.

Nüvə proqramı ilə bağlı bir neçə nöqtəyə toxunmaq istəyirəm. Bu mövzuda deyiləsi sözlər çoxdur, istəmirəm geniş danışam. Nüvə proqramı ilə bağlı bir neçə cümlə. Əvvəla, İran xalqının qarşısında dayanan düşmənlər başda Amerika olmaqla siyasətlə hərəkət edir. Biz tam görür və dərk edirik ki, nə iş görürlər. Onlar müzakirələrə ehtiyaclıdır. Amerika nüvə müzakirələrinə möhtacdır. Amerikada

senatorlarla dövlət arasında müşahidə olunan ixtilaflar o demək deyil ki, müzakirəyə ehtiyaclı deyillər. Sadəcə, mühafizəkarlar istəmirlər ki, müzakirələr demokrat partiyasının adına yazılsın. Məqsədləri budur. Müzakirələrə möhtacdırlar, amma özlərini ehtiyacsız kimi göstərirlər. Amerika prezidentinin novruz müraciətində təəssüf ki qeyri-səmimi sözlər vardı. Zahirdə İran xalqına dostluğunu bildirsə də, aydın görünür ki, dedikləri səmimi deyil. Sözlərindən biri budur ki, İranda nüvə məsələsinin diplomatik yolla həllini istəməyənlər var. Bu yalandır. İranda nüvə məsələsinin müzakirələr yolu ilə həllini istəməyən yoxdur. Sadəcə İran xallıq Amerikanın diktəsini, zorakılığını qəbul etmir. İran xalqı qarşı tərəfin zorakılığına müqavimət göstərir. Qarşı tərəf deyir ki, müzakirə aparaq, amma bizim sözlərimizi nöqtə-nöqtə qəbul edin. İran xalqı buna qarşıdır. Məsullarımız, danışıqları aparan heyət, İran xalqı şübhəsiz ki bunu qəbul etməyəcək. Nüvə proqramı ilə bağlı ikinci məsələ budur ki, Avropa ölkələri və Amerika ilə aparılan müzakirələr yalnız nüvə məsələsinə aiddir. Bunu hamı bilsin. Biz Amerika ilə regional mövzuları müzakirə etmirik. Onların regiondakı mövqeyi bizim məqsədlərimizə tam ziddir. Biz məntəqədə sabitlik, xalqların hakimiyyətini istəyirik. Amerikanın siyasəti məntəqədə gərginlik yaratmaqdır. Misirə, Liviyaya, Suriyaya baxın. İmperialist qurumlar başda Amerika olmaqla xalqların yaratdığı İslam Oyanışı hərəkatına qarşıdır. Onlar bu hərəkat üzərinə hücuma keçiblər və həmin hücum davam edir. Məntəqədə xalqları tədricən uçuruma sürükləyirlər. Məqsədləri budur. Bu məqsəd bizim məqsədlərimizə tam ziddir. Bizim nə məntəqə məsələləri, nə daxili məsələlər, nə hərbi sənaye mövzusunda Amerika ilə söhbətimiz və müzakirəmiz yoxdur. Müzakirələr yalnız nüvə mövzusundadır. Biz müzakirələrdə diplomatik üsullarla nəticə əldə etmək istəyirik.

Üçüncü nöqtə budur ki, amerikalılar deyir: "Biz İranla müqavilə imzalayacağıq və onlar müqaviləyə əməl etsələr sanksiyaları götürəcəyik." Bu söz qeyri-məqbuldur. Biz bunu qəbul etmirik. Sanksiyaların ləğvi müzakirələrin tərkib hissəsidir. Bu müzakirələrin nəticəsi deyil. Bu işdə olanlar iki yanaşma arasında fərqi yaxşı anlayır. Müqavilə bağlayıb, sonra sanksiyaları götürmək barədə düşünmək Amerikanın hiyləsidir. Bizim məsulların, prezidentin qətiyyətlə dediyi kimi müzakirələrdə razılıq əldə olunan kimi sanksiyalar dərhal aradan qaldırılmalıdır. Yəni sanksiyaların ləğvi razılaşmanın tərkib hissəsidir.

Başqa bir nöqtə budur ki, Amerika İranın öhdəçiliklərdən geri qayıdışına yol qoyulmamasını təkrarlayır. Bunu qəbul etmirik. Əgər qarşı tərəf hər hansı bəhanə ilə sanksiyalara qayıdacaqsa bizim nümayəndə heyətinin müqaviləni pozmamaq öhdəçiliyi düzgün deyil. Nüvə texnologiyası milli texnologiyadır, xalqa məxsusdur. Bu sahədə biliklər xalqın malıdır. Bu texnologiya inkişaf etməlidir. Bütün texnologiyaların inkişaf etdirilməsi zəruridir. Onlar nüvə bombasından danışır. Yaxşı bilirlər ki, biz nüvə silahı yaratmaq fikrində deyilik. Amma bunu İran xalqına təzyiq üçün bəhanə kimi əldə saxlayırlar. Biz bu müzakirələrdə bütün beynəlxalq öhdəçiliklərə sadiq olmuşuq. Biz İslamın siyasi əxlaq tələblərinə sadiqik, öhdəçiliyi pozmamışıq. Biz ikibaşlı danışmamışıq. Amma qarşı tərəf, amerikalılar öhdəçilikləri pozdular. Onların rəftarları xalqımız üçün ibrət dərsidir. Ölkə daxilində Amerikanı düzgün tanımayan bəzi ziyalılar müzakirələrə yaxşı baxsınlar, kiminlə tərəf-müqabil olduğumuzu görsünlər, Amerikanın dünyadakı əməllərinə nəzər salsınlar. Onların hədə-qorxuları təsirsizdir. Daha artıq sanksiya, hərbi hədə-qorxu İran xalqını qorxutmur. İran xalqı möhkəm dayanıb. İnşaallah, bu böyük imtahandan tam müvəffəqiyyətlə çıxacaq. İlahi yardımlar xalqımızı bu yolda uğura çatdıra bilər.

Başqa mühüm məsələlər də var, bu mövzularda danışmaq imkanımız yoxdur. İran xalqı və İran dövləti üzərində böyük məsuliyyətlər var. İslam vəhdəti, əzilən xalqlara yardım, məntəqədə İslamın mənəvi

nüfuzunun genişlənməsi (bu gün onun bayrağı İran xalqının əlindədir) böyük işlərdir. Əgər Allah-Taala əziz xalqımıza yardım etsə - inşaallah sizin dualarınızın, xüsusilə gənclərin təlaşı ilə yardım edəcək – inşaallah bu işləri görəcəyik.

Əssəlamu ələykum və rəhmətullahi və bərəkatuh

Mart, 2015

## Hərbi Hava Qüvvələri Günü bəyanatın tam mətni

## İnqilabın batinində qəlbləri cəzb edən həqiqət nədir?

Hərbi Hava Qüvvələri (HHQ) və Hava Hücumundan Müdafiə Qoşunlarının komandanları və işçiləri ilə görüş

Bismillahir-Rəhmanir-Rəhim...

Əziz qardaşlara, silahlı qüvvələrin mühüm bir bölməsi olan hərbi hava və havadan müdafiə qüvvələrinin çox ağır sahəsinin məsullarına xoşgəldin deyirəm. Bu gün Hərbi Hava Qüvvələri Günüdür (19 bəhmən). Hamınızı, İran İslam Respublikası Hərbi Hava Qüvvələri (HHQ) və Hava Hücumundan Müdafiə Qoşunlarının komandanları və işçilərini, onların ailələrini təbrik edirəm. Sürud qrupuna da gözəl ifalarına görə təşəkkürümü bildirirəm.

Siz hər il 19 bəhmən gününü qeyd edirsiniz. 19 bəhmən şirin bir xatirəyə qayıdışdan daha uca gündür. Bəli, mühüm, şirin bir xatirədir. Belə xatirələri yaşatmağın yeri var. Amma hadisə daha böyük hadisədir. 19 bəhmən mənalı və unudulmaz hadisədir. Bu hadisə zamanı şah rejiminin aviasiya qüvvələrinin gəncləri ayağa qalxdılar və İmama (r) beyət etdilər. Bu addımı açıq-aşkar, şücaətlə atdılar. Mən özüm orada idim. Bəziləri şəxsiyyət vəsiqələrini göyə qaldırmışdılar. Bunun öz mənası, məzmunu var. Bu məzmunu hifz etmək lazımdır. Bu inqilabi bir vəzifədir. Nədir bu məzmun? Məzmun budur ki, inqilab ölkənin istənilən nöqtəsində haqq və cazibədar bir söz olaraq qərəzsiz, sağlam, agah, işıqlı qəlbləri özünə doğru çəkir. Hətta şah rejiminin hərbi hava qüvvələrini. Bu qüvvəllər hakim rejimin, hətta Amerikanın oyuncağı idi. Aviasiya qüvvələri ilə bir oyuncaq kimi rəftar edilirdi. Amerika və onun müzdurları təəssüf ki ölkəmizdə söz sahibi idilər, hökumət onların əlində idi. Hava qüvvələri ilə belə rəftar edirlər. O zaman hava qüvvələri inqilab həqiqətinin cazibəsi altında şövqə gəlib böyük bir addım atdı. Günün günorta çağı,

bu qədər məmurun gözü önündə, o günün böyük təhlükələri qarşısında İmam görüşünə gəlib, İran prospektində ona beyət etdilər. Sürud oxudular, şəxsiyyət vəsiqələrini yuxarı qaldırdılar. Bu hadisənin mühüm məzmunu budur. İnqilabın batinində qəlbləri cəzb edən həqiqət nədir? Bunu bilməli və qorumalıyıq.

Ölkədən əlavə dünyada bu hadisə baş verdi. Bu inqilabda ölkənin bütün nöqtələrinə nüfuz etmək gücü vardı. Təkcə şəhərlər yox, əyalət və kəndlərdə də xalq ayağa qalxıb hərəkət edir, şüarlar səsləndirirdi. Bu şüarlar İmama tərəfdarlıq, şaha və diktaturaya müxalifət şüarları idi. Bütün millət ayağa qalxmışdı. Bundan əlavə dünya miqyasında tədricən eyni hadisə müşahidə edilirdi. Asyada, Afrikada, hətta Latın Amerikasında insanlar heyran qalmışdılar ki, dünyada bir millət Amerika, onun zorakılıqlarına qarşı çıxmaq cəsarətinə malikdir. Çətinliklə İran radiosunu, bu ölkədə baş verən hadisələri izləyirdilər. Mən İran xəbərlərini izləmək üçün fars dilini öyrənən ərəblər görmüşəm. Bu bir cazibədir. Xalq kütlələrini, ziyalıları, gəncləri, tələbələri, düşmənin ağır təbliğatı təsiri altında olmayan bütün insanları özünə çəkən inqilab cazibəsi idi. Bu hadisə hər yerdə baş verdi. Bir millətin zülmə qarşı çıxması Amerika və qərb zorlularının əsarəti altında qalmış insanları həyəcanlandırdı. Bu insanlar inqilaba tərəfdar oldular, inqilabı sevdilər. Bu hadisə hər yerdə, Asiyada, Afrikada, Latın Amerikasında baş verdi. Biz bindan yetərincə xəbərdar olduq. Çoxlu səfərlər olurdu. İnqilab və İmamın adının təsiri aydın müşahidə edilirdi.

Bəs qarşı tərəfdə nə baş verdi? Qarşı tərəfdə bu əzəmətli hərəkat əleyhinə olan güclər dayanmışdı. Onların başında Amerika dururdu. Bu böyük hərəkatın genişlənməsi, bütün millətləri cəzb etməsi, düşmənləri qorxutdu və sərt reaksiya verməyə başladılar. Ağıllarına gələn ilk iş inqilab ocağını söndürmək oldu. Bütün bu həyəcanları yaratmış ocağı söndürmək istədilər. Bu yolla başqa yerlərdə problemi təbii həll etməyi planlaşdırırdılar. Bacardıqları qədər güc işlətdilər.

Elə ilk gündən Amerika İslam Cümhuriyyəti ilə düşmənçiliyə başladı. Bunu gənclər bilsin. Bacardıqları işi gördülər. Amerika kimi bir dövlət hərbi, iqtisadi, ideoloji, təxribatçılıq baxımından nə bacarırdısa etdi. Onlar inqilaba düşmən idilər, bu gün də düşməndirlər. Onlar inqilabı qəbul etmiş xalqla düşməndirlər. Bu səhv fikirdir ki, Amerika, dünya imperializmi şəxslərlə, məsələn, İmamla ya Əli Xamenei ilə düşməndir. Belə deyil. Onlar inqilab prinsipləri ilə düşməndirlər. Müqavimət, müstəqillik tələbi, milli qürurla düşməndirlər. Bu istəkdə olan millətlə düşmənçilik edirlər. Bu düşmənçilik keçmişdə olub, bu gün də var və davam edir. Bir millərin möhkəm dayanması, düşmən təzyiqlərinə təslim olmaması onları qəzəbləndirir. Bəzi Amerika siyasətçiləri səhvə yol verib dilə gətirdilər ki, İran xalqı ilə düşməndirlər. Bu gün də Amerika və müttəfiqlərinin fəaliyyətləri bu xalqı dizə çökürmək üçündür. Bu xalqı aşağılamaq istəyirlər.

Əlbəttə ki, səhvə yol verirlər, analizləri yanlışdır. Amerikanın region hadisələri, xüsusilə əziz ölkəmizlə bağlı təhlillərinin yanlış olduğu reallıqdır. Elə bu səhvlərinə görə daim zərbə alırlar. Hesablamalarında yanılırlar.

Amerika məsullarından biri bir neçə gün öncə deyib ki, iranlılar çətinliyə düşüblər, nüvə müzakirələrində əlibağlı əyləşiblər. Burada yanlış hesablama var. İranlılar çətinliyə düşməyib. Siz 22 Bəhməndə İran xalqının nə edəcəyini, səhnəyə necə çıxacağını görəcəksiniz. Onda məlum olar ki, bu xalqın əlləri bağlıdır ya yox? İran xalqı işdə nümayiş etdirib və etdirəcək ki, əlləri bağlı deyil. Məsullar, dövlər başçıları da belədir və öz məharətləri ilə göstərəcəklər ki, bu xalqın əlləri bağlı deyil. İranı divara sıxdıqlarını düşünürlər. Səhv edirsiniz, Cənab, belə deyil. Çətinliyə düşən sizsiniz. Reallıq aydın göstərir ki, Amerika regionda və kənarda məğlubiyyətə uğrayıb. Amerika Suriyada, İraqda, Livanda, Fələstində, Qəzzədə məğlubiyyət yaşayıb. Amerika Əfqanıstan və Pakistan siyasətlərində məğlub olub. Bu millətlər Amerikaya

nifrət edir. Regiondan kənarda da belədir. Amerika Ukraynada məğlubiyyətə uğrayıb. Məğlub olan sizsiniz, uzun illərdir ardıcıl məğlubiyyət yaşayırsınız!

İslam Cümhuriyyəti inkişaf edib. Bugünkü cümhuriyyət 35 il əvvəlki cümhuriyyətlə müqayisəyə gəlməz. Təcrübə toplanması, fəaliyyət sahələrinin genişlənməsi, məntəqədə qazanılmış mövqe, inqilabi dəyərlərin gənclərin qəlbinə nüfuzu kiçik işdirmi? Bunlar danılmaz həqiqətlərdir.

Müxtəlif məsələrdə hesabatları yanlışdır. Allahın fəzli, xalqın təlaşı, siz gənclərin fədakarlığı ilə bütün ölkədə, müxtəlif sahələrdə, möhtərəm komandanın yada saldığı hava qüvvələrindəki fəaliyyətlər kimi geniş fəaliyyətlər var. Bütün bu işlər iqtisadi sanksiyalar şəraitində həyata keçir. Elmdə, texnologiyada, müxtəlif sosial sahələrdə, beynəlxalq siyasətdə İslam Cümhuriyyətinin təkamülü və dəyərli təcrübələri var. Biz inkişaf edirik, bunu istəməyən düşmənin gözü kor olsun! Bacarmayan onlardır. Onlar bu ölkəni dağıtmaq istəyirdilər, İslam Cümhuriyyətinin varlığını həzm edə bilmirdilər. Siyasət, iqtisadiyyat, mədəniyyət və başqa sahələrdə bütün varlıqları ilə zərbə vurmağa çalışsalar da, istəklərinə çata bilmədilər. İslam Cümhuriyyəti inkişafını davam etdirir.

İndi nüvə məsələsini nümunə göstərirlər. Görüntü yaradırlar ki, İslam Cümhuriyyəti nüvə məsələsində çətinliyə düşüb. Amma belə deyil.

Mən deyirəm ki, əvvəla, mümkün razılaşmaya tərəfdaram. Əlbəttə ki, pis razılşmaya yox! Amerika tez-tez təkrarlayır ki, razılaşmanın olmaması pis razılaşmadan yaxşıdır. Biz də bu fikirdəyik. Biz də pis, nöqsanlı razılaşmanı milli mənafelərə zidd sayırıq. Əzəmətli İran xalqını aşağılayacaq razılaşma lazım deyil.

İkincisi, hamı bilsin ki, məsullarımız, müzakirə heyəti və dövlət sanksiya silahını düşmənin əlindən almağa çalışır.

İstəyirlər ki, bu silahı qəddar düşməndən alsınlar. Əgər bacarsalar yaxşıdır. Bacarmasalar, dostlar və düşmənlər bilsinlər ki, ölkə daxilində sanksiyaları gücdən salacaq yollar var. Belə deyil ki, sanksiya silahı qarşısıalınmazdır. Əgər çalışsaq, imkanlarımıza diqqətlə baxsaq – Allaha həmd olsun ki, belə bir ruhiyyə var – həmin silahı düşməndən almasaq da, onu təsirsizləşdirə bilərik.

Üçüncüsü, hörmətli prezident bir müddət öncə çıxışlarından birində gözəl bir nöqtəyə işarə etdi. Dedi ki, müzakirə iki tərəfin müştərək nöqtəyə çatmasıdır. Deyilənin mənası budur ki, hansısa tərəf təkcə öz istəklərinin reallaşmasını istəməməlidir. Amerikalılar belədir. Amerika və onun ardınca uşaq kimi qaçan bir neçə avropa ölkəsi strateji bir səhvə yol verirlər. Amerikaya tabe olan bu ölkələr yalnız öz istəklərinin və yalnız istədikləri şəkildə həyata keçməsini gözləyirlər. Bu səhv yanaşmadır. Müzakirə yolu bu deyil. İran tərəfi razılaşmaya kömək üçün görə biləcəyi bütün işləri görüb. Müxtəlif işlər görülüb: zənginləşdirmə maşınlarının artırılmasını dayandırıb. Müəyyən mərhələ üçün bu addımı lazımlı sayıblar. Uranın 20% zənginləşdirilməsi böyük bir uğur idi. Mütəxəssislər 5%-dən 20%-ə çatmağın nə demək olduğunu başa düşür. Bu işi də dayandırıblar. Müzakirələr bunu tələb edirdi. Texnologiya sahəsində çox böyük uğur sayılan Ərak müəsisəsinin fəaliyyəti dayandırılıb. Daxili qüvvələrin misilsiz fəaliyyətləri sayəsində yaradılmış, böyük ixtiralardan sayılacaq Fordo müəsisəsi hazırda işləmir. Deyilənlərdən görünür ki, İran tərəfi məntiqi addım atıb, müzakirələrin tələbinə cavab verib. Amma qarşı tərəf həddi aşır, həyasızlıq edir, bac istəyir. Əgər məsullar möhkəm dayansalar haqlıdırlar. Kimsə onları qınamamalıdır. Məsullarımız möhkəm dayanıblar və çalışırlar. Bəli, İslam Cümhuriyyəti əvvəlcədən məntiqi addım atıb. Biz qəbul etdirilmiş 8 illik müharibədə, qətnamənin qəbulunda məntiqi hərəkət etdik. Müharibədən bu günə qədər bütün hadisələrdə İslam Cümhuriyyəti məntiqi davranıb. Bu gün də

hazırkı hadisələrdə məntiqlə hərəkət edilir. Amma qarşı tərəf məntiq nə olduğunu dərk etmir. Yalnız zora güvənirlər. Özləri deyirlər ki, İranı nüvə texnologiyalarının genişləndirilməsini dayandırmağa, müəyyən proqramları saxlamağa vadar etdik. Doğru deyirlər. İslam Cümhuriyyəti müzakirələrin məntiqinə uyğun olaraq bu işləri görüb. Amma onlar həddi aşır, qane olmurlar. İran xalqı yersiz tələblərə, zora təslim olmayacaq!..

Biz məsullarımızın başladığı, həqiqətən də təlaş göstərdiyi, vaxt qoyduğu  işdə inkişafdan razıyıq. Yaxşı bir razılıq əldə edilməsinə də tərəfdarıq. Əminəm ki,  İran xalqı onun şəxsiyyət və mənafelərinin qorunduğu razılaşmaya qarşı olmayacaq. Amma bu şərtlər şəksiz təmin olunmalıdır. İran xalqının ehtiramı, bu xalqın inkişafı hifz edilməlidir. İran xalqı düşmənlərin zorakı danışığını dinləməyə, bac verməyə adət etməyib. Qarşı tərəf Amerika olsun ya başqası, fərq etməz. Bir zaman Amerika ilə Sovetlər Birliyi əl-ələ verib meydan oxuyurdular. İslam Cümhuriyyəti təslim olmadı, axırda qalib gəldi. Bu gün də nəticə eyni olacaq. Bu gün də İran xalqı və İslam Cümhuriyyəti zora təslim olmayacaq.

Bu gün deyirlər ki, əvvəlcə ümumi razılşmaya gələk, sonra təfərrüat, xırdalıqlar həll edilər. Mən bu yolu bəyənmirəm. Qarşı tərəfin rəftarları barədə təcrübə göstərir ki, sabah bu xırdalıqları əllərində bəhanə tutacaqlar.  Əgər razılaşma olacaqsa, cüzi və külli məsələlər tam həll olunmalı, razılaşma imzalanmalıdır. Ümumi razılığa gəlib sonra bir məsələnin şərhi üçün cüzi məsələləri araşdırmaq düzgün məntiq deyil.

Məsullarımızla qarşı tərəf arasında razılaşmalar aydın və birmənalı olmalı, şərhə yer qalmamalıdır. Sabah qarşı tərəf sözündən qaçmaq üçün bəhanə gətirə bilməməlidir. Bütün bunlar düşmənin sanksiya silahını almaq üçündür. Bunu edə bilsələr yaxşıdır. Sanksiyalar tam aradan qaldırılmalıdır. Əgər belə olmasa İran xalqı, məsullar, möhtərəm dövlətin qarşısında yol çoxdur. Sanksiya silahını gücdən salmaq üçün həmin yollar keçilməlidir.

İnşaallah 22 bəhməndə İran xalqı göstərəcək ki, onu aşağılamaq istəyənlər əks zərbə ilə üzləşəcək. Bütün xalq, bütün məsullar həmfikirdir ki, bir məmləkət üçün milli şərəf və izzət çox əhəmiyyətlidir. Əgər izzət olsa təhlükəsizlik də olacaq. Əgər təhlükəsizlik, sabitlik  olsa inkişaf da elmi olacaq. Amma aşağılanan millət hər şeyi uduzacaq. Təhlükəsizliyi də, sərvəti də, hər şeyi! Milli şərəf və ləyaqət qorunmalıdır, məsullar bunu bilir. İnşaallah 22 bəhməndə xalq öz iştirakı ilə, iqtidarını göstərməklə düşməni dizə çökürəcək. Pərvərdigara! Bütün İran xalqını öz lütf və bərəkətindən bəhrələndir. Hər birimizi hidayət  et. Pərvərdigara! Müharibə dövründəki, ondan qabaq və sonrakı şəhidləri, silahlı qüvvələr, hava qüvvələri şəhidlərini Peyğəmbərlə məhşur buyur.Bu mübarək hərəkatın banisi olan böyük İmamı Peyğəmbərlə məhşur et.

Vəssəlamu ələykum və rəhmətullahi və bərəkatuh

Fevral, 2015

## Avropada Tələbə Dərnəkləri Birliyi Konfransına müraciət

### Aldanış da xəbərsiz qalmaq qədər zərərlidir!

Cənab Rəhbər Ayətullah Xamenei Avropada Tələbə Dərnəkləri Birliyinin 49-cu konfransına müraciətində tələbələrə tövsiyə edib ki, elmə düşüncə ilə yiyələnin və bu iki məsələdə təqva və paklığı gözləyin; bu zaman ölkə üçün siz gənclər kimi ikinci sərvət olmayacaq.

Müraciət Cənab Rəhbərin Avropada təhsil üzrə nümayəndəsi höccətülislma vəlmüslimin Cavad Ejeyi tərəfindən oxunub.

Bismillahir-Rəhmanir-Rəhim

Əziz gənclər!

Sizin dünya ölkələrinin təhsil ocaqlarında olmağınız dünya hadisələrinə dərindən və mənalı baxmağınız, dünya miqyaslı və dünyanı tanıyan alimlərdən bəhrələnməyiniz üçün bir fürsətdir. Bunun qədrini bilmək lazımdır.

Aldanış da xəbərsiz qalmaq qədər zərərlidir. Xüsusilə bu barədə düşünün ki, nə üçün qərb siyasətində islamafobiya gücləndirilir? İran üslubunda siyasi İslamda hansı güc var ki, bu nəhəngləri, imperialistləri ona qarşı cəbhə açmağa vadar edir?

Elmə düşüncə ilə yiyələnin və bu iki məsələdə təqva və paklığı gözləyin; bu zaman ölkə üçün siz gənclər kimi ikinci sərvət olmayacaq. Allah yardımçınız olsun!

Seyid Əli Xamenei

Yanvar, 2015

## Avropa və Şimali Amerika gənclərinə məktub

## Fransada son hadisələrin ardınca...

Rəhman və Rəhim Allahın adı ilə

Avropa və Şimali Amerikanın bütün gənclərinə

Fransadakı son hadisələr və digər qərb ölkələrində cərəyan etmiş oxşar proseslərdən sonra qərara gəldim ki, bu barədə sizinlə şəxsən danışım, birbaşa siz gənclərə müraciət edim. Səbəb bu deyil ki, sizin ata-analarınıza əhəmiyyət vermirəm. Sadəcə xalqınızın və məmləkətinizin gələcəyinin sizin əlinizdə olduğunu düşünürəm. Eləcə də, həqiqəti axtarmaq istəyini sizin qəlblərinizdə daha güclü, daha aydın görürəm. Həm də bu məktubda sizin siyasiləriniz və dövlət rəsmilərinizə müraciət etmirəm. Çünki onların məqsədli şəkildə siyasəti sədaqət və düzgünlükdən ayırdığına inanıram.

Sizinlə İslam, xüsusilə İslamın sizə təqdim olumuş siması barədə danışmaq istəyirəm. İki onil bundan qabaqdan hazırkı günədək, yəni təqribən Sovetlər Birliyi dağlıldıqdan sonra, bu böyük dini qorxunc düşmən simasında göstərmək üçün xeyli təlaş göstərilib. Təəssüf ki, qərbin siyasi tarixində qorxu və nifrət hissini qıcıqlandırmaq, bundan faydanlanmağın uzun keçmişi var. Mən bu məktubda hazırkı günədək qərb xalqlarına təlqin olunan müxtəlif fobiyalardan danışmaq istəmirəm. Siz özünüz son tarixi araşdırmalara xülasə nəzər salsanız, görərsiniz ki, müasir tarixi səlnaməçilikdə qərb dövlətlərinin dünyanın başqa xalqları və mədəniyyətləri ilə qeyri-səmimi və riyakar rəftarları məzəmmət edilir. Avropa və Amerika tarixi quldarlıq rüsvayçılığı yaşayır, istismar dövrlərinə görə başıaşağıdır, rəngli dərililərə, qeyri-məsihilərə qarşı zülmdən dolayı xəcalətlidir. Araşdırmaçı və tarixçiləriniz din adı altında katoliklərlə protestantlar arasında, millətçilik adı altında birinci və ikinci dünya müharibələrində axıdılan qanlara görə dərin təəssüflərini bildirilər.

Bu təəssüf, üzüntü öz-özlüyündə təqdirəlayiqdir. Bu uzun siyahını təkrarlamaqda məqsədim tarixi məzəmmət etmək deyil. İstəyirim öz ziyalılarınız, alimlərinizdən soruşasınız ki, nə üçün qərbdə vicdanlar on illər, bəzən yüz illər təxirlə oyanmalı, həqiqətdən xəbərdar olmalıdır? Nə üçün ictimai vicdan bu günü yox, yalnız uzaq keçmişi görə bilməlidir? Nə üçün İslam mədəniyyəti və düşüncəsinə yanaşma üslubu kimi əhəmiyyətli mövzuya, ümimi tanışlığın formalaşmasına maneələr yaradılmalıdır?

Gözəl bilirsiniz ki, kimisə təhqir etmək, kiməsə nifrət və kimdənsə qorxu yaratmaq mənafepərəst zalımların müştərək marağıdır. Özünüzə sual verin ki, nə üçün qədim qorxu və nifrət yaratmaq siyasəti bu gün misli görünməmiş şəkildə İslam və müsəlmanlara tuşlanıb? Nə üçün müasir dünyada güc mərkəzləri İslam düşüncəsini səhnədən çıxarmağa, süstləşdirməyə meyllidir? Hansı İslam düşüncəsi, İslam dəyəri super güclərin planlarına mane olur? İslam haqqında mənfi ictimai rəy yaratmaqla nəyə nail

olurlar? Bəli, mənim ilk istəyim budur ki, İslama qarşı bu qlobal qarayaxmanın səbələri barədə soruşub, axtarış aparasınız.

İkinci istəyim budur ki, tələsik mühakimələr və mənfi təbliğat seli qarşısında bu din haqqında vasitəsiz şəkildə məlumatlanmağa çalışın. Ən azı qorxudulduğunuz, uzaqlaşdırıldığınız hadisənin nə olduğunu öyrənmək sağlam məntiqin tələbidir. Mən təkid etmirəm ki, İslamı mənim və ya bir başğasının dərk etdiyi şəkildə qəbul edəsiniz. İstəyim budur ki, müasir dünyanın təravətli və təsirli bir gerçəkliyini sizə çirkli niyət və məqsədlərlə tanıtdırmasınlar. İmkan verməyin ki, öz seçdikləri terrorçuları riyakarcasına İslam təmsilçisi kimi təqdim etsinlər. İslamı əsil və ilk mənbələrindən öyrənin. Quran və Böyük Peyğəmbərin (s) həyatı vasitəsilə İslamla tanış olun. Ürəyimdən keçir soruşum ki, bu günə qədər müsəlmanların Quranına baxmısınız? İslam Peyğəmbərinin (s) təlimləri, Onun insani, əxlaqi tövsiyələrini mütaliə etmisiniz? İnformasiya vasitələrindən yox, başqa mənbələrdən İslamın missiyası barədə məlumat əldə etmisiniz? Özünüzdən soruşmusunuz ki, bu İslam uzun əsrlər necə, hansı dəyərlər əsasında dünyanın ən böyük elmi və ideoloji sivilizasiyanı yaradıb, böyük alim və mütəfəkkirlər tərbiyə edib?

İmkan verməyin ki,   aldadıcı və çirkin çöhrələr yaratmaqla sizinlə həqiqət arasında mənəvi, emosional səd çəksinlər, tərəfsiz mühakimə imkanını əlinizdən alsınlar. Bu gün informasiya vasitələri coğrafi sərhədləri yarıb. Razılaşmayın ki, sizi  saxta, təxəyyüli sərhədlərdə mühasirədə saxlasınlar. Kimsə yaradılmış çatları təkbaşına doldura bilməsə də, hər biriniz özünüzü və ətrafınızı aydınlatmaq məqsədilə bu çatlar üzərindən düşüncə və ədalət körpüsü sala bilərsiniz. Sizinlə İslam arasında öncədən planlaşdırılmış bu problem acı olsa da, ətrafa maraqlı, axtarışda olan  düşüncənizdə  yeni suallar yarada bilər. Bu suallara cavab tapmaq üçün təlaş yeni həqiqətlərin kəşfi yolunda yeni imkanlar açır.  İslamı öncəmühakimələrsiz, düzgün dərk etmək imkanını əldən buraxmayın. Olsun ki, həqiqət qarşısında məsuliyyət hissiniz sayəsində gələcək nəsillər qərbin İslama qərəzli münasibət dövrünü  daha az sıxıntı, daha azad vicdanla qələmə ala biləcəklər.

Seyid Əli Xamenei

1 bəhmən , 1393 (şəmsi)

Yanvar, 2015

## Qum əhalisi ilə görüşdə bəyanatın tam mətni

## 19 dey İran xalqı üçün ümumi hərəkatın başlanğıcıdır

19 dey qiyamının ildönümü münasibəti ilə İmam Xomeyni hüseyniyyəsində Qum əhalisi ilə görüşdə bəyanatın tam mətni

Bismillahir-Rəhmanir-Rəhim

Bütün qardaşlara, bacılara, möhtərəm alimlərə, əziz gənclərə xoşgəldin deyirəm, həzrət Peyğəmbər (s) və İmam Sadiqin (ə) səadətbəxş mövludu münasibəti ilə təbrik söyləyirəm. Hər birinizi, İran xalqını, bütün İslam ümmətini təbrik edirəm.

19 dey tarixi, böyük və təyinedici bir gün olub. Bu gün münasibəti ilə deyəcəyim ilk şey əziz Qum xalqına təşəkkürdür. Çünki bu hadisəni unudulmağa qoymadılar və bundan sonra da yaşadacaqlar. Hadisənin unudulmasında maraqlı olanlar var. Çalışanlar var ki, təyinedici və qürur doğuran inqilabi günlər, Müqəddəs Müdafiə dövrü yaddan çıxsın. 19 dey hadisəsinin də unudulmasını istəyirlər. İmam Hüseynin (ə) Aşura hadisəsini də zalımlar unutdurmağa çalışırdılar. Amma xanım Zeynəb buna yol vermədi. Həzrət Zeynəb iki iş gördü. Biri əsirlərin Kufə və Şama aparılması zamanı xanımın zalımların cinayətlərini ifşa etməsi oldu. Onun ikinci hərəkəti Ərbəin günü Kərbəla ziyarətinə gəlməsidir. Bunun birinci ya ikinci Ərbəində baş verməsi mühüm deyil. Bu hərəkətin mənası odur ki, mühüm hadisələrin unudulmasına çalışanlar məqsədə çatmasın. Əlbəttə ki, müvəffəq olmayacaqlar. Nə qədər ki, xalqlar oyaqdır, danışan dillər, həqiqəti söyləyən dillər susmayıb, nə qədər ki, möminlərin qəlbində şövq var bu hadisələri unutdura bilməyəcəklər. Necə ki, bu günə qədər məqsədə çatmayıblar. Belə hadisələri unutdurmaq cəhdi qədimdən olub. Mütəvəkkil Abbasi Aşura hadisəsindən 170-180 il sonra İmam Hüseynin (ə) məzarını dağıtmaq istədi. İran xalqı bundan sonra da oyaq olmalıdır ki, düşmənlər inqilabın gözəlliklərini unutdurmaq məqsədinə çatmasınlar. Düşmən əl çəkmir. Onlar inqilabı təhrif edir, ya da unutdurmaq istəyir. Məqsədləri budur ki, xalq öz tarixi keçmişini yaddan çıxarsın. Öz iftixarlı keçmişini bilməyən gələcəkdə də qürur doğuran hadisələr yarada bilməz. Düşmən bu istiqamətdə çalışır.

19 dey hadisəsini siz yaşatdınız. 29 bəhmən hadisəsinə siz həyat verdiniz. 22 bəhmən hadisəsini səhnədə saxlayan siz oldunuz. 9 dey hadisəsi də oxşar bir hadisədir. Bu hadisəni də yaddan çıxmağa qoymadınız. Sizin bu hərəkətiniz düşmən qarşısında bir mübarizədir. Onlar inqilabın həqiqətlərini təhrif etmək, unutdurmaq istəyir. Bu yolda pul xərcləyirlər, fəaliyyət göstərirlər. Mətbuatla, nəşriyyələrlə tanış olan insan düşmənin nə iş görmək istədiyindən xəbərdardır. Bu gün hətta Pəhləvi rejiminin çirkin simasını gözəlləşdirmək istəyirlər. Bu əlaltı rejim məmləkətimizi neçə illər geriyə atdı, xalqımız üçün böyük problemlər yaratdı. İndi bu çirkin rejimi bəzəyib İslam nizamı ilə qarşı-qarşıya qoymaq istəyirlər.

Bu fəaliyyətləri himayə edənlər İslam inqilabı ilə müxalif olanlardır. Onlar inqilabçı xalqla müxalifdir. Xalqın inqilaba sədaqəti onları narahat edir. Bu günə qədər məqsədə çata bilməyiblər. Ümid edirdilər ki,

inqilabdan sonrakı ikinci, üçüncü nəsli dəyişə biləcəklər. Amma bacarmadılar. Üçüncü nəslin inqilabdan üz çevirməsinə nail ola bilmədilər. 9 dey hadisəsini bu üçüncü nəsil, gənclər yaratdı. Onlar o böyük hadisəyə imza atdılar. Onların bu hərəkəti fitnə yaratmaq istəyənlərə möhkəm sillə oldu. Bu silləni kim vurdu? Bəli, gənclər, inqilabın 3-cü nəsli. İndi növbəti nəsillərə ümidlə baxırlar. Bilirlər ki, İran xalqının sərmayəsi insanlardır. İnsanları inqilab yolundan döndərməyə çalışırlar. Nə qədər ki, siz dəyərli gənclər və mömin xalq meydandasınız, şövqümüz var, bəsirətlisiniz, bilirsiniz ki nə iş görmək istəyirlər. Təbii ki, məqsədə çatmayacaqlar. Yaxşı, bəs 19 deydə nə baş verib? Hamınız bilirsiniz ki, 19 dey İran xalqı üçün ümumi hərəkatın başlanğıcıdır. Bu od kül altda qalmışdı. Amma günbəgün yayılırdı. Şölələnməsi isə 19 deydə baş verdi. Bu işi qumlular gördülər. Bunun ardınca başqa hadisələr baş verdi. İran xalqı yekdilliklə meydana daxil oldu. Öz əziz, şücaətli imamlarının çağırışına ləbbəyk dedilər, azğın rejimlə mübarizəyə qalxdılar. Bəs xalqın etiraz etdiyi rejim kim idi? Bu çox mühümdür. Mən bir neçə xüsusiyyət sadalayacağam. Qeyd etdim ki, bu gün inqilabımızı təhrif etməyə maraqlı olanlar var. Onlar İran tarixinin ən çirkin rejimini gözəl göstərməyə çalışırlar. İran xalqı həqiqəti bilməlidir.

Həmin azğın rejimin xüsusiyyətlərindən biri diktatura, xalqa amansız təzyiqlər, ölkənin müxtəlif yerlərində baş verən qəddarlıqlar idi. Biz onların nə iş gördüyünü yaxından müşahidə etmişik. Xalqın başına nə oyunlar gətirdilər. Rzaxanın nə iş gördüyünü bizdən əvvəlkilər yaxşı bilir. Onlar bizə danışıb. Sonralar isə özümüz meydanda olmuşuq, xalq meydanda olub. Gənclər həmin dövrü görməyib. O azğın rejimin xalqla, mübarizlərlə necə davranması barədə mötəbər sənədlər var. Onların xalqa verdiyi işgəncələr, ağır təzyiqlər, fiziki və mənəvi sıxıntılar, dözülməz şəraiti olan həbsxanalar yetərli nişanələrdir. Bu gün həmin həbsxanaları görənlər təəccüb edir. Onların bir işi zorakılıqla xalqa təzyiq göstərmək, öz hakimiyyətlərini davam etdirmək idi. Bu gün insan haqlarından dəm vuranlar həmin cinayətkarların tərəfini saxlayır. Deyə bilməzlər ki, bu cinayətlərdən xəbərsizdirlər. Çünki şahın cəhənnəm SAVAK idarəsini sionistlər, amerikalılar, CIA yaratmışdı. İşgəncə üsullarını onlar öyrədirdilər. Necə ola bilər ki, xəbərsiz olsunlar. Son zamanlar özlərinin də çətinliyə düşdüyü məlum olub. Amerikanın kəşfiyyat idarələrinin etirazçılar və müxaliflərlə rəftarları ifşa olub. Bu işgəncələr hara, azadlıq, liberalizm, demokratiya şüarları hara! Dünya qəribə olub. Bizim ölkəmizdə xəbis şah rejiminin bir xüsusiyyəti bu idi ki, zərrəcə etiraz edənlə ən amansız şəkildə davranırdı.

İkinci xüsusiyyət şah rejiminin xarici qüvvələrə qul kimi əsir olması idi. Bu gün şah rejimini təmizə çıxarmaq üçün kitablar yazılır. Amma bunlar inkar ediləsi faktlar deyil. Rzaxan Britaniyanın istəyi ilə hakimiyyətə gəlmişdi. Onların göstərişi ilə də getdi. İngiltərə bircə mesaj verdi ki, o getməlidir. 17-18 il səltənətdən sonra getməyə məcbur oldu. Çünki onun güvənəcəyi bir qüvvə yox idi. Onlar gətirmişdilər, indi də deyirdilər ki, getməlisən. O da getdi. İngilislərin əmri ilə gəldi, ingilislərin əmri ilə getdi. Sonra ingilislər Məhəmməd Rzanı hakimiyyətə gətirdilər. 30-cu ilin əvəllərində amerikalılar meydana daxil oldu. Bütün işi ələ aldılar. Siyasət Amerika siyasəti oldu. İstər ölkə daxilində, istər regionda, istər beynəlxalq səhnədə Amerikanın mənafelərinə uyğun şəkildə hərəkət edilirdi. Onlar nə istəyirdisə, o da olurdu. Bu İran xalqına böyük təhqir idi. Xəbis şah rejiminin xüsusiyyətlərindən biri belə əlaltı olması idi. Bu gün Amerikanın İran xalqı və İslam inqilabına düşmən kəsilməsinin bir səbəbi əlaltı rejimin getməsidir. Belə bir xidmətçi rejim əllərindən çıxıb. Bəli, onların inqilabla düşmənçiliyi başa çatası deyil.

Xəbis şah rejiminin üçüncü xüsusiyyəti onun fəsad içində olması idi. Bu fəsad cinsi fəsadlardan başlayırdı və bütün saray adamlarını, onların ətraflarını əhatə edirdi. Xəcalət doğuran əhvalatlardır. Xalq bunu dilə gətirməyə cürət etməsə də yaxşı görürdü. Bəzən xaricilər bu barədə yazırdılar. Əxlaq, iqtisadiyyat sahəsində fəsad baş alıb gedirdi. Bu fəsadlar orta yox, ali səviyyədə idi. Ən böyük rüşvətxorluqlar, əxlaqsızlıqlar, xəyanətkarlıqlar şah və onun ətrafında baş verirdi. Milli sərvətə qarşı böyük xəyanət vardı. Xalqın yoxsullaşması hesabına varlanırdılar. Əxlaqsızlıq, rüşvətxorluq, narkomaniya yayılırdı. Bütün bunun arxasında o zamankı rejim dayanırdı. Məhəmməd Rzanın bacılarından birini İseçrə hava limanında bir çamadan heroinlə saxlamışdılar. Bunu bütün dünya bildi, amma tez ört-bastır etdilər. Vəziyyət belə idi. Zalım rejimin mühüm xüsusiyyətlərindən biri xalqa etinasızlıq idi. Xalqı saya salan yox idi. Biz həmin rejimin dövründə bir dəfə olsun seçkilərdə iştirak etmədik. Sadə xalqdan da, bazar əhlindən də seçkilərdə iştirak etdiyini eşitməmişdik. Bir ovuc muzduru aparıb onların vasitəsi ilə şura məclisi və başqa qurumlarda işlərini görürdülər. Xalqın xəbəri olmurdu ki, işə kim rəhbərlik edir. Bir növ xalqla hakimiyyət arasında rabitə qırılmışdı. Bu gün siz ölkənin siyasi həyatından xəbərdarsınız. O zaman xalq hakimiyyətin nə iş gördüyündən tamami ilə xəbərsiz idi. Zalım rejim xalqdan tam şəkildə ayrılmışdı.

Elmi inkişafa etinasızlıq göstərilirdi, xalq kiçildilirdi, Qərb dəyərləri böyük göstərilirdi. Nəinki elmi inkişaf yox idi, ümumiyyətlə elm sahəsində fəaliyyət görülmürdü. Xalqı hər şeyin xaricdən gəlməsinə öyrətmişdilər. Təəssüf ki, bu adət hələ də yaşayır. Uzun illər boyu xalqın adət etdiyi bir şeyi asanlıqla səhnədən çıxarmaq olmur. Daxili istehsalı gücləndirmək əvəzinə xalqı xaricdən gələn mallara öyrətmişdilər. Bir növ xalqın zövqü dəyişmişdi. Kənd təsərrüfatı məhv olmuşdu. Milli sənayedən söhbət gedə bilməzdi. Məmləkət tam şəkildə xaricdən, xalqın düşmənlərindən asılı vəzziyyətə gətirilmişdi. Xalqın istedadlarını, potensialını gözdən salır, Qərb mədəniyyətini böyüdürdülər. Xalq bütün bunları görür, hiss edirdi. İran xalqı oyaq xalqdır, həqiqəti dərk edir. Bir nida, bir mömin qəlb lazımdır ki, insanları mübarizə meydanına çəksin. Təbii ki, haradasa mübarizə səsi gəlirdi. Amma ümumi bir mübarizə üçün ilahi bir insana ehtiyac vardı. Allah-Taala xalqa bu şəxsi verdi. Böyük İmam (r) xalqın bütün istəklərini özündə cəmləşdirmiş həmin fəryad idi. Xalq da onun çağırışına cavab verdi, canından keçdi, fədakarlıq göstərdi, meydanlara çıxdı. Xalq rejimə qarşı mübarizəyə qalxdı və qalib gəldi.

Xarici düşmənlərin İslamla müxalifətinin səbəbi budur ki, dünyanın həssas bir regionunda, fövqəladə strateji mövqeyə malik olan bir ölkə bu inqilab vasitəsi ilə nəzarətdən çıxmışdı. Muzdurların yerinə gələnlər artıq düşmənlərin istəklərinə məhəl qoymurdu. Onlar əvvəlki rejimin tam əksinə hərəkət edirdilər. İslam İnqilabının ən böyük xidməti bu oldu ki, xalqı həmin rejimin şərindən xilas etdi. Bütün inkişafların, milli izzətin, böyük xalq hərəkatının, ümumi bəsirətin, elmi inkişafın, dünyada və regionda qazanılan mövqeyin əsas səbəbi budur ki, həmin maneə aradan qaldırıldı. Bu işi xalq gördü. Bu işi din gördü. Bu işi etiqad gördü.

Bu gün dünya imperializmi İslam nizamına qarşıdır. Heç kim təsəvvür etməsin ki, düşmən öz düşmənçiliyindən əl çəkib. Xeyr, belə deyil. Nə zaman güclənsəniz, hazır olsanız, düşmənin planlarını görə bilsəniz düşmən məcbur qalıb öz mövqeyini dəyişəcək. Əgər diqqətsiz olsanız, düşmənə ümid bəsləsəniz düşmən üçün yeni fürsətlər yaranacaq. Bu zaman o bu ölkədə məqsədlərinə çata bilər. Bu gün xalqımıza qarşı təzyiqlər həmin düşmənçiliyin göstəricilərindəndir. Bu düşmənçilik başa çatası deyil. İran

xalqı bu düşmənçilik qarşısında dayanıb, müqavimət göstərib, İslam Cümhuriyyətini qoruyub, böyük ideallara doğru hərəkət edib. Bəzən uğursuzluq barədə məsuliyyətsiz sözlər eşidilir. Əslində belə deyil və İran xalqı bu günə qədər böyük uğurlar qazanıb. İran xalqı düşmənin təzyiqlərinə müqavimət göstərib. Xalq bacarıb ki, özünü qorusun, inkişaf etsin, ideallarına yaxınlaşsın.

Biz həmişə demişik ki, İslamın tələblərini kamil şəkildə reallaşdıra bilməmişik. Amma bu günə qədər böyük yol keçmişik. Ölkədə ictimai ədaləti tam şəkildə təmin etmişik. Amma qarşıda uzun yol var. Bunu görməmək olmaz. Bir gün bu ölkənin bütün sərvətini bir neçə ailə qəsb edirdi. Amma bu gün vəziyyət tam dəyişib. Milli sərvət xalqın ixtiyarındadır. İctimai ədalətə doğru böyük bir hərəkat var. İslam əxlaqına doğru böyük bir hərəkat var. Arabir eşidirik ki, əxlaqla bağlı tənqidi sözlər deyilir. Bəli, əsil İslam əxlaqı ilə bizim aramızda müəyyən fasilə var. Buna şübhə yoxdur. Amma biz çox irəli getmişik. İran xalqı böyük addımlar atıb və bunu görməmək olmaz. Bəziləri düşüncəsizliklə elmi tərəqqini inkar edir. Nə üçün? Axı ölkənin elmi inkişafı təkcə bizim sözümüz deyil. Bunu düşmənlər də etiraf edir. Bunu dünyanın beynəlxalq araşdırma mərkəzləri deyir. Belə bir zamanda bir qrup ortaya çıxıb xalqı kiçiltmək istəyir. Bu səhv yanaşmadır. Ölkədəki böyük inkişafı görməmək olmaz. Həmin inkişafı müqəddəs İslam nizamı təmin edib. Bunu inkar etmək insafsızlıq və yanlışlıqdır. Amma qarşıda uzun yol var və buna şübhə yoxdur. Biz hələ ki, böyük məqsədlərə çatmamışıq. İslamın idealları olduqca yüksəkdir. İlkin İslam dövründə də belə olub. Düşünməyin ki, Peyğəmbər (s) dövründə, xəlifələr dövründə İslamın tələbləri tam təmin olunub. Əsas məsələ hərəkətdə olmaq və irəli getməkdir. Xalqımız hərəkətdədir və irəli gedir. Bu hərəkəti məsuliyyətsiz sözlərlə gözdən salmaq olmaz. Xalqda onun hərəkəti ilə bağlı şübhə yaratmaq olmaz. Xalq inkişaf edir, böyük işlər görülür. Buna dünya şahiddir. Başqa ölkədən gələnlər inkişafımızı etiraf edir. Onlar İran xalqı haqqında xoş sözlər deyir. Müxaliflər, düşmənlər bu xalqın inkişafını təsdiqləyir. İran xalqı iqtidarı, müqaviməti, istedadı, qazandığı böyük tövfiqə görə alqışlanır. Bu gün xalqımıza lazım olan ittifaq və milli birlikdir. Xalqı parçalamaq, iki dəstəyə bölmək, təfriqə yaradan şüarlar söyləmək düzgün deyil. Bu bizim milli mənafeyimizə ziddir. Bu İran xalqının ideallarına ziddir. İttihad və ittifaq lazımdır. Xalq məsullara kömək etməlidir, dövlətə yardım etməlidir.

Dövlətlər də bilməlidirlər ki, onlara vəzifələrini yerinə yetirməkdə kömək edəcək yeganə qüvvə xalqdır. Xalqa güvənmək lazımdır. Dəfələrlə demişəm ki, gözlərini biganələrə dikməsinlər. Bəli bu gün düşmənlər sanksiyalarla müəyyən problemlər yaradıb. İndi sabah sanksiyaları götürmək üçün bir şərt qoysalar və bu şərt sizin qeyrətinizə sığmasa nə edəcəksiniz? Şərt qoydular ki, İslamdan əl çəkin, müstəqillikdən əl çəkin, elmi inkişafdan əl çəkin, qürur yaradan hərəkətlərdən əl çəkin. Yalnız bu şərtlər daxilində sanksiyaları götürəcəklərini vəd etsələr nə edəcəksiniz? Şəksiz ki, qəbul etməyəcəksiniz. Ölkədə heç bir məsul qəbul etməz ki, hansısa siyasi və qlobal bir prinsipi qurban vermək naminə sanksiyalar götürülsün. Düşmən birbaşa ideallarımıza hücum etmir. Biz geri çəkilsək ona yol açılır və öz çirkin tələblərini açıq ortaya qoyur. Ayıq olmaq lazımdır. Bilməliyik ki, düşmənin təklifləri arxasında nə dayanıb. Heç bir məsul şəxs razı olmaz ki, düşmən qarşısında geri çəkilək. Bizim geri çəkilməyimiz hesabına sanksiyaların götürülməsi milli mənafeyə uyğun deyil. Amma biz sanksiyaları təsirsizləşdirə bilərik. Müqavimət iqtisadiyyatı elə budur. Tutaq ki, düşmən sanksiyaları götürmək üçün elə bir şərt qoyur ki, onu qəbul etmək mümkünsüzdür. Bu halda daxili qüvvələrə güvənməliyik. Dəfələrlə qeyd etmişik ki, ölkənin iqtisadi

durumu neftdən asılı olmamalıdır. Görün qısa müddətdə neftin qiyməti necə sürətlə yarıya endirildi. Əgər neftdən asılı olacağıqsa, problem də yaranacaq. Bu barədə fikirləşmək lazımdır. Dövlət məsullarının əsas vəzifəsi budur ki, sanksiyalar götürülməsə belə ölkənin iqtisadiyyatını çiçəkləndirə bilsin. Çıxış yolu budur. Biz ölkənin daxili qüvvələrinə güvənməliyik. Ölkənin daxili potensialından istifadə olunmalıdır. Bu məqsədə aparan yollar var. Mütəxəssislər, peşəkarlar əmindirlər ki, bu qəbil çıxış yolları var. İnsan özünə güvənə bilər. Məsulların, dövlətin vəzifəsi budur. Bigänənin əlinə ümid gözü dikilməməlidir. Biganə bir gün sanksiya istəyəcək və siz nə qədər geri çəkilsəniz, o irəli gələcək. Bu imperializmin xislətindədir, siz geri çəkildikcə o üstünüzə yeriyəcək.

Əsas məsələ budur ki, düşmənin planını zərərsizləşdirəsi işlər görülsün. Elə bir iş görək ki, sanksiyalar təsirsiz olsun. Bizi bu məqsədə çatdıracaq yollar var. Bəzi addımlar atılıb və müsbət nəticəsi də var. Düşmənin əlindən sanksiya silahını almaq olar. Amma gözümüz düşmənin əlində olsa onlar deyəcəklər ki, nə qədər ki, tələblər yerinə yetirilməyib, sanksiyalar qüvvədə qalır. Amerikalılar həyasızlıqla deyirlər ki, İran nüvə proqramında geri çəkilsə belə sanksiyalar tam şəkildə ləğv olunmayacaq. Bunu açıq deyirlər. Aydın olur ki, belə düşmənə etibar etmək olmaz. Mən müzakirələrə müxalif deyiləm. Qoy müzakirələr getsin. Mənim etiqadım budur ki, ümidimizi xəyali yox, həqiqi nöqtəyə bağlamalıyıq. Həmd olsun Allaha ki, ölkənin məsulları məşğuldurlar, çalışırlar. Mən də düşünürəm ki, bütün qrumlar dövlətə kömək etməlidir. Çünki iş çətindir. Dövlət də ehtiyatlı olmalıdır ki, xalq parçalanmasın. Ehtiyac olmayan sözləri danışmaq lazım deyil. Xalqımızın birliyi, yüksək himməti, böyük imanından düzgün istifadə olunmalıdır. Belə olsa inşaallah maneələr aradan qalxar. Nəzərinizə çatdırıram ki, bu günlə inqilabın başlanğıcı arasında yerlə göy qədər fərq var. Biz çox inkişaf etmişik. Biz 20 il əvvəllə, 10 il əvvəllə də müqayisədə çox irəlidəyik. Şübhəsiz ki, İran xalqı bu inkişaf yolunu davam etdirəcək. İran xalqı, siz gənclər ilahi tövfiqlə, Allahın lütfü ilə görəcəksiniz ki, təkəbbürlü düşmən qarşınızda boyun əyməyə məcbur olub.

Allahın rəhməti olsun böyük İmama (r). İmam (r) bizim qarşımızda müqavimət, Allaha təvəkkül, bəsirət yolu açdı. Allahın rəhməti olsun əziz şəhidlərə, şəhidlər bu yolda hərəkət etdi. Allahın rəhməti olsun siz əzizlərə, gənclərə, çalışqan insanlara. Siz bu günə qədər bu yolu davam etdirmisiniz.

Vəssəlamu ələykum və rəhmətullahi və bərəkatuh

Yanvar, 2015

## Ümumölkə Namaz Toplantısına Müraciət

## Namaz toplantısı mübarək, faydalı və xeyir bir toplantıdır

Cənab Rəhbər Ayətullah Xameneinin 23-cü Ümumölkə Namaz Toplantısına Müraciəti

Ötən gün sübh Əhvazda 23-cü Ümumölkə Namaz Toplantısı Ayətullah Xameneinin müraciəti ilə öz işinə başlayıb. Cənab Rəhbərin müraciətini Namazın Bərpası Mərkəzinin rəisi höccətülislam vəlmüslimin Qəraəti oxuyub. Müraciətin mətni:

Bismillahir-Rəhmanir-Rəhim

Uzun illərdir mübarək, ardıcıl təlaş və diqqət qəlbləri və düşüncələri bütün ölkə boyu bu toplantıya, namaz barədə fikirləşməyə sövq edir. Bu misilsiz İslam ayini, din və dindarlığın möhkəm sütunu mövzusunda nöqtələr, xatırlatmalar, xəbərdarlıqlar cəmiyyətə çatdırılır. Bu toplantı siz təşkilatçılar üçün böyük ilahi tövfiq, biz dinləyicilər və tələbələr üçün Allah tərəfindən nemətdir.

Artıq bu dəyərli təlaşın məhsulunu düzgün baxış tərəzisində ölçmək vaxtıdır. Həm namazın bərpası və ona yüngül yanaşmamağa dəvət edilən dinləyicilər, xüsusilə yeniyetmə və gənclərə münasibətdə, həm rəhmani saleh əməl sayılan namazın ruhu və cövhəri olan xüzu və xüşuya münasibətdə, həm bu yolda vəzifəli insanların məsuliyyətinə münasibətdə, eləcə də məscidlərin tikilib-abadlaşdırılmasına münasibətdə, məktəb və universitetlərdə namazın təşkilinə münasibətdə, hava və yerlə səfərlərdə namaza şərait yaradılmasına münasibətdə, audio-video təbliğat vasitələrində sənətkarlıq üsullarından bəhrələnməyə münasibətdə, bu qısa və mənalı ibadətə aid məqalə və kitabların ərsəyə gəlməsinə münasibətdə, məsulların öhdəsinə düşən digər işlərə münasibətdə dəyərləndirmə vaxtıdır.

Namaz toplantısı mübarək, faydalı və xeyir bir toplantıdır. Bu dəyərli işin daha kamil səviyyəyə çatması üçün dəqiq və düşüncəli dəyərləndirməyə, hesablamaya cəhd etmək lazımdır. Nəticələr üzərində işləmək bu tədbirin mühüm hissəsidir.

Allahdan hamınıza, xüsusilə əziz və dəyərli ruhani höccətülislam cənab Qəraətiyə tövfiq diləyirəm.

Seyid Əli Xamenei

9 dey, 1393 (30 dekabr, 2014)

## İran İslam Cümhuriyyəti ordusunun hərbi məktəb tələbələrinin 8-ci toplantısında bəyanat

## İslam imperializmin mənafelərinə qarşı çıxmasaydı...

Bismillahir-Rəhmanir-Rəhim

Mömin gənclərin, pak zabitlərin varlığı nemətinə görə Allah-Taalaya şükr edirik. Bu gənclər İran İslam Cümhuriyyəti ordusu və ölkənin müdafiə sistemi üçün işıqlı gələcək ümidi verirlər. Siz əziz gənclər, bu universiteti bitirənlər və zabitlik dərəcəsi alanlar, eləcə də bu elm, təcrübə, iman meydanına daxil olanlar inşaallah böyük bəhrəyə sahib olacaqlar. Siz mənim əziz övladlarım, İran xalqının əziz və dəyərli övladlarısınız. Sizə uğurlarınıza görə təbrik söyləyirəm, bu ağır yükü çiyninə almış komandanlarınıza, rəislərinizə və məsullara səmimi təşəkkürümü bildirirəm. Bugünki proqram gözəl, məzmunlu, dərin mənaya malik proqram idi. Allah-Taala bu şüarlar, bu üsullar, bu sözlər əsasında sizin canınızı, qəlbinizi, düşüncənizi və əməlinizi illər boyu möhkəm və davamlı etsin.

Silahlı qüvvələr hər bir ölkədə iqtidarın dayaqlarındandır. Ölkənin hərbi gücü onun ümumi və beynəlxlaq qüdrətini nümayiş etdirə bilər. Amma silahlı qüvvələrin özündə bu mənaya səhlənkarlıqla baxmaq olmaz. Güclü ordu o ordudur ki, eşq, mənəviyyat, əzmkarlıq bu ordunun hərəkətlərini məsuliyyət səhnəsində formalaşdırsın, ona istiqamət versin. Əgər iman, bəsirət, əzmkarlıq olmasa, düşmən sıralarına uzaqgörənliklə nəzər salınmasa, hərbçilər və təchizatın çoxluğu təyinedici olmayacaq. Silahlı Qüvvələrdə canlı qüvvələrin və müasir silahların çoxluğu bəs etmir ki, ordu məmləkət və milləti iqtidara çatdırsın. İman, əzmkarlıq, məsuliyyət hissi, hərbi məsuliyyətin dərk olunması lazımdır. Yalnız bu şərtlər daxilində ordu millətin iqtidar sütunlarından ola bilər. İslam Cümhuriyyətinin ordu və SEPAH daxil olmaqla silahlı qüvvələri, bəsic qüvvələri və digər hərbi xidmət göstərənlər illər uzunu öz bacarıqlarını sübuta yetiriblər. Öz mənəvi, elmi, yaradıcı iqtidarlarını ortaya qoyublar. Buna görə də dünya bizim silahlı qüvvələrə ciddi yanaşır, bilirlər ki, məsuliyyət meydanında, döyüş səhnəsində silahlı qüvvələr bütün imkanlarını ortaya qoyur.

Əziz gənclər, bu xalqın fədakar övladları! Bu təhlükəni sahəni xidmət üçün seçənlər! Özünüzü silahlı qüvvələrin hər gün artan məsuliyyətinə hazırlayın. Oxuduqlarınızı, aldığınız təlimləri, düşüncə və araşdırmalarınızı, yiyələndiyiniz hərbi bacarıqlarınızı məmləkətin həqiqi, mühüm iqtidar sütunu olmaq məqsədinə yönəldin.

Universitetin Əmirəlmömininin (ə) adı ilə tanınması böyük iftixardır. Nurani əkslərini gördüyünüz şəhidlər bu universitetdə tərbiyə alıb, səhnəyə çıxıblar. Döyüş meydanlarında olanlar, şəhidlər arasında bir hissəsi də bu universitetin tələbəsidir. Bu universitet bərəkətli bir yerdir. Bu universitetdə elə insanlar tərbiyə olunub ki, İran xalqı onlarla fəxr edir, onları özünə iftixar sayır. Belə bir mərkəzdə hazırlıq keçdiyinizə görə fəxr edib. Bu gün İslam dünyası, hətta bütün bəşəriyyət sizin və İran xalqının şüarlarına ehtiyaclıdır. Bu gün dünya eqoizm və tamahkarlığın qurbanı olaraq əzab çəkir. Müasir dünya yeni və dağıdıcı vasitələrlə fəzilətləri dərk etməyən həvəsbaz insanların ixtiyarındadır. Onlar insanlıqdan xəbərsizdir. Belə bir dünyada İslamın azadlıq fəryadı ucalanda, İslam bayrağı qalxanda hamının diqqəti onu cəlb olunur. Düşmənlər buna reaksiya göstərir. İslamı gözdən salmaq üçün incəsənətdən, hərbdən, siyasətdən, bütün mümkün vasitələrdən istifadə edirlər.

Bu gün dünyanın sənət şirkətlərində istifadə olunan əsas işlərdən biri islamafobiya, insanlarda İslama münasibətdə qorxu yaratmaqdır. Nə üçün? Əgər İslam dünya imperializminin mənafelərinə qarşı

çıxmasaydı belə reaksiyalar olmazdı. Görürsünüz ki, müxtəlif qrupları İslam adı altında, İslam hökuməti adlandıraraq silahlandırır, himayə edir, onların əli ilə qətliamlar aparır, ölkələrdəki sabitliyi pozurlar. Bu İslamın nüfuzundan qorxunu göstərir. Həqiqi İslamdan qorxurlar. O İslam ki, sizdən əvvəlki nəsil bu İslamla döyüş meydanlarına çıxdı, siyasət və inqilabda söz sahibi oldu, özünü dünyaya göstərdi. Burada əziz gənclərin qeyd etdiyi kimi siz böyük şəhidlərin, böyük şəhidlərin varislərisiniz. İslamın müsajı bəşəriyyət üçün asayiş, izzət, şərəf, sabit həyat mesajıdır. Düşmənlər istəmir ki, bu İslamı dünya və xalqlar tanısın.

Əzizlərim! Təhsildə ciddi olun, hərb sənətini gözəl öyrənin, hərbçiliyi İslam prinsipləri ilə yanaşı əxz edin. Necə ki, gənc araşdırmaçı və alimlərimiz elmin müxtəlif sahələrində uğurlara imza atır. Siz də hərb sənətini, ordu quruculuğunu, yeni üsulları yaradın, ixiralar edin, aranızda səhnəyə çıxarın.

Allah-Taaladan hamınız üçün tövfiq, yardım diləyirəm. İnşaallah, siz gənclər daha üstün, daha işıqlı, daha şərəfli bir sabaha şahid olacaqsınız. Siz özünüz həmin işıqlı sabahın ərsəyə gəlməsində rol oynayırsınız.

Vəssəlamu ələykum və rəhmətullahi və bərəkatuh

(Bu mərasim bir qrup gəncin İran İslam Cümhuriyyəti ordusunun hərbi məktəbini bitirməsi, başqa bir qrupun tələbələr sırasına qatılması münasibəti ilə təşkil olunub. Mərasim İmam Əli (ə) adına hərbi məktəbin binasında baş tutub. Cənab Rəhbər Ayətullah Xamenei şəhidlərin xatirə guşəsində olub, hərbi qruplarla görüşüb, mərasimdə Quran oxunub, məktəbin rəhbəri Məhəmmədriza Fuladi çıxış edib, yeni tələbələrin andiçmə mərasimi keçirilib, ustad və nümunəvi tələbələr təltif edib, təhsili başa vuranlar hərbi baş komandandan bayrağı alaraq yeni tələbələrə təqdim edib. Baş komandan bəyanatla çıxış edib, marş icra olunub, parad keçirilib.)

Noyabr, 2014

## “İfratçı və təkfirçi cərəyanlar İslam alimlərinin nəzərində” konfransının iştirakçıları ilə görüşdə çıxış

### Amerika və Avropa dövlətləri əl-ələ verdilər, amma bacarmadılar...

Təkfirçi cərəyanın fitnəkarlıqları ilə İslam məmləkətlərində, İraq, Suriya, Liviya, Livan və bəzi başqa ölkələrdə dəyərli infrastrukturlar viran qoyuldu. Görün bu ölkələrdə nə qədər yollar, neftayırma zavodları, mədənlər, hava limanları, şəhərlər, evlər məhv edilib. Səbəbi daxili müharibələr, qardaş qırğınlarıdır. Əvvəlki vəziyyətə qayıtmaq üçün nə qədər zaman, pul, güc sərf edilməlidir?!

Bizə məlumat verildi ki, Amerikanın yük təyyarələri İŞİD adlı qrupun İraqdakı mərkəzlərinə havadan silah-sursat atır, onlara kömək edirlər. Əvvəlcə düşündük ki, bu səhvən ola bilər. Amma sonra yenə təkrarlandı. Mənə verilən məlumata görə 5 dəfə bu hadisə baş verib. 5 dəfə səhv etmək olar? İddia edirlər ki, anti-İŞİD koalisiyası yaradıblar. Aşkar yalandır! Bu koalisiyanın xəbis məqsədləri var. Onlar təkfirçi fitnəkarlığını yaşatmaq istəyirlər.

***

Çıxışın tam mətni

Bismillahir-Rəhmanir-Rəhim

(Bu konfrans şəmsi təqvimlə 2, 3 azərdə müqəddəs Qum şəhərində keçirilib. Konfrans Ayətullah Nasir Məkarim Şirazi və Ayətullah Cəfər Subhaninin rəhbərliyi ilə baş tutub. Cənab Rəhbərin nümayəndələrlə görüşdə çıxışından öncə konfransın təşkilat komitəsinin rəisi höccətül-İslam Seyid Mehdi Əlizadə Musəvi hesabat məruzəsi edib.)

Əlhümədulillahi Rəbbil-aləmin və səlləllahu əla səyyidəna və nəbiyyina əl-Mustəfəl-əmin Muhəmmədin və alihit-təyyibinət-tahirinəl-məsumin və əla səhbihil muntəcəbin vət- təabeinə ləhum bi ihsanin ila yəvmid din

Əvvəla, əziz qonaqlara, möhtərəm iştirakçılara, məclisə qatılan müxtəlif İslam məzhəbi alimlərinə xoşgəldin deyirəm. Bu əhəmiyyətli iclasın iki günlük işində fəal və faydalı iştirakınıza görə təşəkkür edirəm. Böyük və dəyərli Qum alimlərinə, xüsusi ilə cənab Ayətullah Məkarim Şirazi və cənab Ayətullah Subhaniyə təşəkkür etməyi zəruri sayıram. Onlar bu ideyanın müəllifidirlər və onu həyata keçirdilər. Həmd olsun Allaha ki, bu yolda ilk addım atıldı. Onu davam etdirmək lazımdır. İki gün ərzində möhtərəm natiqlərin çıxışlarından xülasə şəkildə məlumat əldə etdim. Mən də bir neçə nöqtə qeyd etmək istərdim.

Birincisi, bu iclas İslam dünyasında zərərli və təhlükəli cərəyan olan təkfirçilik cərəyanına həsr olunub. Təkfirçilik yeni hadisə deyilsə də, onun tarixi keçmişi varsa da, bir neçə ildir imperializmin planları, bəzi region dövlətlərinin pulu hesabına, ABŞ, Britaniya, sionist rejim kimi müstəmləkəçi ölkələrin casus şəbəkələrinin planları əsasında yenidən dirçəlib, güclənib. Bu məclis, sizin bu toplantınız həmin cərəyanla hərtərəfli mübarizə üçündür. Bu gün İŞİD adı ilə tanınan qrupu nəzərdə tutmuram. İŞİD adı ilə tanınan cərəyan xəbis təkfirçi ağacın bir budağıdır. Onların törətdiyi fəsadlar, qətliamlar (bax: Bəqərə, 205), günahsız insanların qanının axıdılması İslam dünyasında təkfirçi cərəyanın cinayətlərinin bir hissəsidir. Məsələyə bu prizmadan baxmaq lazımdır.

Mən qəlbən təəssüf edirəm. Biz, yəni İslam dünyası bütün gücümüzü sionist rejimin fitnəkarlığı ilə mübarizəyə sərf etməliyik. Onların Qüdsi-şərif və Məscidül-Əqsaya qarşı hərəkətləri bütün İslam dünyasını ayağa qaldırmalıdır. Amma məcbur olmuşuq ki, imperializmin İslam dünyasının daxilində yaratdığı problemlə məşğul olaq. Başqa yol yoxdur. Əslində təkfirçiliklə mübarizə İslam dünyası alimlərinə, bu dünyanın öncül və fədakar övladlarına qəbul etdirilmiş mübarizədir. Düşmən bu cərəyanı saxta problem olaraq səhnəyə çıxarıb və biz onunla mübarizə aparmağa məcburuq. Amma əsas problem sionist rejim problemidir. Əsas məsələ Qüds, müsəlmanların ilk qibləsi, Məscidül-Əqsadır. Bunlardır əsas məsələ!

İnkarolunmaz bir nöqtə budur ki, təkfirçi cərəyan və onu himayə edən hökumətlər imperializm və sionizmin mənafelərinə xidmət edirlər. Onların işi ABŞ, istismarçı Qərb dövlətləri və işğalçı sionist rejimin məqsədlərini həyata keçirməkdir. Bu fikri qəti şəkildə təsdiq edən dəlillər var. Təkfirçi cərəyan İslami simaya malikdir. Amma əməldə istismarçı, imperialist, İslam dünyasına qarşı böyük siyasətlərin xeyrinə işləyir. Aydın dəlillər var və bu dəlillərə göz yummaq olmaz. Həmin dəlillərdən bəzilərini yada salıram.

Biri budur ki, təkfirçi cərəyan İslam oyanışı hərəkatını yolundan çıxara bildi. İslam oyanışı hərəkatı anti-Amerika, istibdada qarşı, Amerikanın məntəqədəki əlaltılarının ziddinə bir hərəkat idi. Təkfirçi cərəyan imperializm və Amerikaya zidd olan bu böyük hərəkatın istiqamətini dəyişdi, müsəlmanlar arasında müharibə, qardaş qırğınına yol açdı. Məntəqədə ön mübarizə xətti işğal olunmuş Fələstinin sərhədləri idi. Təkfirçi cərəyan gəldi, bu ön xətti Bağdad küçələrinə, Suriya və Dəməşqin came məscidinə, Pakistan küçələrinə, Suriyanın müxtəlif şəhərlərinə çəkdi. Ön mübarizə xətti bunlar oldu!

Bu gün Liviyanın, Suriyanın, İraqın, Pakistanın vəziyyətinə baxın. Görün müsəlmanların əlindəki qüvvələr və qılınclar kimə qarşı işləyir. Bu güc sionist rejimə qarşı olmalı idi. Təkfirçi cərəyan mübarizə istiqamətini dəyişdi, evlərimizə, şəhərlərimizə, İslam məmləkətlərinə gətirdi. Dəməşqin came məscidində partlayış törədirlər. Bağdadda sadə xalq arasında insanları qətlə yetirirlər. Pakistanda yüzlərlə insanı atəşə tuturlar. Liviyada grdüyünüz vəziyyət yaradılıb. Bütün bunlar təkfirçi cərəyanın unudulmaz tarixi cinayətlərindən biridir. İslam oyanışı hərəkatının istiqamətini dəyişmək Amerikaya xidmətdir, Britaniyaya xidmətdir. ABŞ, Britaniya casus şəbəkələrinə, MOSSAD və bu kimi şəbəkələrə xidmətdir.

Başqa bir dəlil budur ki, təkfirçi cərəyanı himayə edənlər müsəlmanlara qarş savaşda sionist rejimlə həmkarlıq edirlər. Onlar sionist rejimə etiraz da etmirlər. Amma İslam məmləkətləri, İslam xalqlarına müxtəlif bəhanələrlə müxtəlif şəkildə zərbə vurur, təxribat törədirlər.

Başqa bir dəlil təkfirçi cərəyanın fitnəkarlıqları ilə İslam məmləkətlərində, İraq, Suriya, Liviya, Livan və bəzi başqa ölkələrdə dəyərli infrastrukturların viran qoyulmasıdır. Görün bu ölkələrdə nə qədər yollar, neftayırma zavodları, mədənlər, hava limanları, şəhərlər, evlər məhv edilib. Səbəbi daxili müharibələr, qardaş qırğınlarıdır. Əvvəlki vəziyyətə qayıtmaq üçün nə qədər zaman, pul, güc sərf edilməlidir?! Bütün bunlar ötən neçə ildə təkfirçi cərəyanın İslam dünyasına vurduğu zərbələrdir.

Başqa bir dəlil təkfirçi cərəyanın dünya miqyasında İslamın simasını bulaşdırmasıdır. Bütün dünya gördü ki, cinayətini sübuta yetirmədən insanın başını kəsirlər. Allah-Taala buyurur: “Allah din yolunda sizinlə vuruşmayan və sizi yurdunuzdan çıxartmayan kimsələrə yaxşılıq etməyi və onlarla ədalətlə rəftar etməyi sizə qadağan etməz. Allah ədalətli olanları sevər; Allah sizə ancaq sizinlə din yolunda vuruşan, sizi yurdunuzdan çıxardan və çıxartmağa kömək edən kimsələrlə dostluq etmənizi qadağan edər. Onlarla dostluq edənlər əsl zalımlardır!” (Mumtəhinə, 8, 9) Onlar tam əksinə hərəkət edir, müsəlmanları qətlə yetirir, təcavüz etməyən qeyri-müsəlmanın boynunu vurur, videogörüntüləri dünyaya yayırlar. Bütün

dünya buna baxır. Hamı görür ki, adını müsəlman qoymuş bir şəxs qətlə yetirdiyi insanın sinəsini yarıb ürəyini çıxarır və dişinə çəkir. Bunu dünya görür. Bunlar İslamın ayağına yazılır. Mərhəmət İslamı, düşüncə İslamı, məntiq İslamı belə tanıtdırılır. Bundan böyük cinayət olar?! Bundan xəbis fitnə?! Bütün bunlar təkfirçi cərəyanın işləridir.

Növbəti dəlil təkfirçi cərəyanın Müqavimət hərəkatının mehvərini təkləməsidir. Qəzzə 50 gün tək vuruşdu, 50 gün təkbaşına müqavimət göstərdi. İslam məmləkətləri Qəzzənin köməyinə getmədi. Neftdən gələn pullar, dollarlar Qəzzəyə xərclənmədi. Hətta bəziləri sionist rejimin xidmətində durdu.

Təkfirçi cərəyan müsəlman gəncliyin İslam dünyası boyu müqavimət hərəkatını yolundan çıxardı. Bu gün bütün İslam dünyasında gənclərdə bir fədakarlıq şövqü var, İslam oyanışı onlara təsir göstərib, böyük məqsədlər yolunda xidmət etməyə hazırdırlar. Təkfirçi cərəyanlar bu fədakarlıq şövqünü yolundan azdırdı, bəzi xəbərsiz və cahil gənclər müsəlmanların, qadın və uşaqların qətliamına sövq edildilər. Bu da təkfirçi cərəyanın cinayətlərindəndir.

Bütün bu dəlillərə rahatca göz yummaq olmaz. Aydın görünür ki, təkfirçi cərəyan imperializmin, İslam düşmənlərinin, Amerikanın, Britaniyanın, sionsit rejimin xidmətindədir. Təbii ki, başqa dəlillər də var. Bizə məlumat verildi ki, Amerikanın yük təyyarələri İŞİD adlı qrupun İraqdakı mərkəzlərinə havadan silah-sursat atır, onlara kömək edirlər. Əvvəlcə düşündük ki, bu səhvən ola bilər. Amma sonra yenə təkrarlandı. Mənə verilən məlumata görə 5 dəfə bu hadisə baş verib. 5 dəfə səhv etmək olar? İddia edirlər ki, anti-İŞİD koalisiyası yaradıblar. Aşkar yalandır! Bu koalisiyanın xəbis məqsədləri var. Onlar təkfirçi fitnəkarlığını yaşatmaq istəyirlər. Tərəfləri qarşı-qarşıya qoyub, müsəlmanlar arasında müharibənin davamına çalışırlar. Məqsədləri budur. Əlbəttə ki, bunu bacarmayacaqlar. Yaxşı bilsinlər!

Bir neçə mühüm vəzifə yerinə yetirilməlidir. Siz möhtərəm cənablar iki günlük iclasda Müəyyən yollar araşdırdınız, vəzifələr müəyyən etdiniz. Mən bir neçə məsələni nəzərinizə çatdırıram. Birincisi, təkfirçi cərəyanın kökünü qazmaq üçün bütün İslam məzhəbi alimlərinin geniş elmi və məntiqi hərəkat yaratması zəruridir. İslama can yandıran bütün məzhəblər, İslamı qəbul edən bütün qüvvələr bu işə görə məsuliyyət daşıyır. Əzəmətli elmi hərəkat yaradılmalıdır. Onlar “saleh sələfin ardınca” kimi yalan şuarlarla meydana girdilər. Saleh sələfin təkfirçi cərəyanın işlərinə nifrətini din, elm, məntiq dili ilə sübuta yetirmək lazımdır. Gəncləri xilas etməliyik! Bir dəstə bu azdırıcı fikirlərin təsiri altına düşüb və düşünür ki, yaxşı iş görür. Quran buyurur: “(Ya Rəsulum!) De: Sizə əməlləri baxımından (axirətdə) ən çox ziyana uğrayanlar barəsində xəbər verimmi?.. O kəslər ki, onların dünyadakı zəhməti boşa getmişdir. Halbuki onlar yaxşı işlər gördüklərini (və bunun müqabilində mükafata nail olacaqlarını) zənn edirdilər.” (bax: Kəhf, 103, 104) Bu biçarələr yuxarıdakı ayələrin onlar haqqında olduğunu düşünür. Allah yolunda vuruşduqlarını güman edirlər. Hansı ki, Quran təbirincə: “Deyəcəklər: “Ey Rəbbimiz! Biz ağalarımıza, böyüklərimizə itaət etdik, onlarsa bizi haqq yoldan azdırdılar; Ey Rəbbimiz! Onlara ikiqat əzab ver, onları böyük bir lənətə (əzaba) düçar elə!” (Əhzab, 67, 68) Dəməşq məscidində böyük müsəlman alimini qətlə yetirən də bunlardandır. Müsəlmanları dində azmaq bəhanəsi ilə qətlə yetirən bu qrupdur. Pakistanda, Əfqanıstanda, Bağdadda, İraqın başqa şəhərlərində, Suriyada, Livanda partlayış törədən, günahsız insanları al qana boyayan adamlar bunlardandır. Qiyamət günü deyəcəklər ki, böyüklərimiz bizi azdırdılar. Qurani-Kərimin başqa bir yerində oxuyuruq: “(Allah qiyamət günü onlara) Buyuracaq: “Sizdən əvvəl gəlib-getmiş (kafir) cin və insan tayfaları ilə birlikdə Cəhənnəmə girin!” Hər tayfa girdikcə (özündən əvvəlki) dindaşına və tayfadaşına (onu doğru yoldan azdırdığı üçün) lənət oxuyacaq. Nəhayət, hamısı birlikdə orada (Cəhənnəmdə) toplandığı zaman sonra gələnlər (tabe olanlar) əvvəl gələnlər (tabe olduqları) barəsində deyəcəklər: “Ey Rəbbimiz! Bizi azdıran bunlardır. Bunlara ikiqat cəhənnəm əzabı

ver! (Allah) buyuracaq: “Hər birinizi ikiqat əzab gözləyir, lakin siz bilmirsiniz!” (Əraf, 38); “Şübhəsiz ki, bu – cəhənnəm əhlinin bir-biri ilə bu cür çəkişməsi (çənə-boğaz olması) bir həqiqətdir!” (Sad, 64) Onları xilas etmək lazımdır, bu gəncləri xilas etməliyik. Bu iş alimlərin öhdəsinədir. Alimlərin ziyalı cəmiyyətləri ilə əlaqələri var. Xalq kütlələri ilə rabbitədədirlər. Onlar təlaş göstərməlidirlər. Allah-Taala qiyamət günü alimlərdən nə etdiklərini soruşacaq. Addım atmaq lazımdır.

İkinci iş ABŞ və Britaniyanın siyasətlərini aydınlaşdırmaqdır. Bütün İslam dünyası bilməlidir ki, bu arada Amerikanın rolu nədir. ABŞ, Britaniya, sionist rejim casus şəbəkələrinin təkfirçilik fitnəsinin dirçəldilməsində rolu nədən ibarətdir? Bunu hamı bilməlidir. Hamı bilməlidir ki, bu cərəyan onlara işləyir. Plan cızan, himayə edən onlardır. Maliyyə yardımları isə məntəqə ölkələrindən gəlir. Bu aldanmış insanları bədbəxt edirlər. İslam dünyasına problem yaradırlar. Görüləsi mühüm işlərdən biri budur.

Üçüncü iş hökmən Fələstin məsələsinə diqqət yetirməkdir. İmkan verməyin ki, Fələstin, Qüdsi-Şərif, Məscidül-Əqsa problemləri yaddan çıxsın. Onlar bunu istəyir. Onlar İslam dünyasına Fəlsətini unutdurmağa çalışır. Həmin günlərdə sionist rejim dövləti Fələstin məmləkətini yəhudi məmləkəti elan edir. Fələstin bir yəhudi ölkəsi kimi tanıtdırılır. Çoxdan bu işi görmək istəyirdilər. İndi açıq-aşkar addım atırlar. İslam dünyasının, müsəlman xalqların qəflətdə olduğu bir şəraitdə sionist rejim Qüdsə sahib durur, Məscidül-Əqsanı işğal edir. Fələstinliləri bacardıqca zəiflətməyə çalışırlar. Buna diqqətli olaq. Bütün xalqlar Fəlsətin probleminə diqqəti öz dövlətlərindən tələb etməlidirlər. Tələb etməlidirlər ki, bu problemlə məşğul olsunlar. Mühüm vəzifələrdən biri budur. Allaha şükür edirik ki, İran İslam Cümhuriyyətində dövlət və xalq bu işdə həmrəydir. İslam cümhuriyyəti və böyük imam əvvəlcədən Fələstinin himayəsi və sionist rejimlə düşmənçilik siyasətini ortaya qoydu. O zaman başlanılan iş bu günə qədər davam etməkdədir. 35 ildir bu xətdən kənara çıxmamışıq və xalqımız həvəslə həmkarlıq edir. Bəzən gənclərimiz məktub yazırlar, məndən xahiş edirlər ki, sionist rejimlə ön cəbhədə döyüşmək üçün icazə verilsin. Xalqımız sionizmlə döyüş aşiqidir. İslam cümhuriyyəti bunu işdə göstərib.

Biz ilahi yardımla məzhəb ixtilafları maneəsini keçdik. Şiə olan Livan Hizbullahına kömək etdiyimiz kimi, sünnə əhlindən olan HƏMAS və İslam Cihadı təşkilatlarına kömək etmişik və edəcəyik. Biz məzhəbi məhdudiyyətlərin əsiri deyilik. Deməmişik bu şiədir, bu sünnidir, bu hənəfidir, bu hənbəlidir, bu şafeidir, bu zeydidir. Biz əsas məqsədə baxdıq, kömək etdik və fələstinli qardaşlarımızı Qəzzə və digər məntəqələrdə gücləndirə bildik. İnşaallah bu iş davam edəcək. Mən elan etmişəm və hökmən bu iş olacaq ki, Qərb Sahili Qəzzə kimi silahlanacaq, müdafiəyə hazır olacaq.

Siz qardaşlara bunu da deyim ki, Amerikanın hay-küyü sizi qorxutmasın. Düşmən zəifdir. İslamın düşməni imperializmdir. Onlar ötən 100-150 illə müqayisədə daha zəif olublar. Qərbin imperialist dövlətlərinə baxın. İqtisadi, siyasi böhran içindədirlər. Qeyri-sabitlik problemi yaşayırlar. İmperialist Qərb dövlətlərinin çeşidli problemləri var. Amerika onlardan da pis vəziyyətdədir. Əxlaq problemi, siyasi problemlər, maliyyə problemi, dünyada super güc nüfuzunun itirilməsi problemi bu sıradadır. Təkcə İslam dünyasında yox, bütün dünyada nüfuzdan düşürlər. Sionist rejim keçmişlə müqayisədə çox zəifləyib. Bu həmin rejimdir ki, “Nildən Fərata qədər” iddiası ilə çıxış edirdi. Açıq deyirdilər ki, Nildən Fərata qədər bizimdir. Qəzzədə 50 gün müharibə apardılar, fəlsətinlilərin tunellərini ələ keçirə bilmədilər. 50 gün bütün qüvvələrini topladılar ki, HƏMAS və İslam Cihadının, fələstinlilərin yeraltı tunellərini məhv etsinlər. Bacarmadılar. Bu həmin rejimdir ki, Nildən Fərata qədər mənimdir deyirdi. Görün nə qədər vəziyyət dəyişib, nə qədər zəifləyiblər.

İslam düşmənlərinin problemləri çoxdur. İslam düşmənləri İraqda məqsədə çata bilmədilər. Suriyada, Livanda, müxtəlif məntəqələrdə nakam qaldılar, planları reallaşmadı. İslam Cümhuriyyəti ilə mübarizədə

Amerika Avropa dövlətləri ilə əl-ələ verdilər, bütün güclərini işə saldılar ki, İslam cümhuriyyətinin nüvə proqramını dizə çökürsünlər. Bacarmadılar və bacarmayacaqlar. Bu onların zəifliyidir. Siz inşaallah günbəgün güclənəcəksiniz. Gələcək sizindir. Allah Öz işində (əmrində) qalibdir...! (bax: Yusif, 21)

Vəssəlamu ələykum və rəhmətullahi və bərəkatuh

Noyabr, 2014

## Tələbə və ruhanilərlə görüşdə təbliğat mövzusunda çıxış

### Dünyada qanunu ən çox pozan dövlət Amerikadır...

Bismillahir-Rəhmanir Rəhim...

Bu nurani məclisə toplaşmış əziz qardaş və bacıları salamlayıram. Bu məclisdə hörmətli alimlər, əziz tələbələr, Qum Elm Hövzəsinin ustad və məsulları iştirak edir. Bu toplum üstün və oxşarsız toplumdur.

Söhbətimizin mövzusu təbliğatdır. Təbliğat mənim və sizin əsas işimizdir. Məhərrəm ayı təbliğat üçün daha münasib aydır. Bir müddət öncə mübahilə günü idi, qarşıda məhərrəm günləridir. Bir münasib gün də hövzə və universitetin vəhdət günüdür. Bütün bu münasibətlər biz təbliğatçılar üçün mühüm münasibətlərdir.

Mübahilə günü həzrət Peyğəmbər (s) ona əziz yaxınlarını səhnəyə çıxardı. Bu hadisədə özümüz və özünüz, qadınlarımız və qadınlarınız ifadələri işlədilir. Həzrət Peyğəmbər (s) ona əziz insanları haqq və batilin mübarizə səhnəsinə çıxarır. Övladlarını, qızını, Əmirəlmöminini (ə) özü ilə meydana aparır. Mübahilə günündə bu hadisənin baş verməsi, yəni əzizlərin səhnəyə çıxarılması həqiqətin bəyanının nə qədər mühüm olduğunu göstərir. Peyğəmbər (s) elan edir ki, kim haqlıdır qalsın, kim haqsızdır məhv olsun. Əzizlərini yanına alıb bu sözü dilə gətirmək ilahi arxayınlıq istəyir.

Eyni hadisə məhərrəmdə əməli şəkildə həyata keçir.

İmam Hüseyn (ə) həqiqətin bəyanı üçün ən əziz insanlarını özü ilə meydana gətirir. İmam bilirdi ki, hadisənin sonu nədir. Bacısı Zeynəbi, ailə-övladını, əziz qardaşlarını bu səhnəyə çıxardı. Burada da mövzu dinin təbliğidir. Təbliğin əsil mənası sözü çatdırmaq, fəzanı aydınlaşdırmaqdır. Fəza ifrat bulaşdıqda ya

söz, ya da əməllə onu aydınlaşdırmaq lazım gəlir. İmam Hüseyn (ə) Ağır bir qiymətə bu işi görür. Ailə-övladını, əzizlərini, Əli (ə) övladlarını meydana çıxarır ki, həqiqət aydın olsun.

Bu gün əsas mövzulardan biri də hövzə ilə universitetin rabitələridir. Burada da qurmaq, həqiqəti çatdırmaq vəzifələri var. Ölkədəki universitet tələbələrinin din alimləri ilə rabitələri arzulanan bir rabitədir. Hövzə ilə universitetin vəhdət günü bu məqsədə xidmət edir. Hövzə hövzədir, universitet də universitet. Məqsəd səmərəli rabitələr yaratmaqdır, birini o birində əritmək deyil. Rabitələrin dəyəri əziz imam tərəfindən bəyan olundu. Düşmən siyasəti bu idi ki, universiteti İslamdan uzaqlaşdırsınlar. Eyni zamanda hövzəni dünyada baş verən hadisələrdən xəbərsiz saxlamaq istəyirdilər. Bu iki qanadı birlikdə hərəkət etməyə qoymurdular. Yenə təbliğ məsələsi irəli gəlir. Təbliğin əhəmiyyəti burada görünür. Biz oxuyuruq ki, Allahın göstərişlərini təbliğ edək, insanlara çatdıraq. İstər dini maarif, istər dini hökmlər, istər ilahi əxlaq olsun.

Bu münasibətlər və təbliğ məsələsi bəsirətli əmələ bağlıdır. Bəsirət zəruridir. Yəqinlik dedikdə qəlb imanı nəzərdə tutulur. Bəsirət və yəqin əsasında hərəkət edilməlidir. Bəsirət və yəqin olan bir vaxtda bir iş görülməsə bu bəyənilmir. Təbliğ lazımdır. Bu da var ki, bəsirət və yəqinliksiz təbliğ səmərəsizdir. Hansı sütun möhkəm deyilsə məqsəd ödənməyib. Bəqərə 285: “Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilənə (Qurana) inanmış və möminlər də iman gətirmişlər. (Onların) Hamısı Allaha, Onun mələklərinə, kitablarına və (bütün) peyğəmbərlərinə iman gətirərək dedilər: “Biz Onun peyğəmbərləri arasında fərq qoymuruq. (Allahın hökmlərini) Eşitdik (anladıq) və itaət etdik. Ey Rəbbimiz, bizi bağışla, (axırda) Sənin dərgahına (hüzuruna) qayıdacağıq!” Deməк, Allah əmrini gətirən öncə özü ona inanır. Belə olmasa, sözün təsiri olmaz. Bu iman bəsirətlə yanaşı olmalıdır. Bəqərə 277: “İman gətirən, xeyirli işlər görən, namaz qılan, zəkat verən şəxslərin Rəbbi yanında mükafatları vardır. Onların (axirətdə) heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər!” Ayədən göründüyü kimi saleh əməl də ortaya gəlir. Demək, təbliğdə düşünmək və iş görmək lazımdır. Cənab Müqtədayi bu günə qədər eşitmədiyim məlumat verdi. Dedi ki, dini təbliğatın layihələndirmə mərkəzi yaradılıb. Bu mənim istədiyim işdir.

Bu gün dünyada təbliğat böyük rol oynayır. Əslində həmişə belə olub. Amma qədimdə bugünki təbliğat vasitələri olmayıb. Biz tələbə və ruhanilərin imtiyazı üzbəüz təbliğat imkanıdır. Bunun yerini heç nə tuta bilməz. Minbərdən xalqla danışmaq bütün başqa təbliğat üsullarını kölgədə qoyur. İncəsənət növləri də təsirlidir. Amma minbər təbliğatı xüsusi təsirə malikdir. Başqa təbliğat vasitələri onun gördüyü işi görə bilmir. Bəli, bizim ixtiyarımızda təsirli təbliğat üsulu var.

Qeyd edim ki, təbliğat cərəyan, dialoq yaratmalıdır. Təbliğat atmosfer ərsəyə gətirməlidir. Fəza yaratmaq suyu və havanı lazım olan yerə çatdırmaq kimidir. Təbliğat işini dayandırmaq olmaz və layihələndirməyə ehtiyac var.

Dialoq fəzası yaratmaq nə üçündür? Qeyd edim ki, məhz bunun sayəsində cəmiyyətdə dini düşüncə inkişaf edir. Düşüncə inkişaf edəndə məsuliyyət hissi olarsa əməl səhnəyə gəlir. Peyğəmbər (s) bunun ardınca idi. Düzgün mədəniyyət, düzgün mərifət oyaq fəzada iş görür. Təbliğin belə təsirləri var.

Bir nümunəsi məhərrəm ayı təbliğatıdır. Məhərrəm əzadarlığı təbliğat üçün ən münasin zamandır. Bu fürsətdən istifadə etmək lazımdır. İki yol ayrıcında məqsədi göstərən tablo olmasa yolçu qərar çıxara bilməz. Yol artdıqca azmaq ehtimalı da artır. Meyarlar təyin olunmalıdır. İşarə barmağını aydın şəkildə göstərmək lazımdır ki, insanlar azmasın. Düşmənin bu gün əsas işi fitnə yaratmaqdır. Haqq tərəfdarları bəsirətli olmalı, həqiqəti xalqa aydın şəkildə çatdırmalıdır.

Təbliğdə bir mühüm nöqtə var. Əhzab 39: "O Peyğəmbərlər ki, Allahın hökmlərini (onlara verdiyi risaləti) təbliğ edər, (risaləti tərk etməkdə) Ondan çəkinər və Allahdan başqa heç kəsdən qorxmazlar. Allah özü haqq-hesab çəkməyə kifayətdir." Burada iki şərt qoyulur. Biri Allahdan qorxmaq, o biri Allahdan qeyrilərindən qorxmamaqdır. Qorxu Allah yolunda olmalıdır. Əgər Allah yolunun ziddinə olsa, azğınlıqdır. Yunis 32: "O sizin həqiqi Rəbbiniz olan Allahdır. Artıq haqdan sonra zəlalətdən başqa nə qalır?! Belə isə (haqdan) necə döndərilirsiniz?" Bəli, insan Allah xofu sayəsində həqiqəti dərk edir. Çünki həqiqətin düşməni var. Həqiqəti bəyan etmək asan deyil. Həqiqətin düşməni dünyapərəstlər, zalım hakimlərdir. Tarix boyu belə olub. Əsrin imamı zühur edənə qədər də belə olacaq. Zalım başçılar işsiz dayanmayıb. Hiylə qurur, zərbə endirirlər. Bütün vasitələrə əl atırlar. Demək, bu düşmən qarşısında Allah xofuna, eyni zamanda düşməndən qorxmamağa ehtiyac var. Qorxu bir şəkildə olmur. İnsan bəzən canına, bəzən malına, bəzən şəxsiyyətinə görə qorxur. Bəzən bir sözü deməyə qorxurlar. Bu qorxuları kənara qoymadan düzgün təbliğat aparmaq olmaz. Çoxları başa düşmür ki, bu işin nə qədər zəhməti var. Özlərini kənara çəkir və dildə işi Allaha tapşırırlar. Amma işi Allaha tapşırmaqla yanaşı addım atmaq, şücaət göstərmək lazımdır.

Bəziləri deyə bilər ki, məhərrəm ayında Kərbəladan danışmaq lazımdırsa, buyurun danışın. Rövzə, göz yaşı nəyə lazımdır?! Hadisədən danışın, məqsədlərini aydınlaşdırın, bununla da söhbətinizi başa çatdırın!! Bu çox yanlış fikirdir. Allah övliyalarına qəlb bağlılığımız var, hadisələr bizi duyğulandırır. Eşqsiz, hissiz bu yolu getmək çətindir. İmam Rahil (r) buyururdu ki, ənənəvi qaydada əzadarlıq adətkarlıq deyil. Qurani-Kərimdə Allah övliyaları haqqında 3 təbir işlədilir. Maidə 55: "Sizin haminiz ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki, (Allaha) namaz qılır və rükuda olduqları halda zəkat verirlər." Aydın olur ki, bağlılıq, mərifət vilayətin tərkibindədir. Nisa 59: "Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar (əmr) sahiblərinə itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu daha xeyirli və nəticə etibarilə daha yaxşıdır." Bu əmələ aiddir. Əməl meydanında özünü sübuta yetirməlisən. Şura 23: "Allah iman gətirib yaxşı əməllər edən bəndələrinə bununla müjdə verir. (Ya Peyğəmbər!) De: "Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumluq məhəbbətindən (əhli-beytə sevgidən) başqa bir şey istəmirəm. Kim bir yaxşı iş görərsə, onun yaxşılığının savabının (mükafatını) artırarıq!" Həqiqətən, Allah bağışlayandır, qədirbiləndir! (Şükrün və itaətin, gözəl əməllərin əvəzini verəndir!)" Bu sevgi nədir? Bu vilayəti qəbul etmək, ona itaət nə üçündür? Bu sevgi insan üçün bir arxadır. Əgər Əhli-Beyt (ə) sevgisi olmasa ilkin İslam dövründə həmin məhəbbəti kənara qoyanların başına gələn müsibətlər bizim də başımıza gələsidir. Unutmayaq ki, məhəbbət duyğularla yaranır. Biz Kərbəla müsibətindən danışarkən duyğulanırıq və bu qəlbimizdəki eşqlə bağlıdır.

Bütün bunları nəzərə aldıqda görürük ki, əzadarlıqda ağlamaq zəruridir. Bəzi ziyalıların bunu gərəksiz sayması səhvdir. Xalqın bu ruhiyyəsi həmişə lazımlıdır. Təbii ki, bütün işlərdə ifrat olduğu kimi burada da var və İslam bunu qəbul etmir. Məsələn, baş yarmaq bu qəbildəndir, biz bunu məqbul saymırıq. Başyarma hadisəsi Əhli-Beyt (ə) düşmənləri üçün bir bəhanə olub. Amma bayraq götürülməsi, sinə vurulması eşqlə bağlıdır. İnsan sevgidən də ağlaya bilər. Bu çox yaxşıdır və təbliğ bu sahədə əhəmiyyətlidir.

Qum bir elmi mərkəzdir. Burada cərəyan yaratmaq, təbliğ strategiyası üzərində işləmək lazımdır. Yuxarıda qeyd edilən mərkəzin yaradılması bir müjdə oldu. Bu gün və bundan sonra 5 il təbliğ edilməsi zəruri olan mövzu sonradan aktuallığını itirə bilər. Təbliğat mövzuları planlaşdırılmalıdır. Biz tələbə və ruhanilərə tövsiyə edirik ki, cəmiyyətin ehtiyaclarını nəzər alsınlar. Amma bu bir fərdin işi deyil. Fərdlər səhvə yol verə bilər. Bunun üçün mərkəz və proqramlaşdırmaya ehtiyac var.

Təbliğ üçün ən mühüm məqam ortaya fitnə çıxan məqamdır. Peyğəmbər (s) dövründə ən böyük zəhmətlər münafiqlərlə bağlı idi. Peyğəmbərdən (s) sonra Əmirəlmömininin (ə) dövründə həmin ağrılar yaşandı. O biri imamların da dövründə belə fitnələr vardı. Bədr savaşı çətin deyil. Meydanda düşmənlə üzbəüz dayanmısansa bu özü işi asanlaşdırır. Amma Əmirəlmöminin (ə) İslam iddiasında olanlarla üzbəüz gəlmişdi. Həzrətlə vuruşanlar İslamdan üz çevirənlər yox, yolunu azanlar idi. Nəfs istəkləri onları aldatmışdı. Belə məqamlarda insanlarda şübhə yaranır. Səhabə Abdullah ibn Məsud həzrətin hüzuruna gəlib şübhədən danışır. Nə üçün şübhə edilməlidir? Belə xüsusi şübhələr İslam cəmiyyətinin yolu üstündə böyük maneədir. Xüsusi insanlar şəkkə düşəndə vəziyyət gərginləşir. Həzrət Əlinin (ə) problemi bu idi. Bu gün də eyni problemlə üzləşirik. Elə bizim cəmiyyətimizdə də bu hal varş

Beynəlxalq səhnədə düşmən bütün vasitələrə əl atır, ictimai fikiri çaşdırmağa çalışır. Əllərindən gələni edirlər. Qanun çıxarırlar, insan haqlarından danışırlar. Özlərini məzlumun müdafiəçisi kimi göstərirlər. Bunlar sadəcə gözəl sözlərdir, amma həqiqət tamam başqadır. ABŞ prezidenti deyir ki, biz qanunu pozan dövlətləri məsuliyyətə çağırır. Sual olunur ki, qanunu pozan hansı dövlətdir? Amerikadan çox qanunu pozan var? Hansı qaun əsasında İraqı işğal etdilər, bu qədər zərər vurdular, ölkəni dağıtdılar? Özləri bi şayiə uydurdular və bu şayiə əsasında İraqa hücum etdilər. Ötən illərdə İraqda 100 minlərlə insan həlak olub, neçə milyon insan evindən didərgin düşüb. Məlumat verilir ki, İsrail 550 İraq alimini terror edib. Bu azdır? Terror mərkəzləri əməliyyat keçirib İraq alimlərini qətlə yetirdilər. Buna şərait yaradan İraqı işğalı oldu. Hansı əsasla İraqa girmisiniz? Hansı qanunu tanıyırsınız? İraq xalqını hansı qanunlar əsasında alçaldırsınız? Əfqanıstanı hansı qanun əsasında işğal etdiniz? Əfqanıstanda toy karvanlarını bombaladılar. Belə hadisələr ötən illərdə çox baş verib. Amerikalı zabit Talibanı axtarırıq deyib toy karvanını bombalayır. Heratda da oxşar hadisə olub. Bu hadisədə 100 nəfərdən artıq dinc sakin qətlə yetirilib. Aralarında 50-yə yaxın uşaq olub. Siz amerikalılar qanunsuzluğun məzhərisiniz. Dünyada qanunu ən çox pozan dövlət Amerikadır...

Noyabr, 2014

## Qədiri-Xum bayramı münasibətilə görüş

### "Əsil düşmən Amerika və sionizmin siyasətləridir"

Qədiri-Xum bayramı münasibəti ilə İmam Xomeyni (r) hüseyniyyəsində görüşdə Cənab Rəhbər Ayətullah Xameneinin bəyanatının tam mətni:

Bismillahir-Rəhmanir-Rəhim

Bütün möhtərəm iştirakçıları, əziz qardaş və bacıları, İran xalqı və bütün şiələri, İslamın irfani həqiqətlərindən və şərif dinin mahiyyəti ilə tanışlıqdan ləzzət alan bütün insanları mübarək Qədir bayramı münasibətilə təbrik edirəm. Möhtərəm iştirakçılara, xüsusilə uzaqdan gəlmiş bacı və qardaşlara, bu hüseyniyyəni öz hüzuru ilə zinətləndirənlərə xoşgəldin deyirəm. Bir cümlə Qədir mövzusunda, daha bir cümlə Qədirlə tanışlıqdan yaranan, üzərimizdə olan vəzifə barədə ərz edirəm. Bu iki məsələyə diqqət yetirin.

Qədir məsələsi İslam tarixində çox mühüm məsələdir. Əvvəla, bu hadisənin özü heyrətamizdir. “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır” Peyğəmbər (s) buyuruğu təkcə şiələr tərəfindən qəbul və nəql olunmuş söz deyil. Bu söz aksiomlar qismindəndir. Bu sözə irad bildirmək istəyənlər heç vaxt bəyanatın özünə qarşı çıxmayıblar. Yeganə işləri bu bəyanatı istədikləri kimi mənalandırmaq, təhrif etmək olub. Yenicə meydana çıxmış bir qrupun təsəvvürünə gələn fikirlər də min il qabaqkı fikirlərdir, böyük alimlər onların cavabını verib, zərrəcə şübhəyə yer qalmayıb. Həzrət Peyğəmbərin (s) “ələstu əvla bikum min ənfusikum” sualı Qurani-Kərimin “ənnəbiyyu əvla bil mumininə min ənfusihim” ayəsinə işarədir. Həzrət bu sualın ardınca “mən kuntu məvla fə haza əliyyun məvla” cümləsini buyurur və bu buyuruğa zərrəcə şübhə yoxdur. Bu tarixi və dərin mənalı şərif cümlənin yalnız şərhi ilə bağlı iradlar var. Əvvəla, bu cümlə ilə Əmirəlmömininin xilafət və imamət məqamı ortaya qoyulur. Digər bir mühüm məsələ İslamın hökumət və siyasətə nəzarəti məsələsidir. Bu məsələdən qəflətdə qalmamalıyıq. İslamı ictimai-siyasi məsələlərdən kənarda görənlər, bu dinin yalnız fərdi məsələlərlə bağlı səlahiyyətli olduğunu iddia edənlər əslində sekulyar baxışa malikdirlər. Düşmən təbliğatı, düşmən əlləri də uzun illərdir müsəlmanlar arasında bu baxışı yayır. Qədir hadisəsi onlara cavabdır. Həzrət Peyğəmbər (s) həyatının son aylarında, çox həssas bir zamanda Allah-Taalanın əmri ilə prinsipial və mühüm bir mövzunu bəyan edir. Bu məsələ Peyğəmbərdən (s) sonra Əmirəlmömininin (ə) canişinliyini təsdiq etməklə hakimiyyət mövzusunu səhnəyə gətirməkdən ibarətdir. Bu təyinat yalnız mənəvi yönə malik deyil. Təyinatda hakimiyyət, dövlətçilik, siyasət, İslam cəmiyyətinin idarə olunması nəzərdə tutulur. Peyğəmbər (s) xalqa bunları tövsiyə etdi. İslamı siyasətdən, dövlətçilikdən, bu kimi məsələlərdən uzaq sayanlar Qədir hadisəsi ilə sarsıdıcı bir cavab aldılar. İki həqiqət, Əmirəlmömininin (ə) Peyğəmbərdən (s) sonra üçün imamətə təyinatı və Peyğəmbərdən (s) sonra hökumət və siyasətə nəzarət Qədir hadisəsinin çox mühüm və həssas göstərişləridir. Bu iki göstəriş Qədir hadisəsinin zəmanət verdiyi maarifdəndir, bugünki və sabahkı müsəlmanlara böyük dərsdir.

Bu gün diqqət yetirməli olduğumuz məsələ budur ki, Qədir hadisəsi etiqadi bir hadisədir. Şiə fərd, Əhli-Beyt (ə) ardıcılları, imamət məktəbi Qədir hadisəsinə bağlıdır. Qədir mövzusu şiə təfəkkürünün özülüdür. Bu məsələdə şübhəyə yer yoxdur, bu mövzuda mübahisənin yeri görünmür. Şübhə edənlər, mübahisəyə girişənlər sırf elmi görüşlərdə bu barədə danışa bilərlər. Şiəliyin məntiqi güclüdür, dəlilləri qətidir, şəkk-şübhəyə yer yoxdur. Mümkün şübhələr müsəlmanların ümumi həyatına, həmrəyliyinə, həmkarlığına, qardaşlığına təsir göstərməməlidir. Şiə və sünni məzhəbləri və başqa məzhəblər arasında olan ixtilaflı mövzular İslam düşmənlərinin ümid nöqtələridir. İslam düşmənləri tarix boyu müsəlmanlar arasında ixtilaf yaratmağa çalışıblar. Çünki bu ixtilaflar müsəlmanların təlaşını, gücünü, iştiyaqını daxili problemlərə sərf edir, nəticədə böyük düşmənlərdən qəflətdə qalırlar. İslam İnqilabının qələbəsi və İslam Cümhuriyyəti yarandıqdan sonra İslam Cümhuriyyəti düşüncəsi dünyaya yayılmağa başladı. Dünya imperializmi uzun illər təfriqə salmaqla, böyük sərmayələr yatırmaqla İslam dünyasını İran İslam Cümhuriyyətindən ayrı salmağa çalışdı.

İslam Cümhuriyyəti nizamı, bizim böyük inqilabımız, böyük imam İslam dünyasının diqqətini cəlb edə bildi. Düşüncələr və qəlblər bu ideyaya yönəldi. Yaranmış vəziyyət düşməni qorxuya saldı. İmperializm, sionizm, ABŞ siyasi maşını qorxuya düşdü. Qədim tarixi parçalama silahlarını ələ götürdülər. Uzun illər boyu və bu gün şiələrlə sünnilər arasında ixtilaf yaratmağa çalışıblar, hər iki zümrənin düşüncəsini əsas düşməndən yayındırmağa cəhd göstəriblər. Sünni-şiə ixtilafı yaratmaq imperializmin siyasətidir. Bu siyasətin mütəxəssisi qədimdən bu istiqamətdə fəaliyyət göstərən Britaniya və onun müttəfiqləridir. Onlar müsəlmanlar arasında necə ixtilaf yaratmağı bilirlər, bu yolları təcrübədən çıxarıblar və ciddi çalışmaqdadırlar.

Bu gün təkcə şiələr yox, bütün müsəlmanlar İraq, Suriya və başqa məntəqə ölkələrində imperializm tərəfindən səhnəyə çıxarılmış təkfirçiliyin hədəfindədir. Əl-Qaidə, İŞİD adında qruplar yaradırlar ki, İslam Cümhuriyyəti, İslam oyanışı ilə mübarizə aparsınlar. Amma özlərini bəlaya saldılar. Təkfirçilik onların özü üçün problemə çevrilib. Bu gün dəqiq analitik baxışla məsələni çözdükdə görürsən ki, ABŞ və müttəfiqlərinin İŞİD-ə qarşı son tədbirləri bir oyundur. Məqsəd bu xəbis hərəkətin nütfəsini məhv etmək yox, ona İslam dünyasının zərərinə aparan istiqamət verməkdir. Müsəlmanları bir-birinin üstünə salmaq istəyirlər. Cahil və təəssübkeş bir dəstəni vasitə seçiblər. Əsas məqsəd müsəlmanların diqqətini əsil düşməndən yayındırmaqdır. İstər şiə, istər sünni bu həqiqəti bilməlidir. İslama bağlı olan, Quranın hakimiyyətini qəbul edən insanlar bilməlidirlər ki, Amerika, onun siyasətləri, imperializmin siyasətləri, sionizmin siyasətləri İslamın düşmənidir. Onlar oyanışın, İslam hakimiyyətinin düşmənidirlər. Təlaşları 35 ildir davam edir. 35 ildir müxtəlif şəkillərdə mübarizə aparırlar. Allahın izni və qüdrəti ilə İslam Cümhuriyyətinə qarşı bütün planlar uğursuzluğa düçar olub. Bu dəfə də Allahın lütfü ilə məğlub olacaqlar.

İstər şiə, istər sünni müsəlmanların vəzifəsi budur ki, bir-birlərinin hissinə toxunmaqla düşmənə kömək etməsinlər. Şiələr bilməlidirlər ki, iki məzhəb arasında ixtilaf güclənsə müştərək düşmən fayadalanacaq. Buna yol verməməlidirlər. Sünnə əhli də eyni şəkildə rəftar etməlidir. Bu iki məzhəb bir-birinə qarşı diqqətli olmalı, bir-birinin müqəddəsliklərini təhqir etməməli, firqələr arasında, xüsusi ilə şiələr və sünnilər arasında təfriqə alovu qızışdırılmamalıdır. Bunu hamı bilməlidir. Qarşı tərəfin hislərini təhrik edənlər bilməlidirlər ki, Amerikaya, xəbis Britaniyaya, sionizmə kömək edirlər. O dövlətlərə kömək edirlər ki, İŞİD və Əl-Qaidə kimi qrupları, təkfirçi cərəyanı yaradıb. Bu gün İslam ittifaqı, İslam qardaşlığı, İslam həmrəyliyi bütün müsəlman cəmiyyətlərinin zəruri vəzifəsidir. Hamı bu məsuliyyəti yerinə yetirməlidir. İslam Cümhuriyyətində mömin, agah və bəsirətli müsəlmanlar yaşayır. Onlar öz vəzifələrini yaxşı bilirlər. Ümid edirik ki, hər yerdə olsalar bu vəzifələrinə diqqətli olacaqlar. Allah-Taala hamınızı müvəffəq etsin, hamınızı və İslam dünyasını Qədir bayramının bərəkətindən bəhrələndirsin. İnşaallah.

Vəssəlamu ələykum və rəhmətullahi və bərəkatuh

Oktyabr, 2014

## Quranla ünsiyyət məclisində bəyanat

### Düşmənlər İslam libası geyib İslamla vuruşur

Problemlərə diqqət yetirməyimiz düşmənin güclü olduğunu, qalib gələcəyini düşünməyimiz üçün deyil...

(08.04.1393)

Qəməri 1435-ci il, mübarək ramazan ayının ilk günü

İmam Xomeyni (r) hüsyniyyəsində

Bismillahir-rəhmanir-rəhim...

Allah-Taalaya şükür edirik ki, ömür verdi, tövfiq verdi, bu il də mübarək ramazan ayını bu nurani məclislə başlaya bildik. Xoşgəldin deyirəm bütün möhtərəm qarilərə, hafizlərə, əziz Quran əhlinə, xüsusilə proqramı icra ednlərə, möhtərəm aparıcıya. İnşaallah hamılıqla dünya və axirətdə Quran əhli kimi səhnəyə gələrsiniz.

Quran əhlinin bu gün ölkədə gördüyü iş mənim fikrimcə strateji və mühüm işdir. Bəli, Quranla ünsiyyət bu kitabı oxuyan, ona mənus insanın maarif dərəcəsini artırır, bu öz yerində. Yəni siz Quran oxuyanların oxuduğundan feyz alması mühüm nailiyyətdir. Amma bu nailiyyətin fövqündə başqa bir nailiyyət də var və onun əhatəsi şenişdir. Bu nailiyyət cəmiyyəti Quranı anlamağa, Quranla ünsiyyətə, Qurana yaxınlaşdırmanızdır. Bu çox mühümdür. Bu gün Quran əhli, qarilər, hafizlər, tərtil edənlər, bu yolda çalışan başqa şəxslər həmin strateji addımı atırlar və bu çox əhəmiyyətlidir. Onun qədrini bilmək lazımdır.

Həqiqətən də bu neçə ildə Quran cəmiyyəti çox inkişaf edib, Allaha həmd olsun. Biz ildə bir dəfə belə toplanmağı neçə illərdir davam etdiririk. Mən Quranla ünsiyyətin, xalq arasında, gənclərimiz arasında Quran tilavətinin inkişafını görürəm. Buna görə şükür etməyin yeri var.

Amma bizimlə lazım olan səviyyə arasında məsafə böyükdür. Bu o demək deyil ki, bizim qarinin səviyyəsi lazım olan səviyyədən aşağıdır. Bunu nəzərdə tutmuram. Tilavət, tərtil, səs, üsul, mənadan agahlıq baxımından məqbul, dinləyici üçün mənaları canlandıran qarilərimiz var. Bu cəhətlərdən xeyli inkişaf var. Amma cəmiyyətin ümumi səviyyəsi lazım olan həddə deyil, fərq böyükdür. Ölkəmizdə, cəmiyyətimizdə elə bir yol seçilməlidir ki, bütün xalq Quranla ünsiyyətdə olsun, mənaları anlasın, Qurana müraciət edilsin. Xülasə şəkildə də olsa Quran mənalarını dərk etsinlər. Həmin səviyyəyə çatmalıyıq. Ərəbdilli ölkələrdə bu mərhələni daha asan keçirlər. Ölkəmiz ərəbdilli olmadığından bu mərhəyə çətinliklə çatırıq. Amma dəfələrlə demişəm ki, xoşbəxtlikdən Quranın söz və ifadələri bizə tanışdır. Mənaları anlamaq xalqımız üçün çətin deyil. Bir qədər ünsiyyət, təkrarla cəmiyyəti arzu olunan səviyyəyə çatdırmaq olar, İnşaallah.

Siz əzizlər diqqətli olun ki, İslam dövləti və İslam cəmiyyəti Quranla artan ünsiyyət sayəsində daxilən möhkəmlənir. Daxili möhkəmlik sayəsində cəmiyyətlər seçdiyi yolda seçdiyi məqsədlərə doğru gedir, problemlərlə üzləşmək gücü qazanır. Daxilən möhkəm olmaq lazımdır. Bu daxili möhkəmlik Quranla ünsiyyət sayəsində əldə olunur. Quranla ünsiyyət imanı gücləndirir, Allaha təvəkkülü artırır, Allah vədinə etimadı qüvvətləndirir, maddi problemlərdən qorxunu azaldır, insana ruhən güc verir, özünəinam yaradır, Allaha yaxınlaşmaq yolları işıqlanır. Quranla ünsiyyətin yuxarıda nəzərdə tutduğum sahədə faydaları bu idi.

Quran mərifət kitabıdır, nur kitabıdır. Əmirəlmöminin (ə) Nəhcül-bəlağədə buyurur: “Quranla əyləşən insanın, Allahla əyləşmək sayılan bu ünsiyyət sayəsində ya hidayəti artar, ya ya korluğu azalar.” Demək, Quranla ünsiyyətdə nəsə artır, nəsə azalır. Doğru yol göstərişi artıq, azğınlıq azalır. İnsanın agahlığı artır. Quranla oturub-durmaq belədir. Əlbəttə, bu o zaman olur ki, ayələr barədə düşüncə olsun, Quranı diqqətlə oxumaq lazımdır. Bilin ki, məqsəd yalnız səs deyil. Quranı onun məna və məqsədlərinə diqqətlə oxumaq lazımdır. Əgər bu şərtlər ödənsə, İslam Cəmiyyəti öz yolunu tapacaq. Bəqərə surəsində buyurulduğu kimi, Allah insanı xürafat, azğınlıq, qorxu, vahimə zülmətindən nura çıxarar. Hidayət, mərifət, Allaha yaxınlaşma, Allahla ünsiyyət nuru! Bu xüsusiyyətlər Quranla əyləşmək, ünsiyyət sayəsində yaranar. Biz buna ehtiyaclıyıq. İslam ümməti hazırda buna ehtiyaclıdır.

İslam cəmiyyəti bu gün ciddi problemlərlə üzləşib. Dəfələrlə demişəm ki, problemlərə diqqət yetirməyimiz düşmənin güclü olduğunu, qalib gələcəyini düşünməyimiz üçün deyil. Problemlərlə üzləşmək tarixi hərəkət yolunda İnşaallah bir pillə qalxmaq, irəli bir addım atmaq üçün fürsətdir. Biz İslam İnqilabının qələbəsindən, İslam Oyanışından qabaq müsəlman dünyasında bir durğunluq, qəflət görürdük. Bu gün İslam dünyası agah durumdadır. İslam dünyasında qarşıya çıxan hadisələr bizi məlumatlandırır, oyadır, işıqlandırır, vəzifələrimizi aydınlaşdırır. İslam düşmənləri möminlərin, İslam ümmətinin bu bəsirətindən qorxur. Bu bəsirəti hər gün gücləndirməliyik. Əvvəlcə problemləri öyrənməliyik.

İslam dünyasında diqqəti çəkən budur ki, düşmənlər İslam adı altında, İslam libasında İslamla vuruşur. Böyük İmam (r) buyurduğu kimi, Amerika İslamı həqiqi Məhəmməd İslamı ilə vuruşur. Amerika İslamı imperializmə, sionizmə sərf edən İslamdır. Zahirən İslam kimi görünən, adı İslam olan, İslam mərasimləri keçirən bu cəbhə Amerikanın mənafelərinə xidmət edir. Bizə çatan məlumata görən İslam adı ilə, təəsübü ilə İraqda və başqa yerlərdə səhnəyə gələn bu adamlar şəriət hökmlərinə də bağlı deyillər, hətta dini vəzifələrini yerinə yetirmirlər – bunlar eşitdiklərimizdir. Dəqiq məlumat budur ki, onlar 180 dərəcə İslama müxalif hərəkət edirlər. İslama görə mömin insan düşmənlə yoldaşlıqdan, din düşmənlərinin hakimiyyəti, imperialistlərin hökmünə itaətdən uzaq olmalıdır. Nisa surəsində buyurulur ki, iman gətirənlər Allah yolunda, kafir olanlar isə şeytan yolunda vuruşurlar; o halda şeytanın dostlarıyla vuruşun - şübhəsiz ki, şeytanın hiyləsi zəifdir! İnsan düşmənin məxfi əllərini görə bilər. İnanmaq lazımdır ki, İslama düşmən kəşfiyyat orqanlarının xəbis əli birbaşa ya dolayısı ilə müsəlmanlara qarşı təxribat və fitnələrdə işləyir. Sənələri fırladan onlardır. Nişanələri də aşkardır. İslam ümməti Quran maarifi ilə tanış olsa, belə hadisələr az baş verər. Qəlblərin Allaha bağlı olması xəyanətə mane olur. Ümid edirik ki, bu məqsədə çatacağıq.

Siz Quran əhli olan gənclər, ömrünü, gəncliyini, enerjisini Quran yolunda xərcləyənlər Allaha şükr etməlisiniz. Allahın yeniyetmə və gəncləri Qurana sövq etməsi böyük tövfiq, yardımdır. Onların Quranla ünsiyyəti, Quran yolunu seçməsi uğurdur. Qədimdə belə olmayıb. Qədimdə yeniyetmə və gənclər

arasında Quranla ünsiyyət belə güclü deyildi. Allaha həmd olsun ki, bu gün yeniyetmə və gənlər arasında Quran yayılır. Bu işdə sizin zəhmətiniz var. Bunun qədrini bilin. Quran sahəsində fəaliyyət göstərənlər çalışsınlar ki, dini hökmlərə bağlılıq cəhətindən öndə olduqlarını göstərsinlər. Belə etsələr Quran onların əməllərinə öz təsirini göstərər. Cəmiyyətdəki rəftarlarda, seyr-sülukda, batində və zahirdə İslam göstərişlərinə əməl etsinlər. Ənfal surəsində buyurulur ki, möminlər Allah adı çəkiləndə (Onun heybət və əzəmətindən) ürəkləri qorxudan titrəyən, Allahın ayələri oxunduğu zaman həmin ayələrin təsirindən imanlarını daha da artan kəslərdir. Siz bu gün öz zahir və batininizlə yeiyetmə və gənclərə nümunə ola bilərsiniz. Çalışın sizdən öyrəndikləri onları Allaha yaxınlaşdırsın.

Pərvərdigara! Məhəmməd və Ali-Məhəmməd xatirinə, bizə Quranla həyat, dirilik ver. Bizi Qurana yoldaş buyur. Bizi Quran yolunda dirilt, Quran yolunda öldür. Bizi Quranla tanıtdır. Quranı bizdən razı qərar ver. Pərvərdigara! Məhəmməd və Ali-Məhəmmədə xatir, bu məclis, bu proqramlar, bu tilavətləri böyük İmam (r) və şəhidlərin pak ruhuna bu günün hədiyyəsi qərar ver. Pərvərdigara! Məhəmməd və Ali-Məhəmmədə xatir! Bizi İslam, Quran yolunda, şəhidlər və mücaahidlərin yolunda sabitqədəm buyur.

Vəssəlamu əleykum və rəhmətullahi və bərəkatuh...

Oktyabr, 2014

# Allah Evi – Beytullah ziyarətçilərinə müraciət

## İslam ümməti bəsirət və dərin düşüncə ilə öz cari vəzifə və məsuliyyətlərinə əməl etməlidir...

Cənab Rəhbər Ayətullah Xamenei Allah Evi (Kəbə) ziyarətçilərinə ünvanladığı müraciətdə İslam Dünyasının problemlərinə diqqəti, İslam ümmətinin mühüm məsələlərinə dərindən və əhatəli nəzər salınmasını həcc zəvvarlarının prioritet vəzifə və qaydalarından sayaraq vurğulayıb: Müsəlmanların ittifaqı, Fələstin problemi, həqiqi Məhəmməd İslamı ilə Amerika İslamının fərqlərinə ayıq baxış İslam Dünyasının ilk üç prinsipidir. İslam ümməti bəsirət və dərin düşüncə ilə bu mövzulara münasibətdə öz cari vəzifə və məsuliyyətlərinə əməl etməlidir...

Bu müraciətin tam mətni bu gün cübh (şəmsi 1393, 11 mehr, cümə) Vəliyyi-Fəqihin nümayəndəsi və İran hacılarının məsuli höccətülislam Qazi Əsgər tərəfindən Müşriklərə Nifrət (Bəraət əz müşrikin) Günü Ərəfat səhrasında oxunmuşdur.

***

Müraciətin tam mətni

Bismillahir-rəhmanir-rəhim...

Siz xoşbəxt insanları sevgi və hörmətlə salamlayıram. O xoşbəxt insanlar ki, Quran dəvətinə LƏBBƏYK deyib və Allah qonaqlığına tələsib. İlk sözüm budur ki, bu böyük nemətin qədrini bilin. Bu misilsiz əməlin fərdi, ictimai, ruhani, beynəlxalq yönləri barədə düşünməklə onun məqsədlərinə yaxınlaşmaq üçün təlaş göstərin. Bu işdə rəhim və qədir dəvət sahibindən yardım diləyin. Mən qəlb və dildə sizə qoşularaq qəfur və mənnan Rəbdən diləyirəm ki, sizə olan nemətini kamala çatdırsın, həcc səfəri tövfiqi əta edibsə, kamil həcc yerinə yetirmək tövfiqindən də bəhrələndirsin. Həccinizi kərəmi ilə qəbul edib sizi əlidolu, kamil qurtuluşla yurdunuza döndərsin, İnsaallah.

Bu dəyərli və misilsiz mərasimin qənimət sayılan fürsətində həccin üstün və köklü qazancı olan mənəvi və ruhi paklanmadan əlavə İslam Dünyasının problemlərinə diqqət, İslam ümmətinin mühüm məsələlərinə dərindən və əhatəli nəzər salınması həcc zəvvarlarının İslam ümmtinə aid prioritet vəzifə və qaydalarındandır.

Mühüm və önəmli olan bu mövzular sırasında hazırda müsəlmanların ittifaqı, ümməti parçalayan düyünlərin açılması kimi vəzifələr var. Həcc vəhdət məhzəri, bölünməzlik, qardaşlıq və qarşılıqlı yardım ocağıdır. Həcdə hamı müştərək nöqtələr üzərində təmərküzləşməyi, ixtilaflardan uazqlaşmağı öyrənməlidir. İmperializm siyasətinin çirkin əlləri qədimdən öz azğın məqsədinə çatmaq üçün təfriqə salmağı əsas işi sayıb. Amma bu gün İslam Oyanışı hadisəsinin bərəkəti ilə müsəlmanlar imperializm və sionizm cəbhəsinin düşmənçiliyini tanıyıb və bu düşmənçiləyə qarşı mövqe tutub. Müsəlmanlar arasında təfriqə salmaq siyasətləri daha da şiddətləndirilib. Hiyləgər düşmən bu fikirdədir ki, müsəlmanlar arasında daxili müharibələri qızışdırmaqla onlardakı müqavimət və mücahidə ruhiyyəsini yolundan çıxarsın, diqqəti həqiqi düşmən olan sionist rejim və imperializm muzdurlarından yayındırsın. Təkfirçi terror qruplaşmaları və bu qisim qüvvələrin qərbi Asiya məntəqəsində işə salınması bu qəddar siyasətlərin tərkib hissəsidir. Bu hamımıza xəbərdarlıqdır və müsəlmanların birliyi məsələsini öz ilk milli və beynəlmiləl vəzifəmiz saymalıyıq.

Digər mühüm məsələ Fələstin məsələsidir. Qəsbkar sionist rejimin yaradılmasından 65 il ötüb və bu mühüm, həssas problemdə müxtəlif eniş-yoxuşlar yaşanıb. Xüsusilə son illərdəki qanlı hadisələr iki həqiqəti aşkar ortaya qoyub. Birincisi budur ki, sionist rejim və onun cinayətkar hamiləri amansızlıq, insani və əxlaqi dəyələrin tapdanmasında heç bir hədd-hüdud tanımırlar. Qətliam, soyqırım, dağıdıcılıq, uşaq və qadınların qətli, əllərindən gələn hər zülmü özlərinə mübah (mümkün) sayırlar və bununla iftixar edirlər. Qəzzədə son 50 günlük müharibədəki üzücü səhnələr bu tarixi cinayətlərin son nümunəsidir. Əlbəttə ki, son yarım əsrdə bu cinayətlər dəfələrlə təkrarlanıb.

İkinci həqiqət budur ki, işğalçı rejim başçları bu amansızlıq və cinayətlərlə öz məqsədlərinə çata bilməyiblər. Əksinə, xəbis sionist siyasətbazların başındakı puç xülyalar onların axmaq arzularının ziddinə olaraq, hər gün məhvə yaxınlaşıb. Mühasirədə, köməksiz qalmış Qəzzənin 50 gündə, bütün vücudu ilə hərbini ortaya qoymuş işğalçı rejimi geriyə oturtması, sionistlərin müqavimətin şərtlərinə təslim olması azğın rejimin gücsüzlük və bünövrəsizliyini aşkarladı. Bu o deməkdir ki, Fələstin xalqı həmişə ümidvar olmalıdır. Həmas və Cihad mübarizləri öz qüvvələrini artırmalıdır. Qərb Sahili öz həmişəki iftixarlı yolunda möhkəmlənməlidir. Müsəlmanlar öz dövlətlərindən Fələstinin müdafiəsini ciddi şəkildə tələb etməlidirlər. Müsəlman dövlətlər bu yolda sədaqətlə addım atmalıdır.

Üçüncü əsas prinsip həqiqi Məhəmməd İslamı ilə Amerika İslamının fərlərinə ayıq baxmaq, bu iki cəbhənu səhv salmaqdan həzər qılmaqdır. İlk dəfə böyük İmam Xomeyni (r) bu iki cəbhəni fərqləndirməyə cəhd etdi. Bu məsələni İslam dünyasının siyasi terminologiyasına daxil etdi. Həqiqi İslam səmimiyyət və mənəviyyat, təqva, demokratiyaya sadiq, "kafirlərlə sərt, ümmətlə mehriban olmaq" şüarı verən İslamdır. Amerika İslamı isə ümmət düşmənlərinin nökərlərinə İslam libası geyindirməkdir. Müsəlmanlar arasında təfriqə alovu qızışdırmaq, Allah vədlərini qoyub Allah düşmənlərinin vədlərinə bel bağlamaq, sionizm əvəzinə müsəlman qardaşla döyüşmək, öz millətinə qarşı Amerika ilə müttəfiqlik etmək İslam deyil. Belə İslam hər bir sədaqətli müsəlmanın mübarizə aparmalı olduğu təhlükəli nifaqdır.

Bəsirət və dərin düşüncə ilə baxış bu həqiqəti və mühüm məsləni bütün həqiqət sorağında olanlar üçün işıqlandırar, günün vəzifəsini dəqiq müəyyənləşdirər. Həcc, bu mərasim, onun şüarları bəsirət qazanmaq üçün qiymətli fürsətdir. Ümid edirəm ki, siz xoşbəxt həcc zəvvarları bu ilahi nemətdən lazımınca bəhrələnəcəksiniz. Hamınızı böyük Allaha tapşırıram. Tələşlarınız qəbulunu Allahdan diləyirəm.

Vəssəlamu əleykum və rəhmətullah

Seyid Əli Xamenei

Qəməri 1435, 5 zilhiccə

## Xibrə Məclisi üzvləri ilə görüşdə çıxış

## Ümid edirik ki, Allah öz lütfünü bu xalqdan geri almayacaq!

Cümə axşamı günü Cənab Rəhbər Ayətullah Xamenei Xibrə Məclisinin üzvləri ilə görüşüb. Cənab Rəhbərin görüşdəki çıxışının tam mətni:

Bismillahir-Rəhmanir-Rəhim

Əlhəmdulillahi rəbbil aləmin vəssəlatu vəssəlamu əla səyyidəna muhəmmədin və alihit-tahirin

Bütün əziz qardaşlara, millətin böyük alimləri, etibarlı şəxsləri və xibrə insanlara xoşgəldin deyirəm. Bu məclisdə cənab Məhdəvinin yeri görünür. Təəssüf edirik ki, bu gözəl insan və böyük şəxsiyyət 3 aydır ağır xəstəlikdən əziyyət çəkir. Yerinə düşər ki, əziz qardaşlar, möhtərəm cənablar cənab Məhdəvinin Allahdan şəfa tapması üçün bir mübarək "Həmd" surəsi oxusunlar. (Məclisdəkilər Həmd surəsi oxuyur) Əllahumməşfihi bişifaikə və davihi bidəvaikə və afihi bi afiyətikə bi həqqi muhəmmədin və ali muhəmməd. Bu arada dünyanı tərk etmiş qardaşlarımızı yada salır, onlar üçün bağışlanma diləyirik. Mərhum cənab Məhəmmədi Gilani, mərhum cənab Zərəndi, mərhum Mamusta Müctəhidi, nəhayət mərhum cənab Cəbbari Allahın rəhmətinə qovuşdu.

Zilqədə ayıdır. Mərhum Hacı Mirza Cavad Ağa Məliki buyururdu ki, zilqədə ayı tövbə, Allaha doğru hərəkət, özünənəzarət ayıdır. Məbada öz əməlimizlə Allah və onun rəsuluna qarşı müharibəyə qalxmış olaq. Mərhum alim buyururdu ki, Allah düşmənləri ilə savaşın dayandırıldığı bu ayda ehtiyatlı olaq, Allahla müharibə sayılası bir addım atmayaq. Mərhum Məliki zilqədə ayının yekşənbə gününə aid məşhur əməli yada salır və çox tövsiyə edir ki, bu əməl yerinə yetirilsin. (Bu əməl Əl-Müraqibat kitabında şərh olunmuş 4 rəkət namazdır)

Mərhum Hacı Mirza Əli Ağa Qazi zilqədə ayı daxil olan zaman dostlarına, müridlərinə, şagirdlərinə bir məktub yazıb. Mərhum Qazinin ərəbcə bir şeri orada yer alıb. Mərhum Ağa Təbatəbainin nəzərincə mərhum Qazi müvəffəq bir şair olub. Cənab Qazinin qəsidəsi olduqca gözəldir. Qəsidədə şagirdlərə tövsiyələr verilir. Bizim üçün də, xalq üçün də ardıcıl 3 haram ayda bərəkət var. İnşaallah bu aylardan bəhrələnərik. Əlbəttə ki, zilqədə ayı həm də İmam Rizanın (ə) ayıdır. Həzrət xüsusi ilə biz iranlılar üçün nemət çeşməsidir. İnşaallah onun pak hərəmindən bəhrələnərik, özümüzü Rəzəvi dəyərlərinə yaxınlaşdırarıq.

Dünya və məmləkətimizin aktual məsələləri arasında bir nöqtə üzərində dayanmaq istəyirəm. Biz dünya, region və ölkəmizə aid məsələlərə kompleks yanaşmalıyıq. Belə bir yanaşma bizə bəsirət verir. Nəticədə hazırkı durumda öz mövqeyimizi, yerimizi görə bilirik, vəziyyətimizi dəyərləndiririk. Bu yanaşma sayəsində gələcəkdə nə iş görəcəyimiz aydın olur.

Bütün dünya və məntəqəyə kompleks baxışda bir nöqtə aydın olur ki, dünyaya hakim baxış dəyişməkdədir. Biz bunu anlayır, müşahidə edirik. Birinci dünya müharibəsindən sonra dünyada və məntəqəmizdə yeni nizam yarandı. Hakim güclər cana gəldi, dünyada liderliyi ələ aldı. İkinci dünya müharibəsindən 70 il ötüb. Hazırkı nizam, dünyaya müdiriyyət xüsusi bir şəkildədir. Dünyaya sosializm və liberalizm üsulları hakim olub. Hər iki nizam Qərbə məxsusdur. Ötən 70 ildə Asiya, Afrika, Latın Amerikası, dünyanın müxtəlif məntəqələri onların iradəsinə tabe olub. Aydın görürük ki, bu nizam dəyişməkdədir. Mən xülasə şəkildə bu dəyişikliyin səbəbləri və əlamətləri barədə danışacağam.

Əgər dünya dəyişirsə, yeni sistemin bünövrəsi qoyulursa, təbii olaraq bizim mühüm vəzifələrimiz var. Yeni nizamda İslamın, İslam Cümhuriyyətinin, məmləkətimizin yeri necə olacaq? Bu barədə fikirləşməli, proqnozlar verməli, irəlini görüb hərəkət etməliyik. Qeyd etdiyim ötən 70 ildə dünyaya hakim nizamın iki dayağı olub: İdeoloji və dəyər dayağı, praktiki, hərbi-siyasi dayaq. Hər iki dayaq silkələnib, problem yaşayır. Əxlaqi və ideoloji dayaq bundan ibarət olub ki, Qərb öz düşüncə və dəyərlərini üstün sayıb, Qərb və ABŞ özünü başqa xalqların fövqündə görüb. Onların şüarlarının elmi və texnoloji tərəqqiyə heç bir aidiyyatı yoxdur. Azadlıq, demokratiya, insan haqları, xalqların himayəsi kimi aldadıcı şüarlar irəli sürüblər. Bu yolla öz sistemlərinin başqa sistemlərdən, başqa düşüncələrdən, xüsusilə İslamdan üstün olmasını göstərməyə çalışıblar. Bu işdə uğur qazanıblar. İslam dünyasında ayrı-ayrı şəxslər, qruplar, siyasilər və dövlətlər Qərb dəyərlərini üstün sayıblar. Bu gün də cəmiyyətimizdə həmin fikirdə olanlar var.

İkinci dayaq Qərbin dünya üzərində hakimiyyət dayağıdır. Onların dəyərlərinə tabe olmayan, baş əyməyənlər siyasi və hərbi hücumlara məruz qalır. Onları qəbul etməyənləri ikinci vasitə ilə sıxışdırırlar ki, onlarla həmkarlığı məcbur qalsınlar.

Biz bunu dünyada və ölkəmizdə müşahidə etdik. Qərb təbliğat maşını günbəgün fəallaşdı, modernləşdi, imkanlarını gücləndirdi. Onlar iki amili, dəyərlərini və güclərini millətlərin başına qaxınc etdilər. Alimləri, ziyalıları, tədricən xalq kütlələrini inandırmağa müvəffəq oldular.

Bu gün isə hər iki amil böhran yaşayır. Həm dəyərlər, həm hərbi-siyasi dayaqlar silkələnir. Qərbin dünyaya hakimiyyətini təmin edən bu iki silah hazırda zəifləmişdir. İslam və digər dəyərlərdən üstün göstərilən Qərb dəyərlərinin böhran yaşamasının səbəbləri var. Mən bəzi amilləri yada salıram. Qərb dəyərlərinin zəifləməsinin amillərindən biri əxlaq və mənəviyyatda yaşadıqları böhrandır. Xalq kütləlri, xüsusi ilə gənclər arasında həyatın mənasızlaşması, ruhi tarazlığın pozulması bariz nişanədir. Qərbdə ailə institutu dağılır. On illər öncə feminizm hərəkatını işə saldılar. Bu gün mütəfəkkirlər və ziyalılar başa düşüb ki, feminizm qadın üçün bir tələ olub. Bu hərəkat qadınlar üçün yeni problemlər yaradıb.

Çirkin işlər dəyər kimi göstərilir. Məsələn, homoseksualizm, həmcinsbazlıq Qərbdə dəyər sayılmağa başlayıb. Biri buna qarşı çıxırsa, dəyərlərə qarşı çıxmış olur!!

Əgər bir dövlət rəsmisi, prezident, tanınmış şəxs homoseksualizmə müxalif olduğunu dilə gətirsə öz karyerasını korlamış olur. Bəli, Qərbin əxlaqi atmosferi bu vəziyyətdədir. Təbii ki, bu cərəyan hansısa nöqtədə dayanmayıb, daha böyük çirkinliklərə doğru hərəkətdədir. Neçə illər, 10-15 il öncə Qərb

mütəfəkkirləri, ürəyiyanan ziyalılar bu günü görür və xəbərdarlıq edirdi. Amma faydası olmadı. Bir quruluş, nizam əxlaqda belə uçuruma getsə onun qarşısını almaq mümkün deyil və məhvə məhkumdur. Qərbdə dəyər böhranının bir amili bu idi.

İkinci amil dinə meyldir. Əslində bu birinci amilə qarşı reaksiyadır. Müxtəlif Qərb ölkələrində xalqlar dinə maraq göstərir, İslama xüsusi bir maraqla yanaşırlar. Qərbdə İslama maraq, Quranı dərk etmək istəyi günbəgün güclənir. Bunu dövlət rəsmiləri yaxşı başa düşür. Qərbdə əxlaqi böhran yaradan başqa mühüm amil budur.

Üçüncü amil əməli addımların şüarlara zidd olmasıdır. Qərb dövlətləri azadlıq, demokratiya, insan haqlarından dəm vurur, əməldə açıq-aşkar həmin şüarları ayaq altına alırlar. Qərb dövlətlərinin müstəqil dövlətlərə qarşı çevriliş planları göz qabağındadır. Bəzi məlumatlara əsasən ABŞ ikinci dünya müharibəsindən sonra 50 dövlətdə çevrilişə cəhd edib. 50 dövlətə qarşı müxtəlif şəkildə hücumlar olub. Onlarla xalq hərəkatına qarşı çıxıblar. Bütün bunlar ABŞ və müttəfiqlərinin ayağına yazılıb. Atom bombasından istifadə bir nümunədir. Hamıdan çox azadlıq və insan haqlarından danışan Amerika atom bombasından istifadə etmiş yeganə dövlətdir. Bu cinayət zamanı Yaponiyada 200 min insan həlak olub. Daha çox sayda insan müxtəlif şəkillərdə bu hadisədən zərər çəkib. Quantanamo və Əbu-Ğureyb həbsxanaları böyük cinayətlərdən danışır. Avropa ölkələrində yaradılmış gizli həbsxanalarda heç bir mühakiməsiz insanlara işgəncə verilməsi indi də davam edir və hamı bunu görür. Qərbdə dəyər sisteminin yaşadığı böhranın üçüncü səbəbi budur.

Dördüncü amil zora, gücə arxalanmaqdır. Qərbin zorakı hərəkətlərindən biri sanksiyalardır. Dünya şahid oldu ki, Qərb bir ölkə, bir xalqla problem yaşayanda, öz puç mədəniyyətini qəbul etdirə bilməyəndə zora əl atır, qoşun çəkir. Bəzən də terror qrupları yaradır, bu cinayətdən çəkinmirlər. Biz öz dövrümüzdə buna şahid olmuşuq. Bu hadisələr dünya xalqlarının gözü qarşısında baş verir. Müxtəlif ölkələrə, o cümlədən İraqa, Əfqanıstana hücum etdilər, müxtəlif şəkillərdə Pakistan və başqa ölkələrə qarşı zorakılığa əl atdılar. Qərbdə dəyər sisteminin bir problemi də budur.

5-ci amil Əl-Qaidə, İŞİD və bu qəbildən cərəyanlar yaratmaqdır. İndi iddia edirlər ki, bu qruplarla heç bir əlaqələri yoxdur. Amma həqiqəti hamı görür. Mən ABŞ-ın tanınmış məsullarından birinin sözünü dilə gətirdim. Həmin şəxs bu həqiqəti inkar etdi. Onlar etiraf edirlər ki, bu cərəyanları özləri yaradıblar. Etiraf etməsələr də şahidimiz var, buna əminik. Bu gün bir şəxsin adını çəkmək olar. Mərhum Şeyx Səid Şaban sünnə əhlinin tanınmış alimlərindən idi. Müharibə gedirdi. Mənə dedi ki, sizə şərqdən hücumla bağlı məlumat var. Dedim ki, bizim şərqimiz Əfqanıstandır. Dedi, bəli, Əfqanıstanı nəzərdə tuturam. Həmin vaxt Taliban, Əl-Qaidə kimi adlar səhnəyə gəlməmişdi. Şeyx Səid Şəbanın müxtəlif siyasi dairələr, sünnə əhli alimləri ilə sıx rabitəsi vardı. Çox möhtərəm bir insan idi. Dedi ki, bu barədə sizi məlumatlandırmağı özümə vəzifə bildim. Çox keçmədi ki, onun dediyi kimi müəyyən hadisələr baş verdi. Şübhə etmirik ki, bu cərəyanları, dəstələri Qərb və onun regiondakı əlaltıları yaradıb. Özləri birbaşa səhnəyə çıxmaya da bilər. Amma bu hal da baş verib. Xatırlayıram ki, Amerika mətbuatında Talibanın xeyrinə yazılar gedirdi. Açıq deməsələr də, son qənaət Talibanın xeyrinə olurdu. Bəli, bu amillər Qərb sisteminə çox ciddi bir problem yaradıb. Artıq kimsə qəbul etmir ki, Qərb və müttəfiqləri insan haqlarının, insani dəyərlərin müdafiəçisidir. 200 il əvvəl Amerikanın istiqlal bəyannaməsində yazılanlar bütünlüklə ayaq altına alınıb.

Qeyd etdim ki, ikinci dayaq hərbi-siyasi iqtidardır. Bu sahədə də böhran yaşayırlar. Onlara hərbi və siyasi sahədə ən böyük problem İran İslam Cümhuriyyətinin yaradılması oldu. Tam şəkildə Amerikanın nüfuzu altında olan məntəqədə elə bir inqilab baş qaldırdı ki, onların böyük zəhmətlər bahasına ərsəyə gətirdiyi nizam süquta uğradı. İslam nizamı müxtəlif hücumlar, siyasi, iqtisadi, hərbi və başqa həmlələrlə məhv

olası deyil. Bu nizam hər gün güclənir. İran İslam Cümhuriyyəti sözün həqiqi mənasında iqtidar sahibidir. Əlbəttə ki, İslam nizamı həm iqtidarlı, həm də məzlumdur. İqtidar məzlumiyyətə zidd deyil. Necə ki, Əmirəlmöminin (ə) yer üzündə iqtidarlı hakim olmaqla yanaşı ən məzlum şəxs idi. İslam Cümhuriyyəti də belədir. Bugünki məzlumiyyətimiz gücsüzlüyümüz kimi başa düşülməməlidir. Bunu düşmən də bilir, etiraf edir.

İslam Cümhuriyyətinə qəbul etdirilmiş 8 illik müharibədə İran xalqının fədakarlığı çox mühüm hadisədir. Bu hadisə göstərdi ki, dünyaya hakim güclər bu xalqın müqavimətini qırmaqda acizdir. Bu nizam öz varlığını təsbit etmiş nizamdır. Sonrakı hadisələri yada salaq. Fələstin hadisələri, Livan hadisələri, 33 günlük müharibə, 22 günlük müharibə, 8 günlük Qəzzə müharibəsi, 50 günlük Qəzzə müharibəsi qeyri adi hadisələr idi. Məhdud gücə malik kiçik bir məntəqə Qərbin regiondakı güc təcəssümü olan sionist rejimi dizə çökürdü. İşğalçı İsrail atəşkəs istədi, Fələstin müqaviməti qəbul etmədi. Nə qədər israr etsələr də, Fələstin yox dedi. Atəşkəsin qəbulu üçün şərtlər qoydular. Şərtlər qəbul olunana qədər dayanmadılar. Bu çox mühüm və təhlil olunası hadisədir. Aydın oldu ki, Qərbin hərbi-siyasi üstünlüyü böhran yaşayır. Bu gün Qərbdə nüfuzlu şəxsiyyətlər deyir ki, artıq müharibə Qərb üçün mötəbər və sərfəli seçim deyil. Bu gün xüsusi ilə ABŞ-da siyasilər, eləcə də onların Qərb müttəfiqləri müharibəni çıxış yolu saymırlar. Bəli, Qərbin hərbi-siyasi iqtidarı uğursuzluğa düçar olub. Digər tərəfdən, Asiya və Şərqdə Çin, Hindistan kimi güclər meydana çıxıb. Regionun, dünyanın durumu belədir. Artıq keçmiş üsul-idarə və Qərbin dünya üzərində hakimiyyəti əvvəlki formada davam edə bilməz. Yeni bir nizam yaranır. Amma hələ ki, formalaşmayıb.

Bu vəziyyətdə nə etməliyik? Düşünürük ki, iki mühüm nöqtə var. Biri budur ki, baş verən hadisələr yanlış təhlil olunmasın, olduğu kimi təhlil edilsin. Hələ ki, təkcə bizim ölkədə yox, Asiyada, müxtəlif dövlətlərdə elə şəxsiyyətlər və cərəyanlar var ki, reallığı dərk edə bilmirlər. Onlar düşünür ki, yeganə çıxış yolu Qərbə təslim olmaqdır. Adı təslimçilik olsun, ya da rəğbət, istənilən bir halda onların tələbləri qəbul edilməsə təzyiq göstərəcəklər. İqtisadi sanksiyalar, siyasi hücumlar, hərbi müdaxilələr ola bilər. Bəziləri düşünür ki, istər sakitcə, istərsə zorla təslim olmaqdan başqa yol qalmır. Bu yanlış təhlildir. Belə təhlil həm də təhlükəlidir. Ölkəmizdə və ölkəmizdən kənarda belə düşünənlər var. Əslində belə deyil. Qeyd etdiyimiz kimi Qərb öz iki dayağını, həm dəyərlər dayağını, həm də hərbi-siyasi dayağını itirməkdədir. Bunu dərk etməliyik.

İkinci mühüm iş budur ki, yeni nizamda öz rolumuzu ifa etməyə hazırlaşaq. Məmləkəti səhnədə söz üçün hazırlamalıyıq. Bunun yeganə yolu güclənməkdir. Ölkəni gücləndirməliyik. Ölkənin güclənməsi daxili və xarici potensiallarımızın işə salınmasından asılıdır. Bizim imkanlarımız ölkə daxilində məhdudlaşmır. Ölkə xaricində mühüm dayaqlarımız var. Ölkə xaricində çoxsaylı tərəfdarlarımız var. Strateji imtiyazlara malikik. İslam, dil, şiə məzhəbi strateji üstünlüklərimizdir. Bütün bu imkanlardan istifadə etməliyik. Bizim Latın Amerikasında manevr imkanlarımız mövcuddur. Asiyada da ciddi strateji imtiyazlara malikik. Bunlardan istifadə etməliyik, bunlar ölkəni gücləndirir.

Ölkənin güclənməsi üçün 3 mövzu əsas rol oynayır. Biri elm və texnologiya, difəri iqtisadiyyat, üçüncüsü mədəniyyətdir. Bu 3 sahəyə sərmayə yatırılmalıdır. Bu 3 sahə prioritet təşkil edir. Dövlətimiz məsullarımız, nüfuzlu insanlarımız hər 3 sahədə fəallaşmalı, iş görməlidir. Təbii ki, cəmiyyət məsələsi də əhəmiyyətlidir. Bu mövzu üzərində dayananlar haqlıdır. Cəmiyyətin milli iqtidara təsiri böyükdür. Gənc nəslin artımı, ölkənin əhali baxımından böyüklüyü onun iqtidarına təsir göstərir. Mədəniyyət bütün bunlardana arıtq əhəmiyyət kəsb edir. Xalqın etiqad və əqidəsi xüsusi ilə mühümdür. Baxın, bu sahəyə nə qədər sərmayə qoyurlar. Beynəlxalq sərmayəçilər peyk şəbəkələri, internet, mobil rabitələr kimi

vasitələrlə xalqın inancını hədəfə alırlar. Çalışırlar ki, cəmiyyəti İslam nizamının, İslam dəyərlərinin əhatə dairəsindən çıxarsınlar. Buna qarşı vaksin var. Etiqad sahəsində həyata keçəsi layihələr çoxdur. Alimlərimiz, mədəniyyət və təbliğat qrumlarımız, sözçülərimiz, tele-radio şirkəti xalqın inancını möhkəmləndirə bilər. Şübhəsiz ki, alimlərin xalqla birbaşa rabitəsi əvəzolunmaz təsirə malikdir. Hətta tele-radio şirkəti alim-xalq rabitəsini kölgədə qoya bilməz.

Ölkədə vəhdət və həmrəylik mühüm məsələdir. Mühüm və haşiyə məsələlərdə fərqli baxışlar ola bilər. Amma bu fərqlilik ölkədəki vəhdət və həmrəyliyə zərbə vurmamalıdır. Mühüm nöqtələrdən biri məsulların hamı tərəfindən himayə olunmasıdır. Onları himayə etmək bir dövlət məsuluna, məhkəmə və ya parlament nümayəndəsinə irad bildirilməsinə zidd deyil. İstənilən bir halda onları himayə etmək lazımdır. Həmd olsun Allaha ki, məsullar çalışırlar. Yeni dövlət bir illik fəaliyyətində çox çalışıb, çox işlər görüb. Buna şahidik, yaxından görürük. Məhkəmə sistemi də beləcə ciddi çalışır. Xatırlayıram ki, bəzən İmamın (r) xidmətinə gəlib hansısa dövlət məsulundan gileylənərdilər. İmam adətən belə cavab verərdilər: “Məmləkəti idarə etmək çətin işdir!” Doğrudan da belədir. Hakimiyyət orqanlarına rəhbərlik asan deyil. Rəhbərin heç bir eybi olmasa da onun nəzarət etdiyi qurumda problemlərin olması mümkündür. Yəni hər şeyə nəzarət etmək, heç nəyi nəzərdən qaçırmamaq asan iş deyil. Kimsə tənqidə müxalif deyil. Proqramların, layihələrin zəif nöqtələri tənqid olunmalıdır. Amma tənqid təxribat, dağıdıcılıq mənasında deyil. Dövlətə, icra orqanlarına kömək etmək hamımızın vəzifəsidir və inşaallah bu vəzifə yerinə yetirilər.

Ümid edirik ki, Allah-Taala Öz lütflərini bu millətdən geri almayacaq. Şübhəsiz ki, məmləkətimizdə mənəviyyata diqqət və bağlılıq təsirsiz deyil. Həqiqətən də, işi dalana dirənən insan Allahı yada salıb onun lütfünə ümid edəndə düyünlər açılır. İnşaallah, bu işimiz davamlı olsun. Dəfələrlə demişəm ki, qarşıdakı üfüqləri, gələcəyi işıqlı görürəm. Bilirəm ki, Allahın yardımı, gücü ilə məmləkətimizin gələcəyi onun kemişindən bütün baxımlardan, həm maddi, həm mənəvi baxımdan üstün olacaq. İnşaallah!

Vəssəlamu ələykum və rəhmətullahi və bərəkatuh

Sentyabr, 2014

## Tələbələrlə görüşdə bəyanat

### Sionist rejimin məhv olmaqdan başqa çarəsi yoxdur!

Hicri 1435-ci il, mübarək ramazan ayının 25-ci günü

İmam Xomeyni (r) hüseyniyyəsi

Bismillahir-Rəhmanir-Rəhim...

Allah-Taalaya şükür edirik ki, belə bir zamanda məmləkətimiz belə bir mömin, enerjili, təlaşlı, məntiq və düşüncəli gəncliyin hüzuruna şahiddir. Bugünki məclisimiz gözəl bir məclisdir. Məclisdə mövzu iki hissədən ibarətdir. Bir hissə dostların burada bəyan etdiyi təfərrüatla bağlıdır. Gözəl və faydalı mövzular açıqlandı. Bəyanatlardan bəzilərinə müvafiq, bəzilərinə müxalif olmağım mümkündür. Mahiyyət məsələsi əsas məsələlərdəndir. Düşünürəm ki, təqdir olunacaq bir məsələ tələbə toplumunda təravət və araşdırma ruhiyyəsinin olmasıdır. Bu xüsusiyyət çıxışlarda özünü göstərdi. Deyilən sözlərdən bəziləri məntiqi olmaya bilər. Bəzi istəklərin reallaşması mümkün deyil. Bəzi tələblər qeyri-məqbuldur. Amma bu tələbakarlıq, düşünmək və təklif vermək, tənqid etmək ruhiyyəsi arzulanan bir hadisədir. Əlbəttə ki, hər zaman əxlaq, alicənablıq, şəriət ölçülərinə əməl olunmalıdır. İnsafsız olmaqdan çəkinək. Qeyri-elmi söz danışmayaq. Bütün bunlar öz yerində. Gənc tələbələrimizin enerjili, tələbkar, ölkənin problemlərinə diqqətli olması çox yaxşıdır. Həmd olsun Allaha ki, bu gün mən həmin ruhiyyəni görürəm.

Vaxtımızın bir hissəsini dostların dilə gətirdiyi məsələlərə həsr edək. Bir daha qeyd edirəm ki, tələbə təşkilatlarının nümayəndəsi olan gənclərin ruhiyyəsindən xoşhalam və Allaha şükür edirəm. Onların sözlərindən bir təravət, təlaş, intuziazm duyulur. Ümid edirəm ki, inşaallah bu ruhiyyə sizdə daim yaşayacaq və bu ruhiyyə ilə müxtəlif sahələrdə məsul olacaqsınız. Aydın məsələdir ki, ölkənin gələcəyi sizin əlinizdədir və siz ölkəni idarə edəcəksiniz. İnşaallah, tənqidçi ruhiyyəniz məsuliyyət hissi ilə birlikdə fəal olar. Belə olsa ölkə problemlərdən qurtular.

Dostlar mənim nəzərimcə bir neçə mühüm məsələyə toxundular. Elmin məmləkətə faydasını nəzərə almadan elmə baxış ifadəsinə bir neçə nəfərin çıxışında rast gəldim. Düzgün fikirdir, biz də dəfələrlə bu barədə danışmışıq. Ölkədə və təhsil ocaqlarımızda elmi iş müvəffəq və təqdirəlayiqdir. Amma hamı yadda saxlamalıdır ki, elm əməl üçün müqəddimədir. Faydalı elm o elmdir ki, məmləkətin ehtiyaclarına cavab versin, problemlərin aradan qaldırılmasında faydalı olsun. Təsəvvür edin ki, bir məqaləmiz dünya miqyasında İSİ mərkəzlərində çap olunub. Elmi baxımdan bu təqdirəlayiq haldır. Amma son məqsəd deyil. Elmi iş məmləkətin ehtiyaclarına münasib olmalıdır. Bu barədə dostlar danışdı, mən də təsdiqləyirəm. Məclisdə iştirak edən məsullar inşaallah bu nöqtəni nəzərə alar.

Söhbətlərdə haqlı sözlərdən biri iqtisadi müdiriyyət üsulları ilə cəmiyyətin mədəniyyəti arasında əlaqə məsələsi idi. Deyirlər ki, 70-ci illərdə biz iqtisadi basqılar, hücumlar zamanı ideoloji hücum məsələsini gündəmə gətirdik. Bu düzgün sözdür və biz bunu rədd etmirik. Amma mədəniyyət, ideologiya həyati bir məsələ olaraq daim diqqət mərkəzində saxlanılmalıdır. Bu zaman iqtisadi üsullara etiraz da dəyərli olur. Amma bu gün əsas əhəmiyyət daşıyan mədəniyyət və ideologiya üzrə cərəyanlara baxışdır. Qəbul edirik ki, iqtisadiyyat mədəniyyətə təsir edir. Bunun əksi də doğrudur.

Haşiyədə qeyd olunan məsələ mənim nəzərimcə haşiyə məsələsi deyil, ciddi problemlərdəndir. Bu, gənclərin izdivac, ailə həyatı qurması məsələsidir. Gənclərin izdivacı ciddi məsələdir. Təəssüf ki, bu gün bu məsələyə az-çox biganəlik müşahidə olunur. İzdivaca biganəlik məmləkətimizin gələcəyi üçün çətinlik yarada bilər. Siz hərbi xidmət məsələsindən danışdınız. Düşünürəm ki, hərbi xidmət çətin məsələ deyil və bu sahədə nə isə fikirləşmək olar. Hərbi xidmətin izdivaca mane olması hərbi xidmət müddətini

qısaltmaqla aradan qalxan maneə deyil. Başqa üsullar seçə bilərik. İzdivac üçün stimul elmi addıma çevrilməlidir. Yəni izdivac mövzusu araşdırılmalıdır. Nur surəsinin 32-ci ayəsində buyurulur: “Əgər onlar yoxsuldurlarsa, Allah öz lütfü ilə onları dövlətli edər...” Bu ilahi bir vəddir. Bu vədə də başqa ilahi vədlər kimi əmin olmalıyıq. Ailə təşkili insanların dolanışıq vəziyyətini ağırlaşdırmır. Kimsə evlənməklə çətinliyə düşmür. Əksinə, ailə təşkili insan həyatında bir açılışdır. Tələbə mühiti izdivaca zəminə üçün münasib mühitdir. Düşünürəm ki, ailə təşkili mövzusunda gənclər özü, valideynlər, universitet məsulları düşünüb bir iş görə bilərlər. İmkan verməyək ki, bu gün xüsusi ilə qızların izdivac yaşının yüksəlməsi davam etsin. Ailə təşkili barədə yanlış təsəvvürlər var. Bu təsəvvürlər izdivaca mane olur. Belə zərərli adətləri aradan qaldırmaq lazımdır. Siz gənclər enerjili və tələbkarsınız, bir çox adətlərə qarşı çıxırsınız. Məncə ailə təşkili qarşısında maneəyə çevrilmiş adətləri də siz aradan qaldırmalısınız. Mən bu məsələnin üzərində ciddi dayanıram. Keçmişdə qayda bu idi ki, xeyriyyəçi və mömin şəxslər gənclərin ailə qurması üçün vasitəçilik edərdilər. Münasib qızlar münasib oğlanlara tanıtdırılardı. Bu sahədə bir iş görülməli, addım atılmalıdır.

Dostların söhbətlərində maraqlı bir sual var idi. Əvvəllər tələbələrə təklif olunmuşdu ki, danışmaq imkanı olmayanlar suallarını yazsınlar. Yəni məclisdə danışa bilməyən tələbələrin fikirləri də maraqlıdır. Mənə 100 səhifədən artıq bir yazı gətirdilər, burada tələbələrin fikirləri açıqlanmışdı. Həmin yazılarda bu gün səsləndirilən sual da var idi. Sual bundan ibarətdir ki, tələbələr və tələbə təşkilatlarının siyasi mövqeyi Rəhbərin baxışlarına nə dərəcədə uyğun olmalıdır? Düşünürəm ki, bu sual bir o qədər də aktual deyil. Belə deyil ki, xalq kütlələrinin, müxtəlif zümrələrin, o cümlədən tələbələrin mövqeyi Rəhbərin tutduğu mövqe ilə uyğunlaşdırılmalıdır. Xeyir, siz bir müsəlman və mömin olaraq fikir sahibisiniz. Siz araşdırmalı, təhlil etməli, məsuliyyətinizi dərk etməlisiniz. Mən deyirəm ki, şəxsiyyətlər, cərəyanlar, dövlətlər haqqında fikriniz olsun. Bu o demək deyil ki, siz mənim şəxslər və hərəkatlar haqqında sözümü gözləyib mövqe tutasınız. Belə bir münasibət fəaliyyətlərimizi tormozlaya bilər. Rəhbərin vəzifəsi var. Əgər Allah-Taala yardım etsə vəzifəmə əməl edəcəyəm. Sizin də vəzifəniz var. Səhnəyə baxın, qərar çıxarın. Bir meyarımız var, o da təqvadır. Təqva odur ki, nəfs istəyinə əsir olmayaq. Müxalifətçilik, tərəfdarlıq, təqdir və tənqiddə təəssüb çəkməyək. Əgər təqvalı olsaq, tərəfbazlıq etməsək, həm tənqid gözəldir, həm də təqdir. Bu meyarla şəxsiyyətlərin, dövlətlərin, siyasi cərəyanların, siyasi hadisələrin tənqidi problem deyil. Əlbəttə ki, mənim münasibətim etimad göstərən insanlar üçün mövqe tutmaqda yardımçı ola bilər. Amma bu o demək deyil ki, mənim baxışım əsasında mövqe tutmaq vəzifədir. Əsas məsələ çıxarılan qərara nəfs istəyinin təsir göstərməməsidir.

Dostlardan biri dedi ki, tələbələrin gözünün yuxusu qaçıb. Bu çox yaxşıdır. Tələbənin nigarançılığı bu şəkildə özünü göstərirsə, faydalıdır. Amma ümid edirik ki, yuxu rejiminə əməl edəcəksiniz. Yuxunun gözdən qaçması gözəl təbirdir. Bu nigarançılığı göstərir. Bu o deməkdir ki, insan problemlərə açıq gözlə baxır.

Mənim də sizə deyəcəyim sözlər var. Hər sözü öz məqamında nəzərinizə çatdıracağam. Əvvəla, biz tələbəni millət və məmləkətin oyaq vicdanından hesab edirik. Əgər bir cəmiyyətdə tələbələrin istəkləri və hərəkatı varsa, bu bütün cəmiyyətin hərəkatıdır. Bütün dünyada belədir. Tələbə millətin oyaq vicdanı və hərəkət istiqamətini göstərir. Buna görə də tələbələrimiz diqqətli olmalı, öz vəziyyətlərini, cəmiyyətin vəziyyətini, təhlükə və imkanları, dostluq və düşmənçilikləri düzgün tanımalıdırlar. Nəzərdə tutduğum bu deyil ki, tələbə təhsili kənara qoyub siyasi iş dalınca getsin. İstəyimiz budur ki, tələbə ayıq olsun. Məsələlərə məsuliyyətlə nəzər salsın. Tələbədən gözləntimiz budur.

Bu gün qarşımızda dayanan problemlərin bir hissəsi regional problemlərdir. Regionun problemi məmləkətin problemindən təcrid olunmayıb. Bu gün mühüm bir məsələ Fələstin, Qəzzə məsələsidir.

Qəzzə xalqının başına gətirilən müsibətlər bu günün problemi deyil. Bu məsələyə iki yöndən yanaşmalıyıq. Qəzzə faciəsi bir tərəfdən sionist rejimin mahiyyətini göstərir. Tanıyın, budur sionist rejim. Sionist rejim öz qeyri-qanuni doğum günündən amansızlıq, qəddarlıq, vəhşilik yolunu tutub. O, bu çirkin sifətini inkar etmir. Hər yerdə qəddarlıqlarından danışır və iftixar edirlər. Bu saxta rejim 1946-cı ildə rəsmi şəkildə tanındı. 66 ildir amansız siyasətini davam etdirir. Bu rejim rəsmən tanınmazdan əvvəl də dünya imperializmi ona arxa durmuşdu. Sionistlər bu dəstək sayəsində Fələstində böyük cinayətlər törədib. Ötən 66 ildə siyasi quruluş adı altında ağıllarına gələn cinayəti həyata keçiriblər. Heç kimdən də çəkinmirlər. Sionist rejimin mahiyyəti budur. Bu rejimin məhv olmaqdan başqa çarəsi yoxdur. Bu rejimin məhvi yəhudi xalqın qətliamı demək deyil. İmam (r) buyurdu ki, İsrail məhv olmalıdır. Burada qeyri-insani məntiq yoxdur. Biz İsrailin ləğv olması planını da dünyaya təqdim etdik. Heç bir məntiqi iradla rastlaşmadıq. Dedik ki, bu məntəqədə yaşayan insanlar arasında referendum keçirilsin. Məntəqəyə hakim qüvvəni xalq seçsin. Sionist rejimin məhvi dedikdə bunu nəzərdə tuturuq. Bu məntiq dünyada qəbul olunub. Hamı onu qəbul edir və bəyənir. Biz hətta bu referendumun formatlarını BMT və beynəlxalq təşkilatlar üçün açıqladıq. Vəhşi, canavarsifət, siyasəti dəmir yumruq olan, xalqla amansız rəftar edən, dinc insanları və körpələri qətliam edən, eyni zamanda bütün bu çirkin əməllərini inkar etməyən bir rejimin çarəsi məhv olmaqdır. İnşaallah bu rejimin məhv olacağı gün çatar. Amma onun səhnədə olduğu zaman nə etməli olduğumuzu bilməliyik. Yeganə çıxış yolu müqavimət və silahlı mübarizədir. Fələstinlilər sionist rejimə gücünü göstərməlidir. Kimsə güman etməsin ki, Qəzzənin raketləri olmasaydı sionist rejim güzəştə gedərdi. İndi baxın görün Qərb Sahilində nə baş verir. Bu məntəqədə silah-sursat, raket yoxdur. Heç tüfəng də ələ gəlməz. Bu məntəqədə yeganə silah daşdır. Sionist rejim bu məntəqədə evləri uçurur, bağları xaraba qoyur, insanları alçaldır və məhv edir. İstədikləri vaxt suyu kəsir, elektrik enerjisinin nəqlini dayandırırlar. Sionist rejimlə yaxınlıq edən Yasər Ərəfat bir misaldır. Sionistlər hətta bu adama dözə bilməyib, onu alçaltdılar, zəhərləyib öldürdülər. Bu səhv fikirdir ki, sionizmə güc göstərilməsə onlar mərhəmətlə davranıb, cinayətdən əl çəkəcəklər. Sionist rejim məhv olana qədər yeganə yol fələstinlilərin güc nümayişidir. Canavarsifət bu rejim yalnız güc qabağında geri çəkilə bilər. İndi özlərini elə göstərirlər ki, guya atəşkəs ardıncadırlar. İnsan öldürür, körpələri qətlə yetirir, insan ağlına gəlməyən cinayətlər edirlər. Bununla belə acizdirlər. Çox çətin bir vəziyyətdədirlər. Ona görə də sülhə çalışırlar. Bizim əqidəmiz budur ki, Qərb sahili də Qəzzə kimi silahlanmalıdır. Fələstinin taleyinə ürəyi yananlar bir iş görmək istəyirsə, iş budur. Bu xalqı silahlandırmaq lazımdır. Fələstinlilərin üzərindən həqarəti götürəcək yeganə şey iqtidardır. Fələstin güc göstərməlidir. Mütilik, sazişçiliklə Fələstinin xeyrinə heç bir nəticə əldə olunmayacaq. Saziş bu canavarsifət rejimin vəhşiliyini azaltmayacaq.

Əlbəttə dünya xalqlarının vəzifəsi Fələstin xalqını siyasi cəhətdən himayə etməkdir. Buna şübhə yoxdur. Bu gün şahidsiniz ki, İslam, hətta qeyri-müsəlman ölkələrdə xalq etiraz aksiyaları keçirir. İnşaallah, Qüds günü dünya İran xalqının əzəmətli etirazını görəcək. İran inşaallah Qüds günü göstərəcək ki, bu ölkədə Fələstinə münasibətdə necə böyük diqqət var. İndi bir qrup tapılıb ki, “Nə Qəzzə, nə Livan” şüarını verir. Amma İran xalqı məzlumların müdafiəsinə sadiqdir. Nəhcül-bəlağədə məzluma sevgi, zalıma qəzəb əmri var. Bu İran xalqının istəyidir. Bu Qəzzə hadisəsinə bir baxışdır. Bundan da mühüm olanı odur ki, dünya imperializmi başda ABŞ olmaqla bu faciəni, bu cinayəti, bu vəsfəgəlməz amansızlığı himayə edir. Mövzuya daha dərin baxış budur. Bu nöqtə üzərində dayanmaq lazım gəlir. Bu gün Qərbin müstəmləkəçi gücləri, bir neçə böyük və varlı dövlət, başda Amerika olmaqla Britaniyaya arxalanaraq İsrailin himayəsində dayanıb. Bu mühüm məsələdir. Dərhal müdafiəyə qalxırlar. Nəyi müdafiə edirlər? O müsibəti müdafiə edirlər ki, heç bir insaflı insan bu hadisə qarşısında biganə qala bilməz. Qəzzə kiçik, bir qarışlıq torpaqdır. Bu torpaqda əhalinin başına təyyarələrdən bomba yağdırılır, raketlər atılır, qurudan

tanklar təcavüz edir. Heyrətamizdir ki, bu qədər uşaq öldürülür, bu qədər ev dağıdılır, xalq öz evinin içərisində əzab çəkir, amma imperialistlər İsraili müdafiə edir. Hansı məntiqlə? Çox gülünc bir məntiqdir. ABŞ prezidenti deyir ki, İsrail özünü müdafiə etmək hüququna malikdir. Soruşuram ki, fələstinlilərin özünü müdafiə etmək hüququ yoxdur?! Öz vətəndaşının təhlükəsizliyini qoruyan bir dövlət amansız mühasirədə qalmış xalqa biganəlik göstərir, hətta hədələyir. Bu məntiq məqbuldur? Kim bunu qəbul edər? Tarix bu məntiqi necə mühakimə edəcək? Bu müstəmləkəçi ölkələrin məsulları anlamırlar ki, İsraili himayə etməklə öz ləyaqətləri, nüfuzları ilə oynayırlar. Həyasızcasına bəyanat verirlər ki, biz İsraili himayə edirik. Məntəqədə baş verən hadisəni yada salmırlar. Demirlər ki, bu dağıdıcı ünsür məntəqədə necə faciələr törədir!

Bu onu göstərir ki, hazırda Qərb ölkələrinin idarə üsulu olan liberal demokratiya məntiqində əxlaqi dəyərlərə zərrəcə qiymət verilmir. Bu məntiqdə heç bir əxlaq, insan duyğusuna yer yoxdur. Özlərini rüsvay edir, xalqların nifrətini qazanır, adlarını tarixə qara yazırlar. Biz bu hadisəni bir təcrübə olaraq yadda saxlamalıyıq. Amerikanı tanımalıyıq. Amerika budur, liberal demokratiya budur. ABŞ-ın münasibəti bizim fəaliyyətlərimizə, mühakimələrimizə, rəftarlarımıza təsir edəcək. Bu gün İslam Respublikası qarşısında açılmış cəbhə ölkəmizlə müxtəlif istiqamətlərdə qarşıdurmadadır. Revanş ardınca olan ABŞ-ın mahiyyəti budur. İnsanların, müdafiəsiz xalqın qətliamına biganədirlər, Qəzzədəki cinayətə imza atan azğın rejimi müdafiə edirlər. Bu bizim üçün meyar olmalıdır. İran xalqı, ideoloqlarımız, tələbələrimiz, ziyalılarımız bunu unutmamalıdır. İdeoloji bünövrəsi liberal demokratiya olan Qərb budur. Bu gün qarşımızda dayanan məntiq budur.

Bu gün dünyanın ən etinasız siyasətçiləri bu ölkələrə başçılıq edirlər. Onların insan haqlarına, insanlığa etiqadı yoxdur. Qəzzədə və başqa yerlərdəki rəftarları buna sübutdur. Onlar heç nəyə, nə insan haqlarına, nə də xalqların seçiminə inanır. Heç nəyə inanmırlar. Qəbul etdikləri bir şey varsa pul və zordur. Başqa məntiq yoxdur. Onların azadlıq və insan haqları barədə dedikləri azadlığın məsxərəyə qoyulmasıdır. Bu qüvvələr azadlığı məsxərəyə qoyublar.

Mən bu sözləri ABŞ, ABŞ prezidenti, ABŞ rəsmilərinə nəsihət ünvanında demirəm. Bunu özümüz üçün deyirəm. Analizlərimizdə, mühakimələrimizdə, fəaliyyətlərimizdə kiminlə üz-üzə dayandığımızı bilək. Bilək ki, onların qəlbindəki nədir. Biz öz vəzifəmizi müəyyən etməliyik. Bu gün Qərbin rəftarlarından düzgün nəticə çıxarmalıyıq. Onların İslam Cümhuriyyəti, İslam İnqilabı, İslam hərəkatı, İslam oyanışı ilə münasibətləri qlobal siyasətlərinin bir hissəsidir.

İmperializmin qlobal siyasəti xalqların əsarət altına alınması, onların istəklərini nəzərə almadan istismar edilmələridir. Bu, Qərbin baş siyasətidir. Buna diqqətli olaq. Ölkəmizdə ABŞ, Qərb, imperializm ziddinə şüarlar bu həqiqətə əsaslanır. Qərb və ABŞ əleyhinə şüar eşidənlər elə düşünməsin ki, bu işdə məntiq yoxdur. Xeyir, Qərb və ABŞ-a qarşı narazılıq böyük təcrübəyə malik məktəbə, dəqiq hesabatlara əsaslanır. Mən ötən görüşdə ölkə məsullarına dedim ki, düşmənin əsas məqsədi bizim hesablamalarımızda xəta yaratmaqdır. Hesablamalar o zaman xətalı olur ki, verilənlər düzgün ikən nəticələr yanlış olur. Bu halda təcrübə də fayda vermir. Hesablama qrumlarımız düzgün işləməyəndə təcrübələrdən bəhrələnə bilmirik.

Diqqət edin, görün öz ölkəmizdə qərblilərin, Qərb mədəniyyəti daşıyıcılarının son 100 ildə rəftarları necə olub? Biz Qərbdən çox zərbə almışıq. Bu təcrübələr Qərbə vurğun ziyalıların gözü qarşısındadır. Təcrübələrdən dərs götürmürlər. Onlar görür ki, Britaniya Rzaxanı İranda hakimiyyətə gətirməklə ölkəni məntiqsiz, dövlətçilik üsullarına biganə quldurun ixtiyarına verdi. 20-ci illərdə həmin qüvvələr İranı işğal etdi, əslində ölkəni öz aralarında böldülər. Neftə sahib durdular, zorakı müqavilələrə imza atdırdılar.

Sonra 28 mordad çevrilişi oldu. Bütün eyblərinə baxmayaraq yaranan milli hökumət xalqın seçimi idi. Onu devirdilər, neftin milliləşməsi hərəkatını süquta uğradıb təbii sərvətlərimizə sahib durdular. Ölkəyə uzun müddətə Məhəmmədrza diktaturasını hakim etdilər. Onun arxasında dayandılar, 30 ildən çox sürən hakimiyyəti dövründə var-yoxumuzu taladılar. Xalq səfalət, cəhalət içində boğulurdu. Ölkənin mədəniyyəti, dini məhv edildi. Bütün bunlar Qərb dövlətlərinin himayəsi ilə mümkün oldu. İran xalqının inqilabına qarşı bütün təxribatlara əl atdılar. Özləri də qəbul etmədikləri Səddamı İrana təcavüzə sürüklədilər. Bu qərblilər, bu Britaniya, bu ABŞ, bu Fransa Səddama kimyəvi bombaya qədər silah-sursat, hərbi texnika verib, arxasında dayandılar. Bu bizim təcrübəmizdir. Qərbə vurğun ziyalı hesablamalarında xəta olduğundan bu təcrübələrdən faydalana bilmir.

İran İslam İnqilabının mühüm xidmətlərindən biri ölkədə əqli-intellektual yanaşmanı önə vermək oldu. Belə ki, siz gənc tələbələr regional məsələləri təhlil edəsiniz, iti baxışla zərif nöqtələri görəsiniz, düşməni tanıtdırasınız, məntəqə hadisələrini təhlil edib müqavimət göstərəsiniz. Bu bir məmləkətin düşüncəli həyatının göstəricisidir. Bunu bizə inqilab verib. Bu gün bəziləri keçmiş günlərə qayıtmaq həvəsinə düşüb. Qərbə vurğun cərəyanlar milləti, onun dəyərlərini, mədəniyyətini, milli kimliyini təhqir edirlər. Qərb imperializminin xeyrinə addım atırlar. İstəyirlər ki, məmləkət, mədəniyyətimiz, meyarlarımız yenidən müəyyən olunsun. Bu gün xaricdə İran xalqının qanlı düşmənlərinin bayrağı altında İslam Cümhuriyyətinə qarşı çalışanlar istəyirlər ki, bu məmləkətin baxışında bir zaman hakim olmuş şeytan təlqinlərini, yanlış hesablamaları günümüzə qaytarsınlar. Əziz tələbələrə tövsiyəm budur ki, həm dini, həm siyasi məsələlərdə mütaliələrini elmi çalışmaları ilə yanaşı gücləndirsinlər. Çalışın ki, analiz gücünüzü artırasınız. Əlbəttə ki, bu gün tələbələrin çıxışlarında könül açan, dəyərli nöqtələr görürəm. Yenə də bacardığınız qədər çalışın. Bugünki görüşümüzdə məmləkətin zəruri məsələlərini bütünlüklə nəzərdən keçirmək imkanımız olmadı. İnşaallah qarşıdakı görüşlərdə bu barədə danışarıq. Əziz tələbələr ictimai-siyasi, iqtisadi, başqa zəruri sahələrlə bağlı təhlillərini xalqın ixtiyarına verməlidir. Cəmiyyət tələbələrin təhlillərindən faydalanmalıdır. Tələbənin təhlil gücü belə bir həddə olmalıdır. Bu da mütaliədən asılıdır. Tələbə duyğular yox, mütaliəyə əsaslanmalıdır. Təhlilinizin əsası təkcə mətbuat olmasın. Araşdırma aparın, mübahisə edin. Dostların burada dilə gətirdiyi çox sözlər azad tələbə diskusiyalarında aydınlaşmalıdır. Mən bu nöqtəni dəftərçəmə qeyd etdim. Azad düşüncə tribunaları universitet mühitində çox məsələləri aydınlaşdırar. Tələbə diskusiyalarında mövzunun müsbət və mənfi cəhətləri üzə çıxmalıdır.

Tələbə mühiti üçün nəzərinizə çatdıracağım başqa bir nöqtə dialoq rəqabətidir və bu faydalıdır. Bir şərtlə ki, müxalif tərəfi dözümlə qarşılayasan. Müxalifin mövcudluğu insanı təəccübləndirməməlidir. Nə qəzəblənmək, nə də qorxmaq lazımdır. Müxalif qarşısında bu 3 reaksiya yersizdir. Müxalif qarşısında təəccüb insanın özündən razılığından yaranır. Burada təəccüblü nə var ki! Hər düşüncənin, hər cərəyanın müxalifləri var. Biz müxalifin səhv etdiyini iddia edə bilmərik. Zəif nöqtələr var və bu nöqtələr müxalifət yaradır. Qəzəblənmək də yersizdir. Müxalifət məqbul bir hadisədir. Qorxmağa da dəyməz. Qorxu bunu göstərir ki, insan öz mövqeyinə etibar etmir.

Bizim məntiqimiz var və bu məntiqin əsaslarını möhkəmləndirərək dialoqa gedirik. Mübahisə tələbə ruhiyyəsində yeri olan hadisədir. Beləcə tələbə fəzaları bugünki kimi təravətli olacaq. Həm mübahisə edilir, həm qarşı tərəf dinlənilir, eyni zamanda əsaslar möhkəmlənir. Elmi sahələrdə işin əsası təqvadır. Düşüncədə İslam hüdudlarında, düşməni tanımaqda təqva gözlənilir.

Ümid edirik ki, inşaallah Allah-Taala hər birinizi müvəffəqiyyətə çatdıracaq. Allah inqilabın məqsədlərini reallaşdırmaq yolunda vücudunuzu qorusun, sizə yardımını hər gün artırsın, inqilabımız və məmləkətimiz üçün siz gənclərə gözəl gələcək nəsib etsin. İnşaallah.

Vəssəlamu ələykum və rəhmətullahi və bərəkatuh

Iyul, 2014

## Universitet müəllimləri ilə görüşdə bəyanat

### Universiteti ölkənin elmi inkişafına aşiq insanların ixtiyarına vermək lazımdır...

Bismillahir-Rəhmanir-Rəhim...

Əziz qardaşlar və bacılara, möhtərəm universitet müəllimlərinə, məclisdə iştirak edən bütün alimlərə xoşgəldin deyirəm. Bu məclis həmişə mənim üçün ən sevimli məclislərdən olub. Həm bu məclisdə haqqında danışılan mövzular, həm də buradakı elmi fəzaya görə. Bu məclisdə adətən düşüncə və elmi baxımdan bünövrəli, dəyərli mövzulardan danışılır. Bu məclisin əsas məqsədi elm adamlarına ehtiram və diqqətimizi bildirməkdir. Onlar məmləkətin ən böyük sərvətidirlər. Bunu bu məclisdə aydın şəkildə dilə gətiririk.

Nəzərinizdə deyiləsi sözünüz çoxdur, hər birinizin deməyə sözü var. Əgər bütün bu sözləri eşitmək imkanımız olsaydı şübhəsiz böyük faydası olardı. Ümid edirik ki, bütün zəruri sözlər elmi yığıncaqlarda, universitet toplantılarında lazımi şəkildə deyiləcək. Məsullar bu fikirlərdən istifadə edəcəklər. Şübhəsiz, alimlərin və uzaqgörən insanların məmləkətin taleyüklü problemləri barədə düşüncələri məcmusu böyük bir sərvətdir və bu sərvət ölkəni idarə edən məsulların ixtiyarına veriləcək. Ümid edirik ki, bu fikirlərdən istifadə olunacaq. Təəssüf ki, bugünki yığıncağımızda bütün fikirləri dinləmək imkanımız yoxdur.

Mən məclisdə söhbət edən əziz qardaşlar və bacılara təşəkkürümü bildirirəm. Bütün natiqlər gözəl nöqtələrə toxundular, onların söhbətlərindən faydalandıq. Onların söhbətlərindən ölkənin idarəçiliyində proqram və layihələrdə istifadə olunacaq. Bu fikirlər inşaallah öz səmərəsini verəcək.

Məqsədimiz elm və alimi dəyərləndirmək , dinləmək və dərk etməkdir. Həmd olsun Allaha, bu günə, bu ana qədər məqsədə çatmışıq. Bəzi məsələlər haqqında da söhbət edəcəyik.

Əvvəla, ramazan fəzası səfa-səmimiyyət, mənəviyyat, sədaqət və ixlas fəzasıdır. Bu fəzadan maksimum istifadə etməyə çalışaq. Allahla qəlb rabitəmizi, bu mənəvi əlaqəni, şəxsi rabitəmizi bu günlərdə gücləndirək. Hər bir insan üçün həmin rabitəni gücləndirmək ən böyük faydadır. Allahla rabitəni gücləndirmək həm əbədi axirət həyatımız, həm də hazırda yaşadığımız həyat üçün faydalıdır. Ramazan ayında bütün cəmiyyətdə yaşanan bu mənəviyyat fəzasından özümüz və başqaları ilə rabitələrdə faydalanaq. Düzgün qərarlar çıxaraq, düzgün addımlar ataq. Rabitələrimizdə nikbinlik, etimad, məhəbbət, xeyirxahlıq yer alsın. Ictimai və fərdi əlaqələrimizdə ramazan ayından bəhrələnməyə çalışaq. Həyatımızda, məmləkətimizdəki fəzanı nuraniləşdirək.

Biz hər birimiz bunun öhdəsindən gələrik. Siz alimlər və müəllimlər öz yüksək elmi məqamınızla tələbə və qeyri-tələbələrə təsir göstərə bilərsiniz.

Dəyərli elm adamları ilə görüş mənim üçün bir nemətdir və burada diqqətinizə çatdırmaq üçün bir neçə qeydim var. Biz daim ölkəmizin insan potensialı ilə fəxr edirik. Ən dəyərli və üstün insan potensialımız universitetlərdə tələbə yetişdirir. Hörmətli universitet müəllimləri, fürsət yaranıb ki, bəzi məsələləri burada yada salım.

Birinci nöqtə məmləkətdə elmi hərəkatla bağlıdır. Düşünürəm ki, bu çox mühüm məsələdir. Xalqımız və cəmiyyətimiz üçün elmi hərəkat həyati əhəmiyyət kəsb edir. Bu hərəkat hətta İslam dünyası üçün həyatvericidir. Biz uzun illərdir – olsunki on, on iki ildir – elm məsələsi üzərində ciddi dayanmışıq. Gerçəkdən ölkədə elmi hərəkat başlayıb. Çox böyük işlər görülüb. Bunun nümunələri barədə hörmətli alimlər danışdı. Əlbəttə ki, dostların sadaladığından çox-çox artıq nümunələr var. İşə start verilib və bu hərəkat dünya tərəfindən tanınıb. Əziz məmləkətimizin elmi inkişaf göstəriciləri dünyaya məlumdur. Məni narahat edən nöqtə budur ki, elmi hərəkatımız sabit nöqtəyə çatmayıb. Biz yoxuş qalxan kimiyik. Bəli, hərəkət etmişik, irəli getmişik, xeyli iş görülüb, amma yolun ortasındayıq. Müxtəlif səbəblərdən yarıyoldayıq. Bu mövzuda söhbəti uzatmaq istəmirəm. Müxtəlif yerlərdə, müxtəlif münasibətlərlə bu barədə danışmışıq. Bu sərt yoxuşda hərəkətimizi dayandırsaq, geriləməyimiz labüddür. Əgər elmi hərəkatımız sürətdən düşsə əvvəlki vəziyyətə qayıtmaq çətin olacaq. Bu məsələ məni narahat edir. Bu elmi hərəkata kömək etmək lazımdır. Məbada, elə bir vəziyyət yaransın ki, elmi hərəkatımız dayansın. Birinci və əsas sözüm bu idi.

Heç şübhəsiz düşmənlərimiz elmi hərəkatımızı dayandırmaqda maraqlıdırlar. Bəziləri düşmən sözündən narahat olur. Deyirlər ki, nə üçün tez-tez düşmən-düşmən deyirsiniz. Qurana baxın. Görün Quranın başlanğıcından sonuna qədər şeytan, iblis sözləri nə qədər təkrarlanıb? Düşməndən qəflətdə qalmaq olmaz. Düşməni düşmən saymaq eyb deyil. Tez-tez düşməni yada salmağımız o demək deyil ki, öz eyblərimiz və problemlərimizdən xəbərsiz qalmışıq. Düşmənlərin ən pisi daxilimizdəki düşmən, rahattələblik, tənbəllik meylləridir. İşdə bizi geri salan budur. Amma xarici düşməndən qəflətdə qalmaq böyük strateji səhv olardı. Bu bizə böyük zərbə vura bilər. Düşməni tanımaq lazımdır. Düşmənlə necə rəftar etmək ayrıca bir mövzudur. Əsası qarşı tərəfin düşmənçiliyini başa düşmək, onun planlarından baş açmaqdır. Düşmənin əsas planlarından biri ölkədə elmi hərəkatı dayandırmaqdır. Bunu başa düşəndə bütün diqqətimiz universitetə yönəlir. Məhz burada cihadla müdiriyyət məna kəsb edir. Cihad düşmən qabağında təlaşdır. Hər fəaliyyət, hər təlaş cihad deyil. Cihad odur ki, qarşı tərəfin xəbis fəaliyyətlərinə cavab verəsən. Burada cihadla müdiriyyət o deməkdir ki, ölkədəki elmi hərəkat düşmən təzyiqi ilə üzbəüzdür. Siz müəllimlər, alimlər, tələbələr ayağa qalxmalısınız. Bu duruş universitetdə cihadla hərəkat və müdiriyyətdir. Universitetdə, nazirliklərdə, müxtəlif sahələrdə düzgün təlaşlar cihadla müdiriyyət olacaq. Keçmişdə bir müddət universitetdə arzulanmayan hallar olub. Mötəbər bir universitetdə gəncləri

ölkədən getməyə sövq edənlər olub. Adını da qoyublar "beyin axını". İstedadlı tələbələri axtarıb tapır, ölkədən getməyə həvəsləndirirdilər. Bir zaman belə olub. Bir zaman nazirliklərdə elə adamlar olub ki, elmi inkişafa maneçilik törədiblər. Özləri üçün dəlilləri olsa da fəaliyyətləri maneə yaratmaq olub. Bu hallar təkrarlanmamalıdır. Universitet elmi inkişafa mane olan adamlara tapşırılmamalıdır. Universiteti ölkənin elmi inkişafına aşiq insanların ixtiyarına vermək lazımdır. Elə insanlar ki, millətin, məmləkətin taleyində bu mövzunun əhəmiyyətini dərk edirlər. Bu əsas məsələdir və dövlət məsullarına, universitet rəhbərliyinə, eləcə də siz müəllimlərə aiddir. Universitet bir hərəkar başlayıb, bu hərəkatı dayanmağa qoymayın. Bu hərəkat davam etməli, ikiqat güclənməlidir. Qeyd etdim ki, indi ətraflı danışa bilmirik. Qarşıda xeyli yol var ki, elmi baxımdan nəzərdə tutulmuş nöqtəyə çatacaq. Çox çalışmalıyıq, cihad aparmalıyıq.

Qısa müddətli təlaşlar baxımından da mənim fikrim eynidir. Bu fikir mütəxəssislərin araşdırmalarından irəli gəlib. Bu gün sanksiyalar hamını düşündürən məsələdir. Mütəxəssislər bu qənaətdədir ki, elmin inkişafı ilə sanksiyalar təsirsiz olacaq. Qısamüddətli, ortamüddətli fəaliyyətlər baxımından millətinizi alçaltmaq istəyən düşmənin sanksiyaları elmi fəaliyyətlərlə təsirsiz olacaq. Biz neçə ildir təkrarlayırıq ki, sanksiyalara çox vaxt ayırmayın. Sanksiyaları təsirsizləşdirmək üçün məmləkətdə elm və texnologiya, kənd təsərrüfatı inkişaf etməlidir. Çıxışlarda eşitdiniz ki, inkişaf sanksiyaları təsirsizləşdirəcək. Bu sahədə iş üçün meydan açıqdır. Müqavimət iqtisadiyyatında elmi bazası olan şirkətlər aparıcı rol oynayır. Bu fəaliyyətlər bəyənilir və himayə olunur. Elmi-araşdırma müəssisələri, elm istehsal edən müəssisələr diqqət mərkəzində saxlanılmalıdır. Standartlaşdırma aparmaq, meyarlar təyin etmək lazımdır. Elə olmasın ki, elmi müəssisə adı altında kimlərsə bir zaman görülmüş işlərə vaxt sərf etsinlər. Sözün əsil mənasında elmi müəssisə elm istehsal etməlidir.

Mən haşiyə olaraq demək istəyirəm ki, deməyə sözü və tribunası olan bəzi şəxslər ölkənin elmi inkişafı mövzusunda tərəddüddədir. Biz bunu məsləhət görmürük. Burada məlumatsızlıq var. Bir vaxt ölkə rəsmilərindən biri hərbi sahə ilə bağlı həqiqətdən uzaq fikir bildirmişdi. Təklif etdim ki, məsullar üçün hərbi tur təşkil olunsun. Dövlət rəsmiləri hərbi mərkəzlərdə olub vəziyyəti görsünlər, məlumatları artsın. Təəssüf ki, elm sahəsində də belə bir vəziyyət yaranıb. Müxtəlif sahədə çalışan məsullar üçün elmi tur təşkil etmək lazımdır. Rəsmilər elm sahələrini gəzib tanış olsunlar. Nanotexnologiya sahəsində çalışanlardan biri dedi ki, quyu qazırıq, nəticə almayanda həmin quyunu boşlayırıq. Amma quyu qazanlar işi dayandırmır və müsbət nəticələr əldə edir. Bu gün ölkəmizdə səhiyyə dünyada öncül səhiyyələrdəndir. Səhiyyəmiz dünya səviyyəsində elmi baxımdan geri qalmır. Başqa sahələrdə də belədir. Nüvə sənayesi kök hüceyrələri sahəsində, bu sıradan başqa böyük nailiyyətlərimiz var. Çox böyük inkişafımız var. Məlumatsız adamların tərəddüddə olması yaxşı hal deyil. Mütaliə etsinlər, elmi tura çıxsınlar. Mən məsullardan xahiş edirəm ki, ölkənin elmi inkişafına, elm və texnologiya sahələrinə ciddi diqqət yetirsinlər. Bu sahədə heç bir səhlənkarlığa yol verməsinlər. Bu bizim üçün əsas məsələdir. Bu məsələ həm əsas, həm də sürətlə həyata keçəsi məsələdir. Araşdırma sahəsində lazımlı layihələr hazırlansın. Düşünürəm ki, heç bir səhlənkarlığa yol verilməməlidir. Mühüm məsələlərdən biri də kompleks elmi xəritənin təsdiq olunmasıdır. Həmd olsun Allaha. Mənə məlumat verdilər ki, bu iş müsbət qarşılanıb. Kompleks elmi xəritə əsasında bir sıra sənədlər hazırlanıb, bir sıra sənədlər də hazırlanmaqdadır. Mənə məlumat verdilər ki, bəzi elm sahəsinin məsulları öz sahələri üçün belə sənədlər istəyir. Bu, ölkəmiz üçün mühüm hadisədir. Nəzərdə tutulmuş işi təkmilləşdirmək üçün ölkədəki universitetlərə təyinatı üzrə vəzifə ayrılmalıdır. Ölkənin mötəbər universitetləri kompleks elmi xəritədə öz payını bilməlidir. Onlar öz sahələrinə uyğun vəzifələrini yerinə yetirməlidir. Nəticədə elə bir cədvəl hazırlanır ki, hər universitet öz

işini bu cədvəl əsasında yerinə yetirir. Təyinatına görə universitetlər təsnif oluna bilər. Hər universitet öz məsuliyyətini yerinə yetirməlidir.

Başqa bir nöqtə budur ki, elmi fəaliyyətlərdə hərəkat başlayıb. Amma elmi fəaliyyətlər tam şəkildə ölkənin ehtiyaclarına uyğun deyil. Bizim dünyaya çıxarılan elmi məqalələrimizin kifayət qədər müştərisi var. Yəni elmi işin dünyada müştəri problemi yoxdur. Amma bu kafi deyil. Bu bizim üçün iftixardır. Amma öncə ölkənin ehtiyaclarına cavab verən elmi işlər aparılmalıdır. Bu gün fikirlər açıqlandı, sənaye və kənd təsərrüfatından danışıldı, böhrana nəzarətdən söz açıldı, mütəxəssislər fikirlərini bildirdilər. Ehtiyaclarımız, nöqsanlarımız, zəif nöqtələrimiz yada salındı. Bu suallara cavab üçün elmi araşdırma aparılmalı, məqalələr yazılmalı, çıxış yolu tapılmalıdır. Bu da çox mühüm məsələdir. Universitetlər bu işi ilə dövlətə yardımçı ola bilər. Məsulların çıxardığı qərarlarda elmi fəaliyyətlər öz sözünü deməlidir. İstər məqalə, istər elmi işlər ölkənin ehtiyaclarına münasib olmalıdır.

Siz əziz müəllimlərə deyəcəyim başqa bir mühüm söz budur ki, müəllimin şagirdə böyük təsiri var. Siz tələbə və şagirdlərin zehninə təsir göstərir, onların şəxsiyyətinin formalaşmasında rol oynayırsınız. Bu məqamınızdan tərbiyə sahəsində istifadə edin. Bu gün ehtiyacımız var ki, gənclərimiz xoş ruhiyyəli, ümidvar, şücaətli, özünəinanan, imanlı, çalışqan olsun. Tələbə belə tərbiyə olunmalıdır. Siz auditoriada, sinif otağında bu işi görə bilərsiniz. Bunun əksi də mümkündür. Öz sözlərinizlə tələbələrin gələcəyə olan ümidini qıra bilərsiniz. Onları etiqadsız və qeyri-ciddi tərbiyə edə bilərsiniz. Müəllimin işi təkcə elm öyrətmək deyil. Müəllim həm də şəxsiyyəti formalaşdırır. Tələbə və şagirdlərə mənəviyyatı, ailəni, vətəni sevdirin. Onları İslam mədəniyyətinə etiqadlı tərbiyə edin. İnqilabdan əvvəl bunun əksi müşahidə olunub. İnqilabdan sonra da universitetlərdə ara-sıra bu halla rastlaşırıq. Müxtəlif cərəyanları və şəxsləri tanıyırıq. Hazırda kimisə nəzərdə tutmamışam. Bəzi cərəyanlar Qərb mədəniyyətinin təsiri altındadır. Qərbə aid hər şeyi qəbul edirlər, milli olan hər şeyə arxa çevirirlər. Belə olanlar var. Bu bizim istəyimizin tam əksidir. Müəllim tələbəni mömin, vətənpərvər, məsuliyyətli tərbiyə edə bilər. Tələbənin məmləkətin gələcəyinə inamı müəllimdən asılıdır. Bizim sizdən gözlədiyimiz budur ki, tələbələri nikbin və gələcəyə ümidli tərbiyə edəsəniz.

Mən əvvəlki söhbətlərimdə də bir mövzu barədə danışmışam. İndi də həmin mövzu üzərinə qayıdıram. Müəllim universitet mühitini öz eşqinə çevirməlidir. Bu ikinci dərəcəli, haşiyə bir məsuliyyət deyil. Müəllim universitetdə keçirdiyi anları dəyərli saymalı, tələbələrin ehtiyaclarına cavab verməlidir. Yalnız vəzifəni yerinə yetirmək üçün universitetə qədəm qoymaq düzgün deyil. Müəllim tələbə ilə eşqlə danışanda onu təlaşa vadar edir. Tələbə müəllimin isti münasibətindən güc alır, ondan təsirlənir.

Başqa bir mühüm nöqtə maarif dərsləridir. Maarif tədris edənlərin böyük imkanları var. Milyonlarla tələbə nəzərdə tutulmuş saatlarda sizin ixtiyarınızdadır. Bu çox dəyərli fürsətdir. Ən üstün gənclər sizin ixtiyarınıza verilib. Əgər maarif müəllimi tələbənin qarşısına dərin İslami düşüncə ilə çıxsa faydamız böyük olar. Yaxşı olar ki, nümayəndəliyimiz bu məsələyə diqqət yetirsin. Tələbələrin iman və saleh əməldə inkişafı üçün əziz müəllimlər təlaş göstərməlidir.

Başqa bir mühüm məsələ humanitar elmlərlə bağlıdır. Əvvəllər bu barədə danışmışıq. Humanitar elmlər sahəsində köklü dəyişikliyə ehtiyac var. Bu o demək deyil ki, başqa düşüncələrdən imtina edirik. Qərbə aid müəyyən baxışlar araşdırılıb, öyrənilib və onlardan istifadə olunur. Mühüm nöqtə budur ki, Qərb elminin əsası qeyri-ilahidir və materializmə əsaslanır. Qərbin humanitar elmlərində tövhid bünövrəsi yoxdur. Belə elmlər İslam və dinlə uyğun gəlmir. Humanitar elmlər o zaman faydalı olar ki, ilahi dünyagörüşə əsaslansın. Hazırda humanitar elmlər sahəsində vəziyyət qənaətbəxş deyil. Bu sahədə iş görülməlidir. Əlbəttə ki, bu tələsik yox, uzunmüddətli işdir. Bu sahədə çalışanlar münasib sürət

götürməlidir. Yəni nə tələsmək lazımdır, nə də geri qalmaq olar. Mənə məlumat verilib ki, Mədəniyyət İnqilabı Ali Şurasında müəyyən işlər görülür və universitet müəllimləri də bu sahədə müəyyən addımlar atır. Bu çox yaxşıdır. Yəni iki sahənin yanaşı irəli getməsi faydalıdır. İnşaallah sonda məmləkət və universitetlər qazanar.

Deyəcəyim son söz budur ki, universitet mühiti siyasi cinahların dartışma meydanına çevrilməsin. Universitetin siyasi kluba dönməsi elm üçün öldürücü zəhərdir. Bu o demək deyil ki, tələbələr siyasi fəaliyyət göstərə bilməz. Mən həmişə tələbələrin siyasi fəaliyyətini dəstəkləmişəm. İndi də bu fikirdəyəm ki, siyasi düşüncə, siyasi baxış çox mühümdür. Sözüm budur ki, elm mühitini siyasi meydana çevirmək olmaz. Bu iki sahə fərqlidir. Universitet mühiti aram olmalıdır ki, elmi fəaliyyətlər sürətlənsin. Əgər siyasi dartışmalar universitet mühitinə nüfuz etsə universitetlərdə və ölkədə elmi hərəkat dayanar. Biz dayanmaq deyəndə geriləməni nəzərdə tuturuq.

Pərvərdigara! Səni Məhəmməd (s) və ali Məhəmmədə and verirəm, bu həssas saatlarda, bu mübarək günlərdə öz bərəkətini universitetlər və tələbələrə nazil et. Pərvərdigara! Bizi İran və İslam dünyasının başıucalığına aparan yola yönəlt. Pərvərdigara! Səni Məhəmməd (s) və ali Məhəmmədə and verirəm bizə fərqli dövrlərdə fərqli çəkişmələr qarşısında bəsirət əta et. İşimizdə ixlas ver. Əziz şəhidlərimizi, xüsusi ilə universitet şəhidlərini, nüvə sahəsində çalışmış şəhidlərimizi Öz lütf və mərhəmətində qərar ver. Pərvərdigara! Bizi şəhidlərin yolunda sabitqədəm buyur.

Vəssəlamu ələykum və rəhmətullahi və bərəkatuh

4 ramazan

İmam Xomeyni (r) hüseyniyyəsi

Iyul, 2014

## 31-ci Beynəlxalq Quran Müsabiqəsində bəyanat

### Quranla rabitəsi olanlar bu rabitənin dəyərini bilsin.

Cənab Rəhbər 31-ci Beynəlxalq Quran Müsabiqəsinə qatılmış qari və hafizlərlə görüşdə çıxış edib. Çıxışın tam mətni:

Bismillahir-rəhmanir-rəhim...

Bütün hörmətli iştirakçılar, əzizi qardaş və bacılar, xüsusilə İslam Cümhuriyyətinin qonaqları, qardaş İslam ölkələrindən gəlmiş möhtərəm ustad, qari və hafizlərə xoşgəldin deyirəm. Eləcə də, bu əzəmətli, mənalı və dəyərli mərasimi təşkil edənlərə, vəqf rəisləri, əlaqədar məsullar, bu neçə gündə mərasimi gözəl şəkildə idarə etmiş qardaşlar, ustadlar, şəxsiyyətlərə təşəkkür edirəm. Ümid edirəm ki, inşaallah hamınız Quranın bərəkətindən bəhrələnəcəksiniz.

Ölkəmizdə Qurana əlaqə nemətinə şükür etməkdə acizik. Mən radio-televiziyada hər dəfə görəndə ki, gənclərimizin Qurana necə sevgisi var, qəlbən Allaha şükür edirəm. Bu böyük neməti, onun əzəmətini dərk edə bilmirik. Ölkəmizdə Quran hifzi və tilavətinin rövnəqsiz günlərini görmüşük. Zalım şah rejimi dövründə hər yerdə Quranı sevənlər vardı. Amma Quranla ünsiyyətin rövnəqi, genişliyi yox idi. Bu gün baxanda görürük ki, İslam nizamının, dövlətinin bərəkəti ilə gənclərimiz, kişi və qadınlarımız, yeniyetmələrimiz Qurana maraqlanıb, meyllənib. Quranı əzbərləyir, oxuyur, öyrənirlər. Şübhəsiz ki, son hədəf bunlar deyil, hədəf Quranı anlamaq və ona əməl etməkdir. Atılan addımlar başlanğıc zəruri addımlardır. Quran cəmiyyətdə geniş yer alarsa rövnəqlənər, Quran hifzi çoxalar, cəmiyyətin müxtəlif zümrələri arasında Quranla ünsiyyət həyata keçər. Beləcə, cəmiyyət Qurana əməl məqamına yaxınlaşar. Biz bunu istəyirik. Quran nurdur, hidayətdir, bəyandır, aydınladandır. Quran insanla danışır, insanın qəlbi ilə söhbət edir. Quranla ünsiyyətə girmək, ona yaxınlaşmaq lazımdır. İlk bəhrə hazırlıqlı qəlb, istedadlı insanındır. Qəlbinizi Qurana yaxın görəndə şükür edin. Quran maarifini asanlıqla dərk edirsinizsə, qəlbən qəbul edirsinizsə, çətinliyə dözürsünüzsə Allah şükürü yerinə yetirin, bilin ki, Allah sizi hidayət etmək istəyir. Ənam, 125: Allah kimi düz yola yönəltmək istəsə, onun köksünü İslam (dini) üçün açıb genişləndirər, kimi azdırmaq istəsə, onun ürəyini daraldıb sıxıntıya salar... Quranın xüsusiyyəti budur, qəlbiniz Qurana yaxınlaşsa, ünsiyyət yaransa, bilin ki, Allah sizi doğru yola istiqamətləndirmək istəyirş Bu Allahın ən böyük nemətidir.

Əzizlərim! Bu gün İslam dünyası böyük problemlərlə üzləşib. Görürsünüz, eşidirsiniz, xəbəriniz var. İslam dünyasının ən böyük dərdi öz düşmənlərinin fitnələrini, xəbis əlini görməməsidir. Bu bizim ən böyük dərdimiz ya dərdlərimizdən biridir. İslamla pis münasibətdə olanlar, İslam adından qaçanlar, maddi mənafeyə görə istənilən doğru çağırışla savaşa hazır olanlar var. İslam haqq və ədalətə dəvət edən doğru çağırışdır. Düşmənlər işsiz oturmayıb, xüsusilə İslam Respublikası yaranandan sonra. Dünyanın bu həssas coğrafi nöqtəsində İslam üsul-idarəsi yaranandan sonra onların fitnəkarlıqları gücləndi, mürəkkəbləşdi. Bu gün fitnələr keçmişdəkindən mürəkkəbdir. Bunu İslam dünyasında hamı başa düşməlidir. Bizi bir-birimizin üstünə salır, aramızda ixtilaf yaradırlar. Qardaşı qardaşa qarşı qoyurlar. İslam düşmənlərinin siyasəti budur ki, İslam məmləkətlərində, İslam cəmiyyərləri və ümmət arasında qardaş qırğını salsınlar, vətəndaş müharibəsi alovu qızışdırsınlar. Özləri kənarda oturub bizim bir-birimizi qırmağımıza baxmaq yolunu tutublar. Düşməni, onun fitnəsini tanımaq lazımdır, İslam dünyasında çatışmayan şey budur. Ümmət arasında öz müsəlman qardaşına qarşı düşmənlə əl-ələ verənlər var. Bu gün bu hal var. Öz müsəlman qardaşları ilə vuruşmaq, mübarizə aparmaq üçün şeytana yaxınlaşırlar. Bu gün sionist rejimlə həmkarlığa hazır olanlar var. Məqsədləri müsəlman qardaşları yerə vurmaqdır. Əraf, 30: (Allah) İnsanların bir qismini doğru yola yönəltdi, onların bir qismi isə (haqq yoldan) azmağa layiq görüldü. Çünki onlar Allahı qoyub şeytanları özlərinə havadar tutmuşdular və özlərinin doğru yolda olduqlarını güman edirlər... Belələrinin yanlış gümanı budur ki, doğru yoldadırlar. Bu Quran maarifidir, Quranın göstərdiyi

aydın meyarlardır. Bunları dərk etməliyik. Nə zaman dərk edə bilərik? O zaman ki, Quranla ünsiyyətimiz olsun, qəlb qapılarımzı Qurana açaq. Bütün bu mərasimlər bir müqəddimədir.

Siz əziz gənclərə tövsiyəm edirəm ki, Quranla ünsiyyətinizi gücləndirəsiniz. Quranla rabitəsi olanlar bu rabitənin dəyərini bilsin. Quranı hifz edənlər bu neməti dəyərləndirsin.Bu qiymətli cəvahiri qoruyub saxlayın. Quranla ünsiyyəti olanlar bu mübarək işi əldən çıxarmasınlar. Quranla rabitəsi olanlar onun mənlarını, dərin məfhumlarını dərk etməyi qarşıya məqsəd qoysunlar. Bütün bunlar bizi qədəm-qədəm Qurana yaxınlaşdırır. Əgər Quranla ünsiyyətə girsək, Qurana yaxınlaşsaq, Quran mənaları qəlbimizə təsir göstərə bilsə, ümid edə bilərik ki, İslam ümməti Allahın vəd etdiyi izzətə çatacaq. Munafiqun, 8: Şərəf-şan da, (qüvvət və qələbə də) yalnız Allaha, Onun Peyğəmbərinə və möminlərə məxsusdur, lakin münafiqlər (bunu) bilməzlər!

Mən bu mərasimin bütün təşkilatçılarına, müsabiqəyə qatılanlara, əziz gənclərə, bu gözəl və əzəmətli tədbirin zəhmətini çəkənlərə, bu mərasimi sevinclə qarşılayan xalqa bir daha təşəkkür edirəm. Ümid edirəm ki, Allah-Taala sizləri hifz edəcək. Mərasimi və bu tədbiri zövqlə idarə edən hörmətli və gözəl bəyanlı aparıcıya da təşəkkürümü bildirirəm.

Vəssəlamu ələykum və rəhmətullahi və bərəkatuh.

Iyun, 2014

## İmamın Xomeyninin (r) vəfat ildönümündə Rəhbərin çıxışı

### Düzgün hərəkət və yolu düzgün başa vurmaq üçün...

İmam Xomeyninin vəfatının 25-ci ildönümü mərasimində onun pak hərəmində cənab Rəhbər Ayətullah Xameneinin çıxışı

Bismillahir-Rəhmanir-Rəhim

Bu unudulmaz və mühüm gündə öz sözümü siz əziz qardaş və bacılara üç hissədə çatdırıram. Birinci hissə budur ki, İslam Respublikası ilə bağlı mühüm bir hadisə var. Həmin hadisəyə diqqət bizim üçün bu gün çox faydalıdır. İkinci hissədə böyük İmamın (r) uzunömürlü məktəbi barədə bir işarə ilə qısa şərh verəcəyəm. İmamın məktəbi barədə çox danışılıb, danışmışıq və eşitmişik. Amma bu qısa şərh hazırkı məqamda bizə lazımdır. Bu təsvir müasir dünyada böyük İmamın səhnəyə gətirdiyi misilsiz hadisənin

təsviridir. Üçüncü hissədə İran xalqı və İslam Respublikası qarşısında dayanan iki mühüm problemdən danışacağam. Düzgün hərəkət və yolu düzgün başa vurmaq üçün bu mühümdür.

Birinci hissə: İşarə etdiyim hadisə budur ki, İmamın vəfatından 25 il ötsə də onun haqqında eşitmək və bilmək həvəsi azalmayıb. Bu təkcə bizim ölkəyə aid deyil. İslam dünyasında, İslam dünyasından uzaqlarda bunu görmək olar. Təkcə bizim ölkəmizdə pərvaz etməkdə olan üçüncü nəsil yox, İslam dünyasında informasiya və internet əsrinin gəncləri İslam İnqilabı, İslam Respublikası, bu əzəmətli binanın memarı haqqında daha çox bilmək istəyirlər. Bu gənclərin öz mühitindən kənar fəza haqqında rahat məlumat əldə etmək imkanı var. Dini demokratiya, vilayəti-fəqih nəzəriyyəsi İslam dünyasında düşüncə mühiti üçün əhəmiyyətli və cazibəli bir hadisədir.

Düşmənlərimiz elə ilk gündən geniş fəaliyyətə başlayıblar, biz irəli getdikcə, bu fəaliyyətlər də güclənib. Yüzlərlə, minlərlə radio-televiziya, internet mərkəzlərindən istifadə edir, İslam Respublikası, onun böyük banisi və ardıcıllarını aşağılamağa çalışırlar. Bu özü bizə kömək edib. Eşidənlərdə dünya boyu bir maraq oyadıb. Dünya bilmək istəyir ki, bunca düşmənçiliyin, daşqalağın, çirkab atmağın səbəbi nədir? Düşmənləri belə çalışdıran amil, onun həqiqəti, mahiyyəti nədən ibarətdir? Düşmənlərimiz düşmənçilik məqsədi ilə adımızı çəkdilər, İmamımız və dövlətimiz haqqında danışdılar. Amma Quran təbirincə, "həqiqətən, (Məkkə müşrikləri) hiylə qurdular, mən də onlara cəza olaraq hiylə qururam." (Tariq, 15, 16). Bunu Allah buyurur. Onlar bir niyyətlə geniş hərəkətə başladılar, amma sonda bizim üçün fürsət yarandı. Onların sözü ilə dünyada maraq baş qaldırdı. İslam məmləkətlərində, bizim məntəqəmizdə anti-imperialist hisslərin hər şeyə qalib gəldiyi İslam oyanışı özü həmin maraq, cavab axtarışının nişanəsidir. Bu hələ də davam edir. Qərb və ABŞ kəşfiyyat orqanları özlərindən yuxarı instansiyalara belə məlumat verə bilərlər ki, məntəqədə İslam oyanışını yatıra bildilər. Əgər belə düşünsələr bu da növbəti strateji səhv, yanlış təhlil olacaq. İslam oyanışı müəyyən müddətə İslam dünyasının bir hissəsində sakitləşə bilər. Amma şübhəsiz onu kökündən qoparmaq olmaz. Bu hərəkat genişlənəcək. Bu düşüncə, bu baxış, bu qənaət ölkələrdə, müsəlman gənclik arasında asanlıqla aradan qalxası deyil. Əlbəttə ki, düşmən çalışır və bu təlaşlar müəyyən yerlərdə qısa müddətə uğurlu görünə bilər. Amma sonu yoxdur. Bu günkü gənclik, dünyada, xüsusilə İslam dünyasında dini demokratiyaya yaranan maraq ömrünün 35-ci ilini yaşayan İslam Respublikası hadisəsindən qaynaqlanır. Bu quruluş 35 il boyu dünyanın supergüclərinin amansız və azğın hücumlarına məruz qalıb. Həm hərbi, həm ideoloji, həm iqtisadi yöndən amansız reaksiyalar ortaya qoyublar. İnqilabın əvvəllərindən sanksiyalar başladı. O zamandan bu günədək yüksələn xətlə davam edir. Siyasi baxımdan da reaksiya verdilər. Güclü qərb cəbhəsi 35 ildir İslam Respublikasına qarşı əlindən gələni edir. Hərbi sahədə təlaş göstərdi, ölkəmizə təcavüz edənə kömək etdi, bütün dünyada İslam Respublikasının əleyhinə olanlara himayə göstərdi, geniş miqyaslı təbliğat kampaniyası apardı. İqtisadi sanksiyalar, iqtisadi blokadanı ən yüksək həddə, keçmişdə görünməmiş səviyyədə gücləndirdi. Bütün bu hücumlar qarşısında İslam Respublikası nə səhnədən çıxdı, nə mühafizəkarlığa getdi, nə qərbə bac verdi, eyni zamanda günbəgün inkişaf etdi. Dünyanın marağının mahiyyəti bundan ibarətdir. Dünyanın ən qabaqda gedən hərbi, siyasi, iqtisadi gücləri əl-ələ verib bir ölkəyə qarşı 35 il təlaş göstərdi, amma həmin ölkə onların bütün səylərinə baxmayaraq nə inki məhv olmadı, hətta hər gün güclənməkdədir. Bu ölkə hücum edənlərə nə bac verir, nə də etina göstərir. İslam Respublikası müxtəlif sahələrdə öz iqtidarını və yaşamaq gücünü göstərdi. Bu gün bu respublikaya baxanda görürlər ki, inqilabın ikinci və üçüncü nəsli, neçə milyon tələbə, minlərlə dini təhsil alan gənc, minlərlə araşdırmaçı, minlərlə universitet və hövzə ustadı, minlərlə istedad fəaliyyətdədir. Onlardan bəziləri beynəlxalq səhnədə ad qazanıb, tanınıb. Minlərlə siyasi şəxsiyyət, mədəniyyət xadimləri, iqtisadçı təlaş göstərir. Cəmiyyətimizin gerçəkliyi budur. Bu həddə sanksiyalara baxmayaraq İslam Respublikası elm və texnologiya sahəsində irəli gedir, kosmosa

peyk göndərir, fəzaya qaldırdığı canlı varlıq geri qayıdır, nüvə enerjisi istehsal edilir. Bir çox müasir elm sahələrində ölkəmiz dünyanın lider on ölkəsi arasındadır. İslam Respublikasında elmi tərəqqi dünya üzrə orta göstəricidən 13 dəfə yüksəkdir. Ölkəmiz başqa ölkələrə elm və texnologiya sahəsində kömək göstərir. Sanksiyalara baxmayaraq 75 milyon nəfər əhalisi olan məmləkət idarə olunur. İslam Respublikası regional siyasətlərdə söz sahibidir, işğalçı və dünya zorluları tərəfindən himayə olunan sionist rejim qarşısında tək dayanıb, zalımla sazişə getmir, məzlumu müdafiə edir. Hər bir insanda maraq yaranır ki, bu nə hadisədir? Bir bu qədər düşmənçilik qarşısında belə bir qüdrət, həyat və gələcək! Ölkəmizə marağın mahiyyəti budur. Dediklərim elm və texnologiya sahəsinə aid idi.

İctimai-siyasi sahələrdə də dünyanı təəccübləndiririk. Ölkəmizdə demokratiyanın yüksək səviyyəsi özünü göstərməkdədir. İnqilabdan ötən 35 ildə 32 seçki keçirmişik. Bu seçkilər bütün ölkəni əhatə edib. Bu ciddi məsələdir və misilsiz nümunədir. İslam Respublikasında seçki fəallığı dünyadakı orta həddən yüksək, bəzi məqamlarda xeyli yüksəkdir. Bu fəallıq 70-72 faizdir. Seçkilərimiz belədir, demokratiya göstəricisidir. Başqa iki misilsiz nümunəyə adət etmişik. Amma kənardan baxan üçün çox cazibəli və mühümdür. 22 bəhmən nümayişləri və ramazan ayında qüds günü nümayişi. Adi hadisələr deyil. İnqilabın il dönümünü 35 ildir xalq qeyd edir. Bəhmən ayının sonlarında soyuq günlərdə əzəmətli nümayiş keçirilir. Biz buna adət etdiyimizdən əzəmətini görə bilmirik. Amma kənardan baxanlar heyrətdədirlər. Bütün bunlar dünyada maraq yaradan cazibələrdir. Maraqlanan, sualı olan insanlarda yeni yol təsəvvürü yaranır. Bu bizim dövrümüzün mühüm hadisəsidir ki, dünya boyu gənclər, ziyalılar, agah və düşüncəli insanlar Allahın tövfiqi ilə həyata keçmiş inqilab və hər gün inkişaf edən İran İslam Respublikasına maraq göstərməkdədir. Bu birinci nöqtə idi. Bu böyük hadisəni böyük memar ərsəyə gətirib. İmam haqqında çox danışmışıq. Bəziləri düşünə bilər ki, bu mövzuda bir qədər həddi aşmışıq. Amma belə deyil. İmam haqqında dediklərimizdə mübaliğə yoxdur və dediklərimiz həqiqətin bir hissəsidir. Bundan öncə bildirdiyimiz kimi böyük və əziz İmamımız məzmun və düşüncə sahibi idi. İran xalqının ixtiyarında olan və bütün dünya xalqlarının arzu etdiyi bu quruluş İmamın zəhmətidir. Biz yolu düzgün getmək üçün memarın planından xəbərdar olmalıyıq. Əgər bir binada layihə, plan əlimizdə olmasa nə qədər məharətimiz olsa da səhvə yol verə bilərik. Baş plan əldə olmalıdır ki, həmin plan əsasında, quruculuqda hünər göstərib iş görə biləsən. İmamın planı sadəcə zehnindən gələn plan deyildi, heç şübhəsiz Allahın lütflərindən idi. Böyük İmam özü bunu bilirdi, özü etiraf edirdi. Buyururdu ki, baş verən hadisə Allahın qüdrət əli ilə həyata keçir. Düz anlamışdı, bəsirətli gözü düzgün görmüşdü. Biz ehtiyatlı olaq. Həmin planı tanıyaq və o plan əsasında yolumuzu davam etdirək. Əlimizdə plan olmasa yoldan kənarlaşacağıq və bu kənarlaşma bucağı hər gün böyüyəcək. Sonda əsas, doğru yoldan çıxacağıq. Doğru yoldan çıxanda məqsədlərdən uzaqlaşacağıq. Məqsədə çatmaq üçün yolu itirməməyimiz lazımdır. Yolu itirməmək üçün isə plan gözlərimiz qarşısında olmalıdır, onu bilməliyik. İmamın planı, əsas işi İslam düşüncəsi əsasında bir quruluş yaratmaq idi. Bu iş üçün müqəddimə lazım idi. Şahlıq quruluşu həm azğın, həm asılı, həm də diktator bir quruluş idi. Şahlıq rejimində bu üç xüsusiyyət vardı. Əxlaq və iqtisad da daxil olmaqla müxtəlif sahələrdə çoxsaylı fəsadlar yaranmışdı. Dünya zorlularından asılılıq, bir gün Britaniya, bir gün ABŞ-a mənafeləri qurban vermək adiləşmişdi. Bu mövzuların hər biri bir kitabdır. İmamın öz böyük işində müqəddiməsi bu asılı, azğın, diktator rejimi süquta uğratmaq idi. Bütün gücünü topladı və şahlıq rejimi səhnədən çıxdı. Məqsəd bu deyildi ki, şahlıq rejimi getsin, ona oxşar bir rejim gəlsin. Şahlıq rejimində olan xüsusiyyətlər aradan qaldırılmalı idi. İmamın söhbətləri, göstərişləri, rəftarları bu istiqamətə yönəlmişdi.

Belə bir mədəniyyət və siyasət üzərində qurulmuş dövlətdə iki zəruri nöqtə bir-biri ilə sıx bağlıdır. Bu iki nöqtə bir həqiqətin iki üzüdür. Biri məmləkətin işini demokratiya və seçkilər yolu ilə xalqa tapşırmaq, digəri fəaliyyətlərdə İslam şəriəti ölçülərini gözləmək. Bu iki nöqtə bir həqiqətin iki üzüdür.

Kimsə güman etməsin ki, böyük İmam seçkiləri qərb mədəniyyətindən götürmüşdü. Seçkini qərbdən götürüb İslam təfəkkürü, şəriətlə qarışdırmaq ehtimalı düzgün deyil. Əgər seçki, demokratiya, xalqın səsi dindən, şəriətdə yer almasaydı İmam bu işi görməzdi. İmam açıq və qətiyyətli insan idi, sözünü deyirdi. Deməк, sadalananlar dindəndir və buna görə şəriət çərçivəsi təyin olunub. Qanunvericilər, icraçılar, işə təyin edənlər İslam şəriəti meyarlarına riayət etməlidir. Bu quruluşda iş xalqın rəyi ilə həyata keçir. Xalq parlamentə öz nümayəndəsini seçir, prezidenti təyin edir, nazirlərə, rəsmilərə rəy verir, rəhbər də seçki ilə təyin olunur. İş xalqın əlindədir. Böyük İmamın hərəkatının əsası budur. İmamın qaldırdığı əzəmətli bina bu iki sütun üzərində qurulub. İslam şəriətinə diqqət İslam quruluşunun ruhu, mahiyyətidir. Buna diqqətli olaq. Əgər cəmiyyətdə İslam şəriətinə əməl olunsa həm ümumi azadlıqlar, həm vətəndaşlıq hüquqları təmin edilər. Adı istiqlal olan milli azadlıqlar da bu qəbildəndir. İstiqlal deyəndə bir millətin kimdənsə asılı olmaması nəzərdə tutulur. O millət azaddır ki, heç bir halda düşmən və biganələrin əsarəti altına düşmür, cəmiyyətdə ədaləti qoruyur, mənəvi dəyərləri hifz edir. Azadlıq, istiqlal, ədalət və mənəviyyat dörd əsas prinsipdir. Cəmiyyətə İslam şəriəti hakim olanda bu prinsiplər özünü göstərir. Dini demokratiya şəriətdə nəzərdə tutulmuş vasitələrdəndir.

İmamın məktəbində saxtakarlıq və zorakılığa əsaslanan heç bir iqtidar və qələbə məqbul deyil. İslam quruluşunda zor məna kəsb etmir, qüdrət mənalıdır. Amma elə bir qüdrət ki xlaqın istək və iradəsindən qaynaqlansın. Elə bir iqtidar ki, xeyir və məsləhətə işləsin. İslam şəriəti və İmamın məktəbində gücə əsaslanan iqtidarın yeri yoxdur. Yalnız xalqın rəyi əsasında əldə olunan qüdrət möhtərəmdir. Bu qüdrət qarşısında kimsə sinəsini sipər edə bilməz. Onun qarşısında kimsə dayanmamalıdır. Əgər biri belə etsə işinin adı fitnədir. Bizim böyük İmamın dünyaya təklif etdiyi yeni nüsxə budur. İmam bunu dünyanın siyasi ədəbiyyatına mühüm fəsil olaraq əlavə etdi. Bu yeni nüsxədə əsas elementlərdən biri qeyd etdiyimiz kimi məzlumun köməyinə tələsmək, zalımın qarşısında dayanmaqdır. Bizim dövrümüzdə məzlumiyyətin kamil nümunəsi Fələstin xalqının məzlumiyyəti idi. Gördüyünüz kimi böyük İmam ilk gündən ömrünün sonunadək Fələstin mövzusu üzərində dayandı, Fələstini himayə etdi. Vəsiyyət etdi ki, İran xalqı və məsullar Fələstini unutmasın. Məzluma yardım və zalımın qarşısında dayanmaq, zalımın maneələrini aradan qaldırmaq, onun yaratdığı qorxunu aradan götürmək. Bu da bizim nizam və yeni nüsxənin bir hissəsidir. Şahlıq rejiminin süqutundan sonra bünövrəsi İmam tərəfindən qoyulmuş siyasi quruluşumuzun qısa təqdimatı belədir. Bu quruluş xalq tərəfindən yekdilliklə qəbul olundu, həyata keçdi. Bu nüsxə kitablarda yatmış siyasi sözlərdən olmadı. Səhnəyə gəldi, həyata keçdi, özünü göstərdi. İran xalqı da öz növbəsində çalışdı, sədaqət göstərdi, fədakarlıq etdi. Bu quruluşu qorudular, günbəgün gücləndirib bu günə çatdırdılar.

Demək, İmam müvəffəq oldu, uğur qazandı. İmam öz istəyini Allahın tövfiqi ilə həyata keçirdi. Sual olunur ki, bu böyük iş davam edəcəkmi? İctimai və tarixi cədvəllərdə təbii ki boş xanalar var. Bizim cədvəldəki boş xanalar doldurulacaqmı? Bu mən və sizin təlaşımızdan asılıdır. Hansı həddə agah olacağıq? O aydın yolu necə gedəcəyik? Bəli, tam mümkündür. Bu millətlə, bu təcrübə ilə, 35 il, İmamın vəfatından ötən 25 ildəki hərəkatla yolun davamı mümkündür. Boş xanalar dolacaq, böyük işlər görüləcək, bu millət Allahın izni və yardımı ilə zirvələr fəth edəcək.

Amma bu yolun da böyük hədəflərə aparan başqa yollar kimi maneələri var. Bu maneələri tanımaq lazımdır ki, onları aşa bilək. Əgər maneəni tanımasaq onu ötüb-keçmək də çətin olacaq. Bəzən bu iş

qeyri-mümkün olur. Mən bu gün həmin nöqtələri bu böyük cəmiyyətə, əslində İran xalqına xatırladıram. Amma gənclərimiz, alimlərimiz, mütəfəkkirlərimiz bu məsələnin hər başlıq və maddəsi üzərində işləməli, mütaliə etməlidir. İş təkcə zehni iş deyil. Əməli fəaliyyətlərə ehtiyac var. Bizim burada dediklərimiz gənclərimizin araşdıracağı işdə fəsil başlıqlarıdır. Gənclər bizdən daha hazırlıqlıdır və bu işi irəli aparacaqlar.

Mən iki maneədən danışıram. Biri xaric, biri daxillə bağlıdır. Xarici problemimiz dünya imperializminin təzyiqləridir. Çəkinmədən danışaq, Amerikanın yaratdığı maneələr, yola daş dığırlatması! Bəzi siyasi şərhçilərin qeyd etdiyi kimi bu böyük hərəkat qarşısında dayanmaq olmaz. Bu belə ola bilər. Amma maneə yaradırlar. Onların planlarını bilmək lazımdır. Bu planlar ifşa olub. Onlar öz danışıqlarında, bəyanatlarında, şərhlərində planlarını ifşa ediblər. Amerika dünya ölkələri, cərəyanları, insanları üç qrupa bölür. Bir qrup əmrə tabedir. Əmr gözləyən ölkələr, siyasi və ictimai cərəyanlar var. Başqa qrup dövlətlər əmrə tabe olmur, amma onlarla keçinmək lazımdır. Amerikanın nəzərincə, bəzi ölkələr, cərəyanlar və şəxsiyyətlər belədir. Onlarla yola getmək, müştərək mənafelər tapmaq lazımdır. Üçüncü qrupa Amerikaya tabe olmayan, ona bac verməyən, itaət etməyənlar daxildir. ABŞ-ın nəzərincə ölkələr, cərəyanlar və tanınmış şəxsiyyətlər bu üç qrupdan birinə daxildir. Ya tabe olublar, ya müstəqildirlər, ya da itaətsizlik göstərirlər. Üçüncü qrupla xüsusi rəftar etməyi nəzərdə tuturlar.

ABŞ-ın siyasi kursu budur ki, birinci qrup tam himayə edilsin. Əlbəttə ki, bu himayə müftə deyil, onun qiyməti var. Himayə edir, əvəzində olanını əlindən alırlar. Onların gücündən faydalanır, imkanlarından öz mənafeləri yolunda istifadə edir, onlara süvar olurlar. Onların var-yoxuna sahib durur, özlərinə də əhəmiyyət vermirlər. Himayə etdikləri tərəf dünya masştabında çirkin iş görsə onu ittiham etməz, əksinə müdafiəsində dayanarlar. Məsələn, istibdadla idarə olunan mürtəce rejimlər var, Amerika ilə müttəfiqlik edir, onun xidmətində dayanırlar. Onlar birinci qrupa daxildir. ABŞ heç vaxt deməz ki, bu ölkələr diktator ölkəsidir. Deyərlərlər ki, bu ölkələr patriarxal (kişilərin hakim olduğu) ölkədir. Bu ölkələrdəki diktaturanı ört-basdır edərlər. Siyasi sistemdə patriarxallıq hansı mənanı kəsb edir. Bir ölkədə nə parlament var, nə seçki keçirilir, nə söz danışmaq olur, nə yazmaq mümkündür. Hakimin istək və iradəsinə qarşı istənilən etiraz amansızlıqla yatırılır. Belə ölkəyə patriarxal deyirlər?!

Səddam Hüseyn həyatının bir hissəsini ABŞ-a itaətdə keçirdi. Onu himayə etdilər, ona kimyəvi silah verdilər, bizim hərbi dislokasiyalarımızın peykdən götürülən xəritələrini ona ötürürdülər. Ona müharibə planı hazırladılar. Çünki onların xidmətində durmuşdu, İslam Respublikasına qarşı idi. İslam Respublikası isə üçüncü qrupa daxildir.

Qeyd etdik ki, ikinci qrupa daxil olan ölkələrlə keçinmək yola getmək siyasəti seçilib. Müştərək mənafelər tapır, bir müddət yola gedir, fürsət yaranan kimi arxadan zərbə endirir, ürəklərini parçalayırlar. Belə ölkələr hansılardır? Avropa ölkələri bu qrupa daxildir. Bu gün Avropa ölkələri bu durumdadır. Amerika onlarla keçinir. Onların mənafeyi ABŞ üçün mühüm deyil. İmkanı olanda zərbə vurur. Müttəfiq adlandırdığı ölkənin birinci şəxsi barədə casusluq edir, onun telefon danışıqlarını dinləyir, xüsusi həyatını izləyir. Bu işlərdən çəkinmirlər. Üstü açılanda deyirlər ki, bağışlayın, məcburiyyətdən belə iş görülüb. Qaydasınca üzr də istəməzlər. Siyasi mənzərə ilə bağlı fikrim budur ki, avropalılar Amerikaya xidmətlə böyük strateji səhvə yol veriblər. Onlar Amerikanın mənafelərini nəzərə alır, ABŞ isə onların mənafelərinə biganədir. Sona qədər belə olacaq. Bu ölkələr ikinci qrupdandır.

Üçüncü qrup ölkələr Amerikaya tabe olmayan ölkələrdir. Bu ölkələrə münasibətdə siyasət hər vasitə ilə onların əleyhinə addım atmaqdır. ABŞ itaətsizlik göstərənlərə qarşı fəaliyyətlərində heç bir ölçü tanımır. Əgər görsəniz ki, bir ölkə Amerikaya itaət etmir və Amerika bu ölkəyə hərbi təcavüz və sanksiya fikrində

deyil, bilin ki, bir müəmma var. Sadə dillə desək, bir iş görməkdə acizdir. Əgər bacarsa, hökmən addım atar. İtaətsiz sayılan ölkələrin yeganə günahı budur ki, ABŞ-a təslim olmurlar, ona bac vermirlər, milli mənafedən vaz keçmirlər. Belə ölkələri itaətsiz ölkə sayırlar. ABŞ bu ölkələri dizə çökürmək üçün heç nədən çəkinmir. Əlindən gələni edir. Əgər bir iş görə bilmirsə, demək bacarmır.

Bəs Amerikanın gördüyü işlər hansı işlərdir? Bu gün ABŞ hərbi müdaxiləni prioritet saymır. Anlayıblar ki, təcavüz etdikləri İraq və Əfqanıstanda zərər çəkiblər. Başa düşüblər ki, hərbi müdaxilə həmin ölkə üçün təhlükəli olduğu kimi bəzən daha artıq həddə özləri üçün təhlükə yaradır. Bunu düz başa düşüblər. Bu əsasla hərbi müdaxilə fikrindən daşınıblar. Başqa yollar var. Yollardan biri budur ki, həmin ölkələrdə daxili ünsürlər vasitəsilə məqsədlərinə çatsınlar. Söhbət təkcə İran İslam Respublikasından getmir. Onlar dünyanın hər yerində bu işi görürlər. Nümunələrini görürük. Bəzən çevrilişə əl atırlar. Onlara təslim olmayan siyasi quruluşu çevriliş vasitəsilə səhnədən çıxarırlar. Seçdikləri yollardan biri budur. Bir yol da xalqı meydanlara çıxarıb rəngli inqilablar yaratmaqdır. Regionda son illərdə belə inqilablar həyata keçiriblər. İş başına gələn dövlətə xalqın 60 faizi səs veribsə 40 faizi səs verməyə bilər. ABŞ həmin 40 faizin sorağınca gedir, onların arasından müxalif liderlər seçir, pulla, qorxutmaqla həmin 40 faizi küçələrə çıxarmağa vadar edir. Rəngli, narıncı inqilablar harada baş veribsə pərdə arxasında Amerikanın əli var. Biz bu günlərdə Avropada baş verən hadisələr barədə mühakimə yürütmək istəmirik. Amma görürük ki, bir Amerika senatoru, amerikalı rəsmi bir azlığın bir dövlətə qarşı aksiyalarında necə rol oynayır. İşlərindən biri budur ki, bir qrup insanı küçələrə çıxarsınlar, onların müxalif olduqları dövləti hakimiyyətdən uzaqlaşdırsınlar. Bir işləri də terrorçu qrupları fəallaşdırmaq, meydana çəkməkdir. Bu işi İraqda, Əfqanıstanda gördülər. Bəzi ərəb ölkələrində, elə bizim ölkədə də buna çalışıblar. Tanınmış şəxslərin terroru üçün qruplar yaradırlar. Ölkəmizdə alimləri, nüvə mütəxəssilərini şəhadətə çatdırdılar. Bundan qabaq da siyasi, elmi, dini şəxsiyyətlərimizi terror ediblər. Terrorçu qruplar Amerikanın qucağında böyüyür. Bəziləri öz xidmətlərinə görə ABŞ tərəfindən qəbul edilir. Bu gün münafiqlər qruplaşması Amerikanın qucağındadır. Müxtəlif yığıncaqlarda, ABŞ konqresinin komissiyalarında iştirak edirlər. Həmin münafiqlər ölkəmizdə insanları qətlə yetiriblər, şəxsiyyətləri, alimləri, siyasətçiləri terror ediblər, partlayışlar törədiblər. Bu gün Amerikadadırlar. Bu da bir yoldur. Başqa bir yol hakimiyyət daxilində qarşıdurma yaradılmasıdır. Onlara tabe olmayan dövlətlərdə parçalanma yaratmağa, ikihakimiyyətliliyə çalışırlar. Çox vaxt müvəffəq olmasalar da təəssüf ki bəzən istəklərinə çatırlar. Seçdikləri yollardan biri də budur ki, təbliğatla ictimai fikri dəyişsinlər, xalqı etiqadından döndərsinlər. ABŞ bizim əziz İrana münasibətdə bütün bu yollara əl atıb. Allahın lütfü ilə bütün işlərində məğlub olub. Hərbi çevriliş, fitnəkarların himayəsi, təxribat yaratmaq, seçkilərə qarşı etiraz aksiyası keçirmək, hakimiyyəti parçalamaq kimi istəkləri həmd olsun Allaha ki uğursuzluğa düçar olub. Nə üçün? Çünki millət oyaqdır, mömindir. İndi ikinci problem kimi qeyd etdiyim daxili problem üzərinə gəlirəm.

Əziz qardaşlar və bacılar! Millətimiz üçün daxili problem budur ki, böyük İmamın (r) inqilab ruhiyyəsi, bu istiqaməti kənara qoyaq, yaddan çıxaraq. Ən böyük təhlükə budur. Dost-düşməni tanımamağımız, iki cəbhəni bir birinə qatmağımız, kimin dost, kimin düşmən olduğunu anlamamağımız, əsl düşməni əlaltıdan seçə bilməməyimiz ciddi təhlükədir. Əziz qardaşlar və bacılar! Bütün xalq diqqətli olsun ki, bəzən sizinlə düşmənçilik edən əsas düşmən deyil, kiməsə tabedir. Əsl düşməni tapın. Əgər insan əsl düşməni tapmayıb onun əlaltısı ilə baş-başa gəlsə həm gücünü itirər, həm arzu olunan nəticəyə çatmaz.

Bu gün İslam dünyasının müxtəlif nöqtələrində təkfirçi, vəhhabi, sələfi adı altında qruplar İran əleyhinə, şiəlik əleyhinə fəaliyyət göstərirlər. Çirkin işlər görürlər. Amma onlar əsas düşmən deyil. Bunu hamı bilsin. Onlar düşmənçilik edir, ağılsızlıq göstərirlər. Amma əsas düşmən onları qızışdıran, onlara pul verən, ruhdan düşəndə müxtəlif vasitələrlə həvəsləndirənlərdir. Əsas düşmən parçalanma yaradan,

düşmənçilik toxumu səpən, nadan qruplarla məzlum İran xalqı arasında ixtilaf yaradanlardır. Bunlar düşmənin kəşfiyyat orqanlarının gizli əlləridir. Dəfələrlə demişik ki, sələfi, təkfirçi adı ilə İran İslam Respublikasına qarşı vuruşanları əsas düşmən saymırıq. Biz sizi (cahil düşmənləri) aldanmış hesab edirik. Sizə sözümüz budur: "Sən məni öldürməkdən ötrü mənə əl qaldırsan da, mən səni öldürmək üçün sənə əl qaldıran deyiləm. Mən aləmlərin Rəbbi olan Allahdan qorxuram." (Maidə, 28). Əgər sən müsəlman qardaşına qarşı intihar kəməri bağlayırsansa biz sən nadana qarşı bu işi görmürük. Əlbəttə ki, özümüzü müdafiə edirik. Kim bizə hücum etsə möhkəm yumruqla üzləşəcək. Bu təbiidir. Amma onları əsl düşmən yox, aldanmışlardan hesab edirik. Əsl düşmən pərdə arxasındadır. Bu əllər o qədər də gizli qalmayıb, kəşfiyyat orqanlarının köynəyindən çıxır və müsəlmanların yaxasına uzanır, onları bir-birinin üstünə salır. Bizim daxili problemimiz bunlardır. Daxili ixtilaflara məşğulluq, haşiyə ixtilaflar başımızı qatır, bir-birimizə qarşı çıxırıq, əsas problemlərdən diqqətimiz yayınır. Qeyd etdiyimiz həmin problemin bir nümunəsidir. Milli birliyi əldən çıxarmaq daxili problemlərimizdəndir. Tənbəllik, ruhiyyəsizlik, ümidsizlik, bacarıqsız olduğumuzu düşünmək bu qəbildəndir. Xeyr, belə deyil! İmam buyurduğu kimi, biz bacararıq. Bunun üçün əzmkar olmalıyıq. Milli iradə və cihadla müdiriyyət bütün düyünləri aça bilər. Bunlar bizim daxili problemlərimizdir, onları aradan qaldırmağa çalışmalıyıq. Qeyd etdiyim kimi, əziz gənclərimiz, alimlərimiz, istedadlarımız bu məsələləri araşdırmalıdır. Deyilənlər fəsil başlıqları idi. Böyük İmamın (r) adı və xatirəsi, o memarın planı bizə bu işdə yardımçı olar, ümid verər, ruhiyyəmizi yüksəldər. Bu günə qədər belə olub, Allahın tövfiqi ilə gələcəkdə də belə olacaq.

Pərvərdigara! Bu əziz millətə öz bərəkətini nazil et. Pərvərdigara! Əziz gənclərimizə İslam quruluşunun amallarına çatmaqda yardımçı ol. Pərvərdigara! Bizi büdrəmələrdən və çaşqınlıqlardan hifz et. Pərvədigara! İran xalqının qollarını düşmənin qollarından güclü qərar ver. Onları düşmənə qalib et. İmam Zamanın (əc) müqəddəs qəlbini bizə münasibətdə mehriban buyur. Bizi onun dualarından bəhrələndir. Böyük İmam və əziz şəhidlərin ruhunu Peyğəmbərlə məhşur et.

Vəssəlamu əleykum və rəhmətullahi və bərəkatuh

Iyun, 2014

## Ayətullah Xameneinin BMT-də tarixi çıxışı

### Böyük güclər və dövlətlərə deyilməlidir: Evinizdə oturun, dünyanı dünya xalqlarına tapşırın!

Ayətullah Xameneinin ikinci dövr prezidentliyinin yaddan qalan fəsillərindən biri onun Nyu-Yorka səfəri olub. Şəmsi 1366-cı ilin (27 il öncə) şəhrivər ayının sonlarında Ayətullah Xamenei BMT-nin 42-ci sessiyasında iştirak edib.

Ayətullah Xamenei BMT-nin toplantısındakı çıxışının bir hissəsini dünyanın azad ölkələrinə müraciətə həsr edib. İran İslam Cümhuriyyətinin bu müraciətində dünyanın ABŞ və Britaniya kimi imperialist ölkələri cəsarətlə ifşa olunub.

Ayətullah Xamenei buyurub:

Bizim müstəqil, dünya imperializminin istəklərinə etinasız millətlər və dövlətlərə sözümüz budur ki, həmin güclərdən qorxmasınlar və öz millətlərinə etimad göstərsinlər.

Bizim inqilabımız dünyanın istismarçı sisteminin rədd olunmasını özü üçün hələ də böyük missiya sayır... Bu gün dünya praktiki olaraq dünyanın böyük və istismarçı gücləri arasında bölüşdürülüb, onlar özlərini dünyanın sahibi sayırlar.

Başqa sözlə, dünya istismarçı və istismar edilən olmaqla iki hissəyə bölünüb. Birinci hissə özünü ikinci hissənin taleyinə sahib sayır. İmperialist sistem bu iki hissə arasında qeyri-bərabər rabitədən ibarətdir.

Müstəbid güclər öz istəkləri ilə inqilabları inkar edir, inqilabçı rejimlərə problem yaradırlar. Nikaraqua, cənubi Afrikanın inqilabçı ölkələri canlı misallardır.

İmperialist güclər millətlərin iradəsinin əksinə olaraq onların əvəzində qərar çıxarırlar. Məzlum Fələstin kamil nümunədir. Başqa bir nümunə Əfqanıstanı göstərə bilərik.

İmperializm dəyərlərlə, məfhumlarla oynayır, onları öz mənafeyinə uyğun dəyişir, məqsədə çatmaq üçün bütün imkanlarını işə salır. Terrorizm və insan haqları alətə çevrilmiş məfhumlardandır.

İmperializm onu qəzəbləndirən ölkələrə birbaşa təcavüz edir. ABŞ-ın Liviya və Qranadaya hücumu nümunə göstərilə bilər.

İmperializm bütün dünya, bütün xalqların əvəzində qərar çıxarır. Bunun yaxın keçmişdəki nümunəsi Herosimadır. ABŞ prezidenti bu gün də öz sələflərinin dəhşətli addımı ilə öyünür. Dəlilləri budur ki, əgər biz neçə min nəfəri öldürməsəydik, dünyada bundan da artıq insan qətlə yetirilə bilərdi!! Beləcə ABŞ bu işini dünyaya canıyananlıq adı ilə onun başına qaxınc edir.

Dünya imperializmi İsrail və CAR kimi faşist və irqçi rejimləri himayə edir, onları silahlı və qana batmış əlləri ilə məzlum xalqların üstünə göndərir. Livan müsəlmanları sionistlərin təcavüzkar cinayətləri qarşısında səbr və dözümlə dayanıb. Cənubi Afrikanın ön xətdə dayanan ölkələri başqa bir nümunə ola bilər.

İmperializm sistemi özünə haqq verir ki, beynəlxalq təşkilatlara təzyiq göstərsin. ABŞ-ın hazırda təhlükəsizlik şurası və UNESCO-ya təzyiqləri bir nümunədir. İmperializm müstəmləkəçilərin mənafeyini mütləq sayır və başqalarının mənafelərini ayaq altına alır. Fars körfəzində ABŞ hərbi gəmilərinin üzməsi böyük təhlükə yaradan hadisədir. Onlar məntəqə ölkələrinin mənafeyini nəzərə almadan ABŞ-ın mənafeləri yolunda bu addımı atıblar... İmperialist sistem dünya miqyasında təbliğatı ələ alıb, bu təbliğat

sayəsində həqiqətləri tərsinə göstərir, təxribatları bəşəriyyətə xidmət kimi təqdim edir, dünyada özünə qarşı ictimai fikirə yolları bağlayır.

Bizim üçüncü dünya ölkələrinə, onların xalqlarına, eləcə də dövlətləri imperializmə işləyən xalqa sözümüz budur ki, dünya hazırkı vəziyyətə bundan artıq dözməməlidir. Böyük güclər və dövlətlərə hamı tərəfindən deyilməlidir: Evinizdə oturun, dünyanı dünya xalqlarına tapşırın! Siz onların qəyyumu deyilsiniz!

BMT-də iki yolverilməz ayrıseçkilik var. Biri veto hüququdur, digəri Təhlükəsizlik Şurasına daimi üzvlük hüququ. Bu iki ayrıseçkilik aradan qaldırılmalıdır. BMT və TŞ-ni xalqların qəlbən bağlanacağı, problemlərin həll ediləcəyi mərkəzə çevirəcək yol yalnız budur. Əks təqdirdə TŞ bugünki kimi etibarsız və həyata keçməyən hökmlərin çıxarıldığı yer kimi qalacaq. Bu gün olduğu kimi millətlər düşünəcək ki, beynəlxalq problemlərin həlli üçün yer yoxdur, irəli gemək üçün yeganə yol gücdür.

Üçüncü dünya ölkələrinə sözümüz budur ki, nəqədər ki, imperializm və bugünki durum yerindədir, öz aralarında birliyə çalışsınlar. Güclənmək üçün ən üstün yol budur. Dünya imperializmi gücdən başqa heç nə anlamır və onların güc dilinə güc dilində cavab verilməlidir.

Millətlərin oyanışı, onların dünya imperializminin mahiyyət və rolunu bilməsi üçüncü dünya ölkələrinin ən böyük dayağıdır, imperializm qarşısında iqtidar səbəbidir. Bu dövlətlərin rəhbərlərinin öz millətlərinin qolundan güclü, fikrindən işıqlı bir şeyi yoxdur.

Biz üçüncü dünya ölkələrinə elə bir ittifaq təklif edirik ki, bu ittifaq böyük güclərlə savaş üçündür. Özünü müdafiə etmək, hüquqların pozulmasının qarşısını almaq üçün bu ittifaq lazımdır. İnperializm fəsadə don geyindirən, onu dünyaya yayan ən böyük amildir... Əxlaqi fəsad, cinsi fəsad, etiqadi fəsad... Bütün bu fəsadlar öz əsas dayağını və yayıcısını imperialist güclərin siyasi, iqtisadi və kəşfiyyat maraqlarında tapır... Elə bir vəziyyət yaranıb ki, qaranlıq və acı dünyada böyük dövlətlərin öz xalqları da hədəfə çevrilib. Əxlaqi dəyərlər məhv olub, ailə institutu zəifləyib, narkotikaya aludəçilik genişlənib, mənəvi cazibə və əxlaq zəifləyib.

Biz öz ölkələrimizdə fəsadla ciddi mübarizəyə başlamalıyıq. Ailə institutunu möhkəmləndirməli, ilk və əsas tərbiyə ocağını məhəbbət, səmimiyyət, mənəviyyat ocağına çevirməliyik. Qadın hüquqları və qadın üçün nəzərdə tutulmuş dəyərlər hifz olunmalıdır. İmperializmin uydurma meyarları təftiş olunmalı, Qərbin qadını ləzzət vasitəsinə çevirən istismarçı mədəniyyəti səhnədən çıxarılmalıdır. Qadın alimdir, siyasətçidir, müdirdir, şəxsiyyətdir, hər şeydən öncə bir həyat yoldaşı və anadır! Onun ləzzət və əyləncə vasitəsi olmasına yox deyirik! Bəşəriyyətin yarısına həqiqi şəxsiyyətini qaytaracaq, ailəni möhkəm və müqəddəs ocağa çevirəcək baxış budur.

Bütün bunlar bizim inqilabın şüarlarıdır. Bu mesajlar qulağından pərdəni götürən və ədalətli mühakiməyə üz tuta bilən bütün insanlara ünvanlanıb... Vəssəlam

Bu çıxışın BMT toplantısında yaratdığı fəzanı təsəvür etmək çətin deyil. Ayətullah Xameneinin bu cəsarətli çıxışı ABŞ və sionizmə sarsıdıcı zərbə endirdi. Bu ölkələrin nümayəndələri salonu tərk etdilər və bu onların qəzəbini göstərirdi.

Ayətullah Xamenei öz xatirələrində bu çıxışla bağlı reksiyaları belə yada salır:

Bu xatirəni dəfələrlə nəql etmişəm. BMT-nin bir iclasında dünya imperializmə, super güclərə qarşı ifşaedici çıxışım ABŞ və Sovetlər Birliyini 100-dən artıq nümayəndə heyətinin qarşısında sarsıtdı. Mən onları həqiqi adları ilə məhkum etdim. Bu çıxışdan sonra çoxları görüşümə gəldi, həmfikir olduğunu bildirdi. Bir ölkənin başçısı olan inqilabi gənc (sonradan onu qətlə yetirdilər) mənimlə görüşüb dedi ki, bütün sözləriniz həqiqətdir, amma burada oturanlar sizin kimi deyil, Amerikadan qorxurlar! Sonra başını mənə yaxınlaşdırıb pıçıltı ilə dedi: “Mən də Amerikadan qorxuram!”

İmperialistlərin güc qorxusu onların bir çox problemini həll edir. Onların həqiqi gücü, silahı, siyasəti, ağılı yaratdığı qorxudan çox zəifdir. Onlar hamını qorxudublar, kimsə etiraz üçün cürət tapmır. Super güclər öz quldur vahimələri ilə ölkələrə açıq təcavüz edir, vəziyyəti öz xeyirlərinə dəyişirlər. Neçə illərdir İran xalqı və inqilabla vuruşurlar. Məqsədləri İslam nizamını məhv etməkdir. Amma bacarmayıblar.